

İSA HƏBİBBƏYLİ



DUZDAĞ MOZAİKASI

63.4(5Naz-6Nax)
H 50

İSA HƏBİBBƏYLİ



DUZDAĞ MOZAİKASI

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

“Elm və təhsil”
Bakı – 2017

İSA HƏBİBBƏYLİ. Duzdağ mozaikası. (Araşdırma, toplama və tərtib). Bakı, "Elm və təhsil", 2017, 308 səh.

Elmi redaktoru
akademik İSMAYIL HACIYEV

Məsul redaktor
AĞAHÜSEYN ŞÜKÜROV –
filologiya üzrə fəlsəfə doktoru

Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarındakı qədim duz mədənlərinə aid məqalələr və şeirlər toplanmışdır.

P.S.: *"Duzdağ odası" kitabına daxil edilmiş general-mayor Skalonun Qafqazın Baş komandanı general Qolovinə hesabatından götürülmüş "Daş baltalar" yazısını, A.U. imzalı müəllifin "Duz mədənləri" məqaləsini və "Birinci Kalbalı xanın Şıxmahmud əhalisinin Duzdağdan istifadə etməkdə istisna hüquqlarla təmin edilməsi haqqında" fərmanına dair şərhlər"ini bizə təqdim etmiş görkəmli rus yazıçısı və tarixçisi Rudolf İvanova minnətdarlığımızı bildiririk.*

ISBN 978-9952-8176-5-2

©"Elm və təhsil", 2017

DÖVLƏTÇİLİK IŞIĞINDA



Naxçıvanın çox gözəllikləri var. Birincisi, onun təbiətidir. Azərbaycanın hər yerində gözəl guşə tapmaq olar. Haraya gedirsən, Azərbaycan gözəl bir yerdir. Amma mən bu gün Naxçıvandayam və Naxçıvan haqqında danışıram. Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir. Bax, ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar, - burada yaşıllıq azdır, - bu, diyara xüsusi gözəllik verir. Ancaq bu gözəllik, yenə də deyirəm, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi insanlar da məğrurdur.

Heydər ƏLİYEV

Azərbaycan xalqının ümummilli lideri



Naxçıvanın rəmzlərindən biri də təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağdır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzu ilə deyil, həm də şəfaverici xüsusiyyətlərinə görə tanınmışdır. Hələ Nuh-Nəbi dövründən burada duz çıxarılır. Şöhrəti dünyaya səs salan İpək Yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə Duz yolu uzanırdı. Həmin ölkələrə buradan duz daşınırdı. Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər qarışında, dağında, daşında tarixin sirli, sehirli izləri gizlənmişdir. Hələ Sovet İttifaqı dövründə burada fizioterapiya xəstəxanası fəaliyyət göstərirdi. Sonralar müalicəyə gələnlərin sayı artdıqca bura genişləndirildi. 2006-cı ilin dekabrında müasir standartlar səviyyəsində "Duzdağ" Fizioterapiya Mərkəzinin tikintisinə başlanıldı. Mərkəz yeraltı və yerüstü şöbələrdən ibarətdir. Hazırda bu mərkəzə bir çox ölkələrdən xəstələr gəlir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN SƏRƏNCAMI

"Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda elmi konfransın keçirilməsi haqqında

Ölkəmiz müstəqillik qazandıqdan sonra milli dövlətçiliyimizin möhkəmlənməsi, iqtisadiyyatın dirçəlməsi sahəsində görülən işlərlə yanaşı Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin, arxeologiya və etnoqrafiyasının, milli dəyərlər sisteminin elmi dəlil və konkret faktlar əsasında araşdırılması sahəsində də əsaslı tədbirlər görülmüş, ayrı-ayrı bölgələrin, o cümlədən Naxçıvan tarixinin öyrənilməsinə başlanılmışdır.

Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Əlverişli relyefi və coğrafi mövqeyi, təbii sərvətlərin bolluğu ən qədim dövrlərdən insanların bu ərazidə məskunlaşmasına səbəb olmuş, özünəməxsus daş dövrü mədəniyyəti yaranmışdır. Bu mədəniyyət Şərur rayonundakı Qazma, Ordubad rayonundakı Kilid, Babək rayonundakı Daşqala və Culfa rayonundakı Ərməmməd kimi ilkin yaşayış məskənlərində qorunub saxlanmaqdadır.

Əldə olunan arxeoloji materiallar bir daha təsdiq edir ki, bizim eradan əvvəl 12-ci minillikdən başlayaraq indiki Naxçıvan ərazisində intensiv həyat davam etmiş, Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzinə çevrilmiş və bu ərazidə ikinci sivilizasiyanın vacib elementi olan ilkin şəhər mədəniyyəti formalaşmışdır. Zaman keçdikcə Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında sıx iqtisadi, mədəni əlaqələr olmuş, əkinçiliyin, maldarlığın, ilkin sənayenin, ticarətin və sənətkarlı-

ğın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə təkan vermiş, nəticədə 5 min il bundan əvvəl Naxçıvan şəhəri yaranmışdır.

Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən mühüm amillərdən biri də son illər aşkara çıxarılan və elmi tədqiqata cəlb olunan Naxçıvan Duzdağ mədəniyyətidir. Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 3-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə öz növbəsində şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır.

XIX əsrin 70-ci illərində Duzdağda aşkar olunan əmək alətləri, daş baltalar və çəkiclər, çapacaqlar, sonrakı dövrdə tapılan ocaq qalıqları Eneolit, Erkən Tunc və Dəmir dövrünə aid keramika məmulatları, qədim yaşayış yerləri və Duzdağla bağlı folklor nümunələri Naxçıvan Duzdağ mədəniyyətinin sistemli şəkildə və yenidən araşdırılması üçün ciddi əsas yaradır.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, ilkin yaşayış və şəhər mədəniyyətinin yaranıb inkişaf etdiyi yer kimi Naxçıvan tarixinin daha əsaslı şəkildə öyrənilməsi, tədqiq və təbliğ olunması məqsədi ilə **qərara alıram**:

1. 2012-ci ilin iyul ayında "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda elmi konfransı keçirilsin.

2. Konfransa hazırlıq, habelə Duzdağ mədəniyyəti tarixinin sistemli şəkildə araşdırılması məqsədi ilə Tədbirlər planı təsdiq edilsin.

Vasif TALIBOV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri, 20 aprel 2012-ci il

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN SƏRƏNCAMI

Naxçıvan Duz Muzeyinin yaradılması haqqında

Naxçıvanın Nuh peyğəmbərlə bağlılığı hələ qədim dövrlərdən diqqəti cəlb etmiş, yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, on altıncı əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir.

Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə verilən "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində Nuh peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxartmağı öyrətməsi qeyd olunur. Tədqiqatlar göstərir ki, bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir.

Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılmış, müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı, Eneolit və İlk Tunc dövrlərinə aid keramika məmulatları aşkar olunmuşdur. Aparılan tədqiqatların davamı olaraq "Uluslararası qaynaqlarda Naxçıvan", "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında keçirilən beynəlxalq elmi simpo-

zium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti bir daha elmi əsaslarla təsdiqini tapmış, xarici mütəxəssislərin də iştirakı ilə Naxçıvan Duzdağı haqqında elmi materiallar hazırlanmış, kitablar nəşr olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq və Naxçıvan duzunun tarixdə oynadığı mühüm rolu nəzərə alaraq, aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, elmi araşdırmalar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Duz Muzeyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Vasif TALIBOV
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri

Naxçıvan şəhəri, 12 sentyabr 2017-ci il

BİR YÜNGÜLVARI MÜQƏDDİMƏ

İsa Həbibbəyli
Azərbaycan Milli Elmlər Akademiyasının
vitse-prezidenti, akademik

DUZDAĞ: NUHDABANDAN NAXÇIVANA

Heç şübhəsiz, duz da od və su kimi geniş mənada insanlığın formalaşmasında iştirak edən əsas amillərdən biridir. Fikrimizcə, ilk insanların həyatında torpaqdan, sudan və oddan sonra duz mühüm rol oynamışdır. Odla bəşəriyyət insanı qazanmışdır. İnsanlıq oddan başlanır. Əfsanəvi Prometey od vasitəsilə insanı kəşf etmişdir. Od – insanlığın başlanğıcıdır, duz isə insan həyatının mahiyyətidir. Odla insan oğlu varlığını dərk etmiş, duzla formalaşmışdır. Duzun kəşf olunması ilə insanlıq mədəni həyat tərzinə qədəm qoymuşdur. Duzun kəşfi ibtidai insan birliklərinin oturaq mədəni həyata keçidinin inqilabıdır. Naxçıvan Duzdağı yer üzündəki ən qədim duz məskənlərindən biridir. Mənbələrdə Naxçıvan Duzdağının Nuh peyğəmbər tərəfindən aşkar edilməsi haqqında əsatirlər yaşayır. Beləliklə, əfsanəvi gəmisi ilə bəşəriyyəti dünya tufanından xilas etmiş Nuh peyğəmbər Naxçıvan Duzdağını kəşf etməklə ilkin insan cəmiyyətinin yaradılmasının əsasını qoymuşdur. Nuh peyğəmbər Duz ixtirasının Prometeyidir. Nuh peyğəmbər dünyada duz düşüncəsinin atasıdır. Duzlaqların, duzun kəşfi mühüm sivilizasiya hadisəsidir. Mətbəx, xörək, çörək, yaradıcı əmək... duzla formalaşmışdır. İnsan duzun sorağı ilə özünün axtarış düşüncəsinin dərinliyini və məqsədyönlü zəhmət istedadını isbat etmişdir. Duz uğrunda mübarizə insanlıq, mədəni həyat

tərzi, cəmiyyət qurmaq üçün gedilən tarixi yoldur. Duzun kəşfi, axtarışı, üzə çıxarılması, əldə edilməsi, məişətə daxil olması, istifadəsi, bazarı, mübadiləsi ilə bağlı məsələlər əvvəlcə insanı, sonra isə bu yolla insan cəmiyyətini formalaşdırmış, oturaq həyatın bünövrəsinə çevrilmişdir. Dünyadakı Duzdağlar həm də sənayeləşmənin ilkin təməllərini təşkil edir. Duz istehsalı anlayışını əhatə edən yataqların müəyyən olunması, müasir terminologiya ilə desək kəşfiyyatı, mağaraların qazılması, duz parçalarının əldə olunması, daşınması, üyüdülməsi, alınıb-satılması, Duzdağ əmək alətlərinin – daş baltaların, pazların hazırlanması və sair bəşəriyyətin həyatında şəhər tipli inkişaf tərzinin də əsasını qoymuşdur. Buna görədir ki, dünyadakı duz mədənlərinin demək olar ki, hamısının yaxınlığında qədim şəhərlər vardır. Duzdağı, duz mağarası, duz mədəni, duz bazarı anlayışları ilkin şəhər tipli yaşayış düşüncəsinin təməl şərtlərindəndir. Naxçıvanda da ilkin şəhərsalmanın yaranmasında və inkişafında Duzdağ məsələsi mühüm rol oynamışdır. Ona görə də Naxçıvan Duzdağının tarixinin müəyyən olunması burada ilkin şəhərsalma mədəniyyətinin başlanması dövrünün dəqiqləşdirilməsi deməkdir. Fransız alimləri 2010-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin arxeoloqları ilə birlikdə Duzdağda apardıqları tədqiqatlar əsasında əldə etdikləri nəticələrə əsasən Naxçıvan duz mədənlərinin 5 min ildən çox yaşı olduğunu təsdiq etmişlər. Kənd mühitindən uzaq mədənçilik işi şəhər tipli yaşayış üçün səciyyəvidir. Naxçıvanda şəhərsalmanın tarixi ən azı Duzdağın kəşfi ilə eynidir, bəlkə bir az da qədimlərə aiddir. Çünki Duzdağ üçün əmək alətlərinin – daş baltaların, pazların, daşınma vasitələrinin hazırlanması, duzun üyüdülməsi, ticarəti mədəndə deyil, Naxçıvan şəhərində baş verməli idi. Duzdağda əmək

alətlərinə, axtarış işlərinə, daşınmaya, duzun üyüdülməsinə, satışına, mübadiləsinə yaranan tələbat Naxçıvanda şəhərsalma, şəhərləşmə işinin inkişafına təkan vermişdir. Tarixin bütün dövrlərində Duzdağ amili Naxçıvan şəhərinin taleyində mühüm rol oynamışdır. Duzdağın kəşfi ilə regionda ilkin sənayeləşmənin də əsası qoyulmuşdur.

Müxtəlif vaxtlarda Duzdağdan tapılmış daş baltaları arxeoloq alimlər tarixin ayrı-ayrı dövrlərinə aid edirlər. Nəzərə almaq lazımdır ki, dəmirin kəşfinə qədərki bütün mərhələlərdə, hətta Tunc dövründə və sonrakı epoxalarda da Duzdağda daş baltalardan istifadə olunmuşdur. Tapılan bir və ya bir neçə daş baltanın hərəsi ayrı-ayrı tarixi dövrlərə aid ola bilər. Əgər Tunc dövründə istifadə edilən bir daş balta aşkar edilibsə, bu ümumiyyətlə daş baltaların hamısının həmin tarixə aid edilməsi fikrini ifadə etmir. Duzdağ nə vaxtdan işə başlayıbsa, daş baltalardan da həmin dövrdən istifadə olunmuşdur. Naxçıvan Duzdağının daş baltalarının ilk nümunələri daş dövrünün yadigarlarıdır. Daş baltaların forması tarixi inkişafla əlaqədar olaraq dəyişmiş və təkmilləşdirilmişdir. Hətta indi də kəndlərimizdə dübək daşından, dəstərdən, su daşından istifadə olunmaqdadır. Ona görə də elmdə daş əmək alətlərinin zamanla əlaqədar olaraq dövrləşdirilmiş təsnifatına ciddi ehtiyac vardır. Naxçıvan Duzdağından tapılmış çoxsaylı daş əmək alətləri belə bir təsnifat üçün zəngin material verə bilər.

Duzdağ ətrafında yaşayış olmuşdurmu?

Rusiya mənbələrində Naxçıvan duz mədənlərinin işçilərinin əvvəllər ətrafdakı daxmalarda yaşadıqları qeyd olunmuşdur. Lakin həmin daxmalardan ibarət yaşayış yerləri uçulub dağıdıldığından XIX əsrdə şaxtaçılar açıq mədənlərdə gecələməli olurdular. Naxçıvan Duzdağının şərq tərəfində Xor gədiyinə gedən yolun ətrafında böyük bir yaşayış yerinin

izləri indi də aşkar müşahidə olunur. Naçıvan şəhəri – Duzdağ – Xor gədiyi – Cəhri aşırımı – Payız kəndi yolunun sol tərəfində yerləşən həmin ərazidə yaşayış yerinin mövcudluğu qabarıq şəkildə nəzərə çarpır. Böyük ehtimal ki, bura duz mədəni işçilərinin ilkin yaşayış yeri olmuşdur. Duzdaxda çalışanlar burada yaşamış, duzun ilkin emalı, topdansatışı, karvanların yüklənməsi həmin yaşayış yerində təşkil olunmuşdur. Beləliklə, Naxçıvan şəhərinin ətrafında sənətkarlıq, ilkin emal və ticarət yönümlü bir mədəniyyət əmələ gəlmişdir. Duz məhsulları Naxçıvan şəhərinə Duzdağdan öküz arabaları ilə, yaxud da dəvə karvanları ilə daşınmışdır. Naxçıvan duzu mahalın əhalisini təmin etməklə bərabər, İrəvan və Yelizavetpol quberniyalarına, Qarabağa, İrana, Türkiyəyə və Gürcüstana da daşınmışdır. Beləliklə, Duzdağ amili ətraf yaşayış məntəqələrində, o cümlədən Naxçıvanda karvansaraların da təşəkkülünə təsir göstərmişdir. Naxçıvanda bazar mədəniyyətinin formalaşmasında da duz faktoru böyük rol oynamışdır. Bütün bunlar isə ilkin şəhərin formalaşması üçün əsas şərtlərdir. Duzdağ – Naxçıvanda şəhər tipli mədəniyyətin əsasında dayanan ən mühüm amillərdəndir.

Naxçıvan Duzdağını əhatə edən geniş ərazidə duz çaylarının olması da təbiətin nadir hadisəsidir. XIX əsr rus mənbələrini diqqətlə öyrəndikdən sonra bizə bəlli oldu ki, duzlaqlar özləri vulkan püskürmələri nəticəsində qədim dənizlərin və göllərin dibindəki çöküntülərin üzə çıxması vasitəsilə yarandıqları üçün duz mədənlərinin dərin qatlarında hələ də su mənbələri qalmaqda davam edir. Hətta bəzi ölkələrdə duz mədənlərindəki uçqunların bir əsas səbəbi də duz mağaralarının təkindəki həmin suların çoxalması, qabarması ilə əlaqədardır. Naxçıvanın Duzdağ çayları duz mədənlərinin dərinliklərindəki suların çıxıntılarıdır. Bu çıxıntılar Nax-

çıvan Duzdağını qabarmalar zamanı baş verə biləcək təhlükədən də xilas edir. Naxçıvandakı duz çayları qonur, bənövşəyi, qırmızıvari rəngli Duzdağ gözəlinin ağ hörüklərinə bənzəyir. Duzdağ çayları sanki duz yüklü təpələri bir-birinə bağlayan ağ sicimdir. İki istiqamətə yönəlmiş Duzdağ şəlaləsi möhtəşəm duz dağının qoşa hörükləri təsiri bağışlayır. Duzdağ çayları duz yüklü təpələrin dibi ilə uzanıb gedən ağ cığırlar kimidir. Bu cığırların ardınca təkcə mənbələri müəyyən etmək üçün yox, həm də ciddi elmi nəticələri əldə etmək üçün də getmək lazımdır. Duzdağ çayları böyük elmin və ədəbiyyatın cəlbedici mövzusu olmağa layiqdir.

Təəssüf ki, ən qədim tarixin öyrənilməsində, bütövlükdə oturaq həyatın, o cümlədən şəhərsalmanın başlanğıc dövrlərinin müəyyən edilməsində, tarixi-mədəni tərəqqi proseslərində çox mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, Naxçıvan Duzdağının hələ ki, yaranmasına və keçdiyi yolun sistemli, əhatəli və ardıcıl şəkildə araşdırılmasına uzun müddət lazımi diqqət yetirilməmişdir. Tanınmış tarixçilərdən Məhəmmədəli Hüseynovun, Vəli Əliyevin sovet dövrünə aid məqalələri Duzdağa həsr edilmiş azsaylı nadir mənbələrdir. Duzdağa arxeoloji ekspedisiyaların təşkili işinə son illərdə başlanılmış və əhəmiyyətli nəticələr əldə olunmuşdur. Azərbaycan üzrə Naxçıvan Duzdağına həsr olunmuş sanballı bir ümumiləşdirilmiş fundamental monoqrafiyanın meydanda olmaması alimlərimizi düşündürməlidir. Bütün bunlara görə ölkəmizdə qədim tarixin və mədəniyyətin müstəqillik idealları əsasında öyrənilməsinə dair müəyyənləşmiş dövlət strategiyasının işığında Naxçıvan MR Ali Məclisinin Sədrinin «Naxçıvan: ilkin şəhər və Duzdağ mədəniyyəti» mövzusunda beynəlxalq elmi konfransın keçirilməsi haqqındakı 20 aprel 2012-ci il tarixli sərəncamı müstəqillik dövründə

milli-tarixi reallıqların yenidən bərpa edilməsi və bu sahədə elmdə mövcud olan boşluğun aradan qaldırılması üçün geniş imkanlar açmışdır. Bu mənada 27-28 iyul 2012-ci il tarixlərdə Naxçıvan şəhərində "Naxçivan: ilkin şəhər və Duzdağ" mövzusunda keçirilmiş beynəlxalq simpozium təkcə Azərbaycanda yox, geniş mənada dünyada ilkin şəhərlərin formalaşması və inkişafında duzdaqların rolu və əhəmiyyəti məsələsinə həsr edilmiş birinci böyük elmi tədbir olmuşdur. Azərbaycan alimləri ilə yanaşı Amerika, Rusiya, Fransa, Türkiyə, İran alimlərinin də məruzələrlə çıxış etməsi, mövcud problemə qlobal elmi baxışların ifadə edilməsi, bir-birini tamamlayan və daha da möhkəmləndirən elmi müddəaların meydana çıxması ilə nəticələnmişdir. Aparılmış tədqiqatlar və dinlənilmiş məruzələr, səmərəli dialoq və fikir mübadiləsi ilkin şəhər mədəniyyətinin formalaşması məsələsində Duzdağ faktorunun həm Naxçıvan təcrübəsində, həm də dünya miqyasında zəruri amillərdən biri olduğunu əsaslandırmağa əsas vermişdir. "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda keçirilmiş beynəlxalq simpoziumun materialları birinci Duzdağ araşdırmaları külliyyatı kimi mühüm əhəmiyyətə malikdir.[1] Artıq Naxçıvan regionuna dair mühüm tarixi əhəmiyyətə malik olan dövlət sərəncamlarının işığında son vaxtlar Duzdağ haqqında ciddi elmi tədqiqatlar meydana çıxmışdır. "Naxçıvan tarixi" adlı 3 cildlik ciddi və sanballı nəşr (2015) meydana çıxmış və burada Duzdağ mədəniyyəti haqqında yeni araşdırmaların mühüm nəticələrini əks etdirən məlumatlar əks etdirilmişdir. Bundan başqa, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi ilə Naxçıvanda arxeoloji tədqiqatlar

[1] "Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş simpoziumun materialları), "Əcəmi" NPB, 2013, 360 səh.

aparan fransız alimləri K.Marro, R.Dessant, S.Sanzın birgə hazırlayıb Azərbaycan və ingilis dillərində çap etdirdikləri "Naxçıvan Duzdağının qədim duz mədənləri" adlı kitab Duzdağ araşdırmalarına həsr olunmuş zəngin və qiymətli elmi mənbədir. Bu müəlliflər qrupunun Naxçıvan Duzdağından əldə etdikləri maddi sübutlar Parisdə beynəlxalq səviyyədə elmi laboratoriyada analizdən keçirildikdən sonra həm Azərbaycandakı Duzdağın dünyanın ən qədim duz mədənləri olduğu müəyyən olunmuş, həm də bu duz mədəninin 5 min illik tarixə malik olduğu sübut edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında"kı 12 sentyabr 2017-ci il tarixli sərəncamı ilə Naxçıvanda Duzdağ mədəniyyətinin araşdırılması və təbliğinin yeni mərhələsi başlanır.

Naxçıvan şəhərindəki Duz Muzeyi – dünyada duzla əlaqədar yaradılmış ilk muzeylərdən biridir. Bizim bundan əvvəl hələlik yalnız Bolqarıstan Respublikasının Primorye şəhərindəki Duz muzeyi haqqında məlumatımız vardır.[1]

Naxçıvanın Duz Muzeyi – Azərbaycan tarixinin, Naxçıvan diyarının ulu keçmişinin canlı salnaməsidir.

Naxçıvan Duz Muzeyi – Azərbaycanı dünyada tanıdan nadir mədəniyyət ocaqlarından biridir.

Duz Muzeyi – Naxçıvan diyarının flora və faunasının müxtəlifliyini və zənginliyini əks etdirən təbiət sərgisidir.

EKSPO Duzdağ – dünyanın ən nadir təbiət eksponatlarını əks etdirən möhtəşəm mədəniyyət hadisəsi ola bilər.

Qədim duz mağaralarından müasir Duz Muzeyinə qədərki çoxəsrlik inkişaf yolu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın şərəfli tarixi keçmişi, müasir dövrünün reallığı və işıqlı sabahıdır.

---

[1] Болгария.История и культура, София, 2016, стр. 154-155

Dövlət müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi ilə bağlı olan ötən 21 illik tarixi epoxa ölkənin tarixinin, xalqın soykökünün yenidən və əsaslı şəkildə öyrənilməsi, milli-mənəvi özünüdərk proseslərinin dərinləşdirilməsi məsələlərini həm böyük siyasətin və həm də böyük elmin, Vətən elminin ön cəbhəsinə çəkmişdir. Fikrimizcə, əsası görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideologiyası da bu zərurətdən doğan mühüm bir siyasi-elmi təlim kimi meydana çıxmışdır. Artıq ölkənin hər yerində ayrı-ayrı yaşayış məskənlərinin, qalaların, şəhərlərin tarixinə dair yeni arxeoloji, mifoloji, etnoqrafik materiallar üzə çıxarılır, naməlum sənədlər aşkar olunur, müxtəlif fərziyyələr irəli sürülür, mühüm elmi nəticələr, yekun qənaətlər əldə edilir. Müstəqillik qazanmış digər ölkələrdə olduğu kimi, Azərbaycan miqyasında da gedən bu prosesdə vətənimizin ayrılmaz bir parçası olan Naxçıvanda muxtar dövlətin rəhbərliyi səviyyəsində illərdən bəri həyata keçirilən sistemli elmi-mədəni tədbirlər də həmin ölkəmiqyaslı hərəkatın üzvi tərkib hissəsidir.

Hələ 1996-cı ildə Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun sərəncamı ilə «Uluslararası qaynaqlarda Naxçıvan» mövzusuna həsr edilmiş beynəlxalq simpoziumla başlanan bu proses son illərdə ardıcıl olaraq «Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik» (2007), «Nuh peyğəmbər, Dünya tufanı və Naxçıvan» (2009), «Naxçıvanda ilk yaşayış yeri və ilkin şəhər» (2011) mövzularında keçirilmiş yüksək səviyyəli konfranslarla daha da dərinləşmiş və genişlənmişdir. Bütün bunların nəticəsində qısa müddətdə Naxçıvanda keçmiş Rusiya imperiyasında və sovet hakimiyyəti illərində gerçəkləşdirilməsi mümkün

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

olmayan böyük işlər həyata keçirilmişdir. Belə ki, əvvəlki dövrlərdə adları qadağan olunmuş və ya arxa plana keçirilmiş həzrəti Nuh peyğəmbərlə bağlı yer adları və mifologiya öyrənilmiş, Nuh peyğəmbərin Naxçıvan şəhərindəki türbəsinin yeri müəyyənləşdirilmiş, məzarının üzərində məqbərəsi ucaldılmışdır. Bundan başqa, Əshabi-Kəhf ziyarətgahında genişmiqyaslı bərpa işləri aparılmışdır. Xanəgah kompleksində və İmamzada pirində əsaslı yenidənqurma tədbirləri həyata keçirilmişdir. İkicildlik «Naxçıvan enisklopediyası»nın, «Naxçıvan abidələri ensiklopediyası»nın, «Naxçıvanın tarixi atlası»nın, Naxçıvan teatr salnaməsinin, Bəhruz li albomunun hazırlanaraq yüksək poliqrafik şəkildə nəşr edilməsi də milli-tarixi yaddaşa qayıdış və soykökün öyrənilməsi məsələlərində mühüm əhəmiyyətə malik hadisələrdir. Aparılan arxeoloji axtarışların, mifoloji və linqvistik tədqiqatların sayəsində Naxçıvanda ilkin şəhərsalmanın 5 minillik tarixə malik olması barədə qənaətlər formalaşmışdır.

-0 -

Son illərdə haqlı olaraq elmi surətdə əsaslandırılmış şəkildə deyildiyi kimi, Naxçıvan ərazisi həzrəti Nuh peyğəmbərin əfsanəvi səfəri və Dünya tufanı hadisəsi ilə möhkəm surətdə bağlıdır. Bəşəriyyətin babası Nuh peyğəmbərin torpağa endiyi ehtimal olunan yerlərdən biri də Türkiyə ərazisindəki Ağrı dağı və Cüdo dağı ilə yanaşı, Naxçıvan ərazisindəki Gəmiqayadır. Ümumiyyətlə, Naxçıvan ərazisindəki Nuh peyğəmbərlə əlaqədar yer adları, mifoloji motivlər bu regionun bəşər sivilizasiyasının başlanğıc dövrləri ilə bağlı olduğunu təsdiq edir. Həqiqətən də bəşəriyyətin ümumdünya daşqını kimi böyük bir fəlakətdən xilas olması və nəticədə Yer kürəsində həyatın yenidən başlanması kimi hadisələr mühüm sivilizasiya faktıdır. Nuh peyğəmbərlə səsləşən Naxçıvan mifologiyası və to-

ponimikası dünyanın qədim tarixinin böyük hadisələrinin bu torpaqda baş verdiyini düşünməyə əsas verir. Kiçik Qafqaz dağlarının ən hündür nöqtəsi olan Gəmiqayadakı Qapıcıq zirvəsindən Naxçıvan şəhərinə, Duzdağa qədər uzanan geniş ərazini əhatə edən tarixin izləri qədimliyi, ilkinliyi dövrümüzə qədər yaşadan şahidlərdir. Əvvəlki illərdə apardığımız tədqiqatlarda bildirdiyimiz kimi, Kiçik Qafqaz dağlarının ən yüksək zirvəsi olan və 3906 metr yüksəklikdə yerləşən Qapıcıq dünya boyda dənizin Gəmiqaya möhtəşəmlikdə ilk limanı funksiyasını yerinə yetirmişdir. Qapıcıq – bəşəriyyətin yeni həyatına «açılan kiçik qapı», «giriş yeri»[1] mənasını daşıyır.

Qapıcıq zirvəsinin altındakı sıldırım qayalardan çıxan Baca bulağı Qapıcıq sözünün sinonimi kimi də başa düşülə bilər. Yəni Nuh peyğəmbərin ilk dəfə ayağını torpağa qoyduğu yer qapıcıq həcmində, yaxud baca boyda imiş. Gəmiqaya ətəklərindəki Qaranquş yaylağı – Nuh peyğəmbərin suyun çəkilib-çəkilmədiyini öyrənmək üçün əfsanəvi gəmidən buraxdığı və caynağında palçıq, yaxud dəfnə yarpağı geri dönən Qaranquşun adını əbədiləşdirən toponimdir.

Gəmiqaya ərazisində olan Xəzər obası Nuh peyğəmbərin nəvələrindən birinin adının toponimdə yaşayan izidir. Ordubaddakı Nəsirvaz kəndi Nuh əfsanəsi ilə bağlı və «Bilqamıs» dastanında adı çəkilmiş Nisr dağının adını yaşadan toponimdir.

Nuh peyğəmbərin gəmisinin Gəmiqaya istiqamətində üzərkən toxunub zirvəsində iz ayırdığı Haçadağ Kiçik Qafqaz dağları silsiləsinin Naxçıvan dağlarının sərkərdəsinə bənzəyir.

Naxçıvan ərazisindəki Haçadağ, Nəhəcir, Nehrəm, Peyğəmbər ayağı, Dor aşırımı və sair kimi toponimlər də Nuh peyğəmbərin gəmisi əhvalatı ilə səsləşir.

---

[1]İsa Həbibbəyli. Naxçıvanda ilkin şəhərsalma tarixinə kompleks yanaşma. Bax: Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (beynəlxalq simpoziumun materialları). Naxçıvan, «Əcəmi», 2012, səh. 26

Naxçıvanla həmsərhəd Cənub və Qərb ərazilərdə, habelə Gəmiqayanın arxa hissəsində yerləşən Zəngəzur bölgəsində də Nuh peyğəmbərin əfsanəvi səfəri və dünya daşqını ilə əlaqədar toponimlərin mövcudluğu bu regionun tarixində Nuh peyğəmbər faktorunun əhəmiyyətli yer tutduğunu göstərir. «Ümumiyyətlə, Nuhun əfsanəvi gəmisinin yerə enməsi ehtimal edilən ərazilərdən Ağrı dağı və Cüdo dağı ətrafından heç birində Naxçıvandakı qədər Dünya tufanı hadisəsi və ya Nuh peyğəmbərlə səsləşən adlar, toponimlər, əfsanələr çox deyildir»[1].

Fikrimizcə, Gəmiqaya kompleksinə daxil olan Dünya tufanı dənizindəki yeganə gəminin qüdrətli kapitanı olan Nuh peyğəmbərin ilk olaraq oba saldığı yer Gəmiqaya ərazisində olan Nəbi yurdudur.[2]Lakin toponimin adındakı «yurd» ifadəsi bu formatda həmin yerin müvəqqəti, mövsümi yaşayış məskəni olduğunu göstərir. Bizə görə, həzrəti Nuh peyğəmbərin Qapıcıq zirvəsindən, Qaranquş yaylağından, Nəbi yurdundan başlanan məskunlaşma prosesi Nuhdaban adlı yerdə başa çatmışdır. Nəbi yurdu toponimindəki mövsümi yaşayış məskəni, hətta yaylaq mənasını bildirən «yurd» ifadəsindən fərqli olaraq, Nuhdaban yer adındakı «daban» sözü daimi, möhkəm, oturaq, dayanıqlı mənalarını bildirir. Türk dillərindəki «işi dabana oturtmaq» frazeoloji ifadəsi də hər hansı bir prosesi başa çatdırmaq; yerinə oturtmaq, bitirmək, möhkəmləndirmək kimi anlayışları özündə cəmləşdirir. Nuh peyğəmbərlə bağlı əsatirlərdə ifadə olunduğu kimi, Nuhdaban gəminin dayandığı yerlərdə deyil, oradan «bir addım irəlidə», sabit bir məkanda yerləşir. Əsatirdə deyilir ki, «Nuhun gəmisi

---

[1] İsa Həbibbəyli. Nuh peyğəmbər və dünya tufanı toplusu. Bax: «Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan» beynəlxalq simpoziumunun materialları. Naxçıvan, «Əcəmi», 2010, səh. 60

[2] İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, «Nurlan»,2007, səh. 606

Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir də gördülər ki, uca dağlar od tutub yanır.

...Nuh Nəbi dedi: - ...Yanan dağların biri Gəmiqaya, biri İlandağ, biri Ağrı dağıdır. Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı. Oğlanları həmin yerdə yurd saldılar, adına da Nuhdaban dedilər».[1]

Ümumiyyətlə, elmi ədəbiyyatlarda Naxçıvan ərazisindəki digər toponimlərlə müqayisədə Nuhdaban yer adı demək olar ki, az öyrənilmişdir. Nuhdaban yaşayış yerinin müəyyən edilməsi baxımından da əsaslı dəqiqləşdirmələr aparılmasına ehtiyac vardır. Nəhayət ki, «haradır Nuhdaban» sualına cavab verilməlidir. Hələ ki, bu barədə yalnız şifahi yaddaşlara əsasən fərqli versiyalar üstünlük təşkil edir.

Əsatirdəki məcazi mənada işlədilən «bir addım irəli» ifadəsinə istinad edənlər Nuhdabanın Gəmiqaya ərazisində olduğunu qeyd edirlər. Nuhdabanın Gəmiqayada olmasına dair məlumatlar bəzən elmi ədəbiyyata da xalq düşüncəsi əsasında daxil olmuşdur. Lakin son illərin araşdırmaları göstərdi ki, Gəmiqaya ətraflarında Nuhdaban adlı yer adı yoxdur.

Bəziləri Nəhəcir kəndinin Nuhdaban olduğunu düşünürlər. Doğrudur, Nəhəcir yer adı Nuh peyğəmbərlə bağlıdır. Ancaq bu yer Nuh peyğəmbərin hələ quruya çatmadığı, heç Haçadağdan da keçmədiyi bir məsafədədir. Nəhəcir – Nuh peyğəmbərin əcir, əzab içində quruya çıxmaq qayğıları ilə yaşadığı anların yadigarıdır. Nəhəcir – Nuhəcir ifadələri ilə Nuhdaban anlayışı tamam fərqli mənaların daşıyıcılarıdır. «Nuhəcir» sözündə son məqsədə çatmaq üçün bir tələş düşüncəsi, «Nuhdaban» toponimində isə oturuşmuş bir fikir, qayə öz əksini tapmışdır.

---

[1] Naxçıvan folkloru (tərtib edənlər Təhmasib Fərzəliyev, Məhərrəm Qasımlı). Bakı, «Sabah», 1994, səh. 70

Bundan başqa, Nuhdaban adlanan yerin Haçadağın Naxçıvan şəhərinə tərəf baxan ətrafında olduğunu deyənlər də vardır. Lakin tarixçi-etnoqraf alim Qadir Qədirzadə bu ərazidəki Nuh peyğəmbərlə bağlı olan toponimin Nuhdaban deyil, «Peyğəmbər ayağı» olduğunu elmi dəlillərlə isbat etmişdir. AMEA-nın müxbir üzvü Qadir Qədirzadə yazır: «Hazırda çox az adamın tanıdığı «Peyğəmbər ayağı» adlanan məqam bu dərənin (Culfa rayonunun Kırna kəndi yaxınlığındakı Gendərənin – İ.H.) sağ yamaclarındakı sərt qayalarda yerləşir. Xalq arasında mövcud olan rəvayətə görə, tufandan sonra sular tədricən çəkilməyə başlamış, ərazinin dağlıq hissələri sulardan qurtarsa da, nisbətən aşağı zonalarda torpaq hələ də tam qurumamışdır. Belə bir vəziyyətdə Peyğəmbər bu qaya ilə hərəkət etməli olmuşdur. Ayağını qoyduğu yerdə yerimək asanlaşsın deyə qaya yumşalmış, onun ayaq izləri orada qalmışdır. Biz dərənin sağında, qayalığın ortasından başlayaraq qərb istiqamətinə doğru 127 belə ayaq izi saya bildik. Maraqlıdır ki, ayaq izləri açıq-aşkar görünməklə indi də həmin yerlərə ayaq qoymaqla yerimək mümkündür».[1]

«Peyğəmbər ayağı» ifadəsində hələ hərəkətin bitmədiyi, davam etdiyi fikri göz önünə gəlir. Bundan başqa, Q.Qədirzadə «Peyğəmbər ayağı» adlanan yerdə daban yox, pəncə izləri olduğunu qeydə almışdır.[2] Buradan belə başa düşmək olur ki, həzrəti Nuh peyğəmbər hələ ki, oturaq məkana doğru yol üstündədir, dabanını yerə basmamışdır.

Bu qəbildən olan başqa fərziyyələr də mövcuddur. Fikrimizcə, qeyd olunanlardan heç biri Nuhdaban yaşayış yerinin əsl, real məkanını ifadə etmir. Bizə görə, Naxçıvanda ilkin

---

[1]Qadir Qədirzadə. Naxçıvan: Nuh baba və Türk Atadan gələn yol. Naxçıvan, «Əcəmi», 2011, səh. 23

[2] Yenə orada, səh. 23

şəhərin əsasını təşkil edən Nuhdaban yaşayış yerini müəyyən etmək və Nuhdabandan Nuhçıxana – Naxçıvana çoxəsrlik tarixi yolun mahiyyətini aydınlaşdırmaq üçün bir neçə əsas faktora diqqət yetirmək lazımdır.

Birincisi: «Nuhdaban» sözunun etimoloji mənasını aydınlaşdırmaq lazımdır: «Nuhdaban» adlı əsatirdən bu sözün üç mənasını çıxarmaq olar: 1.Nuh peyğəmbərin dabanı, yəni bu müqəddəs şəxsiyyətin ayağının daban hissəsi. Bu mənа «Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı, ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi» cümləsində öz əksini tapmışdır[1]. Göründüyü kimi, burada gerçək olaraq Nuh peyğəmbərin (insanın) ayağının daban hissəsini yerə basmasından söhbət gedir. 2. «Nuhdaban» adlı əsatirdə daban sözü yurd, məskən salmaq, oturaq həyata başlamaq mənasını daşıyır. Bu fikir əsatirdəki «Oğlanları həmin yerdə yurd saldılar»[2] sözlərində ifadə olunmuşdur. 3. Nuh peyğəmbərlə bağlı mifdə «daban» sözü onun şərəfinə salınmış bir şəhərin – «Nuhdaban» şəhərinin adının bir hissəsidir. Buradakı «daban» ifadəsi olmasaydı, yaranmış yeni yaşayış yeri daimi, oturaq məkan mənasını ifadə edə bilməzdi. Bunlardan başqa, «Nuhun dabanı» ifadəsi Nuhun gəmisi mənasında da işlədilmişdir. Bir mənbədə deyilir: «Nuh öz əhli-əyalı və ona tabe olanlarla qalxır təzə ayrılmış dabana... Nuhun düzəltdiyi daban qalxır suyun üzünə, dağ kimi dalğalar arasında üzür»[3].

Əslində əsatirdəki «daban» sözünün mənası ilə gəmi mənasını bildirən eyniadlı ifadənin arasında da lap dərinliklərdə müəyyən bir bağlılıq müşahidə etmək mümkündür. Nuhdabandakı «daban» sabit bir məskunlaşma fikrini ifadə edirsə, gəmi anlayışındakı «daban» da qasırğalar, tufanlar

---

[1]Naxçıvan folkloru. Bakı, «Sabah», 1994, səh. 70
[2]Yenə orada
[3]Elçin Muxtar Elxan. Nuhun dabanı. Bakı, «Nurlan», 2008, səh. 4

içərisindən keçərək oturaq bir quru yerə çatmaq düşüncəsini izləyir. Yer mənasında Nuhdaban da, gəmi anlayışını bildirən Nuhun dabanı da bələdçilik etmək, işin səmtini, istiqamətini tapmaq mətləblərini də özündə ehtiva edir. Nuh peyğəmbər dabanını yerə basmaqla salınması zəruri olan yaşayış yerinin ünvanını müəyyənləşdirmişdir. Nuhun dabanı – gəmisi də insanlar da daxil olmaqla bütün canlıları Dünya tufanından xilas etmişdir. Xilaskarlıq da, bələdçilik də, quruculuq da peyğəmbərlərə xas olan xüsusiyyətlərdir.

İkincisi: Xalqın hafizəsində əsrlər boyu yaşayaraq dövrümüzə qədər gəlib çıxan «Nuhdaban» əsatiri eyni adlı yaşayış yerinin müəyyənləşdirilməsinə bələdçilik edə bilir. Arxeologiya ilə yanaşı əsatirlər və toponimika da qədim tarixin müəyyənləşdirilməsində mühüm əhəmiyyətə malikdir. «Nuhdaban» adlı əsatirdə deyilir ki, həzrəti peyğəmbərin övladları Gəmiqaya və İlandağla Ağrı dağı arasında atalarının dabanını basdığı yerdə yurd saldılar. Əsatirdəki məntiq göstərir ki, Nuhdaban od tutub yanan Gəmiqaya, İlandağ və Ağrıdağın yaxın ətrafında ola bilməzdi. Ona görə də Gəmiqaya ərazisindəki Nuhdaban, Haçadağ yaxınlığındakı Nəhəcir və Peyğəmbər ayağı versiyaları əsatirdə deyilənlərə uyğun gəlmir. Nuhdaban Gəmiqaya və İlandağdan sonra, Ağrıdağla Haçadağ arasında oturaq bir məkan olmalıdır. Fikrimizcə, həmin yer indiki Naxçıvan şəhərinin vaxtilə ilk salındığı məkandır. Nuhdaban ilkin şəhəri Nuh peyğəmbərin məzarının, türbəsinin olduğu ərazidən başlanmışdır. Bu yeri həzrəti Nuh peyğəmbər dabanını torpağa basmaqla müəyyən etmişdir. Nuh peyğəmbərin başçılığı ilə övladları atalarının dabanını torpağa basdığı yerdə yurd salmışlar. Beləliklə, Nuh peyğəmbər Naxçıvan şəhərinin əsasını qoy-

muşdur. Mənbələrdə də bu barədə məlumatlar mövcuddur.[1] İlkin şəhər kimi Nuhdabana, Naxçıvana indiki Nuh türbəsinin ətrafı, Qədim Qurdlar, Şahab və Sarvanlar məhəllələri, Qızlar bulağı ətrafı, indiki Naxçıvan Dövlət Universitetinin əhatə etdiyi ərazilər daxil olmuşdur. Lap son illərə qədər Naxçıvan Dövlət Universiteti ilə Əliabad kəndi arasındakı ərazidə qalın müdafiə divarı mövcud idi. Çox.ehtimal ki,bu, Naxçıvan şəhərinin qal divarları idi.

Həzrəti Nuh peyğəmbər ömrünün çox hissəsini əsasını qoyduğu Nuhdabanda yaşamış, bu yerdə insan birlikləri formalaşmış, Nuhdaban inkişaf edərək şəhər tipli yaşayış məskəninə çevrilmişdir. Nuh peyğəmbər Nuhdaban şəhərində vəfat etmiş və burada torpağa tapşırılmışdır. Dünyasını dəyişdikdən sonra Peyğəmbərin şərəfinə onun saldığı, əsasını qoyduğu şəhəri Nuhçıxan adlandırmışlar. Nəslinin davamçıları və tərəfdarları Nuhdaban şəhərini Nuhçıxan adlandırmaqla ulu Peyğəmbərin xatirəsini əbədiləşdirmişlər. Nuhçıxan – Nuh peyğəmbərin Dünya tufanı fəlakətindən xilas olaraq gəlib çıxdığı, oturaq məkan kimi seçib müəyyən etdiyi, yaşayıb ömür sürdüyü yer deməkdir. Nuhçıxan – bəşəriyyətin babasının vətənidir. Peyğəmbər burada böyük bir yaşayış məskəni salmış, insanlıq buradan dünyaya yayılmışdır. Nuh peyğəmbərin Nuhdabanda üzüm bağları salması da mənbələrdə öz əksini tapmışdır.[2]

Naxçıvan sözü Nuhçıxan ifadəsindən yaranmışdır. Naxçıvan - Nuhdabandan başlanan Nuhçıxanın varisidir, davamıdır. Nuhdaban ilkin şəhər tipli yaşayış yeri, Nuhçıxan şəhərin formalaşması mərhələsidir. Naxçıvan isə artıq inkişaf etmiş şəhərdir.

---

[1]K.A.Nikitin. Naxçıvan şəhəri və Naxçıvan mahalı. «Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün materiallar» məcmuəsi, Tiflis, 1882, II buraxılış, səh. 111

[2]Yenə orada, səh. 111

Üçüncüsü: İndiyədək Naxçıvan sözünün mənşəyi və etimologiyası barədə ayrı-ayrı tarixi dövrlərdə müxtəlif fikirlər meydana çıxmışdır. Mənbələrdə Naxçıvan sözünün əsasən Naksuana, Aksuana, Nəşəva, Akçıobon, Naxçirvan, Naxcivan, Nəqşi-cahan, Nuhçıxan şəklində işlədildiyi barədə məlumatlar mövcuddur. Bu etimoloji vahidlərin hərəsi müxtəlif tarixi mərhələlərdə yaranmış və yarandığı dövrün ictimai-siyasi şəraitinin nəticəsində formalaşmışdır. Belə ki, Naksuana coğrafi adı yunanlara, Aksuana saklara, Nəşəva ərəblərə, Nəxçir ifadəsi, yaxud Naxçı tayfa bildirən sözlər parfiyalılara, Nəqşi-cahan söz birləşməsi isə farslara aid mənbələrdə özünə yer almış, zaman-zaman yayılaraq genişlənmişdir. Tədqiqatçılardan Avropa yönlü araşdırma aparanlar yunan mənbələrinə, yəni Klavdi Ptolemeyin «Coğrafi təlimlər» kitabına, şərqşünaslar isə ərəbdilli və farsdilli mənbələrə üstünlük vermişlər. Beləliklə, Naxçıvan sözünün çoxsaylı etimoloji mənaları və çoxvariantlı adları əmələ gəlmişdir. XX əsr boyu hər tədqiqatçı öz məqsədlərinə uyğun olaraq yuxarıda qeyd edilən mənbələrdən birinə üstünlük vermişdir. Belə məqamlarda Naxçıvanın yaşının qədimliyini isbat etmək istəyənlərin seçimi ilə Naxçıvan sözünün türk mənşəli olduğunu təsdiqləmək niyyətini izləyənlərin fikirləri fərqli olmuşdur. Bu yolla fikirlər haçalanmış, eyni sözün çoxsaylı variantları meydana çıxmış və yayılmışdır.

Fikrimizcə, digər bu tip məsələlərlə yanaşı, Naxçıvan sözünün etimologiyasını izah edərkən Avropa yönlü qaynaqlara, yaxud ərəb-fars mənbələrinə üstünlük verilməsi həm də keçmiş sovet hakimiyyəti zamanı milli söyköklə bağlı məsələlərin xalqın özünə məxsus qədim mənbələr əsasında öyrənilməsinin məhdudlaşdırılması ilə bağlı olmuşdur. Xalqın kimliyini, söykökünü, formalaşma proseslərini

yerli materiallar, milli qaynaqlar əsasında öyrənməyə cəhd göstərən Azərbaycanın görkəmli ziyalılarının keçən əsrdə sovet doktrinası tərəfindən gercəkləşdirilən repressiyaların acı təqiblərinə məruz qalmaları, onların həyatının faciəli sonluqları uzun zaman bu istiqamətdə düşünüb-daşınmağın qeyri-mümkünlüyünü müəyyən etmişdir. XX əsrin altmışıncı illərində Nuhun tufanı hadisəsi, Gəmiqaya qayaüstü rəsmlərinin mənşəyi ətrafında ilkin mülahizələr irəli sürən tanınmış alim Əbülfəz Hüseyninin aqibəti tədqiqatçıları Azərbaycan xalqının qədimliyini və zənginliyini aydınlaşdıran araşdırmalara ehtiyatla yanaşmağa vadar etmişdir. Nəhayət, Azərbaycan müstəqillik qazandıqdan sonra bu istiqamətdə ciddi və əhəmiyyətli tədqiqatlar meydana çıxmağa başlamışdır. Bu mənada hazırkı mərhələdə milli söyköklə, etnik formalaşma prosesləri ilə əlaqədar ərsəyə gələn, geniş ictimaiyyətə təqdim olunan tədqiqat əsərləri müstəqillik dövrü Azərbaycan elminin bəhrəsidir. Fikrimizcə, son illərdə bu kontekstdə Naxçıvan sözünün mənşəyi ilə bağlı yeni yanaşmaları ifadə edən tədqiqatların üzə çıxması da ölkəmizdə hazırkı tarixi şəraitdə digər sahələrdə olduğu kimi, elmi araşdırmalar baxımından da milli maraqların ön mövqeyə çəkilməsi ilə əlaqədardır.

Beləliklə, Naxçıvan sözünün mənşəyinin araşdırılmasında ölkənin özünəməxsus mənbələrə, yerli materiallara istinad edilməsi, üstünlük verilməsi prosesi başlanmışdır. Məsələyə bu baxımdan yanaşdıqda Naxçıvan sözünün mənşəyinin bu diyardakı toponimlərlə, əfsanə və rəvayətlərlə əlaqəli açıqlanmasının gerçəkliyi daha çox ifadə edəcəyi şəksizdir.

Müşahidələr göstərir ki, Muxtar Respublikanın ərazisində Naxçıvan sözü ilə səslənən yerli materiallar arasında Nuh tufanı hadisəsi ilə bağlı toponimlər, əfsanə və rəvayət-

lər çoxluq təşkil edir. Belə ki, regionda Nuhdaban, Nuhəcir (Nəhəcir), Nuhram (Nehrəm) kimi qədim yaşayış yerləri ilə əlaqədar toponimlərin, habelə Nəbi yurdu, Qaranquş yaylağı, Xəzər obası, Naharbaşı məscidi (Ordubad) kimi yer adlarının, Peyğəmbər ayağı pirinin çağımıza qədər yaşaması burada Nuhun tufanı hadisəsinin dərin iz qoyduğunu göstərir.

Fikrimizcə, qeyd olunan toponimlərin Naxçıvan diyarındakı məşhur Gəmiqayaya yaxın ərazilərə aid olması Nuhun tufanı hadisəsinin bu regionla bağlılığı etimalını daha da qüvvətləndirir. Bu baxımdan yanaşdıqda Nuh peyğəmbərin gəmisinin son dayanacaqlarından biri kimi etimal olunan Gəmiqayanın sağ və sol ətəklərindəki Nürgüt, Nüvədi kimi yaşayış yerlərinin adlarının da müəyyən səviyyədə Nuh hadisəsi ilə səsləşdiyini etimal etmək olar. Hətta Gəmiqayanı qabaq-qənşərindəki Cənubi Azərbaycanın Naxçıvandan çox da uzaq olmayan ərazilərində tərkibində Nuh elementi olan Nəhənd, Nehran, Nehram, Nəhqan kimi toponimlərin olması həmin ehtimalı gerçəkliyə daha da yaxınlaşdırır.[1] Özündə qədim tarixin izlərini əks etdirən bu qəbildən olan çaxsaylı toponimlər Naxçıvan diyarının dünya tufanı, Nuh hadisəsi ilə əlaqədar olduğunu açıq-aşkar diqtə edir. Bütün bunlar isə Naxçıvan sözünün Nuhçıxan, həzrəti Nuh peyğəmbərin gəmisinin gəlib çıxdığı məkan mənasını bildirməsi barədəki mülahizələrin reallığına inamı artırır. Məşhur Gəmiqaya üzərində qayıq, gəmi, tufan, qasırğa təsvirlərinin geniş yer tutması da toponimlərdə yaşayan həqiqətlərin qayaüstü rəsmlərdəki daha bir təsdiqnaməsidir.

Toponimlərlə yanaşı, Naxçıvan ərazisində Nuhun tufanı hadisəsini yaşadan əfsanə və rəvayətlər də çoxluq təşkil edir. Dünya tufanı hadisəsinin əhatə etdiyi coğrafiyada heç

---

[1] Qalibə Hacıyeva. Cənubi Azərbaycan toponimləri. Bakı, "Elm", 2008, səh.39

bir ərazidə Naxçıvandakı qədər bu hadisə ilə səsləşən çoxsaylı mifoloji motivlərin, əfsanə və rəvayətlərin, etnoqrafik materialların olması qeydə alınmamışdır. Nuh peyğəmbərin əfsanəvi gəmisinin yerə endiyi Kiçik Qafqaz dağ silsiləsinin ən uca zirvəsi sayılan Qapıçıq dağının yaxasındakı Gəmiqayadan və ətraflardakı ərazilərdən toplanmış zəngin folklor materialları da tarixin pozulmaz naxışlarıdır. Son illərdə Nuhun tufanı ilə bağlı AMEA-nın müxbir üzvü Qədir Qədirzadə, filologiya elmləri doktoru Yusif Səfərov, filologiya elmləri namizədləri Məhsəti İsmayıl və Rafiq Babayevin, habelə tarix elmləri namizədi Türkan Qədirzadənin topladıqları folklor nümunələri, etnoqrafik materiallar Naxçıvan ərazisində bu məsələ ilə səsləşən şifahi xalq ədəbiyyatı yadigarlarının zənginliyini qabarıq şəkildə nümayiş etdirir.

Hətta XIX əsrin səksəninci illərində Naxçıvanda yaşayıb-işləmiş tanınmış rus maarifçi ziyalısı K.A.Nikitinin də yerli əhali arasından topladığı materiallarda Naxçıvan şəhərinin Nuh peyğəmbər tərəfindən salınmasına dair konkret mətləblər ifadə olunmuşdur: «Nuh hazırda Naxçıvan şəhərinin olduğu yerdə məskunlaşmışdır. O, burada gələcək şəhərin əsasını qoymuş və ailəsini orada yerləşdirmişdir. Şəhərin «ilk məskunlaşma yeri», yaxud «birinci dayanacaq» mənasını bildirən adı da buradan əmələ gəlmişdir.

...Nuh və onun nəsli uzun illər Naxçıvanda yaşamışdır. Rəvayətə görə ilk insan nəsilləri buradan yayılmışdır. Nuhun özü, bacısı və ailənin bəzi digər üzvləri Naxçıvanda vəfat etmiş və orada dəfn olunmuşlar».[1]

Mənbələr əsasında həzrəti Nuh peyğəmbərin məzarının da Naxçıvan şəhərində olduğu müəyyən edilmişdir. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun xüsusi sərənca-

[1] K.A.Nikitin. Naxçıvan mahalı. Buraxılış 2, SMOMPK, Tiflis, 1882, № 2, səh. 110

mı əsasında Naxçıvan şəhərindəki Nuh türbəsi yenidən bərpa olunmuşdur. Nuh peyğəmbərin məzarı üstündə ucaldılmış düşündürücü türbə yeni svilizasiyanın Naxçıvan diyarındakı izlərinə və böyük tarixi-əfsanəvi şəxsiyyətə bəslənilən ehtiramı dolğun şəkildə ifadə edir.

Bütün bunlar onu göstərir ki, etnos mənasında Nax elə Nuh deməkdir. Bu fikrə etiraz edənlər də ola bilər. Lakin bütün insan nəsilləri kimi, Naxların da Naxçıların da Nuh peyğəmbərin törəmələrinin davamçıları olmaları məntiqi mənada qəbul edilən mülahizədir. Deməli, Naxçılar qəbiləsi elə Nuhçular tayfası mənasını bildirir. Bu isə o deməkdir ki, Nuhçıxan sözü də elə Naxçıvan sözü ilə eyni mənanı ifadə edir.

Adətən, müqəddəslik qazanmış varlıqlar, o cümlədən Nuh peyğəmbər, Dədə Qorqud həm də ad qoyan kimi tanınırlar. Tədqiqatçılar da o fikirdədirlər ki, «Nuh əfsanələrində adlar müəyyən əlamətlər nəzərə alınmaqla Nuh Nəbi tərəfindən verilib».[1] Deməli, Naxçıvan şəhərinin adının da Nuh peyğəmbər tərəfindən qoyulduğunu ehtimal etmək olar. Lakin müdrik peyğəmbər kimi Nuhun yaratdığı yerə, saldığı yaşayış mərkəzinə özünün adını qoyması yəqin ki, doğru, yaxud mümkün olmazdı. Buna görə də fikrimizcə, ya Nuh peyğəmbərin övladları, ya da dünya tufanından sonra formalaşmış insan toplusu müqəddəs peyğəmbər tərəfindən yaradılmış yaşayış məskəninə onun şərəfinə Nuhçıxan adı vermişdir. Nuhçıxan Nuhun törəmələrinin və ya ən yaxın tərəfdarlarının formalaşdırdığı yaşayış məskəni adıdır. Nuhçıxan sözü Naxçıvan adının ilkin variantı, yaxud ilk əsas variantlarından biridir.

Məna etibarilə Naxçıvan sözünün ilkin mənşəyində dayanan Nuhçıxan sözü özündə bir çox mətləbləri əhatə edir:

---

[1] Məhsəti İsmayıl. Naxçıvan əfsanələri. Bakı, "Elm" 2008, səh. 122

- Nuhçıxan - Naxçıvandır. Yəni Naxçıvan Nuh peyğəmbərin gəlib çatdığı məkandır.
- Nuhçıxan - Nuhun özünün və övladlarının məskən salıb yaşadığı yerdir.
- Nuh peyğəmbərin dünya tufanı bəlasından xilas olub, yenidən bəşəriyyətə qaytarıldığı yer Nuhçıxandır-Naxçıvandır. Yəni Nuh peyğəmbər yeni həyata buradan başlamışdır.
- Nuhçıxan - Nuh peyğəmbərin övladları vasitəsilə insan nəslinin yenidən yaranıb meydana çıxdığı və dünyaya yayıldığı yerdir.
- Nuhçıxan-Nuh tayfasından törəyənlərin ilkin beşiyidir.
- Nuhçıxan - həzrəti Nuh peyğəmbərə iman gətirib, onu tanıyan və qəbul edənlərin, onun tərəfdarlarının yaşadığı məkandır.
- Nuhçıxan-Naxçıvan bəşər sivilizasiyasının tarixi yadigarlarından biridir.

Qeyd olunanlar həm də Naxçıvan şəhərinin 5 min illik tarixə malik olduğunu göstərir.

Dördüncüsü: Nuh peyğəmbərin məzarı Nuhdabanın möhürüdür. Nuh peyğəmbərin məqbərəsinin, mavzoleyinin olduğu ərazi Nuhdabanın Baş meydanıdır. Ola bilməz ki, Nuh peyğəmbər Nuhdaban oturaq məkanında yaşayıb ömür sürsün, amma başqa bir yerdə dəfn olunsun. Tarixdə əksər peyğəmbərlər ömür sürdükləri yerdə torpağa tapşırılmışdır və həmin yerlər müqəddəs ziyarətgaha çevrilmişdir. Xalqın yaddaşında Nuh peyğəmbərin məzarının olduğu yer uzun əsrlər boyu Nuh türbəsi kimi qalmışdır. Peyğəmbərlərin dəfn olunduğu digər yerlər kimi, Nuhdaban da əzəmət, möhtəşəmlik qazanmış və ziyarətgah olaraq tanınmışdır.

Beşincisi: Orta əsrlər Azərbaycan və ərəb mənbələrində, habelə XIX əsrdən başlayaraq Rusiya qaynaqlarında Nuh peyğəmbərin məzarının Naxçıvan şəhərində olmasına dair çoxsaylı mülahizələr mövcuddur. 1882-1884-cü illərdə Naxçıvan şəhər məktəbinin müdiri vəzifəsində çalışan, böyük ədibimiz Cəlil Məmmədquluzadəyə də dərs demiş Konstantin Nikitin Nuh peyğəmbərin məzarının dəqiq təsvirini vermiş, şəxsi müşahidəsi əsasında bu yerin ziyarətgah olduğunu təsdiqləmişdir.[1]

XX əsrin otuzuncu illərinin əvvəllərində Naxçıvanda əsaslı tədqiqatlar aparan Peterburq Arxeologiya İnstitutunun məzunu, tanınmış arxeoloq-etnoqraf Konstantin Smirnov Abbasabad qalasının yaxınlığındakı Nuhun məzarını ziyarət etmiş və məzarın 4900 il əvvəl salındığı qənaətinə gəlmişdir.[2] Mənbələrdə Nuh peyğəmbərin 596 il, yaxud 650 il, hətta 950 il ömür sürdüyünə dair məlumatların olduğunu nəzərə alsaq, onda Nuhdaban yaşayış yerinin, Nuhçıxan protoşəhərinin tarixinin 5 min ildən çox olduğu qənaətini təsdiq etmiş olarıq.

Altıncısı: Konstantin Smirnov Nuh peyğəmbərin məzarının aşağısında qədim qəbiristanlığın olduğunu qeyd edir.[3] Ehtimal ki, bu, indi İmamzadənin yerləşdiyi, habelə görkəmli rəssam Bəhruz Kəngərlinin məzarının olduğu qəbiristanlıqdır. Yuxarıda Nuh peyğəmbərin məzarının yaxınlığında da qəbirlər müşahidə edilmişdir. Ətrafında qəbiristanlığın olması Nuhdabanın böyük bir oturaq məkan olduğunu isbat edən əsas faktorlardan biridir. Tanrıçılığın beşiyi olan Nuhdaban qəbiristanlığının sonralar təkallahlığa iman gətirən

---

[1]Məhsəti İsmayıl. Naxçıvan əfsanələri. Bakı, "Elm" 2008, səh. 110

[2] Konstantin Smirnov. Naxçıvan diyarının tarixinə və etnoqrafiyasına dair materiallar. Bakı, «Ozan», 1999, səh.99

[3]Yenə orada, 1999, səh. 99

müsəlmanların qəbiristanlığına çevrilməsi də biri-digərini tamamlayan hadisələrdir. Müsəlman abidəsi olan İmamzadənin Nuh türbəsinə yaxın bir yerdə tikilməsi də islamın tanrıçılarla eyni baxışda olmasından irəli gəlir.

Yeddincisi: Köhnə qala məsələsi. Mənbələrdə Köhnə qalanın mövcudluğu barədə müxtəlif fikirlər vardır. Belə ki, tarixçilər Köhnə qalanın bizim eranın yeddinci əsrində Sasani hökmdarı Yəzdəgürd tərəfindən tikildiyini qeyd edirlər. Bundan başqa, Köhnə qalanın Naxçıvan şəhərinin Makedoniyalı İskəndərin yürüşlərindən qorunmağı üçün salındığını ehtimal edənlər də vardır. Böyük ehtimal ki, Sasani hökmdarı əvvəllərdən mövcud olmuş qalanı genişləndirmiş və möhkəmləndirmiş, yenidən salmışdır. Bütün hallarda Köhnə qalanın ətrafında müdafiə edilməsi zəruri sayılan qədim bir şəhərin olduğu etiraf olunur. Əgər təxminən 2400 il qabaq burada Makedoniyalı İskəndərin diqqətini çəkən bir şəhər var idisə, onda təbii ki, inkişaf etmiş bu şəhərin yaşı həmin tarixdən neçə min illər əvvələ aid olmalıdır.

Bizə görə, Köhnə qala ilkin olaraq Nuh peyğəmbərin məzarının – məqbərəsinin ətrafının mühafizəsi üçün salınmışdır. Köhnə qalanın bu hissəsi Kiçik qala, yaxud da Narınqala adlandırılmışdır. Sonrakı dövrlərdə Nuhdabanın – Naxçıvanın müdafiəsi məqsədilə həmin qala daha da genişləndirilmiş və inkişaf etdirilmişdir. Qalanın bu hissəsi Böyük qala kimi tanınmışdır.

Yoxsa, VII əsrdə salınmış qalaya nə üçün Sasanilər Yeni qala, yaxud da Sasanilər qalası adını verməmişlər? Elə Makedoniyalı İskəndərin epoxasında da, Sasanilərin zamanında da bu, Köhnə qala idi.

Nuhdabanın – Nuhçıxanın – Naxçıvanın qala-şəhər kimi meydana çıxması bu yaşayış yerinin ən qədim zamanlardan

ilkin şəhərin əsas xüsusiyyətlərini özündə cəmləşdirdiyini göstərir. Mühafizə hasarları Nuhdabanda, müdafiə qalası Nuhçıxanda – Naxçıvanda ilkin şəhərsalmanın nişanələridir.

Səkkizincisi: Bizim ehtimalımıza görə, Əshabi-Kəhf ziyarətgahı ilə də Nuh peyğəmbər və ya Nuhdaban arasında müəyyən bağlılıq vardır. Artıq məlum olduğu kimi, Əshabi-Kəhf ziyarətgahı təkallahlığın, tanrıçılığın məbədgahıdır. Nuh peyğəmbər də təkallahlığın carçısı kimi əbədiləşmişdir. Əshabi-Kəhf ziyarətgahı Naxçıvanın, Nuhçıxanın, Nuhdabanın islamaqədərki dövrdə təkallahlığın əsas mərkəzlərindən biri olduğunu sübut edir. Gəmiqaya rəsmlərində də əllərini göylərə uzadıb Tanrıya ibadət edən insanların kifayət qədər çox sayda rəsmləri vardır. Kimsəsizlərin mağarası kimi tanınan Əshabi-Kəhf də təkallahlığa, tanrıçılığa, nəticə etibarilə Nuh peyğəmbərə iman gətirənlərin ziyarətgahı ola bilərdi. Tanrıçılıqla islam dini arasında çox yaxınlıq olduğu üçün Əshabi-Kəhf çox sonralar həm də müsəlmançılığın ziyarətgahına çevrilmişdir. Beləliklə, yaxın ətrafında ibadətgahın olması da Nuhdabanın – Nuhçıxanın protoşəhər əlamətlərindən biridir. Fikrimizcə, Nuh peyğəmbərin məzarının salındığı yerdən Əshabi-Kəhf ziyarətgahının açıq-aydın görsənməsi də təsadüfi olmayıb, Nuhdabanla bu müqəddəs ibadətgahın yaxınlığını, bağlılığını ifadə edir.

Doqquzuncusu: «Naxçı qəbiləsi» məsələsi. Bu barədə azdan-çoxdan yazılmışdır. Hətta üzərində «Naxc» sözu yazılmış sikkələr haqqında da məlumatlar mövcuddur.[1] Amma "kim olub, harada yaşayıb Naxçılar" suallarına əsaslı cavab verilməyib. Bizim fikrimizcə, Naxçılar Nuhçulardır, Nuh peyğəmbərin nəslinin davamçıları və tərəfdarlarıdır, Nuhdabanın sakinləridir.

---

[1]Vəli Əliyev. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı, 2002, səh. 39

Azərbaycan dilində «x» və «h» səslərinin bir-birini əvəz etməsi fonetik hadisəsi mövcuddur. Ehtimal ki, Naxçı və Nuhçu sözlərində həmin fonetik hadisə baş vermişdir. Bu da ola bilər ki, Naxçı ifadəsi rus mənbələrindən olduğu kimi alınaraq işlədilmişdir.

Onuncusu: Nuh türbəsinin aşağısında, yəni Nuhdabanın alt hissəsində mağara tipli sığınacaq yerinin olması da ilkin şəhər mədəniyyəti üçün səciyyəvi haldır. Həmin yerdəki kəhriz kimi çıxan bol su mənbəyinin mövcudluğu da orada şəhərsalma prosesinin reallığını əks etdirir.

Onbirincisi: Görkəmli rəssam Bəhruz Kəngərlinin «Nuhun türbəsi» rəsm əsəri Nuhdabanın təsviri sənətdə yaşayan izidir.

Yeri gəlmişkən deyək ki, Bəhruz Kəngərlinin 1919-cu ildə çəkdiyi "Nuhun türbəsi" əsərində də arxa fonda Əshabi-Kəhf ziyarətgahı və Haçadağ aydın şəkildə görünür. Təsadüfən də olsa, Bəhruz Kəngərli Nuhun türbəsini ulu peyğəmbərin adı ilə bağlı olan Haça dağla və Əshabi-Kəhf ziyarətgahı ilə eyni kompozisiyada birləşdirmişdir.

Nəhayət, ***onikinci dəlil***: Mənbələrdə Naxçıvan şəhəri ilə yanaşı, bu şəhərdən bir qədər aralıda yerləşən Duzdağın da əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğu fikri irəli sürülür.[1] Belə olduqda Naxçıvan şəhəri ilə Duzdağ təxminən yaşıddırlar. 2008-2011-ci illərdə AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşları ilə Duzdağda birgə axtarışlar aparan Amerika-Fransa arxeoloqları müqayisəli elmi təhlillər və laboratoriya analizləri əsasında bu qənaətə gəliblər ki, Naxçıvan Duzdağının 5 min ildən çox yaşı vardır. Deməli, Duzdağ Nuhdabanın yaşıdıdır. Fikrimizcə, Nuhdaban - ilkin oturaq məkanın, protoşəhərin, Duzdağ isə qədim şəhərətrafı mədəniyyətin tarixini özündə əks etdirir.

---

[1]K.A.Nikitin. Naxçıvan şəhəri və Naxçıvan mahalı. «Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün materiallar» məcmuəsi, Tiflis, 1882, səh. 110

-0-

Naxçıvanda ilkin şəhərin formalaşmasında, yəni Nuhdabanın şəhərə, Nuhçıxana, Naxçıvana çevrilməsində Duzdağ amili mühüm rol oynamışdır. Duzun istehsalı, emalı, daşınması, bazarı, daş əmək alətlərinin hazırlanması kimi anlayışlar Nuhdabanda – Naxçıvanda şəhərsalmanı zəruri edən əsas faktorlardan biridir.

Tədqiqatçıların fikrincə, Naxçıvan Duzdağından tapılmış saman qarışıqlı keramikaya əsasən mədənin işə başlamasını hətta eradan əvvəlki beşinci minilliyin ikinci yarısına aid etmək mümkündür.[1]

Bundan başqa, Naxçıvan Duzdağı ərazisindən tapılmış daş baltalar (və ya daş çəkiclər – İ.H.) də qədim tarixin yadigarlarıdır. Hətta bəzən alimlər daş əmək alətlərindən Duz mədənlərindəki şaxtalarda Daş dövründən etibarən istifadə edildiyini qeyd edirlər.[2] XIX əsrin ikinci yarısında, 1870-ci ildə Naxçıvan Duz mədəninin mühəndisi Beyer tərəfindən ilk dəfə tapılaraq bəyan edilən baş baltalardan da hələ metalın məlum olmadığı dövrlərdən istifadə olunmuşdur. Elmdə belə bir nəticə çıxarılmışdır ki, «daş gürzlərin, külünglərin, baltaların, pazların... tapılması göstərir ki, ...Naxçıvan mədənçiləri dərin şaxtalar və tunellər qazmaqla kütləvi duz istehsalı ilə məşğul olmuşlar».[3] Müstəqillik dövründə aparılmış tədqiqatlarda Naxçıvan Duzdağında «müxtəlif xronoloji dövrlərə aid yüzlərlə daş əmək alətlərinin aşkar olunduğu» qeyd edilmiş

---

[1] Baxşəliyev V., Katerine Marro, Karoline Hamon, N.Alıyev, Filippe Dessant, Severine Sanz. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan, «Əcəmi», 2012, səh. 13

[2] Богаевский. История техники, т. 1, Москва-Ленинград, 1936, стр. 231

[3] Vəli Əliyev. Naxçıvanın qədim duz mədənləri. Azərbaycan EA-nın «Xəbərlər» jurnalı, Bakı, 1983, №4, səh. 79

və həmin alətlərdən Duz mədəni işə başladığı vaxtdan istifadə edildiyi müəyyən olunmuşdur.[1]

Beləliklə, Duzdağ Naxçıvanda ilkin şəhərin formalaşmasına ciddi surətdə təsir göstərmişdir. Nuhdaban – Nuhçıxan – Naxçıvan ən qədim daş əmək alətlərini hazırlayan ilkin şəhərdir. Naxçıvan Duzdağı regionda şəhərətrafı mədəniyyətin abidəsidir.

Naxçıvanda karvançılıq – Karvansara və bazar mədəniyyətinin yaranmasında da Duzdağ mühüm amil olmuşdur.

Araz çayı sahillərindən Culfa və Ordubad boyunca Şərura qədər Təbriz-Naxçıvan yollarında uzanan karvan yollarındakı karvansaralar regionda ölkələrarası münasibətləri, hətta elm və mədəniyyəti inkişaf etdirən əsas mərkəz kimi böyük rola və imkanlara malikdir.

Yeri gəlmişkən deyək ki, Duzdağ ərazisində, indiki duz mədənindən şərq tərəfdə, Xor gədiyi vasitəsilə Cəhri səmtə gedən yolun sol kənarında qədim bir yaşayış yerinin izləri açıq-aşkar görünməkdədir. Ehtimal ki, həmin yer qədim Duzdağçıların ilk yaşayış yeri olmuşdur. Arxeoloji axtarışlara ciddi ehtiyac vardır.

Kültəpələrdə, Oğlanqalalarda, Gilançaylarda, Ovçular təpəsində davamlı olaraq aparılan arxeoloji axtarışların məntiqi yekunu gec-tez həmin tarixi yaşayış yerlərinin ilkin başlanğıcı, start nöqtəsi olan Nuhdabana-Nuhçıxana-Naxçıvana gətirib çıxarmalıdır. Arxeoloqları, mifologiya və toponimika ilə məşğul olan mütəxəssisləri özündə cəmləşdirən «Nuhdaban» adlı xüsusi bir ekspedisiya qrupuna böyük ehtiyac vardır. Nuhdabanda-Nuhçıxanda-Naxçıvanda aparılacaq elmi axtarışlar yəqin ki, çox məsələləri həll edəcək, qədimlik mənasında illərdən bəri düşünülən məsələləri qəti şəkildə tamamlayacaqdır.

---

[1] Baxşəliyev V. və başqaları. Göstərilən əsər, səh. 9-11

Göründüyü kimi, Nuhdaban Naxçıvan şəhərinin əsasını təşkil edir. Bu, Nuhdan qalan şəhərdir, Nuhçıxandır. Duzdağ da Nuh zamanından qalan və burada oturaq həyatın bərqərar olmasını təmin edən ilkin şəhərsalma üçün zəmin hazırlayan bir yerdir.

Nuhdaban yeni Naxçıvanın babasıdır. Nuhdaban-Duzdağ qədim sivilizasiyanın yadigarı olan tarixi ərazilərdir.

Nuhdaban – Duzdağ müasir Naxçıvanın qədim təməlləridir, möhkəm bünövrəsidir.

Dünyadakı protoşəhər mədəniyyətinin əsasında ilkin məskunlaşmadan sonrakı ibtidai sənaye dayanır. Nuhdaban – Duzdağ Qafqaz regionunda protoşəhərin əsas əlamətlərini əks etdirən böyük mədəniyyətdir.

Naxçıvan Duzdağına həsr olunmuş elmi-publisist və ədəbi materiallar toplusunu duz mədənləri probleminə yeni münasibətin fonunda formalaşmış ideyadır. Təqdim edilən topludan göründüyü kimi, artıq Azərbaycan tarix elminin duzdağşünaslıq qolu formalaşmaqdadır. Düşünürük ki, Rusiya mənbələrindən əldə edilmiş Vosboynikovun, Konstantin Nikitinin, Lena adı ilə təqdim olunan müəllifin, Pavel Şeremetyevskinin, dağ mühəndisi A.M.Marqulusun, imzası bəlli olmayan müəlliflərin, o cümlədən Azərbaycan alimləri birlikdə çalışan Amerika və Fransa arxeoloqlarının Naxçıvan Duzdağına həsr olunmuş məqalələrinin təqdim edilməsi ilə duzdağşünaslığın mühüm bir elmi istiqamətə çevrilməsi prosesi daha da genişlənəcəkdir. Eyni zamanda, oxuculara çatdırılan müxtəlif illərin Duzdağ şeirləri ədəbiyyatda bu mövzuda ilk almanax tipli nəşr olmaqla bərabər, yeni əsərlərin də yaranmasına təkan verə biləcəkdir. Vaxtilə məşhur Gəmiqaya haqqında da barmaq ilə sayılacaq qədər az sayda məqalələr və şeirlər mövcud idi. Muxtar Respublika rəhbərliyinin Gəmiqaya abidələrinin öyrənilməsinə dair sərəncamından və bu istiqamətdə həyata ke-

çirilən mühüm tədbirlərdən sonra (yol çəkilməsi, qoruq elan olunması, ekspedisiyaların təşkili, beynəlxalq elmi konfransın keçirilməsi, muzeyin yaradılması və sair) Gəmiqaya mövzusu elmdə və ədəbiyyatda geniş yer tutmağa başlamışdır. Naxçıvan Azərbaycan gəmiqayaşünaslığının mərkəzinə çevrilmişdir. Gəmiqayaşünaslıq Azərbaycan tarix elminə xalqımızın qədimliyi mənasında daha dərinliklərə doğru getmək üçün zəngin material vermişdir. İnanırıq ki, Naxçıvanda ilkin şəhər və Duzdağ mədəniyyətinə, Duz Muzeyinin yaradılmasına dair qəbul olunmuş qərarların və həyata keçirilmiş məqsədyönlü tədbirlərin işığında Naxçıvan Duzdağı mövzusu Azərbaycan elmində və ədəbiyyatında özünün daha sanballı yerini tutacaqdır. Bu mövzu Azərbaycanda ilkin sivilizasiya və protoşəhər probleminin həlli üçün yeni üfüqlər açacaqdır.

Hazırda təqdim edilən topluda ciddi elmi araşdırmalar, təhlillər, müqayisələr və ümumiləşdirmələr əsasında yazılmış bir çox məqalələr bütövlükdə duzdağların öyrənilməsi, xüsusən də Naxçıvan Duzdağının geoloji yaşının, duz formasiyasının əmələ gəlməsinin müəyyən edilməsi, regiondakı duz yataqlarının tərkibinin tədqiq edilməsi baxımından da çox zəngin material verir. Bunlar geniş mənada Azərbaycanın ecazkar özünəməxsusluğuna, qədim Naxçıvana, xüsusən də Duzdağa həsr olunmuş qiymətli elmi-nəzəri əsərlərdir. Xüsusən, Pavel Şeremetyevskinin 1855-ci ildə Tiflisdə nəşr edilən "Qafqaz" qəzetində çap olunmuş geniş həcmə malik olan "Naxçıvanın Duzdağ yataqları" məqaləsi elmi baxımdan mühüm əhəmiyyətə malikdir. Pavel Şeremetyevskinin məqaləsi Naxçıvan Duzdağı haqqında sanballı elmi-tədqiqat əsəridir. Bu qiymətli məqalədə Naxçıvan Duzdağının arxeologiyası, geologiyası, coğrafiyası, torpaqşünaslığı, botanikası haqqında dərin və nəzəri cəhətdən əsaslandırılmış, sistemli elmi fikirlər öz əksini tapmışdır. Geniş dünyagörüşə malik olması, təhlillər və müqa-

yisələr aparmaq mədəniyyəti, mühüm nəticələr çıxarmaq bacarığı məqalənin müəllifinin yüksək tədqiqatçı, ciddi elm adamı olduğunu göstərir. Bütün bunlara görə Pavel Şeremet-yevskinin kimliyini öyrənmək, onun Naxçıvanla əlaqələrinin gerçək tarixini üzə çıxarmaq sadəcə qarşımızda duran mühüm vəzifə deyildir, həm də böyük borcdur.

Beləliklə, Duzdağ – həzrəti Nuh peyğəmbərin yadigarı olan qədim Naxçıvanın şəhərətrafı mədəniyyətinin mühüm tarixə malik olan əsas mərkəzlərindən biridir.

Nəhayət, Nuhdaban və Nuhçıxan Azərbaycanda şəhər mədəniyyətinin bünövrəsi, yeni Naxçıvanın möhtəşəm təməllərindir.

Duzdağ – Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ən qədim tarixinin şahididir. Duzdağ – Azərbaycanın Troyasıdır. Duzdağın sirləri aydınlaşdırıldıqca ölkəmizin bəşər sivilizasiyasının inkişafındakı yeri və roluna dair qiymətli səhifələr açılacaqdır.

Duzdağ – müasir Azərbaycanın, həmişəcavan Naxçıvanın misilsiz sərvətinin əbədi məkanıdır.

Duzdağ – qədim Naxçıvanın duza dönmüş abidəsidir.

Duzdağ – hər gün hər ailədə dadı-duzu hiss olunan misilsiz nemətin tükənməz mənbəyidir.

Duzdağ – ata-baba yurdu və gələcək nəsillərə ərmağandır.

Duzdağ – Vətənin zərurətini duz qədər hiss etməyin mənbəyidir.

Yeniləşməkdə, qurulub-tikilməkdə davam edən müasir Naxçıvanda Duzdağ möhtəşəmliyi qorunub saxlanılır və sürətlə inkişaf etdirilir.

Yeni Naxçıvan – müstəqil Azərbaycanın qədimliklə müasirliyi, ənənə ilə gerçəkliyi vəhdətdə yaşadan və daha işıqlı sabahlara aparan mühüm mərkəzlərindən biridir.

2017

TARİXİ MƏNBƏLƏRDƏ DUZDAG

Vosboynikov

NAXÇIVAN DAŞ DUZ YATAĞI HAQQINDA MƏLUMAT

Araz çayının sol sahili boyunca uzanan geniş vadidə Süst, Cəhri və Şıxmahmud kəndləri arasında, Naxçıvandan 10 verst məsafədə zəngin daş duz mənbəyi yerləşən bir dağ ucalır. Çevrəsi 30 verst olan bu dağın şimal-şərq ucqarları sözügedən vadinin şimal hüdudunu təşkil edən sıra dağlara yaxınlaşır, sonra ətəklərindən 100 sajen ucalaraq cənub – cənub-qərb istiqamətində 9½ verst uzanır. Ərazinin səthi tərkibində qaya parçaları və daşlaşmış dağ süxurlarının çınqılları olan yuyulmuş sarımtıl gil və qırmızı qumsal gil təbəqələri ilə örtülmüşdür; bu təbəqələrin altında dağı təşkil edən boz qumdaşı, müxtəlif rəngli gil, gips, gil mergeli və konqlomerat süxurlar görünür.

Dağın yastı zirvəsi qranit, əhəngdaşı, kvars, gil şisti və bəzi yerlərdə əhəng və gips sementi ilə yapışdırılmış pudinqlər əmələ gətirən qumdaşından ibarət qaya parçaları ilə örtülmüşdür. Dağın şimal-şərq yamacında bəzi yerlərdə açıq-boz rəngli xırda dənəvər yumşaq qumdaşı, şimal-qərbdə və şimalda isə pudinq təbəqəsi ilə örtülmüş horizontal gips və qonur gil qatları görünür. Dağın qərb, cənub və şərq yamaclarının aşağı hissəsi, eləcə də onu əhatə edən təpələr qırmızı qumsal gil təbəqəsi ilə örtülmüşdür, bu gil təbəqəsinin altında müxtəlif hündürlüklərdə bozumtul-ağ rəngli selenitin kristalları ilə zəngin olan qaba gips, yarğanlarda qonur-qırmızı, boz və ağ gilin qatları, bəzən də gips və saf halda olmayan daş duz layları görünür.

Məhz bu qırmızı gilin altında yerləşən süxurlar zəngin daş duz çöküntüləridir, onlar əsrlər boyu yerli əhalinin daimi dola-

nışıq mənbəyi kimi xidmət etmişdir, çünki burada qədim vaxtlarda 12 müxtəlif yerdə geniş miqyaslı istehsal aparılmasının izləri görünür.

Dağın cənub-qərb ətəyində, qumsal qırmızı gil çöküntülərinin arxasında horizontal istiqamətdə xırda dənəvər boz qumdaşından ibarət qonur gil qatları uzanır, bu dənəvər süxurların tərkibində merqel sementi olduğundan, o çox yumşaqdır. Bu qatların üst layı ağ rəngli gil mergeli təbəqəsidir.

Duz dağının cənub ucqarlarından Araz çayı istiqamətində 5 verst uzunluğunda yastı dağ silsiləsi şəklində süxurlardan ibarət olan kiçik yüksəklik uzanır. Bu dağ silsiləsini təşkil edən süxurlar qonur və boz rəngli daşlaşmış gil çöküntülərindən, gips və selenit, boz qumdaşı və ağ rəngli gil mergeli təbəqələrindən yaranmışdır, onun səthi küləyin və suyun gətirdiyi sarımtıl gil və eyniləDuz dağında olanlara oxşar qaya parçaları iləörtülmüşdür.

Şərqə doğru hərəkət etdikcə bu ərazinin hündürlüyü xeyli azalır və dağın şərq yamacı ilə birlikdə ətrafdakı düzənliyin səthindən aşağıda yerləşən uzunsov, dar bir qobu əmələ gətirir. Yüksəkliyin şimal hissəsində dağın qarşısında konusşəkilli qırmızı gillə örtülmüş kiçik təpələr ucalır. Dağın lap ətəyində yerləşən bu təpələrin çoxunda külli miqdarda daş duz tapılmışdır. Burada həm də şor sulu kiçik çaylar axır, yay vaxtı çaylarda çox yaxşı xörək duzu çöküntüləri yaranır. Qobunun şərq tərəfində çöküntülərin altında hər yerdə boz rəngli xırda dənəvər qumdaşı və müxtəlif rəngli adi gil təbəqələri görünür. Qobunun vadi ilə qovuşduğu yerdəki qumdaşı təpəlikləri üzərində çox böyük ölçülü və qalın konqlomeratlar uzanır, Naxçıvan şəhəri məhz bu yüksəkliklər üzərində salınmışdır.

Duz dağın ətrafındakı ərazidə şirin sulu çeşmələr yoxdur, burada bitki aləmi çox kasıb olub, əsasən yabanı yovşan və kol-koslardan ibarətdirlər. Dağın zirvəsində yalnız bir yerdə kiçik bir bulaq var, onun da suyu şortəhər tam verir və yay vaxtı quruyur. Lakin əgər bu yerdə su quyusu qazılsa, o, əlbəttə, duzun daşınması üçün istifadə edilən heyvanları suvarmaq üçün suvat kimi xidmət edə bilərdi. Duz mədənlərinin çox hissəsi konusşəkilli dar və dərin dərələrlə bir-birindən ayrılan təpələrdə və ya onların ətəklərində tamamilə düzənlik sahələrdə yerləşir.

Hələ tamam dağılmamış qədim mədənləri və hazırda istifadə edilən karxanaları müqayisə edərək, bu qənaətə gəlmək olar ki, burada duz yataqları qatılaşmış selenit kristallarını özündə cəmləşdirən qırmızı, qonur və boz rəngli gil və gips təbəqələri ilə müşayiət olunur. Uzunluğu və eni çox vaxt xeyli böyük olan bu yuvalar bəzi hallarda mail ştoklar yaradır. Qədim mədənlər duz sütunlar üzərində dayanan geniş horizontal yollar şəklindədir. Həmin mədənlərdə duz çıxarmaq üçün barıtdan istifadə edilirdi.

Yerli duzun müxtəlif növləri olur: Dəmirçi mədənlərində çıxarılan duz bozumtul-ağ rəngdə olub, sıx və dənəvərdir, ona bərk bir əşya ilə vurduqda tamamilə təmiz vəşəffaf kublara bölünür. Başqa mədənlərin duzu boz və sarımtıl rəngdə, sıx və dənəvər struktura malik olub, yalnız kənarlarda şəffafdır və bəzi yerlərdə gil və gips qarışıq torpaq hissəciklərini özündə cəmləyir.

Yerli sakinlərin yadında qalmış əfsanələrdən məlum olur ki, duz mədənlərinin çoxunun tərk edilməsinə səbəb həmin mədənlərin duz ehtiyatlarının tükənməsi deyil, böyük dərinlikdən duz çıxarmağın çətin olması, mədənlərə güclü su axını və ya uçqunlar baş verməsi olmuşdur. *Qanlı karxana*

adı ilə məşhur olan duz mədəni buna nümunə sayıla bilər: bu mədəndə baş vermiş uçqun nəticəsində 20 nəfərə qədər işçi həlak olmuş, bundan sonra mədəndə bütün işlər dayandırılmışdır.

Mən bu duz mənbəyinin kəşf edilməsi vaxtı və son 15 ildən əvvəlki müddətdə ondan əldə edilmiş gəlir haqqında dəqiq məlumat toplaya bilmədim. Son 15 il ərzində isə duz mədəni demək olar ki, indiki vəziyyətdə olmuş vəİran hökuməti tərəfindən 4000 rubl gümüş pula iltizamlı icarəyə verilmişdir. Bu məbləğ nadir hallarda dövlət idarəsinə daxil olmuşdur.

Duzun satışı həmişə onun hasil olunduğu yerdə təşkil edilirdi. Adətən, duzun bir batmanı (32 Rusiya funtu) 8 qəpik gümüş pula satılır və bundan başqa, hərəsi 8 batmandan ibarət olan hər yükə görə alıcılardan daha 8 qəpik gümüş pul məbləğində rüsum yığılırdı. Beləliklə, duzun bir batmanı alıcıya 9 gümüş qəpiyə başa gəlirdi.

Kalbalı xan Naxçıvanskiyə qədər duzun çıxarılması ilə dağın şimal-şərq yamaclarından 3 verst məsafədə yerləşən Cəhri kəndinin sakinləri məşğul olurdular. Onlar bu işin müqabilində duzun satışına görə qazanılmış pulun üçdə bir hissəsini alırdı. Duzun bir batmanının dəyəri gümüş pulla 8 qəpik olmaqla, işçilərin öz əmək alətləri olmalı və duzun çıxarılması ilə bağlı işlər zamanı istifadə edilən barıtın üçdə bir hissəsini özləri təmin etməli idi. Lakin Şıxmahmud kəndinin sakinlərinin ləzgilərlə döyüşdə göstərdiyi şücaətə görə Kalbalı xan duzun hasilatı üçün yalnız bu kəndin sakinlərinə müstəsna hüquq vermiş, bu halda onlara duzun satışına görə qazanılmış pulun dörddə bir hissəsi həcmində əmək haqqı təyin etmişdi, lakin duzun çıxarılması ilə bağlı işlər zamanı istifadə edilən barıtı xan özü verirdi.

Burada duz yalnız bir mədəndəçıxarılırdı, həmin mədən dağın cənub-şərq hissəsinin ətəyində, hündürlüyü 25 sajen olan kiçik təpədə yerləşirdi. Hazırda duz çıxartması gips və boz rəngli gil qatları arasında yerləşən, qalınlığı bir neçə təbəqədən ibarət olan gil qatları ilə bir-birindən ayrılan, cənub-qərb istiqamətində 30 dərəcəlik bucaq altında meylli ştok vasitəsilə həyata keçirilir. Şaquli çatlarla çapılmış bu ştok cənubda qonur-qırmızı gildən ibarət çoxlu təpələrin yaxınlığında qurtarır. Hazırda istismar edilən mədən bu təpənin qərb tərəfində, onun hündürlüyünün yarısı səviyyəsində yerləşən 30 sayen uzunluğunda horizontal dalan şəklindədir. Bu dalan ştokun yuxarı hissəsini şimal-qərbdən cənub-qərbə doğru, demək olar ki, təpənin əks tərəfinə qədər kəsib keçir. Mədənin genişliyinə baxmayaraq, onun tavanının altında heç bir dayaq yoxdur və gil ilə sıx qarışdırılmış maili duz qatlarından ibarətdir. Bu səbəbdən, tavanın ağız hissəsində onun eni 10 sayen olmaqla 14 sayen məsafədə hündürlüyü dəyişir: tavanın hündürlüyü sağ tərəfdə 4 sayen olduğu halda, sol tərəfdə yalnız 2 arşına bərabərdir. Sonrakı hissədə mədənin eni dörd sayendən yeddi sayenə qədər, hündürlüyü isə 2½ sayendən 3 sayenə qədərdir. Bu ştokun düşdüyü dərinlikdə, təpənin ətəyində daha bir tərk edilmiş mədən görünür. Onun uzunluğu 20, eni 4 və hündürlüyü 2 sayendir.

Duz çıxarmaq üçün barıtdan istifadə edilir. Bu məqsədlə uzunluğu 1 fut və 10½ düymə, en kəsiyinin diametri 1½ düymə, ortasında balta şəklində yarımdairəvi çıxıntılar olan dəmir burlardan istifadə edilir. Həmin çıxıntılar sayəsində burların hər ucunda iki iti oyuq yaranır. Qazma quyusunun dərinliyi 1½ futa bərabər olur və sadəcə əl ilə qazılır. Quyunun dərinliyinə və qopardılması nəzərdə tutulan duzun kütləsinə uyğun olaraq, oyuğa 3 və ya 4 düymə barıt tökürlər doldu-

rurlar. Sonra, dəmir iynəni oyuğa yerləşdirib, burun küt tərəfi ilə vuraraq boş sahəni gil və xırda çınqılla kip bağlayırlar. İynəni çıxardıb, barıtın bir hissəsini iynə oyuğuna və gildən yapılmış quyuya doldurub, kiçik piltə tikəsini orada bərkidir və yuxarıdan ehtiyatla alışdırırlar. Barıta od vurarkən ən kiçik bir ehtiyatsızlıq işçilər üçün faciə ilə nəticələnə bilər. Bir işçi bu üsulla bir iş günü ərzində 4, bəzən 5 dəfə barıta od vura bilər, bu isə 30 puda qədər duz çıxarılmasını təmin edir. Hündür yerlərdə duz çıxarılması üçün müxtəlif hündürlüklü taxta nərdivanlardan istifadə edilir.

Bu mədəndən çıxarılan duz sarımtıl-ağ, nadir hallarda qismən boz rəngdə, xırda dənəvər şəkildə, çox vaxt kifayət qədər bərk olur, bəzən asanlıqla ovulur, ümumiyyətlə onu təşkil edən laylar istisna olmaqla, tərkibində torpaqlı maddələr az olur.

Duz karxanasının yerləşdiyi ərazidən 12 verst və Naxçıvan şəhərindən 5 verst məsafədə yerləşən Şıxmahmud kəndinin sakinləri indi də duz hasil edirlər. Bu kənd hər il xəzinəyə buğda və arpadan ibarət olan torpaq vergilərindən əlavə, 260 tümən və ya 1010 rubl gümüş pul ödəyirdi. Keçən il İrandan köçmüş ermənilərin 15 ailəsi bu kənddə yerləşdirilmişdir.

Duz çıxarılması ilə məşğul olan işçilərin sayı duzun satışından asılıdır. Qış vaxtı, duza ehtiyac az olanda duzun çıxarılmasında 3-4 işçi çalışır, duza tələbat ən yüksək səviyyədə olan vaxtda isə mədəndə 20-yə qədər işçi çalışır.

Naxçıvan xanlığı İrəvan quberniyasının tərkibinə qatılandan sonra, 1829-cu il martın 10-da Naxçıvan duz mədəni 4000 rubl gümüş pula Naxçıvan şəhərinin bir sakininə bir il müddətinə iltizama verilmişdi.

Həmin iltizamçı mədəni istismar etmək hüququ alandan sonra duzun bir batmanı (32 funt) üçün gümüş pulla 10 qəpik, yəni əvvəlkindən 1 gümüş qəpik baha qiymət müəyyən

etmişdi. O, duzun çıxarılması üçün işçilərə əvvəlki qədər - bir batman üçün gümüş pulla 2 qəpik ödəyir. Duzun satışıüçün işçilər duzun bir batmanının dəyərini gümüş pulla 8 qəpik edərək qazanılmış məbləğin dörddə bir hissəsini alırlar.

Duzun satışı vaxtı iltizamçını 2 nəfər, işçiləri isə onların başçısı təmsil edir.Onun vəzifəsi satılmış duzun uçotunu aparmaqdan və işçilərin əmək haqqını hesablamaqdan ibarətdir. Bu funksiyaların yerinə yetirilməsi üçün işçilər qazanılmış pulun beşdə bir hissəsini başçıya ödəyirlər. Duzun çəkilməsi vəçıxardılmış duzun mühafizəsi işçilər tərəfindən ödənişsiz olaraq qrafik üzrə yerinə yetirilir.

Duzun alıcıları adətən aprelin ilk günlərində, ayaqaltı yem çıxan vaxt böyük karvanlarla gəlirlər. Duz satışı mövsümü oktyabrın sonunda qurtarır. Duzu öküzlər qoşulmuş arabalarla və ya dəvələr daşıyırlar. Karvanlar özləri Cəhri və Süst kəndlərinin yaxınlığında dayanır və lazımi miqdarda duz tədarük ediləndən sonra duzun yüklənməsi üçün onun hazırlandığı yerə gəlirlər.

Naxçıvan mədənində çıxarılan duz İrəvan vilayətinin aşağıdakı yerlərinə çatdırılır: Gərniçay və İlançay arasındakı yerlər, Dərələyəz mahalı və qismən Göyçə gölünün cənub hissəsi ətrafındakı yerlər. Qarabağ xanlığının və Yelizavetpol qəzasının ehtiyacı Naxçıvan duzu ilə tamamilə təmin olunur.

Yüklərin arabalarla daşınmasının daha rahat olması aşkardır. Buna baxmayaraq, duzu həm də yük heyvanları ilə daşıyırlar. Vilayətin Araza yaxın hissəsində yollar yaxşıdır. Dərələyəz mahalında isə yollar yük heyvanları ilə getmək üçün daha münasibdir, çünki bu yollar uca dağların arası ilə keçir və çox dikdir. Buna görə Göyçə gölünün ətrafına və Yelizavetpol qəzasına duzu yalnız yük heyvanları ilə daşıyırlar, çünki oraya gedən yol Dərələyəz mahalından keçir.

Qarabağ xanlığına gedən yol hərbiçilərin qüvvəsi ilə yaxşılaşdırılmışdır. Duz almaq üçün mədənlərə gedən alıcılar oraya bu yollarla keçirlər:

1). Şuşa qalasından mədənlərə 6 günə gəlirlər, duz yükü ilə qayıdanda isə əvvəlcə Qarabağın sərhədindəki Ağ karvansara kəndinə qədər üç günlük, sonra isə qalanın özünə qədər yeddi günlük yoldur.

2). Gəncə şəhərindən mədənlərə gəlmək üçün 5 gün və geri qayıtmaq üçün 9 gün, sərhədə, Alagözlər dağına gedib qayıtmaq üçün 5 gün vaxt tələb olunur.

Bu sətirlərin müəllifi iddia edir ki, mədən işçilərinin məvacibi duzun satışı üçün qazanılmış vəsaitlər hesabına ödənildiyinə görə, satılmış duzun miqdarına əsasən, mədəndə alınmış faktiki mənfəəti də hesablamaq olar.

Qeydin müəllifi aşağıdakı məlumatları gətirir. Mədənin iltizam əsasında icarəyə verilərək onun istismarının başlandığı tarixdən, yəni 1829-cu il martın 10-dan həmin il iyulun 1-dək mədən işçiləri gümüş pulla 815 rubl 12 qəpik qazanmışlar. Bu pulun müqabilində iltizamçıya 42256 batman duz verilmişdir, onun satışından gəlir gümüş pulla 4225 rubl 60 qəpik təşkil etmişdir.

Qazanılmış pulun məbləğinə əsasən, iltizamçının xərcləri aşağıdakı kimi olmuşdur: duzun çıxarılması üzrə işlərin dəyəri - gümüş pul ilə 845 rubl. 12 qəpik, xəzinəyə ödənilmək üçün iltizam məbləği - gümüş pul ilə 1222 rubl 22 qəpik, iki nəzarətçiyə məvacib, barıtın dəyəri və başqa xərclər - gümüş pul ilə 350 rubl. Beləliklə, iltizamçının bütün xərclərinin dəyəri gümüş pul ilə 2407 rubl 34 qəpik təşkil edir.

İllik iltizam müddətinin ilk üçdə biri ərzində iltizamçının xalis gəliri gümüş pul ilə 1818 rubl təşkil etmişdir və qeydin müəllifi, hərçənd hər hansı əsaslar göstərmədən, gü-

man edir ki, növbəti hesabat dövründə iltizamçı daha artıq gəlir əldə edəcəkdir. Qeydin müəllifinə, onun dəlillərinə və yekun göstəricilərinin düzgün hesablanmasına münasibətdə güzəştə getmək olar. Lakin burada başqa, daha əhəmiyyətli məqamlar var. Naxçıvan xanlığı Rusiya İmperiyasının tərkibinə daxil ediləndən sonrakı ilk ildə Naxçıvan duz mədəninin istismar xərcləri artıqlamasilə ödənilmişdir. İltizamın illik dəyəri gümüş pul ilə 4000 rubl olduqda mədən iltizamçıya xeyli gəlir gətirmişdir. Bu, mədən işçilərinin əmək haqqını artırmağa, onların əmək şəraitini yaxşılaşdırmağa, mədənin özünü hərtərəfli inkişaf etdirməyə və duzun çıxarılmasının "dədə-baba" üsullarından əl çəkməyə imkan yaratmışdır. (AKAK.№ 10, cild.7, № 95, s.s. 92-95).

Tiflis, 1829-cu il

DAŞ BALTALAR

General-mayor Skalonun
Qafqazın Baş komandanı general Qolovinə
RAPORTU

Naxçıvan qəzasında yeni duz yataqları axtarışı zamanı köhnə, uçmuş bir yataqda olduqca çox insan və heyvan sümükləri aşkar edilmişdir. Yeri gəlmişkən, orada qədim zamanlarda – insanların dəmir haqqında məlumatı olandan və onu tətbiq etməyi öyrənəndən xeyli əvvəl duzu çapmaq üçün istifadə edilmiş daş çəkiclər tapılmışdır. Naxçıvan qəzasının rəisi bu çəkiclərdən birini mənə çatdırmışdır, mən onu bu raporta əlavə olaraq zati-ailələrinizə təqdim etməyi özümə şərəf bilirəm.

Tiflis, 29 iyun 1842-ci il, №345, s. 585

P.S: Naxçıvanda qədim abidələrə, hər şeydən əvvəl, Naxçıvan duz mədənlərindən tapılmış daş baltaları və daş pazları aid etmək lazımdır. Onlar 1870—ci ildə yerli duz mədənlərinin keçmiş nəzarətçisi cənab Beyer tərəfindən tapılmış və 2 nüsxəsi Naxçıvan məktəbinə ianə edilmişdir; qalan nüsxələrin bir hissəsi Tbilisi muzeyinə, bir hissəsi də Peterburq muzeyinə göndərilmişdir. Duzun çıxarılması üçün alətlər kimi istifadə edilmiş bu baltalar və pazlar ibtidai dövrlərdə, dəmirdən istifadə edilməsinin hələ insana məlum olmadığı daş dövründə bu yerdə insan məskənləri olmasına, digər tərəfdən, yerli duz mədənlərinin qədimliyinə, onların tarixdən əvvəlki dövrlərdə işlədilməsinə dəlalət edir.

NAXÇIVAN DUZ MƏDƏNLƏRİ

İrəvandan Naxçıvana gələn yolda yaşıllıqdan məhrum təpə və yüksəkliklərə rast gəlirik. Həmin məkanda nə kəndlər var, nə də əkinçilik mövcuddur, bir sözlə sıxıcı mənzərə ilə üzləşirsən. Bu dərə-təpəli dağlarda, hələ çatmamış, poçt yolu ilə Naxçıvana qədər 13 verst, yoldan isə 2 ½ verst solda, Naxçıvan duz mədəni kimi tanınan daş duz mədəni yerləşir. Düz yolla isə o, Naxçıvandan 12 verst məsafədə yerləşir. Torpağın yararsızlığından və ətrafda heç bir tikilinin olmamasından buraya gələn işçilər qazmalarda yerləşirlər. Duz mağazaları da elə minaların özüdür. İçməli su heç yerdə yoxdur, onu gətirmək üçün isə Naxçıvana qədər 12 verst məsafəni qət etməlisən. Böyük məkanı əhatə edən işlənmiş saysız-hesabsız duz mədənləri qədimlikdən xəbər verir, bəzilərində isə daş çəkiclərə rast gəlinir ki, bu da, vaxtilə, burada dəmir haqqında anlayışın olmaması vəya nadir tapılması səbəbindən, məhz duzun onlar vasitəsilə çıxarıldığını göstərir.

Duz təbəqələrinə gil tərkibli bir çox təpəli dağlarda rast gəlinir. Lakin təbəqələrin tutumu və qalınlığı heç də hər yerdə eyni deyil; bu səbəbdən də duz, təbəqə qatının nisbətən qalın olan yalnız bir dağda çıxarılır. O, bir növ gil dağın özəyini təşkil edir.

Əsas duz mağaralarının sayı ikidir. Aşağıda, yol kənarında yerləşən, qismən dağıldığından bağlanıb. Hazırda duz çıxarılan digər ikinci isə dağın ortasında yerləşir: onun içinə işıq yuxarıda açılmış dar dəlikdən düşür, lakin dağın dərinliklərinə irəlilədikcə artıq şamlarla işləməli olursan.

Duzun dəmir linglə parçalanması üçün dəlik açılır və barıtla partladılır. Asan və rahat işdir. Bir gündə hər işçi 40

puda qədər duz çıxardır. Burada duz daşlarının müəyyən şəklə malik olması əhəmiyyət daşımır. Bir daşın normal çəkisi 1 funtdan 2,5 puda qədər olmalıdır.

Daş duzun çıxarılması müqabilində 1 puda 2 qəpik, narın duza – gümüşlə 1 qəpik ödənilir.

Daimi işlərin aparılması üçün buraya, dövlət rüsumundan azad edilmək şərtilə, Şıxmahmud kəndi də əlavə olunub.

1846-cı ilin kameral hesablanmağına görə burada 55 tüstü, işçi və s. vardır.

İşçilərin tam sayı 60 nəfər təşkil edir. Kəndin sakinlərinə məişətdə işlətmək üçün pulsuz narın duz qalıqları verilir, daş duzun müqabilində isə onlar başqaları ilə bərabər pul ödəməlidirlər.

Kulpinsk mədənində olduğu kimi burada da ilin ayları iş, yarım və sərbəst aylara ayrılır. İşə görə bütöv əmək haqqını isə duz mədənçiləri ilə 2-3 min rubl gümüşlə alırlar.

Bu mədəndə duzun dövlət satışı 1841-ci ildə təsis edilib. O vaxtdan 1850-ci ilə qədər ümumi gəlir 10 mindən 16 min rubl ətrafında dəyişir, xərclərin çıxılmağı ilə isə xalis gəlirin məbləği ildə gümüşlə 6600-10700 rubl təşkil edirdi. Bir ildə çıxarılmış və satılmış iri duzun orta miqdarı 114580 pud, narın duzun isə - 12050 puda qədər, ümumilikdə 126410 puda qədər olurdu. Ümumi illik gəlir gümüşlə 13520 rubl, xərclərin də hesablanmağı ilə isə gümüşlə 4816, xalis gəlir isə - 8674 rubl təşkil edirdi.

Duzun əsas istifadə bölgələri – uyezdlərdir: Naxçıvan, Ordubad, Yeni-Bəyazid və qismən Şuşa. Həmçinin duz İrana da ixrac olunur.

Qafqaz canişini Kulpinsk mədəninin iltizam saxlanmasına verilməsinə dair sərəncam imzalayaraq Naxçıvan mədəninin də həmin əsaslarda iltizama verilməsi əmrini verdi. Nəticə qənaətbəxş idi və mədən 1851-ci ilin mart ayından

4 il müddətinə illik 15000 rubl gümüşlə ödəməklə iltizama verildi. Hələ heç vaxt mədənin həmin məbləğdə xalis gəliri olmamışdır.

Tədbiri zəruri və dövlət üçün sərfəli hesab etmək olmaz, xüsusən də oradakı duz satışında və dövlət idarəçiliyindəki çətinlikləri nəzərə alsaq.

Dövlət idarəsinin ştatı başqası ilə əvəz olunur. Kulpinsk mədəni ilə yanaşı burada, 22 mart 1851-ci ildə Yuxarıdan təsis olunmuş ümumi bir ştat daha vardır. Burada həmin idarənin saxlanmağının məqsədi Kulpinskdəki kimidir. Minalardan duzun çıxarılması əvvəlki əsaslarda, xərclərin vergi toplayanın hesabına köçməsi şərtilə saxlanılıb.

Mədənin özündə Naxçıvan duzunun qiymətləri belədir: iri daş duzun qiyməti – 15 qəpik, narın duzun qiyməti isə - 8 qəpik gümüşlədir.

Satış və azad sənayeçilərin iştirakı şərtləri Kulpinsk mədəni üzrə təyin olunanlarla eynidir. Orduya duz onun hasilatı qiymətinə, yəni adambaşına 20 funtdan hesablamaqla puda 1-2 qəpiyə verilir.

Duzçuluq sahəsində dövlət gəlirlərinin artması ilə Kulpinsk və Naxçıvan mədənlərində, habelə yerli istehsalla məşğul olan üç mağazadan ötən 6 il (1845-1851-ci illər) ərzində aşağıdakı rəqəmləri alırıq:

Dövlət idarəsi dövründə 6 il ərzində duz satışından əldə olunmuşdur: __460511 rubl

Xalis gəlir:_251590 rubl

Ştat saxlanmasına, duz hasilatına, göndərilməsinə və s. xərclənmişdir:_251590 rubl

Altıillik dövrdə bir ildə:_381165 rubl 50 qəpik

İltizam zamanı hər iki mədən və mağaralara görə əldə olunmuşdur:_69120 rubl.

Xərclər

Yeni ştatlar üzrə hər iki mədənin illik məvacibi_6446 rubl 97 qəpik

Ştatdan kənarda qalan məmurlara birdəfəlik məvaciblərinin ödənilməsi və duzun ixracatına sərf olunan birdəfəlik məvacib_17900 rubl

İltizam dövrünə, 4 illik müddətə hesablanan 17900 rubl məbləğində birdəfəlik xərcin təyin olunması ilə hər il üçün həqiqi xərclərin miqdarı müəyyən olunacaq_4475 rubl

Belə ki, iltizam zamanı hər il üçün hesablanmalıdır_10915 rubl 97 qəpik

İltizam məbləğindən həmin xərci çıxmaq şərtilə illik gəlirin məbləği olacaqdır_58204 rubl 3 qəpik

Altıillik dövrdə əldə olunan məbləğdən həmin payın çıxarılaraq duzdan əldə olunan xalis gəlirə əlavə olunması nəticəsində isə dövlət idarəsinin gəliri təşkil edəcəkdir_8165 rubl 50 qəpik.

Sən demə, adı çəkilən mədən və mağazaların iltizama verilməsi ilə gəlirlərin illik həcmi 20040 rubl 53 qəpik təşkil edir.

"Qafqaz təqvimi", Tiflis 1851-ci i

BİRİNCİ KALBALI XANIN ŞIXMAHMUD ƏHALİSİNİ DUZDAĞDAN İSTİFADƏ ETMƏKDƏ İSTİSNA HÜQUQLARLA TƏMİN ETMƏSİ HAQQINDA

Kor Kalbalı xan 1816-cı ilin sonunda xanlığa hakimiyyətə qayıtdıqdan sonra, ləzgilərlə döyüşdəki şücaət və igidliklərinə görə Şıxmahmud kəndinin əhalisini duz hasilatında istisna hüquqlarla təmin etdi. Eyni zamanda, xan mədənçilərin əmək haqqının ödənilməsinə dəyişikliklər edərək artıq onlara duzun satışından yalnız dördüncü hissəni verməyə başladı. Amma işçilərin barıt almağına ehtiyac qalmırdı. Kalbalı xan zərurət olduqca özü onları barıtla təmin edirdi. Beləliklə, Şıxmahmud kənd sakinləri Naxçıvan diyarının müdafiəsində göstərdikləri şücaətə görə daimi əmək haqqı ilə təmin olunmuş və Cəhri kənd sakinlərindən fərqli olaraq onların əməyi daha yüksək qiymətləndirilmişdir.

«Qafqaz təqvimi», Tiflis, 1851

Pavel Şeremetyevski

NAXÇIVANIN DUZ YATAQLARI

I hissə

Coğrafi mövqeyi və sərhədləri

Daş duz yataqlarından ibarət olan dağlar Naxçıvan şəhərindən şimali-qərbdə yerləşir. Onlar Kür vadisini Araz vadisindən ayıran, coğrafi mövqeyinə görə Göyçə-Qarabağ adlanan dağ silsiləsinin bir hissəsini təşkil edir. Bu duz dağları həmin silsilənin Naxçıvan şəhəri tərəfindən axırıncı çıxıntısı və ya terrasıdır: bu silsilənin ətəkləri Araz çayı vadisinə qədər uzanıb gedir. Hərçənd ki, bu silsilənin əsas sıra dağlarla əlaqəsi aşkar görünür, amma bu silsilədən Cəhri çayı və Naxçıvan çayı vadilərinin hüdudlarının müəyyənləşdirilməsinə görə, daha önəmlisi, torpağın tərkibinə görə onlara bir-birindən tamamilə fərqli dağlar sistemi kimi baxmaq olar. Bu sistemin hüdudları şərqdə Naxçıvan çayı ilə suvarılan yüksəklikdən, şimalda Naxçıvan çayına tökülən Cəhri çayı vadisindən, qərbdə təpələrlə dolu, qərb qollarının ətəklərinə uzanıb gedən Süst kəndi vadisindən və nəhayət, cənubda bu duz dağlarından 15 verstə yaxın məsafədə axan Araz çayına qədər tədricən enən elə həmin vadidən keçir. Naxçıvan şəhəri Naxçıvan çayı ilə suvarılan sahənin cənub-qərb küncündə yerləşir.

Dağların ümumi görünüşü

Çoxsaylı və ilk baxışda bir-birindən ayrı görünən duz dağları tamamilə bir vəhdət təşkil edir. Bu dağlar ən yüksək bir dağı əhatə edirlər.

Bu yüksəkliyin ən hündür nöqtələri Araz vadisi üzərindən 70 sajına yaxın məsafədədir. Bu yüksəkliyin geniş zirvə-

si təpələr və dayaz dərələrlə əhatə olunubdur. Onun kifayət qədər hündür və sıldırımlı şimal yamacı Cəhri çayına tərəf yönəlibdir. Həmin yamac həm bu yüksəkliyin, həm də bütövlükdə duz dağ sisteminin şimal hüdudlarını təşkil edir. Onun şərq hüdudu duzlu sistemin hüdudları ilə üst-üstə düşür, yəni bu tərəfdən həmin sistem Naxçıvan çayı ilə suvarılan yüksəkliklərə qovuşur. Lakin cənubdan və qərbdən onun hündür və hərdən çox sıldırımlı kənarları görünməkdədir. Bütün digər duz dağları ən hündür yüksəkliyin cənub və qərb yamaclarının qollarından ibarətdir. Onların bir qisminin ayrıca uzun qolları və ya həmin yüksəkliklə bitişik sıra dağlar kimi, başqa bir qisminin isə böyük, sanki ayrı-ayrı şiştəpəli dağlar kimi görkəmi vardır. Bu qollar və dağlar arasında bütün mümkün istiqamətlərdə alçaq təpələrin saysız-hesabsız sıraları və ayrı-ayrı qrupları yerləşir. Əsas qollar arasında dərin tirələr və geniş dərələr uzanıb gedir. Torpağın çox mürəkkəbliyi və zahiri görkəminin rəngarəngliyi bununla daha da artır ki, bütün dağların səthi böyük olmayan oyuqlarla doludur və ibarət olduğu süxurlara məxsus olan qırmızımtıl, bozumtul və sarımtıl rəngli üfüqi zolaqlarla örtülüdür. Bütün bunlar bir yerdə bu duz dağlarına qeyri-adi, heç bir dağda olmayan görkəm verir. Lakin qeyri-adi dərəcədə duzlu torpağın səthində heç bir bitkinin olmaması üzündən bu görkəm kifayət qədər qüssəli görünür. Bütün sistemin ən yüksək və diqqətəlayiq nöqtələri hakim yüksəkliyə aiddir və ya onun yaxınlığında yerləşir. Bunlar Nur qülləsi (Bu, yüksəkliyin Naxçıvan tərəfindən cənub və qərb kənarlarının şimal-qərbə (Nord 40 West) düz xətt boyunca 10 verstə yaxın məsafədə təxminən düz bucaq altında qovuşduğu yerdir və ətraf vadidən 70 sajın yüksəklikdə yerləşir) və Plov-Təpə dağıdır (Bu, konus-pazşəkilli dağ olub, duz dağlarının şərq

hüdudlarında və Naxçıvandan şimala tərəf 4 verstə yaxın məsafədə yerləşir). Duz dağları sisteminin müxtəlif hissələrində yer səthində duzlu torpaq qatının inkişafı, həmçinin onun ümumi zahiri mənzərəsi müxtəlifdir. Belə ki; 1.Hakim yüksəkliyin təpəli səthi hər yerdə qeyri-duzlu süxurların qalın layları ilə örtülmüşdür, duzlu torpaq qatı isə bəzi yerlərdə özünü biruzə verməkdədir. 2.Hakim yüksəkliyin cənub-qərb güncünü təşkil edən Nur qülləsi qarşısındakı duz dağları ən böyük inkişafa malikdirlər. Qüllədən qərbə, cənuba və cənub-şərqə tərəf bir yarım verst məsafədə yerləşən çoxlu, lap çoxlu dağlar duzdan ibarət dağlardır. Onlar ilk baxışda bir-birindən ayrı görünsələr də, əslində bu dağlar bir bütövlük təşkil edirlər. Onların yamacları ümumiyyətlə sıldırımlıdır və bir çox yerlərdə keçilməzdir. Tirələr və geniş dərələr arasındakı dağlar həm də dərindir. Duz dağlarının ətəklərindən Araz çayına tərəf uzanan vadi başlanan yerə qədər düz və hətta azacıq mailli səthlər yox dərəcəsindədir. Qərbə yönəlmiş dağlarda torpaq qatı bütün duz dağlarını qaldıran köklü dəyişiklikləıin izlərini öz-özündə aşkar şəkildə daşımaqdadır. Dağ süxurlarının layları orada əyri və bəzi hallarda isə hətta şaquli vəziyyətdədir. Buna görə də, çox ehtimal ki, hakim yüksəkliyin cənub-şərq küncü qarşısında vulkanik süxurların çox güclü təsirə malik mərkəzi yerləşmişdir ki, duzlu torpaq da onun sayəsində dərinlikdən yer səthinə çıxmışdır. Duz yataqlarının bundan sonrakı təsvirində hakim yüksəkliyin cənub-qərb küncü qarşısında olan hissəsini duzlu sistemin Mərkəzi dairəsi adlandıracağıq. 3.Hakim yüksəkliyin uzunluğu boyunca həmin yerin yüksək nöqtələri ilə eyni səviyyədə yerləşən, özünün sıldırımlı enişləri ilə seçilən qərb kənarı qarşısındakı duz dağları cənubdan şimala dörd verstə qədər uzanıb gedir. Duzlu sistemin bu hissəsin-

də, artıq mərkəzi dairədə olduğu kimi, onların yüksəkliyi və sıldırımlığı yoxudur. Əksinə, onların səthində dərin tirələr deyil, yalnız oyuqları olan azacıq hündürlüklü təpələr vardır və dağlar arasında xeyli dərəcədə geniş olan dərələr uzanıb gedir. Şimala getdikcə yerin səthi az təpəlidir və nəhayət, azacıq əyri düzənliklər az qala hakim yüksəkliyin dibinəcən gedib çıxır. Duz dağları burada artıq həmin yüksəkliyin qərb yamacının ən yaxın qollarından başqa bir şey deyildir. Şimalda duzlu torpaq qatının dağların təkində tamamilə gizləndiyi bu yerin qaşısında, onların ətəklərində iki verstlikdə kiçik Sust kəndi yerləşir ki, orada da xeyli miqdarda şirin sulu bulaqlar vardır. Duzlu sistemin bu hissəsini bundan sonra Qərb dairəsi adlanıracağıq. 4. Nəhayət, duzlu sistemin Şərq dairəsi hakim yüksəkliyin qərb kənarı qarşısında yerləşir. Mərkəzi dairədən, yəni qərbdən o, hakim yüksəklikdən cənuba bilavasitə uzanıb gedən dar və hündür sahə ilə açıq-aşkar hüdudlanmışdır. Bu sahədən Şərq dairəsi şimaldan hakim yüksəkliyin cənub kənarı ilə, şərqdən Naxçıvan çayı axan düzənliyin kənarı ilə məhdudlaşan böyük çalaya bənzəyir. Bu çalada orta hündürlüklü, qərbdən şərqə dörd verstlik və şimaldan, yəni hakim yüksəkliyin kənarından iki verstlik məsafədə yerləşən sıldırımlı olmayan duz dağlarının çoxsaylı qrupları səpələnmişdir. Naxçıvan çayı düzünü örtən qumlu süxurların qalın layları altında gizlənmiş duzlu torpaq qatı yerləşən şərq hüdudları yanında duz topalarının alcaq cərgələri üzərində bir neçə ayrıca (o cümlədən, Plov-Təpə dağı) yüksəlir ki, onların da hündürlüyü duz dağları ətəklərinin Araz çayına qədər uzanıb gedən vadisi üzərindən 50 və ya daha çox sajin təşkil edir. 5.Bütün bunlardan başqa, duzlu torpaq qatının komponentlərindən ibarət, lakin duzsuz olan ayrı-ayrı dağlar Naxçıvan çayı düzündə az miqdarda,

Araz vadisində onun cənubdakı sahillərinə qədər, şimaldan cənuba bütün Araz vadisini kəsib keçən dalğavari yüksəklik kimi 15 verst qərbə tərəfə çoxlu sayda rast gəlinir. Bu dalğavari yüksəklik Göycə-Qarabağ sıra dağlarının qərb qollarından çıxır. İrəvandan Naxçıvana aparan poçt yolu Xök yaxınlığında Naxçıvandan 20 və ya daha çox verstlik məsafədə bu dalğavari yüksəkliyin üzərindən keçir.

Duzlu torpaq qatı

Hakim hündürlüyün cənub və qərb yamacları boyunca yer səthində olan bütün süxurları və tərkib hissələri ilə bu duzlu torpaq qatı 20 kvadrat verstdən az ərazini əhatə edir. Bir çox yerlərdə bütün formasiyanın məcmu qalınlığı yerin səthində 50 sajına qədər olduğundan əsas verir ki, onun qalınlığının xeyli hissəsinin yerin təkində gizləndiyini ehtimal edək. Eyni bir geoloji dövrdə əmələ gəlmiş dağ süxurlarının bu kütləsi, demək olar ki, təkcə gil və mergeldən ibarətdir, daş duz isə onun ən az hissəsidir.

Duzlu torpaq qatının tərkibi

1. Daş duz. Tədqiq oluna bilinən bütün yerlərdəki duz, gil və mergelin çox və ya az dərəcədə düzgün və təqribən paralel çökməsi ilə yaranmış laylardan ibarətdir. Duzlu torpaq qatının yerləşdiyi geniş ərazidə, nəinki təkcə duz layları, çoxluq təşkil edən, duzdan daha böyük kütlədə mövcud olan digər süxurların fasiləsiz laylarına rast gəlinir. Bir çox yerlərdə, xüsusilə hakim yüksəkliyin cənub yamacına tərəf yerləşən dağlarda, yəni duz yataqlarının Şərq dairəsində duz toplantısı xeyli dərəcədə azlıq təşkil edir. Lakin dağların Mərkəzi hissəsində hakim yüksəkliyin, cənub-qərb küncü qarşısında orta qalınlığı on arşından az olan duz layı məlumdur və o, indi də işlənilməkdədir. Bununla belə, şimala, şərqə və qərbə tərəf bu layın uzanıb getməsi əminlik verir

ki, duz çıxarılması əbədi ola bilər. Yeri gəlmişkən, bütün tədqiqat və müşahidələr göstərir ki, bu qədər duz bolluğu tək mərkəzi dairə üçün səciyyəvidir. Qərb dairəsindəki duz keyfiyyətcə Mərkəzi dağlardakı duzla eyni olsa da, qalınlıq və uzunluğuna görə bundan xeyli az laylardan ibarətdir. Toplaşıb laylanmasındakı fasiləsizliyin olmaması üzündən duzlar bir-birindən ayrı-ayrılıqda yaranmış yuvalar kimi duzlu gillər arasında toplaşa bilərdi. Lakin istənilən halda bu ayrıca yuvalar artıq aşkar laylamadır və öz böyüklüyünə görə üfüqi istiqamətdə olanlar əsil laylar hesab oluna bilər. Öyrənilmişdir ki, gil və mergellər arasında bir deyil, bir neçə duz layı vardır ki, onlar da öz aralarında boş süxurlara bölünürlər. 1849-cu ildə Şərq dairəsinin ortasını tutmuş dağlarda 5 sajınlıq gil süxuru ilə bir-birindən ayrılan iki duz layı kəşf olunmuşdur və dağların səthində bir-birinin üzərində ikidən daha artıq layın mövcudluğunun çox dürüst əlamətləri aşkarlanmışdır. Duz yataqlarının digər dairələrində bu hələ aşkarlanmayıb. Analogiyaya görə ehtimal edilməlidir ki, bir çox yerlərdə bir neçə paralel lay mövcuddur. Duz laylarının yerləşməsi, demək olar ki, həmişə üfüqi və ya bundan azacıq fərqli vəziyyətdə olur. Onların qalınlığı bəzi yerlərdə 12 arşına çatır, adətən bu 10, 7, 5 arşın, hətta 3 arşından az da olur. Üfiqi vəziyyətdə duz layları daha kiçik laylara və yaxud təbəqələrə ayrılır. Bu təbəqələrdə duzlu gilin qalınlığı arşının dörddə üçündən bir tam ikidə bir arşına qədər olur və bəzən şaquli istiqamətdə duz kütləsinin içinə girir. Gilin nazik təbəqə və damarlarından başqa duzda nə kənar və mexaniki, nə də kimyəvi qatışıqlar olmur. Duz kütləsi kiçicik kristalların onda yerləşməsindən boz və ya tutqun rəngdə olur. Lakin buna baxmayaraq, duz xırdalananda təmiz və ağ olur. Tam olaraq toz halına kimi döyülmüş duz qar kimi ağappaq,

çox yüksək keyfiyyətli olur. Kristalların xüsusiyyətindən və yerləşməsindən asılı olaraq, duz layı kütlələrinin texniki və fiziki cəhətdən iki fərqli şəkildə olması xeyli dərəcədə diqqəti cəlb edir. Belə ki, Qərb və Mərkəzi dairələrdə layların kütləsi nizamsız şəkildə olan xırda və qeyri-düzgün kristallardan ibarət olsa da, onlar bir-biri ilə çox sıx birləşmişlər. Sanki bu duz qaynar məhluldan kristallaşmış və ya odda

duz layları öz aralarında zəif birləşmiş, iri, şüşəyəbənzər düzgün kristallardan ibarət olan kütlədir. Duz kütləsinin bu əlaməti soyuq qatı məhlulun tədricən kristallaşması nəticəsi, habelə bir dəfə əmələ gəlmiş duz layı kütləsinin quruluşunu (və ya konsistensiyasını) dəyişə biləcək təsirlərə məruz qalmamasının nəticəsi ola bilər. Texniki cəhətdən qeyri-düzgün kristallaşmış duz düzgün kristallaşmış duzdan üstündür. Çünki birinci qəbilədən olan duzun çox sıx olan kütlələri iri və bərk parçalar şəkilində çıxır. Lakin ikinci qəbilədən olan kütləni əmələ gətirən şüşəyəbənzər iri kristallar olduğundan bu duz çıxarılıb qalaq-qalaq toplandıqda belə kənar səbəblər olmadan, onların bir-birinə dəyməsi nəticəsində bir müddətdən sonra tikə-parça olur.

2. Duzlu gil və mergel. Duz toplaşması həmişə güclü neft iyi verən bozumtul-qara rəngli gil təbəqələri arasında baş verir. Gilin fiziki əlaməti karbonlu maddə qarışığından asılıdır ki, o da gözlə görülən şəkildə gil qatları arasında his və yaxud daş kömürün (liqnit) nazik təbəqəsi kimi olur. Daş duz və onu əhatə edən gips qarışığından qara gil, qırmızı, qonur, mergel rəngli gilin təbəqələri arasında yerləşir. Bu gil duzlu torpaq layının əsas və daha iri hissəsini təşkil edir. Onun rəngi tərkibindəki dəmir oksidindən asılıdır. Bu duzlu gilin öz fiziki əlamətlərinə görə Cənubi Fransadakı bütün

daş duz yataqları gili ilə böyük oxşarlıqları var. Qumboldun əsərindən götürülmüş Avropanın duzlu torpaq qatının təsviri bu məqalənin sonuna əlavə edilir.

3. Gips. Mergelli qırmızı gilin içərisində qara gil və duzdan başqa qalınlığı bir arşından bir neçə düyüməcən müxtəlif növlü gips toplantısı və layları yerləşir. Bu növlərdən; a) kristalik gips iri küppələr, bəzən laylar təşkil edir ki, onlarda da kristallar nizamsız birləşmiş halda olur. Kristalik nazik təbəqələr və damarlar şəklində olan bu gil müxtəlif istiqamətlərdən həm qırmızı-mergelli gili, həm də qara duzlu gili kəsib keçir. b) Bütünlüklə mərmərşəkilli vəziyyətdə olan gips dümağ rəngli olub laylar əmələ gətirir. Ona yuvalar şəklində duzlu torpağın bütün tərkib hissələrində, habelə daş duzun içində rast gəlinir. c) Sarımtıl boz gilin az qatışığından ibarət olan mergelli xalis gips qırmızı gil laylarına paralel olan nazik, lakin geniş laylar təşkil edir. Bu layların kütləsi çox tez-tez xalis mergelli gips təbəqələrindən və belə təbəqələr şəklində yerləşən parçalanmış gips kristalları toplusundan ibarət olur. Bu duzlu gil öz fiziki əlamətlərinə görə Cənubi Avropadakı daş duz yataqlarında olan gillərlə böyük oxşarlıq təşkil edir. Bu mineralın birinci və ikinci növü əla ağ gəc və ya alebastr verir ki, ondan da otaqların ağardılmasında və ya bəzək işlərində istifadə edilir. Xalis mergelli gipsdən evlərin və otaqların suvanması üçün qara gəc bişirilir. Duz zavodunda bu süxurlardan əla tikinti materialları kimi istifadə olunur. Gəc hasil edilməsi Naxçıvan sakinlərinin sərbəst peşə sahəsidir. 20 pud (və ya 1 xəlvər) yandırılmış qara gəc bazarda 85 qəpiyə, 1 xəlvər ağ gəc isə gümüş pulla 2 rubl 85 qəpiyə satılır.

Ləkələr kimi qırmızı-kərpici və ya yaşımtıl-boz, sarımtıl və ağımtıl rənglər duz dağlarını bürüyübdür ki, bu da qır-

mızı gil, qara gil, gips mergeli və aşınmış daş duzun rəngi ilə əlaqədardır. Səthdə bu süxurlarla örtülmüş duz dağları aşınmış vəziyyətdə sanki torpaq və digər səpələnən kütlələrin toplusundan ibarətdir. Əslində isə onlar sıx süxurlardan təşkil olunmuşlar.

II hissə

Araz vadisindəki torpaq qatının təsviri

Duzlu formasiyanın bütün süxurlarını qırmızı və qara gil, gips və daş duz təşkil edir. Lakin bu formasiya müstəqil deyil, yəni hər hansı xüsusi dövrdə əmələ gəlməmişdir. O, üçüncü qumdaşı (kəpir) dövrünün nəhəng çöküntüləri ilə eyni dövrdə baş vermişdir. Bu qumdaşılar Arazın bütün vadisini, şimaldan Alagöz və Bambək dağları, şərqdən Göyçə-Qarabağ sıra dağları, qərbdən və cənubdan Sinak, Ararat və Azərbaycan dağları arasındakı bütün ərazini doldurmuşdur. Bu ərazinin bir sıra məntəqələrində eyni zamanda ayrıca duzlu çöküntülər əmələ gəlmiş və onlar sırasında bəziləri Naxçıvan, Külp, Kağızman (Türkiyə) və Gərgər (İran) yaxınlığında vulkanik güclərlə Yerin səthinə çıxmışdır.

Üçüncü qumdaşı dövrünün nəhəng formasiyası Külp yaxınlığında, Naxçıvanın qarşısında, Göyçə-Qarabağ sıra dağlarının qərb ətəklərində və Naxçıvan şəhərindən Ordubada kimi 70 verstdən artıq ərazidə, Ordubad şəhərinin qarşısında, Arazın sağ sahilində Kəmki (İran) dağının ətəklərində açıq-aşkar hiss edilir. Sonra həmin formasiyanın parçalarına Ordubad qəzasında (Meğri və Qafan mahallarında) bu yerlərdən keçən Göycə-Qarabağ sıra dağlarının vulkanik süxurları arasında rast gəlinir. Bu formasiyanın ən əsas və ən nəhəg süxuru qumdaşıdır, ikincisi, bərkimiş mergelli gil və üçüncüsü, müxtəlif odlu və çöküntü süxurlarına aid olub

möhkəm sementlə bərkimiş böyük qaya parçaları və xırda çay daşlarından ibarət olan çaqıldır. Bir-birinin üzrində yerləşən bu süxur layları, xüsusilə qumdaşı və çaqıldaşı layları bir çox hallarda xeyli qalınlığa malik olurlar. Onların rəngi əsasən kərpici-qırmızı olur ki, o da vulkanik odun təsirindəndir. Onların təbii və ilkin sarımtıl-boz rəngini Naxçıvan şəhərinin yaxınlığında və duz dağlarında odlu mənşədən kənarda da görmək olar. Qumdaşı və çaqıldaşı duz dağlarındakı hakim yüksəklik kimi sonralar çöküntü olaraq, qum və çınqıla çevrilərək Naxçıvan çayın bütün yatağını və Cəhri çayının vadisini örtmüşdür. Deməli, onlar duzlu torpaq qatının üstünü örtmüşlər. Lakin layların düşmə xətti boyunca aparılan müşahidələr göstərir ki, altda elə həmin qumdaşılar yerləşir. Belə qərara gəlmək olar ki, duzlu torpaq qatı üçüncü qumdaşı dövrü formasiyasının üzvüdür, həm də təsadüfi üzvüdür. Çünki duzlu torpaq qatı bu qumdaşıların tutduğu ərazi ilə müqayisədə xeyli kiçik ərazini əhatə edir. Təsvir olunan üçüncü formasiyanın qazıntı üzvi qalıqlarına az rast gəlinir, duzlu torpaq qatında heç zaman kömürləşmiş halda bitki gövdəsinə çox da bənzəməyən nəsnədən başqa bir şey tapılmayıbdır.

Üçüncü və duz formasiyasının əmələ gəldiyi geoloji dövr haqqında

Duzlu torpaq qatında üzvi qalıqların olmaması tədqiqatçıları bu torpağın əmələgəlmə dövrünü dəqiq müəyyənləşdirmək imkanından məhrum edir. Buna baxmayaraq, Araz vadisində geoloji yaşı müəyyənləşdirilmiş süxurlar kəşf edilibdir. Bunlardan birinə təbaşir süxuru şamil edilir ki, buna səyyah Dübya tərəfindən Culfa kəndi yaxınlığında kəşf edilmiş nummulit qumdaşısını misal göstərmək olar. Digərlərini, məsələn, Külp yaxınlığındakı Turab kəndi qarşısında Araz sahillərində olan molas qumdaşısıdır. Daha bir neçə yur

dövrü səciyyəli süxurlar Göyçə-Qarabağ sıra dağlarının qərb yamaclarında yerləşir. Dübyanın təsdiqləməsinə görə, Külp ətrafındakı Təkaltı dağı qarşısındakı boz və qırmızımtıl qumdaşı süxurları ikinci dövrə şamil edilir. Ancaq bütün bunlardan belə bir nəticəyə gəlmək olmaz ki, duz formasiyası ikinci və yaxud aşağı - üçüncü dövrə aiddir. Ən yaxın təmasda olan formasiyaların nə qədər fərqli olduğuna misal olaraq Qalitsiyanın məhşur duzlu torpaq qatını göstərmək olar. Velickadakı məşhur duz yatağı tapılmış balıqqulaqlarına görə üçüncü dövrə şamil edilir. Bununla belə, o, üstdən yur formasiyası ilə, yəni üçüncüdən daha qədim dövrə aid olan formasiya ilə örtülmüşdür. Bu yataqlar zamanca fərqli iki formasiya laylamaısnı keçən qumdaşılardan ibarətdir, onlar arasında isə zahiri görkəminə görə uzlaşan və hətta uyğun gələn laylamalar vardır. Veliçka yaxınlığında az halda mövjudiyyətini saxlayan qədim formasiyanın mənşəjə yeni formasiyanın üzərində oturması Şimali Qalitsiyada Dobromiladan başlamaqla Bukovina sərhədlərinədək 20 mil uzunluğunda təkrarlanır. Bu jür anomaliya onunla izah olunur ki, duzlu torpaq qatının qalxması zamanı Karpat sistemində silkələnmələr olmuşdur ki, nətijədə də layların altı üstünə çevrilmişdir .

Araz vadisində duzlu torpaq qatının əmələgəlməsinin geoloji dövrünə aid kifayət qədər inandırıcı nəticəni Avropanın cənub zolağında və Qafqazda materikin mənşəyinə və bu ölkələrdə duz və digər çöküntü formasiyalarının paylanmasına dair mülahizələrədən də əldə etmək olar. Cənubi Avropada olduğu kimi, Şimali Afrikada, Türkiyənin Asiya hissəsində, Qafqazda torpaq qatının geoloji quruluşundakı eynilik göstərir ki, bütün bu ölkələr ikinci formasiyaların əmələ gəlməsi zamanı bir dənizin dibi olmuşlar. Onların qalıqları isə indiyəcən Aralıq və Qara dənizlərdə görünməkdə-

dir. İkinci dövrün sonunda (məhz təbaşirin çökməsi formasiyasında) bu dənizin dibində baş vermiş vulkanik təsirlər nəticəsində Priney istiqamətində Kataloniya (İspaniya), Alp və Kappat dağlar silsilələri, Krım vasitəsilə Qafqaz silsiləsi, habelə Balkanlar və Despoto-dağ vasitəsilə Türkiyənin Asiya hissəsindəki dağ silsilələri qalxmışdır. Bu vulkanik çevriliş təbaşir formasiyası dövründə inkişaf edən üzvü mövcudiyyata təsir edən fiziki şəraiti dəyişib, həmin formasiyaya son qoydu. Buna görə də yenicə yaranmış dağlar silsiləsindən şimala və cənuba tərəf yerləşən dənizdə üçüncü formasiya oturuşmağa başladı. Bu qədər nəhəng ərazidə meydana çıxmış yeraltı odun təsiri birdən-birə kəsilə bilməzdi. Təkcə yer qabığında əmələ gəlmiş çoxsaylı çatlardan bütün üçüncü dövr ərzində yerli vulkan püskürmələri davam etmirdi. Torpaq qatının birinci böyük qalxması arxasınca üçüncü dövrdə Alp dağlarında, Cənubi Fransada, Priney yarımadasında, Kırımda, habelə Qafqazda daha üç qalxma baş verdi. Vulkanik püskürmələrin adi məhsulları sayılan qaynar kükürd, onun turşuları və natrium xlor və yaxud xörək duzu adıçəkilən dağlar silsiləsinin ətək və yamaclarında çoxsaylı daş duz yataqlarını əmələ gətirmişdir. Qalitsiyanın zəngin duz çöküntülərindən başlayan bu yataqlar şimaldan Karpat və Transilvani dağlarının ətəklərindən kəsilməz zolaqlar kimi keçir, şərqdən və cənubdan Veliçka, Moldaviya və Valaxiyanın tükənməz mədənlərini özündə birləşdirir. Həmin dağların qərb yamacında duzlu torpaq qatı Macarıstan və Transilvaniyada da səpələnmişdir. Üçüncü formasiyada Karpat ətəklərindən bilavasitə qərbə tərəf Dunay sistemi ilə Bavar və Tirol Alpına qədər yayılır. Həmin dağların ətəklərində Zaltsburq, Qalleyn və Qallştadt şəhərləri arasında duzlu torpaq qatı geniş inkişafdadır. Ta qədimdən orada hasil edilən

duzun zənginliyinə görə bütöv ölkə Zaltskamerqut adlanır. Və nəhayət, duzlu torpaq qatı həmin dağ silsiləsinin qərbindəki ətəkləri yaxınlığında, yəni Priney sistemində, Qrenada, Qvadiana və Qvadalkvivir vadilərində də vardır. Qalitsiyanın mədənləri 2 milyon, Valaxiya 2 milyon üç yüz əlli min, Moldoviya bir milyon, Trid və Zaltsburq mədənləri 4 milyon puda qədər duz hasil edirlər.

Beləliklə, əgər Pireney yarımadası dağlarından Qafqazın əsas silsiləsinə qədər fəaliyyət göstərmiş böyük vulkanik çevrilişin nəticəsi Pireney, Alp və Karpat sistemlərində duz yataqları materiallarını püskürən çoxsaylı vulkanların əmələ gəlməsi idi isə, onda böyük ehtimalla fərz etmək olar ki, bənzər vulkanlar həmin zamanlarda Qafqaz dağ sistemində də açılmış və onlardan Külp, Naxçıvan, Kağızman, Gərgər duz yataqlarını, habelə Qafqazın əsas silsiləsinin ətəklərindəki duz çöküntülərini yaranmışdır. Bütün sadalanan duz yataqları bir böyük vulkanik çevrilişin olmasından başqa, həm də yataqların əmələ gəlməsindəki zaman və üsul eyniliyin sübutu olaraq yataqlardakı süxurların fiziki oxşarlığını da göstərmək olar. Təbiətşünasların həm Karpatlarda, həm də Alplardakı müşahidələrinə görə, bu süxurlar ən xırda təfərrüatlarına qədər eyniyyət təşkil edirlər. Naxçıvanın duzlaqları, habelə Araz vadisində mövcud olan bütün digər duzlaqlar, Avropadakı kimi bir qədər dəmirli, bəzən tam karbonlu gil qatları və xeyli dərəcədə gipsli çöküntülərdən ibarətdir. Nəinki Araz vadisinin məxsusi duzlu torpaq qatı, həm də bütövlükdə üçüncü formasiyası üçüncü Alp formasiyası ilə litologik cəhətdən böyük oxşarlığa malikdir. Araz vadisinin hakim torpaq qatını təsvir edərkən deyilmişdir ki, bu qatın başlıca üzvləri xeyli dərəcədə qumdaşı və çaqıldaşıdır.

Eyni süxurlardan ibarət olan qumdaşı, çaqıldaşı formasiyası (xüsusi geoloji adları molassa və naqelfludur) Avst-

riya, Zaltsburq, Bavar və Trиol Alpının şimal yamacları ilə Dunayın dağ silsiləsi arasındakı ərazini doldurur. Bu formasiyada Qall, Osse, Qaldştadt və digər duz yataqları yerləşir. Nəhayət, bizim Avropadakı yataqlarla təsvir olunanların oxşarlığına əsaslanan və deməli, onların eyni zamanda törəməsinə dair inamımız Külp, Naxçıvan və digər üçüncü duzlu çöküntülərin təbaşir və yur formasiyaları ilə təmasda tapılması ilə daha da artır. Bu formasiyalar isə Yerin səthinə duzlu torpaq qatının əmələ gəlməsinə səbəb olmuş vulkanik çevrilişin sayəsində qalxmışdır. Veliçkanın üçüncü torpaq qatının yurla bilavasitə təmasda olması artıq yuxarıda xatırladılmışdır. Habelə, Trиol və Bavariyada Qall, Zaltsburq və digər düz yataqları orta-üçüncü formasiyasının Alpın şimal yamaclarını əmələ gətirmiş yur torpaq qatı ilə təmasları vardır. Beləliklə, bütün sadalanan duz yataqlarının fiziki oxşarlığına və onların hamısının mənşəcə eyni zamanlı dağlar sistemində yerləşməsinə əsaslanaraq, belə ehtimal etmək olar ki, onların hamısı eyni bir geologi dövrdə törəmişlər. Belə olan halda Araz vadisinin duzlu torpaq qatда orta – üçüncü dövrə aiddir ki, Veliçka torpaq qatında da eyni ilə belədir. Bu qatın üçüncü dövrə aidliyi onda aşkarlanmış Pecten cristatus, Nucula comta, Nucula striata, Pedipes buccinea, Natica epiglottina və digər balıqqulaqlarına görə öz təsdiqini tapmışdır.

III hissə

Naxçıvan yataqları necə əmələ gəlmişdir?

Yerin təkində tez-tez tapılan daş duzun əmələgəlmə tarixi indiyə kimi tam aydınlaşdırılmayıb. Bu mineralın vulkan püskürməsi nəticəsində əmələ gəlməsi böyük inam doğurur. Geoloqlar tərəfindən dağlar silsiləsinin ətəklərində (Bunlar ümumiyyətlə vulkanik güclərin təsirindən yaranıbdır) duz

yataqlarının tapılmasına dair lap çoxdan söylənilmiş fikir, Sinak, Qarabağ və Azərbaycan dağlarının ətəklərinə səpələnmiş Araz vadisi duz yataqlarında ən qəti şəkildə təsdiqlənir. Əvvəlcə yerin çox dərin təkində əmələ gələn duz yerin səthinə ya odlu subetmasiya yolu ilə odlu süxurlarla birlikdə, ya da ki, palçıq vulkanlar şəklində (Bu daha çox inandırırcıdır) püskürülmüşdür. Lakin istənilən halda hamısının, o cümlədən Naxçıvan yataqlarının quruluşuna nəzər salmaqla belə qənaətə gəlmək olar ki, vulkanik təsir nəticəsində yaranmış duz sularda həll olmuş, müxtəlif böyüklükdə göl və hövzələrə toplanmış bu məhlullardan dağların təkində yerləşən duz yığıntılarının kristallaşması yolu ilə baş vermişdir. Bu məhlulların mövcudluğunu duzlu gillər arasında çox böyük miqdarda tez-tez tapılan qazıntı balıqqulaqları sübut edir (məsələn, Veliçkada bu belədir). Bu, əgər duz yığıntıları indi mövcud olduqları şəkildə bilavasitə palçıq və ya odlu püskürmələrdən əmələ gəlsəydi, olmaya da bilərdi. Bu halda vulkanların fəaliyyəti nəticəsində süxurların oturması və ya düşməsi ilə Yer səthində əmələ gəlmiş çatlar və oyuqlarda duzlu məhlulların toplanması əlverişli olardu. Naxçıvan yataqlarının mənşəyi üzərində aparılan müşahidələrdən belə bir nəticə çıxarmaq olar: Duz layları və onu bürüyən gillər müxtəlif ölçülü duzlu göllərdə əmələ gəlmişdir. Bu göllərin hövzələrini Araz vadisindən üçüncü formasiyanın hakim olan qum və qumdaşısı doldurmuşdur. Qumun və qumdaşıların əmələ gəlməsinin davam etdiyi dövrdə göllərin bir qədər qumdaşı süxurlarının fiziki detallarının dağılmasından yaranan yeni çöküntülər ilə, bir qədər isə böyük göllərin dibinin (məsələn, Suriyadakı Ölü dənizində indi də davam edən) duzun görünən kristalları ilə dolmasıdır. Göllərə külli miqdarda çöküntü gətirən suların hərəkəti və duzun kristal-

laşması üçün əlverişli olan göllərin sakit vəziyyətdə olması bir neçə dəfə təkrarlanmışdır. Bundan isə duzun bir neçə layı əmələ gəlmiş, onlar duzlu gillə bir-birindən ayrılmışlar. Çox güclü və davamlı su axıntısı, yəqin ki, bütün ətrafı basmış, böyük ərazidə duzlu gölləri bütövlükdə və ağzınacan qırmızımtıl gilin qalıqları doldurmuşdur. Bu gil, görünür, hakim üçüncü formasiyada yayılmış qırmızı qumdaşıların tamamilə dağılmasının məhsuludur. Nəhayət, Kağızmandan Xudafərinə qədər Araz vadisinin bütün ərazisində fəaliyyətdə olmuş vulkanik çevriliş bütövlükdə vadidə üçüncü qumdaşıların əmələ gəlməsinə son qoydu. Özünün təbii üfüqi laylamasını itirmiş bu qumdaşılar dağlar şəklində yüksəldilər ki, onlar da hər yerdə qırmızı-kərpici rəngi və zahiri görkəm eyniliyi ilə seçilirlər. Bu zaman duzlu torpaq qatı indiki kimi olan zahiri şəkilini almışdır. Duz əmələ gələn göllərin böyüklüyünü həddən artıq böyük ehtimal etmək olmaz. Çünki hakim üçüncü formasiya və hətta duz yataqlarının qırmızı gili çox geniş ərazilərdə, duz çöküntüləri isə əksinə, azlıq təşkil edən ərazilərdə görünməkdədir. Əgər daş duz digər süxurlarla bir böyük hövzədə əmələ gəlsəydi, bu olmaya da bilərdi. Onda hakim üçüncü formasiyasının süxurlarının Yer səthinə çıxmasına çox yerlərdə rast gəlinərdi. Duz çökən göllər sistemi Naxçıvandan başqa Araz vadisinin bir çox yerlərində mövcud olmalı idi. İndi Kağızman, Külp və Gərgər (İranda Arazın sağ sahilində Culfadan 6 verst aşağıda) duz mədənləri vardır. Habelə yerin səthində gizlənmiş digər məntəqələrdə duzun olması çoxlu sayda duzlu bulaqların, gəlmə və aşınma duzu ilə örtülmüş torpaq qatında nəhəng şoranlıqların aşkarlanıb meydana çıxması ilə təsdiqlənir ki, buna da Araz vadisində çox tez-tez rast gəlmək olur.

Vulkan püskürməsi məhsulu olan, məhs sulfat turşusu dağ süxurlarının əlamət və tərkibində diqqətəlayiq dəyişikliklər törətmişdir ki, bunlardan da duz yataqları əmələ gəlmişdir. Onlarda sulfat turşusunun təsirini öyrənmək üçün karbonlu duzlu gil və qlauber duzunun əmələ gəlməsinə diqqət yetirmək lazımdır.

Naxçıvanın və Külpün duz yataqlarında xalis kükürdə və onun metallarla birləşməsinə rast gəlinir. Amma Veliçkada və digər Avropa yataqlarında xalis kükürd, kükürd külçəsi, qalenit və sairəyə rast gəlmək olur.

KARBONLU DUZLU GİL VƏ QLAUBER DUZUNUN ƏMƏLƏ GƏLMƏSİ

Duzlu göllərin sahilləri bitkilərlə bol-bol örtülmüşdür. İndi də qış qarları və çox nadir hallarda yağan yağışlardan başqa suvarılmayan üçüncü qumdaşı süxurlarında bu örtük sıxotlu otlağa çevrilir (ən azı yazda). Sahil bitkiləri bitdiyi süxurlarla birlikdə dağıntıya məruz qalmışlar. Xırda-xırda olmuş üzvi və mineral maddələr sularla duzlu göllərə axıb getmiş, duz laylarının üzərinə və onların aralarına oturmuşlar. Vulkan püskürmələri ilə müşayət olunan sulfat turşusunun müxtəlif buxarları daha duzlu və üçüncü süxur sularına qarışaraq onları doydurmuş, bu sular bitkilərin xırda-xırda parçaları ilə qarışmış, gilə keçərək bu bitkiləri kömür tozuna çevirmişlər. Beləliklə, nazik liqnit təbəqələi, qara kömür gili əmələ gəlmişdir ki, duz layları onun içərisində yerləşir. Gillə mikroskopik şəkildə birləşmiş daş duz sulfat turşusunun təsirindən sulfat turşusu sodasına çevrilmişdir. Qlauber duzu duzlu göllərdə olur. Bunun sübutu olaraq duzlu göllərdən axan şırnaqlarda oturmuş duzun acı dadmasını göstərmək

olar. Yataqların Şərq dairəsində Plov-Təpə dağından qərbə tərəf yerdə axan su tamamilə acıdır.

Gipsin əmələ gəlməsi

Sulfat turşusunun duzlu süxurun əhəng çöküntüsünə təsiri daha diqqətəlayiq olmuşdur. Əmələ gəldiyi üçüncü qumdaşılar kimi bu süxurda qazıntı balıqqulaqları vardır. İkincisi, oraya-buraya çox sürtülmüş balıqqulaqlarından əmələ gəlmiş bütöv əhəng layları və üçüncüsü, balıqqulaqlarının lap xırda qırıntıları ilə dolu olan gil laylarıdır. Sulfat turşusunun təsirindən əhənglər gipsə, tərkibində balıqqulağı olan gips isə gips-mergelli gilə çevrilmişdir. Bundan başqa, duzlar və sulfat turşusu ilə doymuş sular özündə sulfat əhəngini (gipsi) həll edir, duzlu göllərin qurumasından yaranmış çatlaqlara axaraq onları kristallik gipslə doldurur. İndi də həmin gips gilin arasında damarlar kimi qalmaqdadır. Gilin atmosferin təsirindən aşınmaya məruz qalan səthində gips müxtəlif qalınlıqda kristallik lövhəciklər şəklində səpələnmişdir. Gips layları gipsin kristallik toplantı məhlulundan çökərək qalmış, xalis gipsdən və bəzən onun nəhəng salxımlar şəkilndə birləşmiş kristallarından belə laylar əmələ gəlmişlər. Nəhayət, tərkibində gips olan suların dibində kristallik çöküntülər əmələ gəlməli idi. Nəticədə bu çöküntülər dağılmış, çoxlu gips layları üçün material olmuşdur. Bu laylar xırda-xırda olmuş və sürtülüb narınlaşmış gips kristallarının nizamsız birləşmələrindən başqa bir şey deyildir.

Duz layları, çox ehtimal ki, sulfat turşusunun təsirindən başqa, həm də vulkanik yanarın təsirini hiss etmişdir. Onun təsiri duz kütlələrinin konsistensiyasında elə fərqlilik törədə bilərdi ki, yuxarıda izah edildiyi kimi, bu da yataqların Mərkəzi və Şərqi dairələrindəki duzlar arasında artıq mövcuddur. Duzlu torpaq qatının vulkanik qalxma mərkəzi, onun

laylarında mövcud olan pozuntu dərəcəsinə görə demək olar ki, dairədə indiyə kimi fəaliyyət göstərən mədənlərin ətrafında yerləşməli idi. Deməli, bu yerlərdə duz layları yeraltı yanarın təsirinə məruz qala bilərdi. Bu səbəbdən isə onların kristalik quruluşu odlu ərinti və yenidən kristallaşma nəticəsində dəyişilmişdir. Duzun əriməsi üçün qırmızı gözdəkindən bir az artıq hərarət kifayətdir. Qalxma mərkəzindən kənarda olan Şərq dairəsində isə əksinə, duz layları iri və düzgün quruluş kristallaşmasını qoruyub saxlamışdır. Bu isə dinc sularda əmələ gələ bilərdi.

Əlavələr

Avropanın cənub zolağındakı çoxsaylı duz yataqlarının istər ümumi əlamətlərində, istərsə də təfərrüatlarında bir-birinə bənzərliklərinin kifayət qədər olması diqqətəlayiqdir. Qumbold Rusiya hökumətinin sərəncamı əsasında 1792-1793-cü illərdə İsveçrədə, Cənubi Almaniyada və Qalitsiyada (sonralar isə Amerikanın Kordinyerində) duz yataqlarının üzərində apardığı xüsusi müşahidələrdən aşağıdakı nəticəyə gəlmişdir: "Alp əhəngindəki daş duz kütlələri təbəqəli gips laylarına deyil, xüsusi əlamətli gil formasiyasına tabe olmuşdur. Geoloqlar bu formasiyaya uzun müddət diqqət yetirmişlər. Halbuki istər köhnə, istərsə də yeni materikdə qıjı qalıqlı şistəoxşar gil daş kömür yataqlarının əhəmiyyətli nişanəsi olduğu kimi, bu formasiya da daş duz yataqlarının yerini həmin dəqiqliklə bildirir. Duzlu formasiyaların fərqləndirici əlaməti hər yerdə ən xırda təfərrüatlarına qədər eynidir. Şübhəsiz, onun zahiri şəklini (və yaxud görkəmini) bilmək yeni duz yataqlarının kəşfinə ediləcək sonrakı cəhdlər üçün çox vacibdir. Duzlu gilin rəngi əksər hallada hisli-qara (Qall, İşel, Osse) və ya bozumtul-ağ və göyümtül-boz (Bertosqan-

den və Veliçka) olur. O həmçinin qaramtıl-qonur və qırmızımtıl-qonur və hətta kərpici-qırmızı rəngdə ola bilir. Bəzən o, böyük həcmli laylar yaradır, bəzən də Alp əhəngindən törəyən daş duz və gips arasında xırda yuvalar kimi səpələnir. Onun rəngi həm karbonlu maddələr, həm də dəmir oksidindən asılı olur. Onun sıxlığı çox müxtəlif – yumuşaqlıqdan tutmuş şist sıxlığına qədər fərqli olur. Tez-tez tərkibində çaxmaq daşı olan elə bərk kütlələrlə rastlaşmaq olur ki, polad ona dəyəndə qığılcım çaxır və belə kütlələr yumurtaşəkilli qın şəklində olur. Bu jür möhkəmliyi və yumurtaşəkilli qın quruluşuna malik olan qara karbonlu gil Naxçıvan yataqlarında indi işlənən duz layının altında vardır. Duzlu gilin tərkibində slyudalı lövhəciklər və daş kömür gilinə xas olan qıjı qalığı olmur. Lakin hərdən onun tərkibində dəniz balıqqulağına da rast gəlinir. Dənəvər, bəzən susuz gipsə duzlu gil arasında müxtəlif qalınlıqlı laylar kimi təsadüf edilir. Bu laylarda ona daş duzdan daha tez-tez rast gəlinir. Onun kütləsi həmişə gilin kütləsindən az olur. Dənəvər gips olmayan yerdə ayrı-ayrı gips kristalları ilə rastlaşmaq mümkündür.“ (A. Von Humboldt, Geognostischer Versuch uber die Lagerungder Gebirgstarten in beiden Erdhalften, 28).

Fiziki əlamətlərin oxşarlığı onun nəticəsi deyilmi ki, Aralıq dənizinə uzanan Avropa materikinin cənub zolağındakı duzlu torpaq qatı eyni bir geoloji dövrdə, eyni təbii şəraitdə və oxşar mineral elementlərdən əmələ gəlmişdir?

Tiflis şəhəri, 4 yanvar 1853-cü il
“Qafqaz” qəzeti, 9-12 mart, 16 may 1855-ci il, № 20-21-22

İ.Lena

NAXÇIVAN DUZ KARXANASI

Şərur mahalı, İrəvan quberniyası və Naxçıvan arasında bütün Xök mahalı boyunca, İrəvandan Naxçıvana gedən böyük yolun sol tərəfində Ermənistan vilayətini Qarabağ xanlığından ayıran və tədricən Araz sahili düzənlikdə seyrələn və yox olan, dağların son kontrforsunu təşkil edən, ətrafa nizamsız səpələnmiş bir sıra təpələr vardır. Susuz, qeyri-məhsuldar, meşə örtüyü olmayan və boz kül rəngli bu təpələr şimala doğru genişlənən çiçəkli və meşə örtüklü dağlarla qətiyyətli surətdə ziddiyyət təşkil edir: həmin təpələrin altında daş duzunun tükənməz xəzinəsi yatır və burada Naxçıvan duz mədəni kimi məhşur olan mədənlər yaradılmışdır.

Bu yerlərin xarici əlamətlərindən görünür ki, duz yataqları bütün istiqamətlərdə dağlar boyu və bütün ətrafda - yerin tərkində ölçüyə gəlməz dərinliklərdə Kulp və Kaqizmanla birləşərək yayılmışdır: bütün Arazboyu ərazidə görünən şoranlıq onu deməyəəsas verir ki, bu fikir sadəcə hipoteza deyil. Özünün dərin tərkində duzla zəngin olan bu yüksəkliklərin əhatə dairəsi altı-yeddi ağac, yəni bizim 50 verstədəkdir.

Bu duz təpələrinin xarici görkəmi bir çox yerlərdə dairəyə bənzər forma almış, torpaq qatı ilə az, yaxud çox dərəcədə örtülmüş, yağış və qar sularının təsirindən bir- birinin üstündə horizontal vəziyyətdə yerləşən nəhəng günbəzlər kimi və bir neçə qatdan əmələ gələn dalğavari yamacdan ibarətdir. Qonur və qırmızıtəhər qatlar – səthə doğru zəngin duz ehtiyatının olduğunu bildirən əlamətlər – fasilələrlə duz təpələrini əhatə edir. Bəzi yerlərdə faydalı qazıntının digər formada olan laylarının qalınlığı dörd və daha çox sajenə (2.134 metrə bəra-

bər uzunluq ölçüsü) çatır, əsas zirvələrdə 2 və daha çox sıra olmaqla maili formaya çevrilir – onların altında duz layları başlayır. Digər yerlərdə duz kütləsi, Kulpda olduğu kimi, gil vəgipsdən ibarət olan təbəqə ilə xaricdən qorunur.

Əsas konusabənzər yüksəkliklərdə duz laylarının təbəqələşməsi qaydasına baxarkən məlum olur ki, ərazinin maililiyinin düzənliyə çevrilməsinə görə duz təbəqələri özünün ilkin vəziyyətini itirir və dağətəklərində müxtəlif meyl bucaqları altında yerin tərkinə doğru daha da dərinləşir. Bu da ona gətirib çıxarır ki, belə çökmələr tədricən baş vermişdir və o zaman duz hələ daşlaşmış halda olmamışdır; yerin səthinə yaxın olan duz qatları isə həddən artıq nazik və yumşaq olmuşdur, lakin dərinlik vəziyyətinə görə duz kütləsi bəzi yerlərdə təmiz kristal formasını alaraq sıxlaşmış və bərkimişdir. Duz layları ilə paralel olaraq onun hər yerdə daimi yol yoldaşları olan gil və gips qatları müşayiət etmişlər.

Yeni mədənlərin (karxanaların) açılması aşağıdakı kimi aparılır: duz dağının xarici qatınıəmələ gətirən gül və gipsdə duz layına çatanadək bir arşın, yaxud diametrə yaxın çuxur qazırlar; duz layının aşkar edilməsindən sonra onun daha yumşaq və tərkibində müxtəlif qarışıqlar olan üst qatını bir neçə duz çıxaranın yerləşə biləcəyi ölçüdə təmizləyirlər: sonra dəmir burğunun köməyi ilə 13, yaxud 14 verşokluq (4,4 sm. bərabər uzunluq ölçüsü) uzunluğunda və bir düym (23 mm bərabər ölçü vahidi) yoğunluğunda 9-10 verşok dərinlikdə kəsik açırlar; onlara barıt doldurur, daş və gillə tıxaraq fitil vasitəsilə partladırlar. Bu vasitə ilə nəhəg duz kütləsindən iri və xırda parçalar ayrılır.

Duz laylarının yerləşmə xassəsinə görə bu vasitə bəlkə dəən asan və sürətlidir; həm də bu iş duz çıxaran tərəfdən nə xüsusi bacarıq, nə də zəhmət tələb etmir; bir nəfər gün ərzin-

də çətinlik çəkmədən 2, yaxud 5 kəsik açа bilər; hər partlayışdan beşdən yüz putadək duz qopara bilər; qonşu laylarda əmələ gələn çatlar duz kütləsindən yeni nəhəng parçalar ayırmağa imkan verir; beləliklə, dağın içəri qatlarına doğru irəliləməkdə davam edirlər. Münasib istiqamətlər üzrə duz laylarından əldə edilmiş məhsulu seçib götürərək açılmış lağım tükənənədək, yaxud üst qatların genişlənməsi nəticəsində iş təhlükəli həddə çatanadək davam etdirilir. Üst qatın duz təbəqəsi mədənin (qazmanın) xüsusilə genişlənməsinə imkan yaradaraq qübbəyəbənzər mağara əmələ gətirir, buna görə də onların qapanması nadir hallarda bədbəxt hadisələrsiz ötüşür; 1831-ci ildə qübbənin gözlənilməz uçqunun zamanı 7 nəfərdən ibarət olan otkupların (iltizam sahiblərinin - XIX əsrdə Rusiyada dövlətə müəyyən miqdarda pul vermək müqabilində xüsusi şəxslərə verilən vergi toplama hüququ) daxması müxtəlif qarışıqlarla örtülmüşdür. Sonrakı 50 ilin davamında təkcə duz çıxaranlardan 100-dən çox adam duz uçqunlarının altında qalaraq həlak olmuşdur, o cümlədən alıcılar da tez-tez belə aqibətlə üzləşirdilər.

Nə vaxtsa duz çıxaranlar və otkup sahibləri üçün yeni karxanalar açmaq hüququna dair hansısa məhdudiyyətlərin mövcud olduğu məlum deyil; yəqin ki əvvəlki dövrlərdə bu cəhət üzrə indiki ilə müqayisədə daha az qayda-qanun mövcud olmuşdur. Əvvəlki otkup sahibinin məzarı olmuş sonuncu qazma 1790-cı ildən işlənməyə başlanılmışdır, buna görə də bu hadisə hökumətin diqqətini yalnız son zamanlar cəlb etmişdir. Bundan sonra müqavilənin şərtlərinə görə yerli rəislərin icazəsi olmadan icarəçiyə yeni mədənlər açmağa razılıq verilmirdi.

1835-ci ilin qışında açılan yeni mədən adi quyu görkəminə malikdir. Üst kəsiyin istiqaməti üzrə yerin tərkinə doğ-

ru dərinləşir, bu səmtdə hərəkət çətin ki dərinliklərə çatmağa imkan versin, çünki indiyədək yalnız kifayət qədər yumşaq, gil və gipslə qarışıq yuxarı laylar çapılaraq götürülürdü. Bu mədən iş prosesi üçün həddən çox əlverişsizdir: əvvəlkilərdə duz çıxaranlar və alıcılar xarici duz qatının örtüyü altında günəş istisindən və pis hava şəraitindən qoruna bilirdilər; lakin burada, açıq quyuda qorunmaq qeyri-mümkündür, həm də yağış suları ilə yuyulan duz əvvəlkinin əksinə olaraq həddən artıq aşağı keyfiyyətdədir.

Burada duzun işlənməsi üçün duz yataqları Xok mahalının Şıxmahmud kəndinə aid edilmişdir, necə ki, Kulp mədəninə Kulpi kəndi aiddir. Şıxmahmudlu duz çıxaranlar 6 nəfərlik partiyaya bölünərək il ərzində bir-birini əvəz edərək bütün həftəni duz mədənində keçirir, bura gələn karvanların tələbinə uyğun olaraq duz tədarük edirdilər. Qış aylarında köçəri tayfalar qışlama üçün məskunlaşanda bəzən bütün həftə boyu bir nəfər də olsun alıcı görünmürdü. İlin bu vaxtında duzu yalnız yerli sakinlər və alıcılar alaraq onu ətraf mahallara aparıb satmağı faydalı hesab edirdilər. Yalnız dağların qarı getdikdən sonra Qarabağ sakinlərinin karvanları görünməyə başlayırlar; may ayının ortalarına kimi duz alveri sahəsində işlər hələ də sakit gedir; yalnız bundan sonra sentyabr ayınadək köçəri həyat tərzinə başlayan tatarların çoxsaylı dəstələri bura gəldikdə mədənin işi tam gücü ilə davam edir. Alıcıları ləngitməmək üçün duz çıxaranlar iş həftəsinə 12, bəzən də 18 nəfərlə çıxırlar, otkup sahibləri isə bəzən gün ərzində 100 gümüş rubl hasilat əldə edirlər. Beləliklə, mədənin əsas fəaliyyəti təxminən 4 ay ərzində məhdudlaşır, bu müddət ərzində 64.000 batmanadək duz istehsal edilir. Bu fakt həmin dövrdə mədənin necə fəaliyyət göstərdiyini təsəvvür etməyə imkan verir. Duz dağlarının susuzluğu, ən

adi bitki örtüyünün olmaması üzündən bəzən 500 və daha çox müxtəlif yükdaşıyan heyvanlardan ibarət olan karvanlar ətraf ərazilərdə - 1015 vest uzaqlarda dayanır, növbə gözləməyə məcbur olurdular. Onların yerdəyişmələri zamanı yerli sakinlərin əkinləri çox halda məhv edilirdi. Hər gün səhər tezdən karvan sahibləri mədənə gələrək öz növbələrinin vaxtını aydınlaşdırırdılar; mədəndə partlayış baş verən kimi alıcıların hamısı kütlə halında buraya hücum çəkərək bir-birilərinin əlindən iri duz parçalarını almağa çalışır, duz çıxarma alətlərini götürərək özləri çatlamış nəhəng duz qayalarını parçalayır, duz ovuntularını toplayaraq çalışırlar ki, tezliklə lazımi duz ehtiyatı əldə etsinlər, otkup sahibləri ilə hesablaşıb geri qayıtsınlar. Bütün bu proseslər hay-küy, qışqırıq, çığır-bağır, söyüş, savaşla müşayiət olunurdu. Bu arada bəzən onların yanında yaddan çıxaraq qalmış partlayıcı maddə gözlənilmədən partlayırdı və onların üstünə duz parçaları tökülərək müxtəlif zədələr vururdu. Nə xəbərdarlıqlar, nə hədə-qorxu və hətta islahedici tədbirlər bu qarmaqarışıqlıqlar içərisində qayda-qanun yarada bilmirdi, bu zaman otkup sahiblərinin darğalarına və duz çıxaranlara da hədə-qorxu və hətta yumruq davasından onlara da pay düşürdü. Mədəndə çalışan az saylı işçilər çoxsaylı duz alıcılarını idarə etməkdə çox çətinlik çəkirdilər. Onların vəziyyəti həm də ona görə xoşagələn deyildi ki, onlar mədəndə qalmağa məcbur edilir, açıq havada daldalanacaqsız yerlərdə yaşamalı olur, istidən və soyuqdan qoruna bilmir, susuz və odunsuz qalırdılar, çünki onlar mədənə 10 və daha çox verst uzaqdan gətirilirdi və çatışmırdı.

Naxçıvan Duz dağları ta qədimdən yerli xanlara otkup olaraq verilirdi. İran hakimiyyətində indiki sülalənin təsdiq olunmasından 30 il əvvəl, bir çox mahallar öz aralarında

fasiləsiz müharibəşəraitində yaşayan sahibkarlara malik olduqda və hal-hazırda buranın duzunu alan əsas alıcılar olan Qarabağ sakinləri Naxçıvan xanlığına ümumiyyətlə buraxılmayanda otkup ildə 30, 40, 50, 100, 150 və 300 tümənədək məhdudlaşdırılırdı və otkup sahibi Naxçıvan və digər xanları duzla müftə təmin edirdi. Xanların barışması və xanlıqlararası çəkişmələrin dayandırılması ilə otkup 700 tümənədək yüksəlirdi və indiki mələk Şeyx Mahmudski onu bu qiymətə saxlayırdı, lakin tez-tez baş verən quldurluq və qarətlər nəticəsində ziyana düşmüşdü. Bu cür qarətlərdə ilk növbədə Şıxmahmudlu duz çıxaranların özləri iştirak edirdi, onların özbaşınalığı o həddə çatmışdır ki, bəzən onlar otkupu döyərək onun pullarını alırdılar və icazəsiz olaraq istədikləri qədər duz götürürdülər. Bu dövrdə duzun əsas alıcıları yenə də qarabağlılar olurdular. Onlardan başqa bu duzdan həm də Şərur, Dərələyiz və Naxçıvan mahallarının sakinləri, qismən də Maku əhalisi istifadə edirdilər. Ordubadlılar isə yaxınlığına görə duz ehtiyatlarını Arazın o tayından təmin edirdilər. O vaxt duz batmanı (32 funt) 3 gümüş qəpiyə satılırdı. Duz satışından əldə edilmiş məbləğin üçdə ikisi otkup sahibinə, üçdə biri isə duz çıxaranlara çatırdı. Bundan başqa, hər yük öküzünə görə duz çıxaranın xeyrinə 8 gümüş qəpiklə tutqu tutulurdu. Duzun ilk qiymət artımı Fətəli şahın İranda hakimiyyətə başlamasından sonra baş verdi. O vaxtdan duz batmanı 6 qəpikdən satılmağa başladı, 1804 və 1805-ci illərdən onun qiyməti daha 2 qəpik artırıldı, lakin duz çıxaranlar əvvəlki kimi İran hökmranlığının sonuncu ilinədək hasilatın üçdə bir hissəsinə görə işləyirdilər, indi isə yalnız gəlirin ¼ hissəsini alırlar. Duzun batmanı 3 qəpiyə satılarkən otkupçular hasilat olaraq ildə 250 tümən alırdılar, duzun qiy-

məti artaraq 6 qəpiyə çatdıqda onlar 300 tüməndən çox ala bilmirdilər. Bu isə yalnız ona görə idi ki, Fətəli şah otkup sahiblərinə himəyədarlıq edərək onları duzçıxaranların özbaşınalıq hərəkətlərindən qoruyurdu. Qarabağın Rusiyaya birləşdirilməsindən sonra Naxçıvan xanı onun sakinlərini duz mədəninə buraxmırdı və buna görə də duzun qiymətinin sonuncu dəfə 2 qəpik artırılması duzçıxaranların xeyrini heç nə qədər artırmadı. Yalnız Gülüstan traktatından sonra Qarabağlılar buraya yenidən duz dalınca gəlməyə başladılar. Bu isə duzçıxaranların gəlirlərini 50 tümənədək artırdı, çünki o dövrdə Qarabağ əhalisi indiki kimi o qədər də çox deyildi. Ermənistan vilayətində bizim hakimiyyətimizin bərqərar olması ilə yerli rəhbərlik Şıxmahmudlu duzçıxaranların qazanclarını 1/5 hissəyədək məhdudlaşdırdı, onların xeyrinə yük öküzlərinin hər başına görə tutulan 8 qəpik tutqunu ləğv etdi, əvəzində isə baxıcının xeyrinə 2 qəpik yığım müəyyən etdi. Bu əsasda otkup qaydasında idarə olunmaya verilən duz mədəni 8 mart 1828-ci ildən 8 mart 1829-cu ilədək xəzinəyə 1000 tümən ödədi, sonra 1830-cu ilin 11 mart-iyul aylarında dövlət idarəetməsində qalaraq o 1255 rubl 13 qəpik gəlir gətirmişdir; 1830-cu ilin iyulundan mənbə yenidən otkup qaydasında istismara verildi və dövlətə ilk üç il üçün 13,200 rubl, ikinci 3 il üçün isə 18,000 rubl, nəhayət, 1836-cı ilin iyun ayından başlayan sonuncu dörd il üçün otkup sahibi cəmi 28,840 rubl, yaxud hər il üçün 7,220 gümüş rubl ödəməyi öhdəlik götürürdü.

İlk iki il ərzində (1829 və 1830) diyarda tuğyan edən taun və vəba xəstəlikləri alıcıları uzaqlaşdıraraq duz istehsalını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı; lakin sonrakı illərdə gəlirlər bərpa edildi və duzçıxaranların ehtirafına

görə 1833-cü ildə 2,044 rubl, 1834-cü ildə 2,134 və 1835-ci ildə 2,092 gümüş rubl; otkup sahiblərinə də onların etirafına görə, təmiz mənfəət aşağıdakı qaydada çatmışdır:

1833-cü ildə ----------1,376 rubl
1834-cü ildə----------1,777 rubl 24 qəpik
1835-ci ildə ----------1,598 rubl 78 qəpik

bu isə 3 il ərzində 25%-dək təşkil edir. Otkup isə 1830-1833-cü illərdə otkup sahiblərinə, onların etirafına görə, 7,000 rubldan az olmamışdır.

1831-ci il

Konstantin Nikitin

NAXÇIVAN DUZ MƏDƏNLƏRİ

Naxçıvanın cənub-qərbində bitki örtüyündən məhrum edilmiş çoxlu təpəliklər və yüksəkliklər vardır. Bu kimsəsiz və susuz sahə çox miskin və kədərli mənzərədir. Ancaq bu təpəlik yerdə, poçt yolu ilə gedəndə Naxçıvana çatmağa təxminən 12-15 verst qalmış, yoldan 2,5 verst solda Naxçıvan duz mədəni adlanan məşhur daş duz karxanası yerləşir. Su olmadığından torpağın barsız olduğuna görə 12 verstlik dairədə nə bir kənd var, nə bir qəsəbə. Duz karxanasında çalışan komanda, məmurlar və işçilər qazma evlərdə yaşayırlar. Duz üçün mağazalar kimi minaların özlərindən istifadə edirlər. Yaxınlıqda heç yerdə içməli su yoxdur və onu 12 verst aralıda yerləşən Naxçıvandan gətirirlər.

Böyük bir ərazidə emal edilən bu tükənməz duz mədənləri onların istifadəsinin qədimliyinə dəlalət edir. Məsələn, onlardan bəzilərində daş baltaları tapılmışdır, bu haqda yuxarıda xatırlatmışıq.

Duz qatları gil tərkibli bəzi dağlarda yerləşir. Bu qatların sıxlığı hər yerdə eyni deyil və əksər hallarda bu qatların qalınlığı çox cüzidir, bu səbəbdən, duz yalnız bir dağda çıxarılır, orada duz qatı xeyli qalındır və sanki bu gil dağının özəyini təşkil edir.

Burada iki əsas duz mağarası var. Yolun lap qırağında yerləşən aşağı mağaranın bir hissəsi uçmuş və buna görə onun üstü basdırılmışdır. O biri, indi duz çıxarılan mağara dağın ortasında yerləşir, oraya işıq mağaranın yuxarı hissəsində açılmış dar deşikdən düşür, buna görə də minalar dağın dərinliyinə getdikcə, yalnız şam işığında iş gedir.

Duzu çapmaq üçün onu dəmir linglə deşir və barıtla partladırlar. Bu, yüngül və rahat işdir. Bir işçi gün ərzində 40 puda qədər duz hasil edir. İşçilərdən duz kütləsinin müəyyən formada olması tələb edilmir. Duz yumrusunun çəkisi 1 funtdan 2,5 puda qədər olmalıdır. İri yumrular şəklində çıxarılan duzun hər pudu üçün 1,5 qəpik, xırda yumrular şəklində duzun hər pudu üçün ½ qəpik ödənilir. İndi ildə 200.000 pud duz çıxarılır, onun 120.000 pudu iri yumrular şəklində və 80.000 pudu xırda yumrular şəklində olur.

Duz buradan Naxçıvan, Ordubad, Yeni Bəyazid və Şuşa qəzalarına, həmçinin İrana satılır.

Duzun hər pudunun satış qiyməti onun çıxarıldığı yerdə iri yumrular şəklində duz üçün 10 qəpik və xırda yumrular şəklində duz üçün 5 qəpik, mədəndən kənar yerlərdə isə, məsələn, Naxçıvanda – bir pudu 18 qəpikdən 25 qəpiyə qədər, Şuşada – 60 qəpikdən 75 qəpiyə qədərdir.

K.A. Nikitin. Qafqaz ərazisinin və tayfalarının təsvir edilməsi üçün materiallar toplusu. 2-ci buraxılış, Tiflis, 1882, s.s.137-139

A.M. Marqolus
mühəndis

NAXÇIVAN-SUST DAŞ DUZ YATAQLARI

Duzlu formasiya Arazın sol sahilində geniş sahəni əhatə edir, həm də onu təşkil edən dağ süxurları burada Əznəbürd dağından Qara-Çuxa dağına kimi, demək olar ki, şaquli uzanan bır sıra yüksəkliklərdə müşahidə olunur.

Göstərilən ərazidə Arazın qədim vadisinin sahili iki böyük terraslardan (çay vadisi boyunca uzanan horizontal sahələr) ibarətdir, çayın gətirdiyi gil və qum ilə toplanmış aşağı vadisini isə eni 4-7 verst olan geniş çaybasar zolağı təşkil edir.

Bu, Qara-Çuxadan Tazı-Uçan dağına qədər olan axırıncı zolaq çox mailidir, çökəkdir, o burada açıq, sarı rəngli narın torpaqla və bəzi yerlərdə bitkilərlə örtülüdür. Qıvraq və Şahtaxtinsk yüksəklikləri başlanan şimal yerlər bir qədər sərtləşir, sıldırım olur və müxtəlif tərkibli çöküntü dağ süxurlarının düşmə bucağı 4°-dən 8°-yə qədər enib-qalxır.

Bu alçaq zolağın ardınca şərqə doğru dağ süxurlarının enmə bucağı 8° dən 12°-yə çatdığı daha yüksək zolaq gəlir; burada Duz-Dağ dağı en dairəsində, bəzi yerlərdə çayın vadisini sıxışdıraraq onun sahilinə yaxınlaşan kifayət qədər yüksək məntəqələr var. Bu zolaq özünü Araz çayına bir qədər meyilli, qırmızı-qonur gil və əhəngdən ibarət çöküntü süxuru ilə, bəzən isə kiçik qaya parçaları və çay daşları ilə örtülü sahə ilə göstərir.

Vadinin sahil boyunca yuxarıya doğru duz formasiyasının üzə çıxan süxur qatlarının enmə bucağı artaraq 12-18°-yə çatır. Bu zolaq Duz-Dağ dağının qərb yamacında, bu dağın yüksəklikləri ilə üç tərəfdən əhatə olunan kiçik ölçülü sahələri əhatə edən, Araz çayına azca meyilli görünən az-çox inki-

şaf edən terrasları əmələ gətirir. Burada, adın çəkilən dağın dibində Naxçıvan duz mədəni yerləşir.

Duz-Dağ dağının yamacında süxurların düşmə bucağı 20-26°-yə çataraq, xeyli dərəcədə artır; sonra şimal istiqamətində Əznəbürdə qədər uzanan yastı dağ silsiləsi başlayır. Bu yüksəkliyin dağıdılmış yerlərinin birində Naxçıvan mədənindən 6 verstə yaxın şimal istiqamətində Sust yerləşir.

Duz-Dağ dağından hələ cənuba 7 verst uzanan bu yüksəklik özünün geoloji quruluşuna görə yekrəng görünür, onu görünən yerlərdə aşağıdakı dağ süxurları təşkil edir (süxurların düzülüşü "yuxarıdan aşağıya" qaydasında göstərilir):

1. Heliks ilə qırmızı-qonur mergelli gil
2. Tərkibində duz və gil olan qırmızı-qonur və daha tünd rəngli gil
3. Qırmızı-qonur mergelli gil
4. Gipsin mərciyəbənzər əlavələri və layları ilə duzlu gil
5. Qırmızı-qonur və boz rəngli mergelli gil
6. Qalınlığı 8-12 verşə (35-53 sm) qədər çatan qatılaşmış gips
7. Qalınlığı 3-dən 12 sajenə qədər olan qalın lay şəklində gilli mergel
8. Gilli slaneç
9. Tünd boz, bəzi yerlərdə neft qoxusu verən qara rəngli gil
10. Boz-qonur mergel
11. Qalınlığı 0.35 sm-dən(8 verş) 1 arşına qədər təbəqə şəklində gips
12. Qalınlığı 1.27-dən 4.33 sajenə qədər qeyri-bərabər ölçüdə, tərkibində gil, mergel və digər topraq qarışıqları olan daş duz
13. Valvata pseudo-adeorbis Sinz tərkibli tünd boz mergel
14. Planorbus cornu Brongt. war. Mantelli Dunk. qırıntıları ilə tünd-boz, bəzi yerlərdə qara rəngli çox qatı və yapışqan olan gil.

Təsvir olunan süxurlar qrupu bu yerlərin duzlu formasiyasının çox nadir hallarda rast gəlinən ideal kəsimini göstərir.

Dağ suları kəslib parçalanmış yerlərdən, yarğanlardan axıb gedərək həm duz laylarını, həm də onu təşkil edən, su axımına davamlı olmayan süxurları güclü surətdə yuyub aparmışdır, digər süxurlar yataqlarının düzülüşü pozulmuşdur.

1. **Naxçıvan dövlət duz mədəni**

Adı çəkilən mədən Duz-Dağ dağının yaxınlığında İrəvan quberniyasının Naxçıvan qəzasında, təqribən 136 verst İrəvan şəhərindən kənarda, Naxçıvan qəzasının administrasiya rezidensiyasından 12-13 verst şimal-qərbdə yerləşir.

"Naxçıvan" dəmiryol stansiyasına mədəndən 15 verstlik məsafə vardır, lakin mədənə daha yaxın olan, 9-10 verstlikdə yerləşən Başbaşi yolayrıcı (kiçik stansiya) vardır ki, oraya 4 verstlik uzunluqda kifayət qədər təhlükəli köhnə Qarabağlar yolu gedir, beləliklə mədənin dəmiryol stansiyası ilə əlaqəsinin böyük çətinlikləri yoxdur.

Duz-Dağ dağı dəniz səviyyəsindən 3830 fut hündürlükdədir. O 39° 2' 6" şimal en dairəsində və 62° 57' 20" şərq uzunluğunda yerləşir. Duz hasilatı Araz çayı səviyyəsindən 737 fut yüksəklikdə həyata keçirilir. Nalabənzər formalı istehsal sahəsi üç tərəfdən dağlarla əhatə olunmuşdur. Naxçıvan dövlət mülkünün sahəsi 3442 ¾ desyatindir. (1desyatin -1.092 hektar)

Duz formasiyasını "yuxarıdan aşağıya" saymaqla aşağıdakı süxurlar təşkil edir.

1. Qırmızı-qonur rəngdə təbəqə şəklində mergelli gil qalınlığı...3-8.5 sajen
2. Laylı süxur şəklində gips qalınlığı.....0.25 sajen
3. Qırmızı mergelli gil qalınlığı.....0.7 sajen
4. Göyümtül çalarlı boz gil qalınlığı.....1.2 sajen
5. Balıqların izi qalmış gilli slaneq qalınlığı.....0.4 sajen

6. Neft qoxulu tünd boz rəngli gil qalınlığı..... ..0.9 sajen
7. Gips layları ilə qırmızı-qonur qalınlığı.....0.6 sajen
8. Daş duz qalınlığı ..... 1.27-4.34 sajen
9. Tünd boz rəngli mergel qalınlığı.....0.4 sajen
10. Qalınlığı 1.5 sajendən az olmayan qara gil

Daş duz yatağı onun tam tərkibini yox, ancaq adi gözlə görünən qatlarını və əhəmiyyətsiz süxurların: boz gilin, mergelin, gipsin və digər torpaq qarışıqlı laylarını göstərir. Əhəmiyyətsiz süxurların nazik qatlarını kəsib keçmiş duz laylarına hər yerdə rast gəlmək olar; mergelin qatları öz sabitliyi ilə fərqlənirlər, qalınlığı 2½ -3 verşə çatan mergelə həm mədən hasilatlnda, həm də mədəndən cənub-qərbdə yerləşən Persiyanın (indiki İran) köhnə mədənlərində rast gəlmək olar. Bundan başqa duzun tərkibində bu aşqarların xeyli sayda çox nazik, qeyri-bərabər yerləşən qarışıqları vardır.

İstehsal sahəsində duz qatının ümumi orta qalınlığı 4.33 sajen, şimal- qərb istiqamətində enmə bucağı 8° hesablanır.

Naxçıvan duzu şəffaf deyil, ağımtıl-boz rəngə malikdir, bəzən bozumtul-ağ rəngdə olur, - duzun laylanması narın diyircəkli olur. Nadir hallarda yarıqlarda şəffaf kristal duzlara rast gəlinir. Yatağın müxtəlif yerlərindən götürülmüş duz nümunələrinin kimyəvi analizinin nəticələri verildiyi aşağıdakı cədvəldən görünür ki, duzun tərkibini 75,17%-dən 83,7%-ə kimi natrium xlorid (NaCl) təşkil edir.

Duzun növü	NaCl	KCl	$CaCl_2$	$MgCl_2$	$CaSo_4$	H_2O	Suda həll olmayan qalıq	Cəmi %lə
Laylardan ibarət ağ kristal duz	83,70	yoxdur	0,21	0,36	1,06	4,32	10,31	99,96
Adi duz	77,04	-	0,13	0,20	0,98	7,16	14,46	99,97
Duz qalağından iri duz	76,81	-	0,90	0,47	1,07	6,63	13,98	99,86
Narın duz	75,17	-	0,82	0,74	1,15	8,64	13,29	99,81

Yataqlar bütünlükdə yeraltı işlərlə istismar olunur.

Naxçıvan duz quyusu yer səthi ilə a) 1889-cu ildə tikilmiş lağım vasitəsilə; b) burada "köhnə giriş" adlanan köhnə lağımla; c) köhnə, yarıdağılmış, möhkəmlənməmiş şaquli şaxta vasitəsilə; d) yeni mədən dəhlizinin yaxınlığında kəşfiyyat quyusu və e) yeni lağımın yaxınlığında yerləşən partlamış möhkəmlənməmiş çuxur vasitəsilə əlaqə saxlayır.

Köhnə giriş dik yan divarlarla ayrılmış yerdən başlayır, mergeldən düzəlmişdir. Mədən yerlərini su basmasından qorumaq üçün kəsim boyu yağış sularının axını üçün qanovlar qazılmışdır. Kəsimin axırında yerləşən mədən yerinə giriş bir neçə pilləli kiçik maili qalereyadan ibarətdir; hal-hazırda köhnə giriş quyuların havasının təmizlənməsi üçün istifadə olunur.

Yeni tikilmiş giriş kəsimdən və lağım yolundan ibarətdir. Kəsim, başlıca olaraq, mergel süxurları üzrə edilmişdir. Uzunluğu 14 sajen, 1 arşındır, eni bünövrəsində 2 sajendir. Yaxın yarğanlardan axıb gələn suları kənarlaşdırmaq üçün yerdən 1 ½ sajen hündürlükdə 60° maili səthə malik olan çıxıntılar düzəldilmişdir. Lağımın uzunluğu 10 sajen 1 arşın, eni 1 ½ sajen və o qədər də hündürlüyə malikdir. Lağım mergel, gil və duz yataqlarına kimi gedib çıxır.

Şaquli şaxta, onun yanındakı uçurum və kəşfiyat şurfu (mədən yataqlarını axtarmaq üçün qazılan quyu) ancaq quyunun ventilyasiya olunmasına xidmət edir.

Quyunun köhnə hissəsi şimaldan cənuba 90 sajen və qərbdən şərqə 92 sajen ölçülü dördkünc kameradan ibarətdir. Onun içərisində örtüyü saxlamaq üçün düzgün yerləşməyən daş duz dirəkləri saxlanmışdır. Bu təbii dirəkdərdən əlavə quyuda müxtəlif yerlərə keyfiyyətsiz duzdan yayılmış süni dirəklər də yayılmıdur. Onlardan bir çoxu örtüyə qədər çatdırılmamışvə yarıdağılmış haldadır, ona görə də onlar öz təyi-

natlarını təmin etmirlər. Bu səbəbədən köhnə girişdən təzəyə və digər mədən yerlərinə gedən yolda uçqunların qarşısını almaq üçün örtük direklərlə saxlanılır.

Göstərilən girişlərdən və işləyən quyulardan kənarda yerləşən köhnə mədənlər əhəmiyyətsiz süxurlarla dolmuş, zibillə və xırda duzla tutulmuşdur. Onlar hal-hazırda yalnız duz hasilatı zamanı lazımsız süxurların boşaldılmasına xidmət edir. Bu mədənlərin örtüyündə bir çox yerlərdə uçuqlar və yarıqlar müşahidə olunur.

Quyuda duz yığmaq üçün dörd köhnə anbar yerləşir. Bu anbarlar dayaq məqsədilə saxlanıb işlənilməyən kütlələr arasında olan boş yerlərdən ibarətdir və keyfiyyətsiz duz parçalarından hörülmüş divarlarla hasarlanmışdır. Əvvəllər yataq dövlət tərəfindən istismar olunan zaman hasil olunan duz anbarlarda saxlanılırdı, indi isə onlar mədən icarəçisi tərəfindən atılmışdır və duz quyunun içərisindəki qalaqlarda saxlanılır.

Köhnə işlər qazıntı işlərinin aparıldığı yerdən cənub-şərqdə yerləşmişdi, burada mədən yerləri su ilə dolur və bəzi yerlərdə uçulmuş örtüklər, həm də dağılmış direklər vardır, lakin ümumilikdə onlar mövcuddur və ehtiyatla işlənərsə bir çox yerlərdə direkləri çıxarmaq olar. Qazıntı yerindən qərbdə bəzi yerlərdə işlər dayandırılmışdır, belə ki, qazıntı yerləri su ilə dolmuşdur.

Naxçıvan mədənində duz yalnız barıtın partladılması yolu ilə hasal olunur. [1] Duz hasilatında 1 pudu 15 qəpiyə; bəzən əmək haqqı şpurların sayına görə verilir- şpurun dərinliyi 12 verş(53 sm), - ilin fəslindən asılı olaraq belə şpura görə 15, 18 və 21 qəpik ödənilir, həm də bu əmək haqqından icarəçi

[1] Mergel qatları 2 ½ -3 verşok qalınlığında quyunun hündürlüyü boyunca duz laylarını ayırararq iki hissəyə bölür, 1- ci mergel süxurunda kəsim edilir, sonra quyunun aşağı hissəsində şpur-mədən partladılmaq üçün süxurlarda açılan və içərisi barıtla doldurulan dəlik açılır, yuxarı hissəsi isə asılı vəziyyətdə qalır, beləliklə hasilat asanlaşır.

barıtın qiymətini də tuturdu(təmiz əmək haqqı hər şpurdan 11-14 və 17 qəpik qalır).

Göstərilən mədəndə hasilat 6000 kv.sajen sahəni əhatə edir, bu rəqəm 34 kv. verstlik Naxçıvan dövlət mülkünün müxtəlif yerlərindəki duz mədənlərində yataqların ölçüləri ilə müqayisədə çox kiçik rəqəmdir.

Yataqların minimal ehtiyatları aşağıdakı göstəricilər əsasında müəyyən oluna bilər. Göstərilən sahənin hüdudlarında daş duz yataqlarının süni surətdə aşkara çıxarılmasından əlavə başqa təbii hasilat da vardır: 2 ½ verş uzunluğunda məsafədə axırıncı məntəqələrdə duz layının qalınlığı 3,8 sajen və 1,27 sajendir; bu yatağın təmizlənməsi istiqamətində 1,25 verstlik məsafədə sonda layın qalınlığı 1,41 sajenə bərabərdir.

Beləliklə, göstərilən məntəqələr arsındakı sahədə layın qalınlığı

$$3{,}8 \text{ sajen} + \frac{4{,}33}{3\times2} \text{ (hasilatda)} + 1{,}27\ \frac{1{,}41+4{,}33}{2\times2} = 3 \text{ sajenə}$$

bərabərdir; yatağın minimal ölçüsünü onun enmə istiqamətində 2 ½ verst , təmizlənmə istiqamətində isə 1 ¼ verst qəbul etsək, onda Naxçıvan yataqlarının təkcə bu hissəsində duz ehtiyatı 1250 x 625 x 3 kub sajen və ya 1250 x 625 x 3 x 1400=3.281.250.00 pud olar.

Naxçıvan yataqlarında duz hasilatının miqdarına və onun satışına gəldikdə isə bu vaxta kimi bu çox da böyük olmamışdır; bu miqdar Qafqaz Dağ İdarəsinin hesabatından götürülmüş rəqəmlərdən ibarət cədvəldə aydın görünür.

İllər	Duz hasilatı (pudla)			Duzun satışı və daşınması (pudla)		
	İri	xırda	Cəmi	iri	xırda	cəmi
1889	24.191	3.840	28.031	49.738	--	49.738
1890	131.607	51.074	182.681	67.694	32.619	100.313
1891	198.543	48.079	246.622	85.078	26.081	111.159
1892	228.841	27.928	256.769	195.450	27.808	223.258
1893	81.555	76.786	158.341	142..649	20.196	162.845
1894	155.011	23.206	178.217	208.369	31.637	240.006
1895	80.603	13.931	94.534	130.661	15.491	146.152

1896	101.638	19.876	121.514	130.327	17.676	148.003
1897	173.263	18.576	191.859	107.749	15.207	122.956
1898	151.227	9.961	161.188	91.157	15.539	106.696
1899	276.272	30.971	307.243	143.489	16.171	150.660
1900	139.749	55.735	195.484	128.105	14.313	142.418
1901	79.057	3.602	82.659	146.863	8.453	155.316
1902	92.217	--	92.217	105.276	12.372	117.648
1903	278.965	24.480	303.445	14.306	13.964	28.270
1904	353.656	39.676	393.332	161.830	5.601	167.431
1905	39.480	5.306	44.786	91.203	112	91.315
1906	--	--	--	62.044	--	62.044
1907	84.045	--	84.045	167.847	--	197.847
		yekunu	3.122.947		yekunu	2.533.075

Cədvəldən görünür ki, Naxçıvan mədəninin orta illik istehsal gücü 19 il ərzində 164.365 puda bərabərdir.

Bu vaxta kimi istehsal olunan bütün duz başlıca olaraq, yaxın ətraflarda – İrəvan quberniyasının Naxçıvan, Şərur-Dərələyəz, Yeni-Bəyazit qəzalarında; Yelizavetpol quberniyasının Şuşa, Zəngəzur qəzalarında satılırdı, yalnız az bir hissəsi xaricə, Araz çayına yaxın İran kəndlərinə göndərilirdi.

Naxçıvan duzunun əsas bazarında satış qiyməti indiki vaxtda aşağıdakı kimidir: dövlətlə müqaviləyə görə mədəndə 1 pud duzun qiyməti iri duz – 10 qəpik, xırda – 5 qəpik. Naxçıvanda icarəçinin anbarında iri duzun 1 pudu 18-19 qəpik, satışda 19-20 qəpik; Cəhri kəndində 15-17 qəpik; İrəvanda 21-23 qəpik; Culfada 25-27 qəpik; Şuşada 30-32 qəpikdir.

Zaqafqaziya dəmir yolunun Uluxanlı-Culfa xətti ilə yükdaşınmanın açılması ilə quyuların istehsal gücü artacaq və dəmir yolundan 38 verst kənarda yerləşən Kelpinsk mədəni ilə rəqabəti çətin olmayacaq.

Mədəndən Baş-Buşı yolayrıcına dəmiryol xəttinin çəkilməsi Naxçıvan duzunun yeni bazarlarla təmin olunmasını asanlaşdırar.

Naxçıvan mədəninin içməli su ilə təmin olunması ciddi məsələdir; hal-hazırda mədənə suyu Naxçıvana gedən yolda

yerləşən bulaqlardan çəlləklərlə gətirirlər, bu yalnız işçilərin ehtiyaclarını ödəmək üçündür. Yüz baş və daha çox heyvan üçün buraya duz almağa gələnlər əlacsız qalırlar, ona görə də onlar çox vaxt məcburi olaraq suyu daha çox olan Sust mədəninə yollanırlar.

1907-ci ilin sonuna kimi hər iki mədən bir icarəçinin əlində idi, bu hal Naxçıvan mədəni üçün xüsusi əhəmiyyət kəsb etmirdi, yalnız alıcılar üçün zərərli idi (Naxçıvan mədənindən Sust mədəninə kimi ən qısa yol 7-7 ½ verstdən az deyil), lakin hal-hazırda Sust yataqları onun sahibi tərəfindən istismar olunduğu vaxt, dövlət mədənlərinin ətraflarında içməli suyun olmaması hökmən istehsalın məhsuldarlığında özünü göstərməlidir. Bu səbəbdən Naxçıvan mədəninin su təchizatına xüsusi diqqət yetirilməlidir.

Göstərilən yataqlarda daş duzun ehtiyatlarına qayıtdıqda, göstərmək lazımdır ki, Naxçıvan dövlət mülkünün hüdudlarında indiki və mədənin digər qonşu sahələrindəki yataqları hələ istismar etmək olar; bundan əlavə dövlət mülkünün ətraf yerlərində bir sıra belə duz layları vardır ki, yaxın vaxtlara kimi duz istehsal olunurdu.

İndiki Naxçıvan mədənindən cənub-qərbdə, köhnə iş yerləində təqribən buradan 2 verstlik məsafədə duz formasiyasını gilli-mergel qatları təşkil edir. Daş duz qalınlığı burada 3 sajen; mergel layları mədəndəkindən nazikdir; gipsin layların örtən bilavasitə duz qatının qalınlığı ¼ -dən ½ verşə qədərdir, mergelin alt duz qatı, əksinə öz qalınlığı ilə fərqlənir – 0,7 sajendir və tünd, demək olar ki, qara rəngdə olur. Göstərilən yerdə yataqda istehsal ruslar tərəfindən, bu vilayətin rus imperiyasına qoşulduqdan dərhal sonra aparmışdır.

Köhnə işlənmiş fars yataqları bir qədər cənubda Rəhimxan-Təpə dağında yerləşir. Görünür, burada fars hökmranlığı dövründə duz hasilatı üzrə əsas işlər burada cəmləşmişdi.

Onun qalıqları şəklində lazımsız süxurla dolmuş şaxta qalmışdır, burada qalınlığı 1,36 sajen daş duz layları və qalınlığı 6 verşok olan mergelin nazik layları yarılmışdır.

Bu yataq da Naxçıvan mədəninin davamıdır, mədənin 3-cü yeraltı yolunda (Ştrekdə) üzə çıxmış süxurlardan bu aydın görünür.

Süxurların qatəmələgəlmə ardıcıllığı aşağıdakı kimidir:

1) Yatağın əsas süxurunu təşkil edən qırmızı və qonur mergelli gil qalınlığı.....1 sajenə yaxın
2) Sarı mergelli gil.....0,3 sajen
3) Göyümtül-boz gil .....0.21 sajen
4) Tünd-boz gil.....0,17 sajen
5) Lay şəkilli gips.....0,12-0,2 sajen
6) Duz qatı.....1,36 sajen
7) Duzqatları ilə tünd-boz rəngdə gil..... 1,1-1,17 sajen
8) Tünd-boz gil..... 0,7 sajen

Daş duzun bu layı, həmçinin Kültəpə dağının qərb yamacında üzə çıxır, onun qalınlığı və qatəmələgəlmə şəraiti Rəhim-xan-Təpədə olduğu kimidir.

Naxçıvan və Sust mədənləri arasında üç yerdə doldurulmuş çuxurlar şəklində əvvəlki duz hasilatının izləri qalmışdır .Görünür burada, həmin (Naxçıvan) daş duz layları istismar edilmişdir, layın qalınlığı bu yerlərdə mədən yerində olduğundan bir qədər azdır - qalınlığı 3,45 sajendən 4,15 sajenə kimi dəyişir.

2. Sust duz mədəni

Bu mədən Əznəbürd kəndinin xanlarına – Kəlbəlixanovlara məxsusdur. 1907-ci ilin dekabrından onu özləri istismar edirlər, bu mədən Sust kəndindən cənub-şərqə doğru 3 verslikdə və təqribən 6 verst Naxçıvan mədənindən şimala doğru

düz istiqamətdə yerləşir. Burada daş duzun qatəmələ̇glə şəraiti Naxçıvan mədənində olduğu kimidir; layın orta qalınlığı 2,67 sajenə bərabərdir.

Mədəndə duz çıxarılması 1868-ci ildə başlanmışdır və yalnız yeraltı içlərlə hasil olunur.

Sust quyusu yerin səthi ilə ştol və şaxta vasitəsilə birləşdirilir. əsas ştol-yeni hazırlanmış, uzunluğu 62 sajen; eni və hündürlüyü 1 sajen, mailliyi 5-6° olan yeraltı dəhlizdir. Köhnə dəhlizlərdən, icraçının şərəfinə adlanan Kozieski dəhlizi artıq çoxdan uçulub dağıdılmış, ikincisi isə yalnız ventilyasiya məqsədinə xidmət edir.

Yeni dəhliz 60 sajen uzunluğunda keyfiyyətsiz süxurlardan vəə duzlardan keçir. Yeni dəhlizdən əsas yeraltı yol gedir. Yeraltı yollar da quyunun dibində 4° mailliyə malikdir, çıxarılan duz bu yolla yuxarı qaldırılır.

Duz istehsalı Naxçıvan mədənində olduğu kimi, burada da barıtın partladılması yolu ilə həyata keçirilir, əvvəlcə layın aşağı hissəsi mergel qatına kimi çıxarılır, sonra isə yuxarı hissəsi.

Qazıntı quyusunun yuxarı hissəsinin hündürlüyü 2 arşına qədər, aşağı 2 ¼ arşın, nəticədə 4 ¾ arşın hündürlüyündə duz qatı çıxarılır.

Keyfiyyətinə görə duz Naxçıvan mədənində olduğu kimidir, bəzi yerlərdə isə daha təmiz və şəffafdır. Duz nümunələrinin kimyəvi analizinin nəticələri aşağıdakı cədvəldə verilmişdir.

Duzun növü	NaCl	KCl	$CaCl_2$	$MgCl_2$	$CaSo_4$	H_2O	Suda həll olmayan qalıq	Cəmi %lə
Laylardan ibarət ağ kristal duz	84,1	izləri var	0,19	0,21	0,43	5,01	10,02	99,96
Adi duz	77,89	-	0,21	0,44	1,02	6.82	14.11	99,9999,85

Duz qalağından iri duz	75,81	--	0,40	0,39	0,98	8,42	13,85	
Narın duz	75,23	izləri var	0,86	0,51	0,84	9,53	13,12	99,59

Çox vaxt quyu bir-birinə qarışmış boz və ağ duz laylarından ibarət olur, layların boşluqlarında kristal duzlara da rast gəlinir. Sust duzu yalnız öz yerində satılır, az hissəsi İrana göndərilir.

Şaxtada dayaq məqsədi ilə saxlanıb işlənilməyən süxur kütləsində horizontal yerdəyişmə baş vermişdir; duz qatları bu yerlərdə lazımsız süxurlara kimi qazılıb çıxarılmışdır və onun davamı üçün heç bir kəşviyyat işləri aparılmamışdır, işlər ancaq şərq quyularında davam edir.

İçməli su artıqlaması ilə mədəndən 3 verst aralıda yerləşir və onu iş yerinə aparmaq çətin deyil.

Sust mədəninin yaxınlığında iki yerdə daş duz layları üzə çıxmışdır: başlıcası, təqribən 300 sajen, mədəndən şimal-şərqə Ağ-Duzdağda layın qalınlığı 1,45 sajenə çatır, ondan şimal-şərqdə 1-ci verstdə duz layının qalınlığı 1,45 sajendir.

Ağ-Duzdağda su və ya küləklə gətirilmiş şöküntülər altında qalmış duz layları lazım gəldikdə istismar oluna bilər. Ümid etmək olar ki, mədənə doğru istiqamətdə duz layları çılpaq yerlərdə olduğundan az zədələnmiş olacaq, onun qalınlığı isə tədricən artacaq.

Daha uzaq yerlərdə çılpaqlaşmış laylara görə duz qatlarının daha geniş yayılmasından danışmaq olar. Belə yerlərə: 1) Ağ-Duzdağdan şərqə 2½ verstlikdə Tavla-dərəli deyilən yer; 2) bundan qabaqkı yerdən 2¼ verst aralıda Ağ Quyu dağı – burada duz layları həmin süxurlarda qat əmələ gətirir, lakin onun WS enmə bucağı 120°, qalınlığı çox azdır 2¼ arşın; 3) Cəhri kəndindən 1 verst aralı olan Kövərçin-Təpə dağı aiddir.

Keçmiş dağılmış yerlərdən görünür ki, burada duz hasilatı geniş miqyasda aparılmışdır. Bu şaxtanın yaxınlığında layın qalınlığı 2 verşə çatan ikinci çılpaqlıqlar vardır, burada istehsal dağıtma, parçalama yolu ilə aparılmışdır.

Duz mənbəyinə yol Kövərçin-Təpə dağından başlayır, su buradan Şorsu yarğanına axır. Şorsu Naxçıvandan 4 verst şimal-qərbdə olan şosseyə çıxır. Mənbənin su məhlulu 1 dəqiqə ərzində 2½ vedrədir, məhlulun tündlüyü 114,5° Bomedir.

Beləliklə, Sust mədəni yaxınlığında Süst kəndindən Rəhim-Xan-Təpə dağına kimi ərazilərdə və Duz-Dağ dağının qərb yamacından Kövərçin-Təpə dağına qədər olan məsafədə daş duz hasilatı eyni yataqlara məxsusdur.

Göstərilən yerlərdən kənarda, qərb və cənub-qərb istiqamətində süxurlar yuyulub aparılmış, başqa yerlərdə isə yerin səthindən çox aşağıda yerləşməkdədir.

Bu yatağın qalınlığı Sustdə 2½ sajenə bərabərdir, Duz-Dağ istiqamətində bu artır-4,33 sajenə çatır, sonra isə cənub-qərb istiqamətində qalınlıq azalaraq Rəhim-Xan-Təpə dağında 4 arşına çatır.

Duz-dağ dağında da duz layının istiqaməti ondan cənub şərqə SW= NO 96°, Sust mədənində və ətraflarında duz layının istiqaməti NW= SO 83°, enmə bucağı NO=353°; Naxçıvan mədənində N=O, enmə N təşkil edir. Bütün məsafədə layın enmə bucağı 4°- dən 12° -yə kimi dəyişir.

Yatağın hasilatı göstərilən sahələrdən daha uzaqlarda da həyata keçirilir. Bu, Əznəbürd kəndinin yaxınlığında, Cəhriçay dərəsində və Naxçıvançay vadisində müşahidə olunur. Didibar kəndindən cənuba doğru 11-12 verstlik uzunluqda böyük məsafə quraqlıq dövründə rəngi solmuş duz ilə örtülür, gil və gilli qum daşları burada duzludur, dağ dağıntılarında da duz laylarına tez-tez rast gəlmək olar. Yuxarı Uzunoba və Aşağı Uzunoba kəndinin ətraflarında qalınlığı ½ - ¾ arşın

olan çılpaqlaşmış duz layları vardır, duz burada mergelli və qumlu gillərin arasında olur və yerli və ətraf kəndlərin sakinləri tərəfindən hasil olunur.

Duzlu süxurların yayıldığı rayon göstərilən sahədən xeyli uzaqları əhatə edir. Duzlu və mergel Dərinsuçay çayının sahil yamacları boyunca geniş ərazilərdə rast gəlinir, kəndin kənarlarında çılpaqlaşmış duz layları vardır.

Digər hasilat Danagir, Aşağı Əylislər və Ağrı kəndləri ətrafında müşahidə olunur. Bir neçə çılpaqlaşmış duz layları Ordubadın ətraf yerlərində də vardır. Nehrəm kəndi yaxınlığında böyük duz mənbəyi yerləşir.

Ararat dağının yanında və Alagöz sıra dağlarından ayrılmış qollarında mergelin və duzlu gillərin çox olması Araz çayı vadisinin sol sahilində duzlu süxurların geniş yayılmasından xəbər verir, həmçinin Məlişkə və Söylən kəndləri yaxınlığında və Arpaçay vadisində daş duzun çılpaqlaşmış laylarına rast gəlmək olar.

Torpağın duz tərkibli olması Şərur-Dərələyəz qəzasının bir çox yerlərində xeyli nəzərə çarpır, ona görə də belə torpaqlarda əkinlər, ancaq onu güclü yuduqdan sonra həyata keçirilir. Keşiş-Kənd kəndinin sakinlərinin dediklərinə görə torpağı əkin üçün, 1-2 il ərzində duzdan yuyub təmizləyərək hazırlamaq lazımdır.

Sust mədənində daş duz ehtiyatları– 1500 x 1250 x 1400=2.625.000.000 puddur.

Bütünlükdə Naxçıvan-Sust yataqlarının yuxarıda göstərilən hüdudlarında duzun ehtiyatı tükənməzdir.

"Материалы для геологии Кавказа".
Тифлись, 1909, стр.150-172

DUZDAĞ

ARAŞDIRMALARI

Məhəmmədəli Hüseynov
Tarix elmləri doktoru, professor

NAXÇIVANIN QƏDİM DAŞ ÇƏKİCLƏRİ

Azərbaycan EA Tarix Muzeyinin materialları əsasında Azərbaycan SSR EA akademiki M.M.Əlizadə tərəfindən təqdim edilmişdir

Məlumdur ki, min illər boyu yerin dərin qatlarında qalan və bizə məlum olmayan qədim tarixi qalıqlar ancaq arxeologiya elmi sayəsində aşkara çıxarılaraq öyrənilir.

İbtidai insanlar hələ metaldan istifadə etməyə başlamamışdan əvvəl, öz alətlərini daşdan hazırlamışlar. Qədim insan istifadə etdiyi çaxmaq daşından həm silah və həm də bir sıra təsərrüfat alətləri düzəldirdi.

Çaxmaq daşından istifadə etməyi öyrəndikdən sonra, insanın bu daşa olan tələbatı daha da artmağa başlayır. Bununla əlaqədar olaraq məhsuldar qüvvələr inkişaf edir və get-gedə insanların istehsala olan münasibəti da dəyişir.

Beləliklə, onlar böyük çaxmaq daşı mədənləri yaradıb daş istehsal etməyə başlayırlar. Qədim insanların mənafeyi üçün istehsal edilən bu daşlardan heç şübhəsiz, yeni alətlər hazırlanırdı. Qeyd etmək lazımdır ki, daş dövründə yeni texnikanın əmələ gəlməsi həmişə zəif olmuş, lakin bir nöqtədə dayanıb qalmamışdır.

İnsanların yeni-yeni texniki alətlər kəşf etmələrinə baxmayaraq, hamarlama üsulu (polirovka) vurma üsulunu sıxışdırıb aradan çıxartsa da, lakin çaxmaq daşı öz möhkəmliyinə, asan düzəldilməsinə, işlətmək üçün həmişə əlverişli olmasına görə ondan daş dövründən sonralar da istifadə edilmişdir.

İnsanlar çaxmaq daşından başqa ən bərk cinsli daşlardan: nefrit, diorit, fibrolit, jadeit, xloromelanit, pesçanik, dolomit, bazalt, qranit, kvarsit və sairlərdən alətlər düzəltmişlər.

Bir çox alimlərin fikrinə görə, daş dövründə şaxtalarda başlıça rol oynayan daş çəkiclər, baltalar olmuşdur[1].

Böyük daş mədənlərində odun köməyilə parçalanmış daş təbəqələrini ancaq balta vasitəsilə vurub ayırırdılar.

Yeni və təkmilləşmiş texnika (müxtəlif balta, çəkicvə s.) sayəsində, çaxmaq daşı və duz mədənlərindən istifadə etmək qədim insanlar üçün daha asan olurdu. Daş dövründə çaxmaq daşına tələb o qədər artıqdı ki, mədənlərdən istehsal edilən çaxmaq daşları başqa şeylərə mübadilə edilirdi. Çaxmaq daşına olan ehtiyacın nəticəsində iri çəkiclərə tələbat da artırdı. İnsanlar ondan nəinki mədənlərdə, hətta təsərrüfatın başqa sahələrində də istifadə edirdilər.

Yeni daş dövründə çaxmaq daşı mədənləri və orada işlədilən ağır baltaların nişanələri nəinki Qərbi Avropa, Yaxın Şərq, Uzaq Şərq, Rusiya ərazisində, hətta Azərbaycan ərazisində də əldə edilmişdir.

Xanlar rayonunda Gillik dağda tapılan çaxmaq daşı karxanaları və Naxçıvan duz mədənlərindən tapılan daş çəkicləri, baltaları, toxaları həmin dövrün yadigarı sayıla bilər.

Beləliklə, deyə bilərik ki, Azərbaycan ərazisi öz abidə qalıqlarına görə çox qədim bir mədəniyyət tarixinə malikdir.

Belə qədim mədəniyyət qalıqları uzun illər səyyahların, alimlərin və elm həvəskarlarının nəzərini özünə çəlb etmişdir. Qeydetdiyimiz bu mədəniyyət qədim daş dövründən başlayaraq, həmişə inkişaf etmiş və bir çox xalqların mədəniyyətilə qarşılıqlı əlaqəyə girə bilmişdir. İndiyədək əldə ədilən daş və metal dövrünün izləri buna canlı misaldır.

---

[1] Б.Л.Богаевский.История техники, т.I М.-Л, 1936, стр. 231.

Böyük Oktyabr sosialist inqilabından əvvəl Azərbaycan həm xarici, həm də böyük rus alimlərinin diqqətini özünə cəlb etmişdir. Azərbaycanda arxeologiyanın öyrənilməsinə əsasən XIX əsrin II yarısından başlanılmışdır (Beyern, F.Dyubua, de Monpere, M. İ.Brosse və s.).

Daha sonralar isə, əsas qazıntı işlərilə məşğul olanlardanResler, İ.İ.İvanovski, Rozendorf, Skinder, Belk, Jak-Morqan, Lalayanvə s. göstərmək olar.

Yuxarıda göstərdiyimiz şəxslərdən başqa daş dövrünün izlərini toplayanlardan Nikitin, Koşkul, Beyer, Radde, Polyakov, Nadejdin və başqalarını da qeyd etmək olar.

Azərbaycanda istər qədim, istər yeni daş dövrünün öyrənilməsi çox zəif və demək olar ki, tədqiq edilməmişdir.

Doğrudur, Naxçıvan daş baltaları haqqında inqilabdan çox-çox əvvəl bir çox məlumatlar vardır.

Bu haqda birinci dəfə məlumat verən Naxçıvan şəhər məktəbinin inspektoru K.A.Nikitin olmuşdur. O, həmin baltalar haqqında ətraflı olmasa da, hər halda müəyyən bir fikir söyləmişdir. 1870-ci ildə həmin duz mədəni tikintisi işçilərindən qraf Beyern tərəfindən bir neçə ədəd daş balta və daş iskənə əldə ədilmişdir ki, bunun da ikisi Naxçıvan məktəbinə, bəziləri Tiflis və Peterburq muzeylərinə göndərilmişdir.


Nikitinin fikrinə görə həmin daş alətlər hələ metal məlum olmadığı bir dövrdə, ibtidai insanların Naxçıvan duz mədənlərində istifadə etdikləri baltalardı[1].

1879-cu ilin noyabrında rus alimi Polyakov Naxçıvana gəlmiş və həmin il Naxçıvan Duz mədənlərinin ətrafından bir neçə daş baltalar tapmışdır. Lakin o, həmin daş baltaların yanında qeyri-qalıqlara (çaxmaq daşı, metal və fauna-flora

[1] К. А. Никитин. Гор. Нахичевань и Нахичеванскии уезд. Сб. материалов для описания местностей и племен Кавказа, в. 2, 1882, стр. 115.

qalıqlarına) təsadüf etməmişdir.

Elə buna görə də Polyakov əldə edilən daş alətlərin düzgün tarixini verməkdə çətinlik çəkmişdir. Lakin onun fikrinə görə budaş baltalar metal dövrünün adamlarına aid və çox ola bilsin ki, daha qədimdir[1]. Polyakov bu alətlərin tarixindən əlavə onların nə üçün işlədildiklərini də qeyd etmişdir. Ona görə, bu daş baltalar ancaq daş duzu parçalamaq və ya əzmək üçündür. Lakin Polyakov bu daşların harada istehsal edildiklərini aydınlaşdıra bilməmişdir. Ancaq bunların çay daşından, slansdan və başlıca olaraq diorit növündən istehsal olunduqlarını qeyd etmişdir. Bu diorit növü daş baltalarının bəziləri yerli çay daşından olduğu üçün onlar əsasən parçalamaq və ya qırmaq üçün işlədilirmiş.



1-ci şəkil

1895-ci ildə həmin duz mədənlərindən E.A.Lalayan bir neçə ədəd daş balta tapmışdır. Lakin o da bunların hansı dövrə aid olduğunu təyin edə bilməmişdir.

1936-cı ildə Noraşen rayonunun Şahtaxtı kəndindəki Gourqalada qazıntı işləri aparılarkən A.Ələkbərov bir ədəd balaca daş balta tapmışdı (inv. № 1589).

Həmin daş balta boyalı qabların altındakı təbəqədən əldə edildiyinə görə Ələkbərov onu neolitə aid edir. Lakin Ələkbərov həmin baltanı duz mədənlərindən tapılan baltalarla müqayisə etməmişdir.

---

[1]Из дневника Полякова. Протоколы Подготовительного комитета V археологического съезда. Прил. к в. I, т. IX. Древности. М., 1882, стр. 214

1951-ci ildə Azərbaycan SSR EA Tarix və Fəlsəfə İnstitutunun kiçik elmi işçisi O.A.Həbibullayev də Naxçıvan SSR-də Kültəpə deyilən yerdən daş baltalar əldə etmişdir. (Kültəpə qeyd etdiyimiz duz mədənlərindən təxminən 20 *km* aralıdır).

Həbibullayev ikinci orta təbəqədən əldə etdiyi daxi baltalarla birlikdə gil qabları Zaqafqaziyada eneolit yaşayış yerindən tapılan gil qablarla müqayisə edərək, həmin təbəqəni eneolit dövrünə və ya tunc dövrünün başlanğıcına aid edir[1].

İndiyə qədər əldə edilən alətlər demək olar ki, təsadüfi tapıntılara əsasən aşkara çıxarılmışdır. Həm də daş dövrünün öyrənilməsi üçün Azərbaycanın heç bir yerində əsaslı və ardıcıl qazıntı işləri aparılmamışdır.

Naxçıvan duz mədənlərindən toplanılan daş baltalar da təsadüfi əldə edilmiş qədim alətlərdəndir. Həmin alətlərin tarixi haqqında Azərbaycan arxeoloqları arasında hələlik müəyyən bir fikir yoxdur. Lakin arxeoloqlarımız arasında bunlardan bəzilərinin daş dövründə, bəzilərinin isə hələ metal və orta əsrlərdə istifadə edildiyini güman edənlər vardır.


Bu məqalədə isə məqsəd, Azərbaycan Tarixi Muzeyində saxlanılan daş baltalar haqqında məlumat verməkdən ibarətdir. Qeyd etmək lazımdır ki, hələlik Həbibullayevdən başqa Naxçıvanın maddi-mədəniyyət tarixinin öbrənilməsi üçun ardıcıl qazıntı işilə məşğul olan özgə bir kəs yoxdur.

Daş dövrünün tədqiqi hazırda Tarix və Fəlsəfə institutu ilə Azərbaycan Tarixi Muzeyi tərəfindən birlikdə aparılır[2].

---

[1] О.А.Абибуллаев. Краткое сообщение Института истории материальной культуры АН СССР, в. 51, М., 1953, стр. 44.

[2] Azərbaycan SSR EA prezidiumunun qərarı ilə prof. S. N. Zvyatinin Bakıya dəvət edilmişdir. Onun rəhbərliyi ilə Mərəzə, Şamaxı, Xanlar, Ağstafa, Qazax rayonlarında qazıntı işləri aparılmışdır. Əldə edilən daş alətlərə əsasən Qazax rayonunun Daşsalahlı kəndində qədim daş dövrünün izləri məlum olmuşdur.



2-ci şəkil


Bütün bunlara baxmayaraq, inqilabdan əvvəl və sonrakı elmi mülahizələr, Kültəpə materialları qalıqlarının özü Naxçıvan Duz mədənlərindən tapılan daş baltaların tarixi haqqında fikir söyləməyə imkan verir.

Təxminən 1936-cı ildə Naxçıvan duz mədənlərində inqilabdan qabaq təsadüf edilən daş baltalardan əlavə, müxtəlif böyüklükdə və müxtəlif məqsədlər üçün işlədilə bilən 8 ədəd daş balta tapılmış və Bakı şəhərindəki Azərbaycan Tarixi Muzeyinə verilmişdi. Həmin baltalar aşağıdakılardır:


1-cibalta (inv. № 1470) boz çay daşından hazırlanmış, badam şəklindədir. Bunun bir ucu olduqca iti, digər ucu isə yumrudur. Bunun küpünə yaxın dərin boğma açılmışdır. Uzunluğu 21 *sm* eni 12 *sm*, qalınlığı 8*sm*, *yu*mru tərəfin qurtaracağı 7x5 *sm*, ağırlığı isə 4 kq-dır. Bu daş balta olduqca yaxşı hamarlanmışdır.

2-ci balta(inv. №1475) öz forması etibarilə və hazırlanma texnikasınagörə birincidən heç də fərqlənmir. Lakin bunun boğması birincidəndaha dərindir. Diqqət etdikdə küpünün işlənilməsi açıq nəzərəçarpır.

Bunun iti ucu isə qırılmışdır. Uzunluğu 15 *sm*, eni 12 *sm*, qalınlığı 10 *sm*, ağırlığı isə 5,5 kq-dır.



3-cü şəkil




4-cü şəkil

3-çü balta (inv. № 1476) əvvəlkilərin tipindən olmaqla onlardan yalnız formaca fərqlənir. Birinci və ikinci balta yumru olduqları halda bu dördküncdür. Əlbəttə, bunun dördbucaqlı olması təbii deyil, əl ilə hazırlanmışdır. Bir ucu dördkünc, digər ucu iti (şiş) olmuşsa da qırılıb itmişdir. Küpünə yaxın boğma açılmışdır.


Əldə edilən hissənin uzunluğu 16 *sm*, qalınlığı 11 *sm*, ən enli yeri 12 *sm*, ağırlığı isə 4 kq-dır.

4-cü balta (inv. № 1473) öz formasına görə birinci üç daş baltadan fərqlənir. Bunun quruluşu yumurta şəklində olmaqla boğması tam ortadan dayaz qazılmışdır. Hər iki tərəfi sınıqdır. Ola bilsin ki, bu sınıqlar çox işlənilməkdən olmuşdur. Uzunluğu 18 *sm*, eni 18 *sm*, qalınlığı 9*sm*, ağırlığı isə 5 kq-dır. Öz formasına görə eni də, uzunu da birdir.

5-ci balta (inv. № 1474) öz formasına görə iskənəyə oxşayır. Birucu iti və az yastı, digər ucu (küpü) bir balaca yumruvaridir. Həmin yumruvari tərəfə yaxın yerində boğmasıvardır.İti və yastı ucu bir-iki yerindən azca qırılmışdır. Bu, yəqin ki, uzun müddət işləndiyinə görə olmuşdur. Uzunluğu 15 *sm*, eni 14 *sm*, qalınlığı 6 *sm*, nazik yastıuçu 11*sm*, ağırlığı isə 2,5 kq-dır.




5-ci şəkil




6-cı şəkil

6-cıbalta (inv. № 1471) öz formasına görə əvvəlki baltalardan tamamilə fərqlənir. Həm də ibtidai daş toxaya oxşayır. Ortasından dərin boğma açılmışdır və başdan-başa mükəmməl hamarlanmışdır. Qalınlığı 11 *sm,* ağırlığı isə 14,5 kq-dır.

7-ci balta (inv. № 1472) öz formasına görə olduqca maraqlıdır.




7-ci şəkil



Şəkil-8

Hər tərəfdən mükəmməl sürtülub yumrulandırılmışdır. Ortadan çox şişman olmaqla bir ucu azca nazikləşdirilmiş və yumrulaşdırılmışdır. Həmin nazik uca (kupə) yaxın boğma açılmışdır, Balta özü uzununa tam iki yerə parçalanmışdır. Uzunluğu 35*sm,* qalınlığı 23*sm,*ağırlığı isə 23 kq-dır (eni, qalınlığı birdir).



9-cu şəkil

8-çi balta (inv. № 1477) çay daşından hazırlanmaqla ucu birtərəfdən azca qırılıb tökülmüşdür. Formasına görə yastı və dördbucaqlıdır. Öz görünüşünə görə hər iki ucu eyni imiş. Boğmaancaq dörd künclərindən açılmışdır. Hər iki yastıüzündə boğma yoxdur. Ucları hamarlanmaqla həm də yastıtəhərdir. Uzunluğu 31 *sm*, yastı üzləri eninə 16 *sm*, ortadan qalınlığı 14 *sm*, ağırlığı isə 15,3 kq-dır.

Yuxarıda qeyd etdiyimiz bu daş baltalar öz formalarına görə müxtəlif olsalar da çəkilərinə görə 2 yerə ayrılırlar. Bunlardan birinciləri yüngül – qazmaq, parçalamaq üçün, digərləri isə ağır - əzmək üçün işlədilmişdir.

Yuxarıda göstərdiyimiz bu daş alətləri birləşdirən xarakter cəhət ancaq onların hamısında boğmaların olmasıdır. Bu boğmaların hamısı eyni yerdən deyil, baltaların müxtəlif yerlərindən qazılıb düzəldilmişdir. Bunlardan bəziləri dərin, bəziləri dayaz, bəziləri enli, bəziləri isə ensiz qazılmışdır. Baltaların birinci tipdən olanları duz şaxtalarında, daha doğrusu, qazılan duz mədənlərində işlədilmək üçün çox əlverişli olmuşdur. İstər formaca, istər ağırlıq etibarilə bu tip baltalar məhz qazmaq və həm də əzmək rolu oynamışdır. Ona görə də baltaların bir ucu şiş, yaxud iti olmaqla külüngü əvəz etmiş, digər ucu isə yumru və ya yastı olduğundan çəkici əvəz etmişdir. Həmin nişanələrə görə bunları iti uclu çəkic adlandırmaq məqsədə daha uyğun olardı. Onları balta adlandırmaq isə düzgün deyildir. Çünki balta əzməkdən başqa həm də kəsmək, doğramaq üçündür. Bunlarda isə doğramaq, kəsmək üçün heç bir əlamət yoxdur.

Həmin bu alətlərin bəziləri ola bilsin ki, ağac dəstə olmadan əzmək üçün işlədilmiş. Yəni güman, edilir ki, baltanın boğmasına ip bağlayıb iki əli ilə tutur və qaldırıb salmaqla parçalanmış duzu yavaş-yavaş narın hala salırlarmış.

Lalayanın Naxçıvan duz mədənlərindən tapdığı baltaların biri öz formasına görə göbələk şəklindədir. Bunun bir ucu yumru, dəstəsi isə özündəndir[1].

Beləliklə, əldə edilən materiallara əsasən Naxçıvan daş çəkiclərini öz formalarına görə dörd tipə ayırıb onlara aşağıdakı adı vermək olar:

1. Bir tərəfi iti uclu çəkiclər.
2. İki tərəfi iti külüngvari çəkiclər.
3. Hər iki uçu yastı və hamar, ən ağır çəkiclər.
4. Dəstəsi özündən olan dəstəkli çəkiclər.

Həm də deyə bilərik ki, bu çəkiclərin hamısı ancaq duz istehsalı üçün işlədilmişdir. Onların başqa məqsədlər üçün işlədildiyini iddia etməyə isə əlimizdə heç bir əsaslı dəlil yoxdur. Qeyd etmək lazımdır ki, daş çəkiclər çox yerlərdə: mis yataqlarında, çaxmaq daşı şaxtalarında və s. mədənlərdə təsadüf edilmişdir, lakin belə iri çəkiclərin çoxusu hələlik duz mədənlərindən tapılmışdır. Ola bilsin ki, gələcəkdə aparılaçaq qazıntılar nəticəsində daha yeni tipli çəkiclər əldə ediləcəkdir.

Naxçıvan çəkicləri haqqında Azərbaycanın arxeoloq alimlərindən İ.M.Cəfərzadə öz fikrini söyləyərək həmin balta çəkiclərin bəzilərini tunc dövrünə, bəzilərini isə öz formasına və nişanələrinə görə daha qədim dövrə aid edir.

Naxçıvan duz mədənlərindən tapılan daş baltalar duz istehsalından başqa heç bir istehsal sahəsində işlənilə bilməz-

---

1. İ. M. Cəfərzadə. Naxçıvan MSSR-də aparılmış arxeoloji işlər haqqında qısa məlumat. Azərbaycan SSR EA filialının „Xəbərləri», № 5, 1949, səh. 96.

di. Şübhəsiz, alimlər bu haqdakı mülahizələrində istər inqilabdan qabaq, istərsə də sonra həmfikir olaraq qalmışlar[1].

Rus alimi Qorodsov Xanlardan tapılan baltalarla tanış olduqdan sonra belə yazmışdır: "İri baltaların qalıqlarının Cənubi Zaqafqaziyada olmasının səbəbi mis mədənlərinin olmasıdır. Avropada və Asiyada belə kəsikli iri baltaya heç yerdə heç bir kim tərəfindən təsadüf edilməmişdir. Maraqlı burasıdır ki, kiçik daş balta – çəkic metal mədəniyyətilə birlikdədir. Mən belə baltalardan Cənubi Rusiyada taxta-tabut qəbrdə tunc kəmərlə birlikdə tapdım. Son dövrün qalığı olmaqla belə baltalar Saxalində də (Moskva tarix muzeyindədir) və həm də Amerika qəbilələrində də vardır. Belə baltalar daş dövründə çaxmaq daşı şaxtalarında da istifadə edilmişdir"[2].

Beləliklə, bizə aydın olur ki, son dövrlərdə istifadə olunan baltalar həçmcə kiçik olmuşlar. İri baltalar isə ona nisbətən qədimdir. Bəs elə isə Naxçıvan duz mədənlərindən tapılan baltaların tarixini təxmini də olsa müəyyən etməyə əlimizdə bir əsas vardırmı?

Duz mədənlərində hələlik heç bir qazıntı işi aparılmamışdır. Əldə ədilən daş baltalar təsadüfi tapıntılardır. Ona görə də bu alətlərin tarixi haqqında düzgün məlumat vermək çətindir.

Buna baxmayaraq təxmini fikir söyləmək üçün hələlik aşağıdakı dəlillərə əsaslanmaq olar:

1. Naxçıvan MSSR ərazisində Kültəpədə əldə ədilən eneolit mədəniyyətinin izləri.

---

[1] İ.M.Cəfərzadə.Следы древнейшей культуры человека на территории Азербайджана (от камня до метала -меди), Azərbaycan SSR EA filialının «Xəbərləri», №9, 1944, səh. 68

[2] Бах: Я. И. Гуммель. Памятники древности в окрестностях Килик-дага. Письмо проф. Городцева от 21/II 1935 q. Azərbaycan SSR EA filialının «Xəbərləri», № 2, 1941, səh. 27-28.

2. 1936-cı ildə Noraşen rayonunun Şahtaxtı kəndində aparılan arxeoloji qazıntı nəticəsində içərisində boyalı qablar olan təbəqənin alt qatının 3*m* dərinliyində təsadüf edilən daş balta, dən daşı və təsərrüfat əhəmiyyəti olan başqa daş alətlər.

3. Xanlar rayonunda Gilik-dağdan tapılan daş baltalar, neolit tipli çaxmaq daşından hazırlanmış bıçaqlar, yonqarlar, nukleuslar və s.

Yuxarıda qeyd etdiyimiz bu materialların tarixinin Naxçıvan duz mədənlərilə eyni tarixə aid olmasını güman etmək olar. Şübhəsiz, neolitin sonu eneolitin əvvəllərində Kültəpədə yaşayan insanlar 20 *km*-lik bir məsafədə olan duz mədənlərindən istifadə etməyə bilməzdilər.

Əlimizdə olan çəkiclərin bəziləri sözsüz metal dövründə də işlədilmişdir. Lakin bu heç də o demək deyildir ki, metal dövründən əvvəl burada yaşayış olmamışdır.

Qədimdən bizə məlumdur ki, insan metal ilə tanış olduqdan sonra o öz təsərrüfatının əsasını yeni texnika əsasında qurmuş və metalın köməyilə nəinki duz, hətta başqa mədənlərin də istehsal işlərini mükəmməlləşdirmişdir.

Yuxarıda göstərdiyimiz baltaların hazırlanma tarixinin qədim hesab edilməsi heç də onun son dövrlərdə istifadə edilməsini inkar etmir. Eləcə də onların son dövrlərdə istifadə edilməsi onun hazırlanma tarixinin qədimliyini inkar etmir.

Əlbəttə, bu alətlərin düzgün öyrənilməsi üçün çoxlu axtarış-qazıntı işləri aparmaq lazım gəlir.

Yuxarıda adlarını qeyd etdiyimiz alimlər isə daş dövrünün öyrənilməsi üçün lazımi elmi axtarışlar aparmamışlar. Onların fikirləri ancaq təsadüfi tapıntılara əsasən olmuşdur.

Hazırda sovet elminin inkişafı əsasında əlimizdə müqa-

yisə edilə biləcək bir sıra materiallar toplanılmışdır. Elə bunlara əsasən də deyə bilərik ki, Naxçıvan, Qobustan, Mingəçevir, Xanlar rayonunda aşkara çıxarılan mədəniyyət qalıqları, mis mədənləri və s. Azərbaycan ərazisində ən qədim, hələ daş dövrünün axırı və metal dövrünün əvvəllərində texnikada yeni-yeni inkişaf olduğunu göstərir:

1. Bu yeni texnika mərhələsi əmək uçün yeni bir vasitə olmuşdur və bunun köməyilə o dövrün insanları əkinçilik, ovçuluqvə s. işlərlə məşğul olmuşlar.

2. Belə ibtidai daş alətlərin qalığı və onların öyrənilməsi işi Azərbaycanın qədim cəmiyyət tarixinin işıqlandırılmasına kömək edə bilər.

3. Ardıcıl olaraq aparılacaq tədqiqat işləri bizim üçün nəinki qeyd etdiyimiz alətlərin tarixini, hətta onların yayılma yollarını və ya yeni tapıntıların əldə ədilməsinə kömək edəcək. Bununla da biz həmin mədəniyyət qalıqlarının qədim tarixini dərindən öyrənə biləcəyik.

Nəhayət, güman etmək olar ki, Naxçıvan duz mədənlərindən tapılan çəkiclərin bəziləri tunc dövrünə, bəziləri isə yeni daş dövrünün axırı və metal dövrünün əvvəllərinə aiddir.

Gələcəkdə həmin dövr və daha qədim dövrlərin öyrənilməsindən yeni müvəffəqiyyətlər əldə ətmək üçün arzu olunur ki, Azərbaycanın 20-25 minillik tarixinin tədqiq edilməsi işi hər il ardıcıl olaraq daha geniş miqyasda, daha məhsuldar bir şəraitdə davam etsin və tarix elminin öyrənilməsi vacib olan ən lazımlı sahələrdən biri kimi ön plana çəkilsin.

Azərbaycan Elmlər Akademiyasının "Məruzələri",
Bakı, 1956, cild XII, № 2 səh.135-142

Vəli Əliyev
AMEA-nın müxbir üzvü

NAXÇIVANIN QƏDİM DUZ MƏDƏNLƏRİ

Azərbaycanın e.ə. III-II minilliklərdə iqtisadi və mədəni cəhətdən yüksək səviyyədə inkişaf etmiş ölkələr sırasında olduğunu sübut edən ən dəyərli elmi dəlillərdən biri qədim dağ-mədən abidələridir. Bu baxımdan Naxçıvan Duzdağında qeydə alınmış abidələr xüsusi əhəmiyyətə malikdir. Hələ XIX əsrdə Naxçıvan duzdağı ərazisində tez-tez təsadüf edilən müxtəlif daş əmək alətləri ayrı-ayrı tədqiqatçıların marağına səbəb olmuş və onlar burada qədim mədənlər aşkara çıxarmağa cəhd göstərmişlər.

XIX əsrin 70-ci illərində Naxçıvan Duzdağından mühəndis F.Q.Koşkul daş gürzlər tapmış və onları Qafqaz muzeyinə və Peterburqdakı Elmlər Akademiyasının Antropoloji muzeyinə vermişdir (1.212). O zaman duz mədənində işləyən qraf Beyer tərəfindən də bir neçə daş balta və iskənə tapılmışdır. Bunlardan ikisi Naxçıvan məktəbinə verilmiş, qalanları isə Tiflis və Peterburq muzeyinə göndərilmişdir.

Naxçıvan şəhər məktəbinin müfəttişi K.A.Nikitin həmin alətlər haqda məlumat verərək, onların ibtidai insanlar tərəfindən duz istehsalında istifadə edildiyini söyləmişdir (2.112).

1879-cu ilin noyabrında Naxçıvan Duzdağında arxeoloji kəşfiyyat işləri aparmış İ.S.Polyakov mədənlərin yaxınlığında, duz layları üzərindəki merkel qatında müxtəlif forma, çəki və böyüklükdə olan çoxlu daş gürzlərə rast gəlmişdir. İ.S. Polyakov həmin alətlərin qədim metal dövrünə aid olduğunu qeyd etmişdir (3.212).

Naxçıvan duzdağından İ.S. Polyakov və Raddenin tapdığı daş gürzlər və baltalar P.P.Nadejdin tərəfindən də öyrə-

nilmişdir. O, bu alətlərin yaşıl qabro-dioritdən, porfirdən və digər minerallardan hazırlandığını və onlardan duz istehsalı işində istifadə edildiyini söyləmişdir. P.P.Nadejdinin yazdığına görə, prof. Virxov Naxçıvan və Külp duzlaqlarından tapılan daş baltaları o qədər də qədim hesab etmir. Lakin Qraf Uvarov və başqaları həmin baltaları İspaniyanın Kordova şəhərindən, Şimali Amerikadan, Sibirin bəzi yerlərindən və Saxalin adasındakı mis mədənlərindən tapılmış baltalarla müqayisə edərək onların formaca bir-birinə tamamilə oxşarlığını və qədim dövrə aid olduğunu qeyd etmişlər (4.355-356).

E.A. Lalayanın fikrincə, bu əmək alətləri duz istehsalında işlədilmişdir (5.96).

XIX əsrdə Naxçıvan Duzdağından tapılmış daş gürzlər baltalar haqqında İ.M.Cəfərzadənin (6.46), M.M. Hüseynovun (7.135-144) və O.H.Həbibullayevin (8.43) əsərlərində də məlumat verilmişdir.

Bütün bunlara baxmayaraq, Duzdağında uzun müddət qədim mədənlərin özü tapılmamışdır. 1967-ci ildə Duzbağın cənub yamacında torpaq işləri görülərkən, təsadüfən qədim mədənlərdən birinin giriş yolu dağıdılmış və buradan çoxlu daş alətlər aşkara çıxarılmışdır. Gürz, külüng, balta və paz formalı həmin alətlərin bir qismi torpağa qarışmış, əldə edilən daş gürzlər isə ayrı-ayrı adamlar tərəfindən aparılmışdır.

Qədim mədəndən tapılmış bir ədəd daş alət Naxçıvan tarix muzeyinə verilmişdir. Bu alət indiyədək Naxçıvan Duzdağından tapılan əmək alətlərindən öz forma və böyüklüyünə görə seçilir. Həmin alət dördkünc formada olub, bazalt cinsli bər daşdan hazırlanmış, hər tərəfdən yaxşı işlənib hamarlanmışdır. Uc hissəsində işlənmə izi vardır. Küp hissəsini dərin və enli kəz əhatə edir. Ağırlığı 30 kq-a qədərdir.

Şübhəsiz ki, belə irihəcmli və ağırçəkili daş alətdən kəzinə yoğun ip bağlanaraq hər iki tərəfdən tutmaqla ya bir,

yaxud da iki adam tərəfindən iri duz salları qırıb parçalamaq üçün istifadə olunmuşdur.

Əldə edilən məlumata görə, qədim mədənin dağıdılan hissəsində dəri torba-dağarcıq qalığına, qara və qırmızı rəngli gil qab parçalarına, eləcə də maral buynuzu qırıqlarına təsadüf olunmuşdur.

Bu maraqlı qədim abidələrin izi ilə, həmin vaxtdan etibarən II Kültəpə qədim şəhər yerində qazıntı aparmaqla yanaşı hər il Naxçıvan Duzdağına qısamüddətli də olsa arxeoloji səfərlər təşkil edilir.

Bu axtarışlarda əsas məqsəd, yuxarıda qeyd edidiyi kimi, qədim duz mədənlərini tapıb, onlarda gedən istehsal prosesinin xarakterini müəyyənləşdirməkdir. Azərbaycanda tunc dövründə ilkin şəhərlərin inkişafına zəmin yaradan, beynəlxalq ticarət vasitələrinin inkişafı üçün əsas xammal mənbələrindən biri olan qədim mədənlərin tapılması və onlarda aparılmış istehsalın həcmini müəyyənləşdirmək çox vacibdir.

Məlum olduğu kimi İ.S.Polyakov Naxçıvan və Külp duzlaqları ilə tanışlıqdan sonra belə bir nəticəyə gəlmişdir ki, daş alətlərdən istifadə edən qədim insanlar duz çıxarmaq üçün şaxta düzəltməmiş, istehsal duz laylarının yer səthinə çıxdığı sahələrdə, açıq şəraitdə aparılmışdır. Burada mağaraya və sığnağa oxşar dayaz səkilər qazılaraq birindən digərinə keçmişlər. Bilavasitə bu çalalarda, qədim mədənlərin yanında onlar öz alətlərini qoruyub saxlamışlar (9.178). Guya həmin çalalara su (yağış - V.Ə.) düşərək duzu əritmiş, sonra məhlul quruyarkən duz təbəqəsi daş alətləri örtmüşdür.

Əlbəttə, İ.S.Polyakovun fikrində müəyyən həqiqətə uyğunluq vardır. Lakin duz dağında və ona yaxın yaşayış yerlərində (I Kültəpə, II Kültəpə və s.) dağ mədən işlərində istifadə edilən daş gürzlərin, külünglərin, baltaların, pazların

və maral buynuzundan hazırlanmış qazma alətlərin kütləvi miqdarda tapılması göstərir ki, Tunc dövründə Naxçıvan mədənçiləri dərin şaxtalar və tunellər qazmaqla kütləvi duz istehsalı ilə məşğul olmuşlar.

1976-cı ildə duz dağı ərazisində yeni aşkar edilmiş qədim mədən bu fikri tam sübuta yetirir. Bu mədən Duzdağın cənub-qərb hissəsində müasir 4N-li duz mədəni sahəsində tunel qazılarkən tapılmışdır. Bununla əlaqədar Naxçıvana xüsusi səfər təşkil olunmuş və Duzdağda elmi axtarışlar aparılmışdır.

Duzdağ Naxçıvan şəhərindən 12 km şimal-qərbdə yerləşir. Duz yatağı Üst Miosen (Alt, Orta üst Sarmat) və Dördüncü dövr (çaqıllar, zəif sementləşmiş konqlemeratlar) çöküntüləri təşkil edir. Yataq 6-7 metr qalınlığı olan 11 laydan ibarətdir (10. 131-132).

Duz orta keyfiyyətə malikdir. Az miqdarda gil, qum və gips qarışığı vardır. Duz şəffaf deyildir, açıq-boz, nisbətən yaşılımtıla çalır. Xırda dənələrinin kənarı bir qədər parlaqdır.

Naxçıvan duzunun kimyəvi tərkibi standarta uyğundur.

Duz layları bəzi sahələrdə yer səthinə çıxır. Tarix boyu yerli əhali üzə çıxan bu təbəqələrdən istifadə edərək duza olan ehtiyaclarını ödəmişlər.

Yeni aşkar olunmuş qədim duz mədəninin giriş yolu hələlik məlum deyil. Görünür mədənin giriş yolu qədim zamanlarda tutulmuşdur. Elə buna görə də orta əsr məxəzlərində və XIX əsrdə burada olmuş alimlərin əsərlərində bu duz mədəni haqqında məlumat verilməmişdir.

Qədim duz mədəni çox mürəkkəb (girintili-çıxıtılı) plana malikdir. Mədən tunelinin eni 6-20, uzunluğu 70, hündürlüyü 10-15 metrdir. Onun müxtəlif böyüklükdə 10 salonu vardır. Ən geniş sahədə, dayaq məqsədi ilə duz layının özündən dördkünc formada möhtəşəm sütun yonulmuşdur.

Təkcə onu qeyd etmək kifayətdir ki, bu sütunlar öz üzərlərində 100-150 metr qalınlığında olan min kubmetrlərlə olan merkel təbəqələrini saxlayır. İstər divarların müxtəlif bucaqlı çıxıntıları, istərsə də monolit sütunlar tavana doğru genişlənərək mürəkkəb planlı, tağvari dayaq sistemi yaratmışdır.

Maraqlıdır ki, bu möhtəşəm mədənin divarları daş gürzlər və baltalarla böyük ustalıqla yonularaq hamarlanmışdır. Döşəmədən başlamış tavanadək hər yerdə həmin alətlərin minlərlə izləri aydın görünür. Burada 10-12 metr qalınlığında olan duz qatı bütün mədən boyu vaxtilə qoparılaraq çıxarılmışdır.

Əsrlər boyu mədənin tavanından tədricən qopub tökülmüş duz və merkel parçaları döşəməni başdan-başa örtmüşdür. Qərb hissəsindəki salonların tavanı uçquna daha çox məruz qalmışdır. Döşəməyə tökülmüş merkel parçaları bəzi yerlərdə mədəni 4 metr qalınlığında doldurmuşdur. Çox güman ki, qədim mədəndəki uçqun müasir duz şaxtasındakı partlayışlarla da əlaqədar baş vermişdir. Hazırda qədim mədəni gəzmək bir qədər təhlükəlidir. Mədən divarlarında müxtəlif yerlərdə his qalığı vardır. Bəzi salonların künclərində ocaq yerlərinə rast gəlinir. Divarlarda duz qatları arasındakı nazik merkel layına ağac civ sancılmışdır. 10 nömrəli salonda 3-5 metr uzunluğunda iri səkilər vardır.

Bu qədim mədəndə diqqəti ən çox cəlb edən divarlardakı düzxətli işarələrdir. 5 və 8 nömrəli salonların divarlarında 8-10 sm uzunluğunda düz xətlərdən ibarət işarələr həkk olunmuşdur. Belə işarələr yan-yana və alt-alta düzülmüşdür. İki dəstədə 50, birində 44, digərində 35 və 12 işarə vardır. İşarələrin düzülüşündə onluq say sistemindən istifadə olunmuşdur. 50 işarə olan dəstələr beş cərgədə on-on verilmişdir. İşarələr yuxarıdan aşağı və sağdan sola həkk olunmuşdur. Çox ehtimal

ki, bu say-hesab işarələri olub, ya çıxarılmış duzun miqdarını, yaxud da görülən işin müddətini (gün, ay, il) bildirir.

Altmışlıq say sistemiı qədim Babilistanda geniş yayılmışdır. Ş.Hacıyev Naxçıvan duz mədənindəki işarələri əllilik say sistemi ilə əlaqələndirmişdir. O, qədim Azərbaycandakı əllilik say sistemi ilə Babilistandakı altmışlıq say sisteminin yaranması arasında bir oxşarlıq olduğunu göstərir (11. 11-12).

Mədənin girişini müəyyənləşdirmək mümkün olmamışdır. Lakin aparılan müşahidələrə əsasən girişin Duzdağın cənub-qərb tərəfində olduğu güman edilir.

Qədim mədənin dövrünü dəqiq müəyyənləşdirmək üçün burada geniş arxeoloji tədqiqatlar aprılmalıdır. Lakin ilk tapıntılar əsasında bu haqda bəzi mülahizələr söyləmək mümkündür. Mədənin içərisindən (onun cənub hissəsindən) bazltdan ucu şiş, boğazı kəzli gürzlər, maral buynuzundan şiş uclu alətlər, qamışdan hörülmüş bağ, ağac qırıqları və heyvan sümükləri tapılmışdır. Daş baltalar və sümük alətlər hazırda Naxçıvan duz mədəni idarəsində saxlanılır. Buradan iki ədəd cilalı, qara gil qab da tapılmışdır. Çox təəssüf ki, həmin qab sındırılıb atılmışdır.

Mədənin qarşısında, onun cənub-qərb tərəfindəki kiçik təpənin üstündə arxeoloji kəşfiyyat işləri aparıldı və buradan bir daş balta və xeyli gil qab qırıqları tapıldı. Bu qab qırıqlarını heç bir şübhə etmədən e.ə. III minilliyin sonu və e.ə. II minilliyin birinci yarısına (orta tunc dövrünə) aid etmək olar.

Mədəndən tapılmış daş gürzlər, balta və sümük alətlər də onun yaşını təyin edən dəyərli materiallardır.

Daş gürzlər uzunsov formada olub tünd- boz və göy rəngə çalan bərk bazaltdan hazırlanmışdır. Onların işlək ucu və üzəri hər tərəfdən dişənərək yaxşı hamarlanmış, ucları şişdir. Küp hissəsində enli, dərin kəzlər oyulmuşdur (tablo. 1, 2, 6).

Gürzlər ağac dəstək bərkidilərkən ip sürüşməsin deyə həmin kəzlərdən sarınmışdır.

Daş balta məsaməli boz daşdan hazırlanmışdır. İşlək ağzı hər iki tərəfdən dişənərək yastılanmış, əks ucu uzunsov olub, çəkici xatırladır. Ortasında kəzi vardır (tablo. 5).

Bu alət iki vəzifə daşımışdı: Kəsər ucu ilə duz layında, yaxud salda iz açılır, çəkicvari ucu ilə isə vurma üsulu ilə parçalanma işi görülürdü.

Qədim duz mədənində tapılan daş gürzlər və balta öz formasına və işlənmə texnikasına görə e.ə. IV–II minilliklərə aid I Kültəpə (12.42). II Kültəpə yaşayış yerlərindən və Naxçıvanın digər tunc dövrü abidələrindən tapılmış eyni tip alətlərlə tam oxşarlıq təşkil edirlər (13. 9).

Naxçıvanın qədim daş baltaları və gürzlərinin tarixi yeni arxeoloji tədqiqatlar nəticəsində dəqiqləşdirilmişdir. Naxçıvan duz mədəninin şərqində yerləşən II kültəpə adlı qədim şəhər yerində (qədim Naxçıvan) aparılan geniş arxeoloji qazıntılar nəticəsində eramızdan əvvəl III-II minilliklərə aid mədəni təbəqələrdən Naxçıvan mədəniyyəti üçün xarakterik olan monoxrom və polixrom boyalı qablarla birlikdə külli miqdarda daş gürzlər, baltalar və maral buynuzundan alətlər tapılmışdır.

II Kültəpə qədim şəhər yerindən daş və sümük alətlərin kütləvi miqdarda tapılması əvvəllər bizdə təəcüb doğururdu.

Naxçıvan Duzdağında möhtəşəm qədim mədənin və buradan eyni tip daş, sümük alətlərin tapılması bu təəccübü aradan qaldırdı.

Qədim duz mədənində tapılmış nəhəng maral buynuzunun şaxələrindən hazırlanmış sümük alətlər qırılmış vəziyyətdədir. Alətlərin uc hissələri pardaxlanmış və işlənmə nəticəsində nazilmişdir (tablo. 2.3)

Gəmiqaya təsvirləri (14. 93-95), II Kültəpə (15, 66) Oğlanqala monoxrom və polixrom boyalı qabları üzərindəki

nəhəg maral rəsmləri, II Kültəpədən tapılmış maral buynuzları və Arpaçay vadisində, Oğlanqala yaxınlığından təsadüfi tapılmış tunc maral heykəli Naxçıvan ərazisində tunc dövründə nəhəng maralların yaşadığını sübut edir.

Maral buynuzundan hazırlanmış əmək alətlərindən qədim dağ-mədən işlərində geniş istifadə olunduğu məlumdur. Məsələn, Şimali-qərbi Belarusiyada Qrodno vilayətinin, Volkoviski rayonunun Krasno Sela adlı yerdə və Ross çayının sağ sahilindəki qədim çaxmaqdaşı şaxtalarından yüzlərlə maral buynuzundan hazırlanmış əmək alətləri tapılmışdır. N.N.Qurina göstərir ki, qədim dağ-mədən işlərində (şaxtalarda, ştolnlarda və açıq mədənlərdə) buynuz alətlərdən və görünür, ağac alətlərdən də geniş şəkildə istifadə olunmuşdir.

Təcrübə göstərir ki, qədim mədənlərdə yumşaq tabaşiri oymaq üçün ən yaxşı işlətməli alət buynuzdan olmuşdur, həm də onlardan dağ-mədən işlərinin bütün növlərində istifadə edilmişdir. Bunun üçün təzə buynuz kifayət qədər möhkəm olurdu. Belə alətlər, əsasən, nəhəng maralların buynuzundan hazırlanırdı (16, 50-62).

Naxçıvanın qədim duz mədənindən və II Kültəpədən tapılmış nəhəng maral buynuzundan hazırlanmış qazma alətlər işlənmə texnikası və formalarına görə Qərbi Belarusiyanın qədim mədənlərindən tapılmış sümük alətlərə oxşardır. Qədim mədəndə duz təbəqəsi 50-80 sm qalınlığında qatlardan ibarət olub, bir-birinin üstündə yerləşir. Həmin qatları bir-birindən 5-10 sm qalınlığında yaş merkel layı ayırır. Maral buynuzundan hazırlanmış şiş uclu alətlərlə həmin merkel asanlıqla oyulub boşaldıqdan sonra, bazalt baltalar, külünglər və çəkiclərlə vurulub duz qatları asanlıqla parçalanırdı.

Sümük alətlərə bir qayda olaraq, Belarusiyanın qədim mədənlərində qırılmış vəziyyətdə təsadüf edilmişdir (17. 50).

Eyni vəziyyət, qeyd olunduğu kimi, Naxçıvanın qədim duz mədənlərində də izlənmişdir. Buradan tapılmış maral buynuzundan olan alətlər xırda hissələrdən ibarət olub, çox işlənmişdir.

Naxçıvanın qədim duz mədənləri yaxınlığındakı II Kültəpədən tapılmış maral buynuzundan hazırlanmış alətlər isə bütöv şəkildədir. Güman ki, şaxtaçılar bütöv əmək alətlərini özləri ilə birlikdə yaşayış yerinə gətirmişlər.

Qədim mədənlərdə daş və maral buynuzundan olan alətlərin tapılmasını başqa bir səbəblə də izah etmək olar. Qədim şaxtaçıların divarları və tavanları təhlükəyə qarşı əlavə möhkəmləndirilmirdi. Görünür, baş vermiş uçqunlar zamanı əmək alətlərinin bir qismini götürməyə imkan olmadığından onlar uçmuş gil laylarının altında qalmış və əsrlər ötdükcə yağışın yuması nəticəsində aşınıb üzə çıxmışdır.

Haqqında bəhs etdiyimiz qədim duz mədənində isə əmək alətlərinə şaxtanın dərinliyində təsadüf edilmişdir. Maraqlıdır ki, burada da güclü uçqun olmuşdur. Uçub tökülmüş gil təmizlənərkən çox ehtimal ki, daha maraqlı maddi-mədəniyyət qalıqları əldə ediləcəkdir.

Başqa qədim şaxtalarda olduğu kimi (18) Naxçıvanın qədim duz mədənlərində də ağac alətlərdən istifadə edilmişdir. Təsadüfi deyil ki, qədim mədənin divarlarında bir neçə yerdə 50-60 sm qalınlığındakı təmiz duz qatları arasındakı 5-10 sm qalınlığında olan mergel layında ağac alətlər sancılmış vəziyyətdə indi də qalır.

Naxçıvanın qədim duz mədənində qamışdan hörülmüş həsir qalığı və zənbil bağının qırığına da təsadüf edilmişdir. Görünür, mergel qırıqları və istehsal edilən duzun ovuntuları məhz belə zənbillərdə daşınıb şaxtadan kənara çıxarılırmış.

Qədim duz mədənlərindəki səkilərdə qamışa da rast gəlinmişdir. Çox ehtimal ki, şaxtaçılar lazım gəldikdə həsir

əvəzinə qamışı yatdıqları yerə döşəmişlər. Tədqiqat işləri nəticəsində müəyyən edilmişdir ki, vaxtilə mədənin yaxınlığında istehsalçıların müvəqqəti düşərgəsi də olmuşdur.

Yeni mədən üçün tunel (4№-li) açılarkən düşərgə tamamilə dağıdılmışdır.Həmin yerdən qırmızı, boz və qara rəngli gil qab qırıqları əldə edildi. Bunların içərisində Kür-Araz mədəniyyətinə aid tünd boz rəngli, yarımşar formalı qab qulpu diqqəti cəlb edir.

Belə qulplar I Kültəpənin (19. 63-69), II Kültəpənin (20. 115), Mil-Qarabağ düzənliyi abidələrinin, Muğanın (21, 6-7), Gürcüstanın, Ermənistanın, Şimali Qafqazın və Şərqi Anadolunun (22. 169) e.ə. III minilliyə aid gil qabları üçün səciyyəvidir.

Saxsı qabların əksəriyyəti qırmızı rəngdə olub, üzərlərində boya izləri qalmışdır. Belə keramika qədim Naxçıvan mədəniyyəti üçün səciyyəvi olub, e.ə. II minilliyə aid Qızılvəng, Şahtaxtı, Şortəpə, I Kültəpə (22. 93-102), II Kültəpə (24. 43-89) və digər abidələrdən məlumdur.

İstər daş və sümük alətləri, istərsə də keramika məmulatının tədqiqi göstərir ki, qədim duz mədəni I və II Kültəpə yaşayış yerləri ilə həmyaşıd olub, tunc dövrünə, e.ə. III-II minilliklərə aiddir. İlkin hesablamalara görə, qədim duz mədəninin tutumu 5,760 kub m.-dən artıqdır. Mütəxəssislərin dediyinə görə, hər kubmetr duzun ağırlığı iki tona bərabərdir. Deməli, qədim duz mədənindən ən azı 11.500 ton duz çıxarılmışdır. Bütün bunlar sübut edir ki, e.ə. III-II minilliklərdə qədim Naxçıvan (II Kültəpə) sakinlərinin təsərrüfat həyatında, eləcə də onların qonşu Zaqafqaziya tayfaları və Yaxın Şərq ölkələri ilə ticarət əlaqələrində duz istehsalı mühüm rol oynamışdır. Güman ki, buradan sonralar müvəqqəti yaşayış və strateji məqsədlər üçün də istifadə olunmuşdur. Hər halda təkcə duz çıxarmaq üçün olan mədənin divarlarının bu qədər səliqə ilə hamarlanmasına ehtiyac olmazdı.

Bu qədim mədən arxeoloqlardan başqa, memar, bioloq, geoloq, poleobotanik, kimyaçı və s. mütəxəssislər üçün də maraqlı tədqiqat obyekti ola bilər. Odur ki, buranın kompleks şəklində tədqiq olunması məqsədəuyğundur. Beləliklə, II Kültəpə şəhər yerinin və onunla yanaşı, Naxçıvan qədim duz mədəninin tədqiq olunması tariximizin çox az öyrənilən həmin dövrünün ictimai-iqtisadi və siyasi problemlərinin həllinə kömək edə bilər.

Ədəbiyyat

1. *Из дневника И. С. Полякова археологических работ, веденных в Закавказском крае осенъю 1879 года. Протоколы Подготовительного комитета V археол. Съезда. Прил. К вып. I, т. IX. Древности.-М., 1882*
2. *Никитин. К.А. Гор. Нахичеван и Нахичеванский уезд.-СМОМПК.1882. вып.2.*
3. *İ.S. Polyakovun gündəliyindən.*
4. *Надеждин. П.П. Кавказские люди и природа.-2-е изд. Тула.1895*
5. *Cəfərzadə İ.M. Naxçıvan MSSR-də aparılmış arxeoloji işlər haqqında qısa məlumat."Azərb. SSR EA xəbərləri. N-9,1949*
6. *Cəfərzadə İ.M. göstərilən əsəri*
7. *Hüseynov M.M. Naxçıvanın qədim daş çəkicləri."Az. SSR EA məruzələri", N-2, 1956*
8. *Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. B., 1959*
9. *İ.S. Polyakov. Göstərilən əsəri.*
10. *Əzizbəyov. Ş.Ə. Naxçıvan MSSR-in geoloji quruluşu və inkişafi. Naxçıvan muxtar Sovet Sosialist Respublikası. "Elm" nəşriyyatı. Bakı. 1975*

11. *Hacıyev Ş. Azərbaycanda əllilik say sistemi. Elm və həyat. " Kommunist nəşriyyatı, N-12, Bakı 1979*
12. *Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. B., 1959*
13. *Əliyev Vəli. Naxçıvan MSSR-də 1971-ci ildə aparılan arxeoloji tədqiqatlar. 1971-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar(tezislər). "Elm" nəşriyyatı, Bakı, 1972*
14. *Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. B., Elm, 1977, 18-ci tablo, 1,2*
15. *Yenə orada.6-cı tablo,5.*
16. *Гурина Н. Н. Древние камнедобывающие шахтыю- Л., 1976. 22-29-cu şəkillər.*
17. *Гурина Н. Н. Göstərilən əsəri.*
18. *Yenə orada.*
19. *Həbibullayev O.H. Göstərilən əsəri, 27-30 cu tablolar.*
20. *Алиев В.Г. Новые материалы о культуре расписной керамики в Азербайджане. Сов. Археолгия, М., 1967, №1*
21. *Mahmudov F. R. Azərbaycanın cənub-şərq rayonlarınının ilk tunc dövrü abidələri haqqında. Azərb. SSR EA Tarix institutu aspirantlarının ikinci elmi konfransı məruzələrinin tezisləri. Bakı, 1966*
22. *Мунчаев Р.М. Кавказ на заре бронзового века. М., Наука, 1975, 20-28 ci şəkillər, 1944.*
23. *Həbibullayev O.H. Göstərilən əsəri, 35-37-ci tablolar.*
24. *Əliyev V.H. Azərbaycanda tunc dövrünün boyalı qablar mədəniyyəti. B., Elm, 1977*

Azərbaycan EA-nın «Xəbərlər» jurnalı (tarix, fəlsəfə və hüquq seriyası). Bakı, 1983, № 4, səh. 79-87

İsmayıl Hacıyev
AMEA Naxçıvan Bölməsinin sədri, akademik

NAXÇIVANDA İLKİN ŞƏHƏR MƏDƏNİYYƏTİNİN YARANMASI VƏ FORMALAŞMASINDA DUZDAĞIN ROLU

Naxçıvan diyarı dünyanın ən qədim insan məskənlərindən biridir. Son illərdə Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri əsasında arxeoloq alimlər təsdiq edirlər ki, 500-300 min il bundan əvvəl bu ərazilərdə ən qədim insanlar məskən salmışlar. Bunlar əsasən Naxçıvanın təbii zənginliklərə malik çay vadilərində, dağ yamaclarında, Qazma, Kilit, Daşqala, Ərməmməd mağaralarında yaşamışlar. Şərur rayonunun Ovçulartəpəsi yaşayış yerindən tapılmış üç ədəd əmək aləti bu ərazinin nəinki Azərbaycanda, hətta dünyanın ən qədim yaşayış yerlərindən biri olduğunu göstərir. Tapılmış əmək alətləri Alt Paleolit dövrünə aid edilir. Daş, Tünc və Erkən Dəmir dövrlərində Naxçıvan ərazisində ardıcıl və intensiv yaşayış olmuşdur.

Tunc dövründə qədim Naxçıvan tayfalarının iqtisadi, ictimai və mədəni həyat tərzində böyük dəyişikliklər baş vermiş və iri tayfa ittifaqları yaranmışdır. Bu tayfaların həyat tərzini səciyyələndirən tarixi mənbələr Kür-Araz mədəniyyəti abidələridir. Qafqazda, Ön Asiyada geniş yayılmış Kür-Araz mədəniyyətinin əsas vətəni Naxçıvan diyarıdır. Bu mədəniyyətin daşıyıcıları Azərbaycanın yerli əhalisi – qədim türklərdir. Yaxın Şərq və Ön Asiyanın Kür-Araz mədəniyyəti abidələrinin tarixi e.ə. IV minilliyin ortalarına aid edilir. Son illərdə Şərur rayonunun Ovçulartəpəsində aşkar edilən mad-

di-mədəniyyət nümunələri Kür-Araz mədəniyyətinin e.ə. V minilliyin sonu, IV minilliyin əvvəllərinə aid olduğunu, Naxçıvanın isə bu mədəniyyətin vətəni olduğunu təsdiq edir.

Tədqiqatçıların fikrincə Orta Tunc dövründə Naxçıvanda güclü tayfa ittifaqları formalaşmış, əhalinin sayı artmış, əkinçilik, maldarlıq, sənətkarlıq əsas təsərrüfat sahələri kimi özünü göstərmiş, mübadilə və ticarət əlaqələri genişlənmişdir. Naxçıvan şəhərinin mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. İqtisadiyyatın və ticarətin inkişafı Naxçıvan ərazisində şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir (3). Şəhər mədəniyyətinin yaranması və inkişafı iki mərhələdən keçir: İlkin şəhərsalma mədəniyyəti və inkişaf etmiş şəhər mədəniyyəti (8, s.19). İnkişaf etmiş mərhələdən danışarkən artıq bu şəhərlərin qala divarları, dulusçu emalatxanaları, bazarı, su təchizatı, meydanı və sairəsi olmuşdur. İlkin şəhərsalma mərhələsindən, yəni protoşəhər dövründən inkişaf etmiş şəhər mədəniyyəti mərhələsinə qədər min illərlə vaxt tələb olunur. Naxçıvan diyarının Ön Asiya qədim Şərqinin inkişaf etmiş sivilizasiyaları ilə qonşuluqda yerləşməsi burada da ilkin şəhər mədəniyyətinin inkişafına təsir etmişdir. Akademik İqrar Əliyev göstərir ki, Naxçıvan şəhərini "Azərbaycanın ən qədim şəhərlərindən biri hesab etmək üçün kifayət qədər əsas var" (16, s.37). Son illərdə bu istiqamətlərdə tədqiqat işləri aparılmış və maraqlı nəticələr əldə edilmişdir. Prof. Y.Yusifovun yazdığına görə eramızdan əvvəl III minillikdə Azərbaycanda dövlət qurumlarının meydana gəldiyi müşahidə olunur (1, s. 64). Əlverişli təbii-coğrafi şəraiti olan Naxçıvan ərazisi dünyada insanın formalaşdığı ilk məskənlərdən və insanların yaratdığı ilkin şəhər mədəniyyətinin mərkəzlərindən biridir.

İlkin şəhər mədəniyyətinin yaranması bir sıra amillərlə əlaqədardır: təbii-coğrafi şərait, coğrafi mövqe, insanların yaşaması üçün təbii zənginliklərin olması, torpaq və su ehtiyatının bolluğu və sair. Bütün bu amillər Naxçıvan diyarı üçün xarakterikdir. Bu ərazidəki ibtidai insanlar Neolit dövründən başlayaraq I və II Kültəpə, Sədərək, Ovçulartəpəsi, Xələc, Duzdağ, Şahtaxtı, Nəhəcir kimi yaşayış yerləri salmışlar. Gəmiqaya abidəsi, Əshabi-Kəhf dini və tarixi memarlıq kompleksi bu ərazinin ilkin məskunlaşma, eləcə də zəngin mədəniyyət mərkəzlərindən biri kimi əhəmiyyətini daha da artırır (14, s.6).

"Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən beynəlxalq simpoziumdakı çıxışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qeyd etmişdir ki, "Əldə olunan nəticələr sübut edir ki, Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında sıx iqtisadi, mədəni əlaqələr olmuş, əkinçiliyin, maldarlığın, sənətkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə təkan vermiş, nəticədə 5 min il bundan əvvəl Naxçıvan şəhəri yaranmışdır" (13, s.8).

Tədqiqatçıların fikrincə Naxçıvan ərazisində ilkin şəhər mədəniyyətinin yaranmasının əsas səbəblərindən biri yaxınlıqda Duz mədənlərinin olmasıdır. Naxçıvan şəhərinin tarixi Duz dağının tarixi ilə sıx əlaqədardır. "Duz mədənləri həm Naxçıvanın daş dövrünü, həm də bu şəhərin yaşını müəyyən etmək baxımından çox əhəmiyyətli tədqiqat obyektidir" (8, s.22).

Naxçıvan şəhərinin yaranmasında Naxçıvan Duzdağının rolundan bəhs edən Ali Məclisin Sədri demişdir: "Naxçıvan şəhərinin yaranmasına bilavasitə təsir göstərən Naxçıvan Duzdağı mədəniyyətinin öyrənilməsini və Duzdağı ətrafındakı ilkin yaşayış məskənlərinin tədqiqata cəlb olunmasını ilkin şəhərsalma mədəniyyətinin öyrənilməsində yeni elmi

istiqamət kimi qəbul etmək, Naxçıvan şəhər mədəniyyətini onun indiki tarixi-coğrafi hüdudlarından kənarda yox, Naxçıvan şəhərinin özündə axtarmaq, bu ərazidə tədqiqatları intensivləşdirmək lazımdır" (14, s.8).

Fikrimizcə, Naxçıvan şəhərinin yaşı məsələsi şəhərin yaxınlığındakı Duz mədənlərinin tarixi ilə üzvi surətdə bağlıdır. Mənbələrdə hətta Duz mədənlərinin həzrəti Nuh peyğəmbərin zamanından salınması haqqında məlumatlar vardır. K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı məqaləsində göstərilir: "...Xalq arasında Nuhun Naxçıvan və Kulp duz mağaralarındakı fəaliyyəti barədə əfsanələr yaşamaqdadır. Əfsanəyə görə o, burada ilk çalışan olmuşdur" (17, s.119).

Tədqiqatçılara görə e.ə. V minillikdən başlayaraq Duzdağdan duz çıxarılır. Bu mədəndən erkən Tunc dövründə xüsusilə geniş istifadə olunmuşdur. Tədqiqatlardan məlum olur ki, XIX əsrin ikinci yarısında Duz mədənləri ərazisində qazıntı aparılarkən burada daş baltalar aşkar edilmişdir. K.Nikitin yazır ki, "Naxçıvanda qədim mədəniyyətə Naxçıvan duz mədənlərindən tapılmış daş baltaları və daş pazları aid etmək olar. Bu alətlər 1870-ci ildə buradakı Duz mədənlərinin nəzarətçisi cənab Beyer tərəfindən tapılmış, 2 ədədi Naxçıvan şəhər məktəbinə verilmiş, qalanlarının isə bir hissəsi Tiflis muzeyinə göndərilmişdir. Baltalar və pazlar duzçıxarma aləti kimi bu ərazidə insanlığın ilk məskunlaşma dövrləri, hələ insanlara dəmirdən istifadənin məlum olmadığı daş dövrü haqqında təsəvvür yaradır, eyni zamanda, bunlar ərazidəki eradan əvvəl işlənən Duz mədənlərinin qədimliyini müəyyən edir" (17, s.115).

Son illərdə Naxçıvan ərazisində respublika və beynəlxalq səviyyəli arxeoloji ekspedisiyalar fəaliyyət göstərir.

Beynəlxalq ekspedisiyalar əsasən Oğlanqala, Ovçulartəpəsi və Duzdağda tədqiqatlar aparırlar. Yuxarıda göstərdiyimiz kimi, Ovçulartəpəsindəki arxeoloji qazıntılar bu ərazidə insanların çox qədimdən yaşadığını sübut edirsə, Duzdağdakı tədqiqatlar həm bu mədənin dünyanın ən qədim duz çıxarıldığı yer olması fikrini təsdiqləmiş, həm də Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasının Duzdağla bağlı olduğu qənaətinə gəlinmişdir. Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 4-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə, öz növbəsində, şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır (2, s.3).

Duzdağda çalışan insanlar əlverişli yerdə özlərinin yaşayış məskənlərini salmış və burada məskunlaşmışlar. Belə yaşayış məskənlərindən biri, bəlkə də birincisi Naxçıvandır. Duzdağda duzun çıxarılması həm ətraf ərazilərdə insanların tələbatının ödənilməsinə səbəb olmuş, həm də kənar yerlərlə mübadilə edilmiş və satılmışdır. Duzdağın yaxın ətrafında şəhər tipli yaşayış yerləri olmuşdur: Naxçıvan, Qarabağlar, II Kültəpə, Şahtaxtı və s. Bəzi tədqiqatçılar Naxçıvanın ilkin şəhər mədəniyyətindən danışarkən bunu II Kültəpə ilə eyniləşdirirlər. Bu həqiqətə uyğun deyil. Naxçıvanın ilkin şəhər mədəniyyəti elə Naxçıvan şəhəri ərazisindədir. II Kültəpə də şəhər tipli yaşayış yeri olmuşdur, lakin bu Naxçıvan şəhəri deyildir. Ola bilsin ki, Duzdağda çalışan insanların bir qismi çox əlverişli bir yer olan II Kültəpə ərazisində ilkin şəhər mədəniyyətini yaratmışlar. Duzdağdan Naxçıvan və II Kültəpə əraziləri əsasən eyni məsafədədir. Lakin duz mədənlərindən Naxçıvana olan məsafə II Kültəpəyə nisbətən çox rahat və

əlverişli idi. Bununla belə, Duzdağın olması bu şəhər tipli yaşayış yerlərinin yaranmasına səbəb olmuşdur.

Duzdağdakı duz mədənlərindən çoxsaylı daş alətlər və keramikalar tapılmışdır. Duzdağ mədənlərində duzun çıxarılması və ilkin emalı üçün minlərlə böyük daş alətlərdən istifadə edilmişdir (2, s.9). Daş alətlərin 80 faizindən çoxu daş çəkiclərdir. Tədqiqatçıların fikrincə daş çəkiclər Naxçıvançaydan, ya da Duzdağ təpəsinin səthində saxlanan allyuvial yataqlardan gətirilmişdir. Həmin alətlərin sayəsində duz istehsalı ilə əlaqədar olaraq dağ-mədən işi kifayət qədər inkişaf etmiş və sənaye səviyyəsinə qədər yüksəlmişdir. Sənayenin yüksəlişi isə öz növbəsində iqtisadiyyatın, ticarətin, sənətkarlığın, mədəniyyətin və başqa sahələrin inkişafına böyük təkan vermişdir. Bu inkişaf ilkin şəhərsalmanın və şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Arxeoloqların fikrincə I və II Kültəpə yaşayış yerləri Duzdağdan uzaqda olduğundan insanların ilk yaşayış yeri yaxınlıqda olmalı idi. Axtarışlar nəticəsində Duzdağ yaxınlığında insanların məskən saldığı Sust adlı ərazidə Eneolit və Erkən Tunc dövrlərinə aid abidələr aşkar olunmuşdur. Bu da Duzdağa ən yaxın və ən qədim yaşayış yeridir. Ehtimala görə, duz mədənindən istifadə Sust ərazisindən başlamışdır. Sonra duz istehsalının artması, işçi qüvvəsinə olan tələbat, duz ticarəti və başqa amillər yeni yaşayış yerlərinin yaranmasına gətirib çıxarmışdır. Bunlardan biri də qeyd etdiyimiz kimi, daha əlverişli ərazidə yeni yaşayış məntəqəsinin salınması ilə nəticələnmişdir ki, bu da Naxçıvan şəhəridir. Duzdağdan Naxçıvana olan məsafənin və yolun əlverişli olması, şəhərin (təbii ki, əvvəl bu şəhər olmamışdır – İ.H.) çox əlverişli yerdə salınması ilkin şəhər mədəniyyətinin yaranması ilə nəticələnmişdir. Qədim insanlar yaşayış yerini seçərkən

bir sıra amilləri nəzərə almağa məcbur idi: coğrafi mövqeyi, su təminatını, təhlükəsizliyi, ticarət yolu üzərində yerləşməni, təbii zənginlikləri və s. Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasına bir sıra amillər təsir göstərsə də, bunlar arasında Duzdağın olması fikrimizcə ən mühüm amildir.

Ümumiyyətlə, duz insan həyatında çox mühüm rol oynamışdır. "Duzun kəşf olunması ilə insanlıq mədəni həyat tərzinə qədəm qoymuşdur. Duzun kəşfi ibtidai insan birliklərinin oturaq mədəni həyata keçidinin inqilabıdır... Duzun kəşfi, axtarışı, üzə çıxarılması, əldə edilməsi, məişətə daxil olması, istifadəsi, bazarı ilə bağlı məsələlər əvvəlcə insanı, sonra isə bu yolla insan cəmiyyətini formalaşdırmış, oturaq həyatın bünövrəsinə çevrilmişdir. Duz istehsalı anlayışını əhatə edən yataqların müəyyən olunması, indiki terminologiya ilə desək kəşfiyyatı, mağaraların qazılması, duz parçalarının əldə olunması, daşınması, üyüdülməsi, alınıb-satılması, Duzdağ əmək alətlərinin – daş baltaların, pazların hazırlanması və sair bəşəriyyətin həyatında şəhər tipli inkişaf tərzinin də əsasını qoymuşdur"(9).

Naxçıvan ərazisində yaşamış insanların təbii yer seçmələri qanunauyğun bir prosesdir. Lakin insanların duza olan tələbatları, həm də duz vasitəsi ilə, yəni onun mübadiləsi ilə digər tələbatlarının ödənilməsi Duzdağ ətrafında uyğun yaşayış yerlərinin seçilməsi və salınmasını zəruri etmişdir. Duz həm də istehsal prosesi ilə reallaşır, insanın tələbatını ödəməyə xidmət edir. Bu isə asan başa gəlmir. Xüsusilə də Naxçıvan Duzdağındakı daş duz insan əməyinin nəticəsində istehsal edilir. "Duz dağı, duz mağarası, duz mədəni, duz bazarı anlayışları ilkin şəhər tipli yaşayış düşüncəsinin təməl şərtlərindəndir. Naxçıvanda da ilkin şəhərsalmanın yaranmasında və inkişafında Duzdağ məsələsi mühüm rol oynamışdır"(9).

Beləliklə, aydın olur ki, Naxçıvan şəhəri yaxınlığında olan Duzdağı və oradan mədən yolu ilə çıxarılan duzun tarixi çox qədimdir. Eramızdan əvvəl V minillikdən başlayaraq Duzdağda duz çıxarıldığını, mədənçiliyin inkişaf etdirildiyini, bu mədənin xüsusilə Erkən Tunc dövründə geniş istifadə olunduğu qənaətinə gəliriksə, həm də mədənçilik işinin şəhər tipli yaşayış üçün səciyyəvi olduğunu bildiririk. Ümumiyyətlə, Duzdağ amili, mədənçiliyin yaranması və inkişafı Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır. Duzdağda əmək alətlərinə, axtarış işlərinə, duzun çıxarılmasına, satışına, mübadiləsinə yaranan tələbat Naxçıvanda şəhərsalma, şəhərləşmə işinin inkişafına təkan vermişdir.

ƏDƏBİYYAT

1. *Azərbaycan tarixi. Bakı, "Çıraq", 2005, 720 s.*
2. *Baxşəliyev V., Catherine M. və b. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan: "Əcəmi" NPB, 2012, 80 s.*
3. *Baxşəliyev V. Naxçıvanın qədim şəhərləri. "Şərq qapısı", 2010, 5 mart, № 43 (19.957).*
4. *Əliyev V. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır. Bakı, XXI, UNE, 2002, 320 s.*
5. *Əliyev V. Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemi//Naxçıvan tarixinin səhifələri. Bakı: ADPU, 1996, 222 s.*
6. *Əliyev V., Bağırov R. Naxçıvanın qədim qala şəhərləri. Bakı: "Elm", 2012, 192 s.*
7. *Əliyev V. Naxçıvan şəhərinin qədim tarixinə dair qərəzli mülahizə. "Elm" qəzeti, 1999, 13, 27 avqust, № 19-20, 21-22.*
8. *Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il/Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Bakı: "Nurlan", 2007, s. 20-27.*

9. *Həbibbəyli İ. Naxçıvan Duzdağı: tarix və müasirlik. "525-ci qəzet", 2012, 28 iyul.*
10. *II Uluslarası Aras hövzəsı sempozyumu (13-15 aralıq 2011, İğdır, Türkiyə). Erzurum, 2012, 632 s.*
11. *Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: "Elm", 1977, 158 s.*
12. *Məmmədov F. Azərbaycan şəhərləri tarixinin tədqiqi metodologiyasına dair//Tarixin metodoloji və aktual problemləri. Beynəlxalq elmi-nəzəri konfransın tezisləri. Bakı, "Nurlan", 2010, s. 92-93.*
13. *Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2012, 398 s.*
14. *"Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən beynəlxalq simpoziumda Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı. Naxçıvan Muxtar Respublikası. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: "Əcəmi", NPB, 2012, s. 514-515.*
15. *Алиев И. К вопросу о возрасте города Нахчывана/ Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: "Elm", 1999, s.30-37.*
16. *Григорьев В.Т. Статистическое описание Нахчыванской провинции. Санкт-Петербург. Типография департамента Внешней Торговли, 1838.*
17. *Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. СМОМПК, вып. 2, Тифлис, 1882, вып. I, отдел II, с. 109-142.*
18. *Щерметевский П. Нахичеванские соляные месторождения. Газета «Кавказ», 16 март 1855 г., № 22.*

2012

Hacı Qadir Qədirzadə
AMEA-nın müxbir üzvü

NUH PEYĞƏMBƏRDƏN QALMA SƏNƏT - DUZÇIXARMA

Nuh peyğəmbərlə bağlı rəvayətlərdən birində deyilir ki, Tufandan sonra Naxçıvanda məskunlaşan Nuh peyğəmbər xalqa bir sıra sənətkarlıq sahələrini, o cümlədən Duzdaqda duzçıxarmanı da öyrətmişdir. Bu fikir XIX əsr mənbələrində də öz əksini tapmışdır (128). Son illərdə burada aparılan araşdırmalar, qədim mədənlərdən aşkar edilmiş alətlərin analizi rəvayətin reallığını, yəni m.ö. V minillikdə buradan duz çıxarıldığını təsdiq etdi. Əldə edilmiş çoxsaylı dəlillərə əsaslanaraq müəlliflər yazırlar ki, dünyanın ən qədim duzçıxarma mağarası Naxçıvana aiddir. Gəlinmiş nəticənin ən böyük əhəmiyyətindən biri onun xalq arasında mövcud olan rəvayətin elmi cəhətdən təsdiqidir. Çünki göstərilən tarix Tufandan sonrakı dövrə uyğun gəlir. Beləliklə rəvayətin və bəzi mənbələrdə göstərilən məlumatların reallığı ortaya çıxır. Bu kiçik ön sözdən yola çıxaraq Duzdağ və duz məsələsi üzərində ayrıca dayanmaq istərdik.

Tarixi məlumatlara, qədim maddi mədəniyyət nümunələrinə və etnoqrafik mənbələrə söykənərək demək olar ki, insanların məskunlaşmasında təbii-coğrafi şəraitlə bərabər onların gündəlik tələbatlarının ödənməsi şərtləri dəəsas amillərdən sayılmışdır. İlkin insan məskənlərini araşdıranlar hər şeydən öncə təbii sığnaqlara, mağara və zağalara böyük önəm verirlər. Bu dövr mədəniyyəti araşdırıcılar tərəfindən müxtəlif adlarla təqdim edilir. Bizcə bunun ən mükəmməl adı mağara mədəniyyətidir. Özlərinin təhlükəsizliyini tə-

min etmək, təbii amillərdən və iqlim şərtlərindən qorunmaq məqsədi ilə hələ kollektiv halında yaşamaqdan özgəçarəsi olmayan, ikili ailənin formalaşmadığı, uşaqların fiziki və mənəvi tərbiyəsində, mağara məişətinin qorunub saxlanmasında onların payının üstün olduğu bir mərhələdə mağara mədəniyyətindən kənara çıxmaq mümkün deyildi. Başlıca şərt lazım olan gündəlik qidanı təmin etmək, mağara kollektivini, müəyyən qohumluq bağlarıolan insanları qorumaq və uşaqları tərbiyə etmək idi. Təbii ki, bu digər canlıların birlik formasına məxsus olan fiziki və maddi təminat xarakteri daşımışdır. Lakin, Allahın yüksək şərtlər daxilindən yaratdığı, müxtəlif bilik və bacarıqlar verdiyi insan düşüncə mənbəyi, yenilik etmək, rast gəldiyi hər bir hadisəni, əhatə olunduğu mühiti öyrənmək, bir-birləri ilə qarşılıqlı yardımda və təmasda olmaq qabiliyyətinə görə dəyişir və inkişaf edirdi. Onlar zaman-zaman mağarada formalaşdırdıqları mədəniyyətlər məcmuyunu təbii-coğrafi şəraitə uyğunlaşdıraraq ətrafa yaymağa başladılar. Beləliklə, digər yerlərdə olduğu kimi Naxçıvanda da insanlar yeni yaşayış məskənləri, məşğuliyyətlərinə uyğun yerlər seçdilər. Min illər boyu mağarada formalaşmış mədəniyyət inkişaf edərək təbii-coğrafi şəraitə, əhalinin məşğuliyyətinə uyğun olan yeni yaşayış məskənlərinə, oradan şəhərsalma və dövlət qurmağa yüksəldi.

Tarixi dəlillərə söykənərək demək olar ki, Naxçıvanda mağaradan şəhərə, oradan dövlətə, hətta müasir sivilizasiyaya qədərki inkişaf qırılmayan xətt üzrə davam etmişdir. Naxçıvanda elmi cəhətdən araşdırılmış və araşdırmaların davam etdiyi Qazma mağarasından (bizcə, ərazimizdə belə mağaraların sayı bir neçədir, yəqin ki gələcək araşdırmalar nəticəsində onlar aşkar ediləcəkdir) başlayan mədəniyyəti babalarımız inkişaf etdirmiş, nəsillərdən-nəsillərə ötürərək

yaşatmış və bugünkü varislərinə çatdırmışlar. Həmin mədəniyyətin ilkin sahibləri də, eyni soydan gələn insan birliyindən etnik birliyə və nəhayət, türk adlı milli birliyə yüksəldən də bizlərik.

Bu birliyin və mədəniyyətin formalaşmasında bir çox amillər ciddi rol oynamışdır ki, onlardan ayrı-ayrı müəlliflər geniş bəhs etmişlər. Bu yazımızda biz həmin məsələlərdən biri - duz və onun yerləşdiyi Duzdağdan bəhs etmək niyyətindəyik.

Tarixi mənbələrdə Duzdağla bağlıo dərəcədədə geniş məlumat yoxdur. X1X əsrin ikinci yarısından başlayaraq burada çalışan bir sıra mühəndislər qədim duz mağaraları, oradan aşkar edilmiş daş alətlərlə maraqlanmışlar. 1870-ci ildə burada çalışan Bayer bir neçə daş balta tapmışdır. K.A.Nikitinin məlumatından aydın olur ki, o tapdığı baltalardan ikisini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını Tiflis və Peterburq muzeylərinə göndərmişdir (128, s. 115). Sonrakı dövrlərdə İ.S.Polyakov və P.N.Nadejdin buradan bir neçə daş balta və digər tapıntıları əldə etmişlər. Duzdağ mədənlərinin arxeoloj cəhətdən tədqiqi keçən əsrin 70-ci illərində yenidən başlanmışdır. Bunlar da təsadüfi tapıntılarla bağlı olmuşdur. 1967-ci ildə uçqun zamanı və 1976-cı ildə Duzdağda qazma işləri apararkən qədim şaxta aşkar edilmişdir. Həmin vaxt şaxtada ilkin araşdırmalar aparmaq məqsədilə arxeoloq V.Əliyev məni və Q.Ağayevi də ora apardı. Xatırımda qaldığı qədər Vəli müəllim ilkin tədqiqatla bağlı «Elm və həyat» jurnalında, sonra isə Az. SSR EA «Xəbərlər» ində məqalə nəşr etdirmişdir (21). Buradakı araşdırmalar zamanı mənim diqqətimi daha çox salonların quruluşu cəlb etmişdi. Şaxtacı fanarlarının işığında sanki büllur saray canlanırdı. Hər yer almaz kimi parlayan duz kristalları idi. Bizim üçün

şərti olaraq başlanğıc hesab edilən salondan sonra bir-birindən xüsusi tağlar vasitəsi ilə ayrılan 2 salona da keçə bildik. Salonlar elə qazılmışdı ki, möhkəmliyi qoruna bilsin. Keçid xarakterli tağlar xüsusi memarlıq işini xatırladırdı. Axtarışlar zamanı aşkar edilmiş heyvanat ifrazatı, qamçı tipli qalıntı, araba izləri və s. buradan uzun müddət duz çıxarıldığını sübut edir. Biz 3-cü salondan sonra gedə bilmədik. Arxada 4-cü salon görünsə də qabaq tərəf uçub tökülmüşdü. Bizimlə həmin yerə girmiş mühəndis bildirdi ki, ora keçmək qorxuludur, titrəyişdən hər an uçqun ola bilər. Geri qayıdarkən qeyri-ixtiyari mühəndisdən soruşdum ki, bu nə məftildi tavandan sallanır? O cavab verdi ki, bu məftil deyil, sadəcə min illər boyu sıxılaraq təbii formada yaranmış duz axınıdır.

Mən həmin vaxt belə düşünürdüm ki, bu salonlardan həm tibbi, həm də hərbi məqsədlə istifadə etmişlər. Xalq arasında bura ilə bağlı müxtəlif rəvayətlər hələ də yaşamaqdadır. Deyirlər ki, guya Qaşın altı bütövlükdə boşdur, Duzdağdan Qaraquca (Qaravuşa) qədər yeraltı yol var. Guya keçmişdə məlum məsafədən havalanma üçün xüsusi bacalar açılmışdır. Bu həm də işıqlandırma rolunu oynamışdır.

Duzdağərazisində geniş tədqiqal işləri 2006-2008-ci illərdə, Vəli Baxşəliyev və Katrina Maronun rəhbərliyi ilə aparılmışdır. Araşdırmalar nəticəsində buradan müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı Eneolit, Erkən Tunc, Dəmir dövrlərinə və Orta əsrlərə aid keramika materiallarıəldə olunmuşdur (9, s.88-90). Həmin tapıntılara söykənərək demək olar ki, Duzdağda həyat, duz çıxarılması işi Daş dövründən günümüzə qədər davam etmişdir.

Duzdağ, buradan duz çıxarılması ilə bağlıümumi və statistik məlumatlara K.A.Nikitinin (128), V.Qriqoryevin (119) əsərlərində rast gəlirik. Naxçıvanda duz istehsalı, onun satışı

və digər məsələlərləəlaqəli Z.Şahverdiyevin kitabında (49), Y.Rəhimovun məqaləsində (45, s.75-79) geniş məlumat verilmişdir. Yuxarıda göstərilən mənbələr daha çox Duzdağın qədim dövrünə aid tarixi-iqtisadi məsələləri, statistik məlumatları əhatə edir. Ümumiyyətlə bizim məlumat xarekterli yazımız (33, s. 43-45), R.Babayevin məqaləsi (6, s.144-146) istisna olmaqla Duzdağ və duzla bağlı məsələlər folklor və etnoqrafik baxımdan tədqiqata cəlb edilməmişdir. Mövcud boşluğu nəzərə alaraq biz problemin etnoqrafik cəhətdən araşdırılmasını qarşıya məqsəd qoymuşuq.

Tarixdə Naxçıvan və Duzdağ, Naxçıvan duzu xüsusi yer tutur. Duzdağ Allahın tarixi Naxçıvana, bütövlükdə onun duzunun çatdırıla bildiyi insanlara ən böyük bəxşişidir. Dərələyəz dağ silsiləsindən cənuba, Araz çayına qədər uzanan Duzdağ dağ silsiləsi tarixi Naxçıvan ərazisinin mərkəzi olmaqla sanki onun tənbölənidir. Min illər boyu dörd istiqamətə gedən karvanlar yükünü bu dağın cənubundan, indi xalq arasında Duzdağ kimi bilinən yerdən tuturdu. Hələ karvanların yola düzülməsindən, tarixlərin yazılmasından min illər öncə, mağara sakinləri və oradan çıxıb yeni yaşayış məskəni salan insanlar Duzdağa yaxın olmağa çalışırdılar. Milyon illər boyu duzla örtülmüş bu ərazidə daimi məskən salmaq zor idi. Nə qədər zor olsa da insanlar bura duz çıxarmağa, çölün vəhşiləri, qoyun-keçi sürüləri duz yalamağa gəlirdilər. Bu tarixdən əvvəlki, İlahi nizamın pozulmadığı zaman idi.

Duzdağın Cəhri kəndi və Qərb istiqamətindəki əraziləri Şorakət adlanır. Burada bitən çoxlu şorangah bitkiləri heyvanların şorunu almasıüçün yetərli idi. Cəhri kəndinin heyvandarları deyirlər ki, Qaşın otu (Cəhri kəndində Qaravuşdan başlamış Duzdağa qədər uzanan dağ silsiləsi - Duzdağ silsiləsi belə adlanır) yağlı vəşor olduğundan orada otlayan

heyvanların əti və südü dadlıolur. Bir zamanlar Naxçıvan ərazisində dadı ilə seçilən Cəhri kəndinin heyvanlarının ətinin dadının sirri bundadır. Heyvanlar həmişə Şorakətə aparılmazdı. Daha çox payızda, sürülər arxaca yendiriləndə buralara gələrdilər. Çünki yayda heyvanlar yaylağa qaldırılırdı. Digər tərəfdən isti vaxtlarda bu ərazidə içməli su problem idi. XIX əsrdə Naxçıvanda olmuş bir sıra müəlliflər Duzdağın ətrafında yaşayış məskənləri və içməli su olmadığını qeyd edirlər. K.A.Nikitin yazır ki, bura içməli su Naxçıvan şəhərindən 12 verst aralıolan ərazidən gətirilmişdir (128, s. 138).

Toplanmış etnoqrafik məlumatlara və arxeoloji materiallara söykənərək demək olar ki, qədim dövrlərdən başlamış ilk orta əsrlərdə, bir az da ondan sonrakı dövrlərdə Duzdağın indi duz çıxarılan ərazisinin şimal-şərqində, tarixən açıq üsulla duz çıxarılan yerlərin şərqində, Cəhri kəndi ərazisində Qoşatəpə, Əyriarx, Tülkütəpəsi, Binətəpə kimi yaşayış məskənləri mövcud olmuşdur. Kəsə yolla Duzdağın 2-3 km-də yerləşən Qoşatəpə yaşayış yerinə isə su başlanğısını Cəhriçayından, Çalxandağının ətəyindən götürən və el arasında Xaraba Peşov, Peşov və Orta arxlar vasitəsi ilə gətirilmişdir. Bunlarla yanaşı hazırda el arasında Arxacqabağı adlanan yerin yaxınlığından çıxan və «Qamışlıq» adlanan bulağın suyundan da istifadə edilmişdir. Duzdağa içməli su bu istiqamətlərdən gətirilmişdir. Digər su mənbəyi son illərdə yol-tikinti işləri zamanı Duzdağın sağ tərəfindən aşkar edilmiş köhnə kəhriz sistemi olmuşdur.

Bütövlükdə Duzdağda içməli su məsələsinə gəlincə, burada içməli suya geniş tələbat olmamışdır. Çünki keçmişdə duz çıxarmaq daha çox fərdi xüsusiyyət daşıyırdı. İşləməyə gələnlər at, ulaq vasitəsi ilə özlərinə su gətirirdilər. Yəni, burada içməli su problemi olmamışdır. Gətirilmiş sular

səhənglərdə duz lağımlarına qoyulurdu. Yayda lağımlar sərin olduğundan su yaxşı saxlanırdı. Mövsümü iş zamanı buradakı müvəqqəti yaşayış yerlərində - qazmalarda yaşayanlara isə su digərləri tərəfindən gətirilirdi.

Duzdağel arasında müqəddəsdir. O qorunmuş, insan ömrüonunla müqayisə edilmiş, dua, alqış yerinəçevirilmişdir: «Səni görüm ömrün Duzdağına dönsün» Naxçıvanda indi də bu alqış, istək söylənir, dua edilir. Görəsən qarşısındakına nə diləyir dua edən!? Niyə Duzdağına, nədən ondan hündür, əzəmətli olan Ağrı dağına, ətrafdakı digər dağlara deyil, məhz Duzdağına dönməsini istəyir. Bu bir hikmətdir, el hikmətidir. Hər kəsə, hər yetənə belə dua etməzlər. O adamlara edərlər ki, onlar həyatlarını dost-tanışın, qohum-əqrabanın, elin xeyrinə, haqqa, ədalətə sərf edər, əldən tutar, faydalı ömür yaşayarlar. Ətrafda heç bir dağ insanların, heyvanların faydası üçün öz ömrünü, varlığını ortaya qoymayıb. Min illərdir ki, Duzdağın ömru kəsilmir. O bitib tükənmək bilmir. İnsanlarla birgə ömür yaşayır Duzdağ. Buna görə də onun varlığı insan ömrü ilə müqayisə edilir. İnsanlara da Duzdağ kimi faydalı və uzun ömür arzulayırlar.

Duzdağ əzəmətinə, hündürlüyünə görə dağ adlanmır. Ətrafında ondan hündür, onunla eyni səviyyədə olan yerlər təpə adlanır. Duzdağ sərvət dağıdır, bərəkət hündürlüyüdür. Elmi ədəbiyyatda Ələyəz dağlarından ayrılıb cənub istiqamətinə uzanan silsilə Duzdağ silsiləsi adlanır. Lakin el arasında bura Qaş, Cəhrinin qaşı deyilir. Duzdağ isə onun cənub hissəsini təşkil edir.

Xalq arasından toplanmış materiallara əsaslanaraq demək olar ki, qədim zamanlardan Duzdağdan duz çıxarılması Cəhri kəndinin nəzarətində olmuşdur. Tarixi mənbələrə əsaslanaraq Z.Şahverdiyev yazır ki, XVIII əsrin sonlarına-

dək Naxçıvanda duz istehsalı ilə istinasız olaraq Cəhri kəndinin sakinləri məşğul olmuşlar. Lakin Kalbalı xanın vaxtında, XIX əsrin əvvəllərində cəhrililər bu işdən kənarlaşdırılmışdır (49, s. 84). Rəsmi göstərişə baxmayaraq Cəhri kəndinin sakinləri XX əsrin 30-cu illərinə qədər Duzdağərazisindən duz çıxarmaqda davam etmişlər.

Duz çıxarılmasında lom, külünk, dəmir guppanla bərabər qədimdə olduğu kimi daş alətlərdən də geniş istifadə olmuşdur. Bunlardan içərisində çəkisi 2-3 pud olan daş guppanlar diqqəti daha çox cəlb edir. Ucları sivri düzəldilmiş guppanlardan duz uçqunu yaratmaq üçün istifadə olunurdu. Ortasındakı kan yerindən ip bağlanaraq müəyyən hündürlükdəki mıxdan asılıolan guppan ortasına bağlanmış ip vasitəsi ilə geri çəkilib buraxılırdı. Ağır zərbə ilə duz layına dəyən alət duz sallarını qırıb tökürdü.

Təbii ki, daş alətlərdən istifadə olunması daş dövründən başlamışdır. Lakin Duzdağda istifadə edilən alətlərin müəyyən hissəsi sonrakı inkişaf mərhələlərində yerli ustalar tərəfindən də düzəldilmişdir. Yəni, alətin daşdan olması o demək deyil ki, onun hamısı daş dövrünə aiddir. Lakin daşla duz çıxarılması ənənəsi ibtidai insanlardan bizə qalan mirasdır. Buna görə də buradan aşkar edilmiş alətləri dövrləşdirərkən tarixilik məsələsinə xüsusi diqqət verilməlidir. Cıxarılan duz bir necə formada olurdu: sal duz, xınc və narın duz.

Məişətdə narın duzdan daha geniş istifadə edilmişdir. O bir neçə üsulla hazırlanırdı. Duz çıxarılarkən duz sallarının ən təmiz, gili az olanı ayrıca yığılırdı. Həmin sallar həyətlərə gətirildikdən sonra yuyulub qurudulur, müəyyən daş və ya çəkiclə əzilərək xınc formasına salınırdı. Əzilmiş, xırdalanmış duzlar müxtəlif ölçülü dibək daşlarında döyülürdü. Dibək daşının döyən, əzən, əldə tutulan hissəsi də (əl daşı)

daşdan düzəldilirdi. Döyüldükcə dibəyin içərisindəki duz çevrilirdi ki, o tam narınlaşsın. Toplanmış materiallara əsaslanaraq demək olar ki, tutumuna və böyüklüyünə görə dibək daşları bir-birindən fərqlənmişdir. Şəxsi həyətlərdə olan dibək daşları kiçik olmaqla yığcam idilər. Lakin hər məhəllədə, mərkəzi meydanın kənarında böyük dibək daşları olurdu. Bu daşları götürüb aparmaq, yerini dəyişmək çətin olduğundan məhəllə sakinlərinə lazım olan duz orada döyülərdi.

Duz qış ruzisi sayılmaqla hələ yaydan onu döyüb hazırlayırdılar. Böyük ailələrdə duz çox istifadə edildiyindən onu dibəkdə döyüb çatdırmaq çətin olurdu. Buna görə də duzu kirkirədə (dəstər, əl dəyirmanı) çəkirdilər (üyüdürdülər). Kirkirədə duz çəkmək çətin olduğundan bu işdə qadınlara evin kişiləri, xüsusən oğlan uşaqları da yardım edirdilər. El arasında deyirdilər ki, hər adam kirkirədə duz çəkə bilməz. Çünki, onun qaydasını bilməyənlər daşı sürtdürə bilərlər. Beləliklə, daş ovulub duza qarışar. Eyni zamanda kirkirə dişəkdən düşər. Məlum olduğu kimi belə daşlar xüsusi adamlar tərəfindən dişənir. Yəni xüsusi alətlə daşı çopurlaşdırılır (onda kiçik çıxıntılar oyulur). Daş hərləndikdə həmin çıxıntıların (dişəklərin) arasında qalan duzlar un kimi üyünür. Bilindiyi kimi kirkirədə təkcə duz çəkilmirdi. Burada yarma, qovud çəkilir, bir sıra toxumlar üyüdülürdü. Dişəkdən düşmüş kirkirə üyütmək xüsusiyyətini itirirdi. Qeyd edək ki, kirkirə hər evdə olmazdı. Buna görə də ev sahibi onda kənar adamların duz üyütməsinə icazə vermirdi. Etnoqrafik materiallara söykənərək demək olar ki, kəndlərdə bu işlə məşğul olan adamlar var idi. Onlar kirkirəni duz üyütməyə (çəkməyə) verərkən əvəzində pul və ya natura formasında nə isə alırdı. Lakin bu çox az halda olardı. Xalq arasında belə alətlər «ehsanlıq» adlanmaqla qohum və qonşular arasında ücrətsiz istifadə olunardı.

Ağ duz xüsusi qaydada hazırlanırdı. Duz xınc halına salındıqdan sonra onu isti suda həll edirdilər, bulanıq məhlul alınırdı. Həmin məhlulu müəyyən müddət bir qabda saxlayırdılar. Duzun gili, qarası qabın dibinə çökürdü, sonra qatı duzlu məhlulu ayrı bir qaba süzüb qaynadırdılar. Xalq arasında deyirlər ki, ağlığına baxmayaraq belə duzların dadı olmur.

Narın duz ayrıca qablarda - duz çuvallarında saxlanırdı. Duz çuvalları müxtəlif ölçülü və naxışlı olmaqla xüsusi qaydada toxunur və ya palaz materialından tikilirdi.

Duz çuvalları evin bir küncündə, su toxunmayan yerdə saxlanılar və çox nadir halda yerindən tərpədilərdi. Bunun təsiridir ki, evdə çox oturmağa məcbur edilən qız-gəlinlər «Mən duz çuvalı deyiləm ki, evin bir küncündə qalam» - deyərdilər. Duza böyük inam olduğundan duz çuvalı, duz qabı ciddi şəkildə qorunardı.

Məişətin digər sahələri ilə yanaşı, duzdan heyvandarlıqda geniş istifadə edilirdi. Buna görə də heyvanlar yaylağa qaldırılarkən həll edilən əsas məsələlərdən biri də duzla təminat idi. Etnoqrafik çöl materiallarına söykənərək demək olar ki, bütün yurd yerlərinin ətrafında böyük qayalarda yonulmuş dibəklər və duz daşları olurdu. Döyülmüş duz yastı və hamar daşların üzərinə səpilər, sonra heyvanları duz yalamağa ötürərdilər. Uzun illər yalandığından belə daşlar çox hamar olmaqla oba camaatı tərəfindən «duz daşı» kimi bilinirdi. Heyvanlara bu qaydada duz verilməsi daha çox xırdabuynuzlulara aid idi. İribuynuzlu mal-qara üçün duz sal şəklində müəyyən yerlərə qoyulur. Bütün bunlar duzun ayaqlanıb zibilə qatılmaması üçün edilirdi. İlin soyuq fəslində axur və qalotlara sal duz qoyulur.

Yaylaqda duzdan təkcə heyvanlara verilmək üçün deyil, həm də heyvanat məhsullarının hazırlanmasında geniş şə-

kildə istifadə edilirdi. Xüsusən pendirin duzlanması, şorov hazırlanması, motal və eymələrdə qurd əmələ gəlməsinin qarşısını almaq üçün ondan geniş istifadə edilirdi.

Heyvandarlıqda duzla bağlı adətlərdən biri də yeni doğulmuş balaların duzlanmasıdır. Peşəkar heyvandarlar söyləyirlər ki, bala doğulan kimi onun üstünə duz səpirlər. Bu ananın balanı yalamasına, südlü və balacanlı olmasına təsir göstərir. Duzlanmış balalar qotur və digər xəstəliklərə çətin tutulurlar.

Beləliklə, duz heyvandar üçün həyatı məsələ idi. Hevandarlıqda geniş istifadə edildiyi üçün ilin isti fəsillərində Qarabağın elat əhalisi tarixi Naxçıvan ərazisindəki yaylaqlara gələn vaxtlarında duz çıxarılması, duz ticarəti nəzərəçarpacaq dərəcədə artırdı. Bununla bağlı yazılı mənbələrdə də məlumatlar vardır. V.Qriqoryev yazır ki, ilin yay aylarında Qarabağdan gələn köçlərin Salvartının, Əriklinin, Dərələyəzin yurdlarında yerləşməsi duza olan tələbatı daha da artırırdı (119 , s. 17-18).

Duz yaylaqlara, dağ və dağətəyi kəndlərə, hətta Kəlbəcər, Laçın, Korus, Dərələyəz və Sisiyanın kəndlərinə qatır və ulaqlar vasitəsi ilə daşınırdı. Bir xalq deyimində duzun daha çox at və ulaqla daşındığı bəlli olur: «At axurda, eşşək naxırda, duz Duzdağda». Bu ifadəni o vaxt işlədirlər ki, görüləcək hər hansı bir işə başlamamışdan öncə onun ağırlığından, çətinliyindən giley edilir. At və öküz arabalarının gedə biləcəyi kəndlərə duz onlarla daşınırdı.

Tarixin müəyyən mərhələsində Naxçıvandan çıxan karvanların əsas yükü duz olmuşdur. Hələ indi də birini xoşu gəlməyən yerə çağıranda gileylənərək bu ifadəni işlədir: «Dəvəyə dedilər ki, səni qonaqlığa çağırırlar, cavab verdi ki, öpməli dodağım yox, qucmalı belim, məni ya Naxçıva-

na duza göndərəcəklər, ya da Bərşükata düyüyə". Bu deyimin bir tərəfi Naxçıvandan duz aparmaqdırsa digər tərəfi Bərşükatdan düyü gətirməkdir. Bəli, Naxçıvandan aparılan duzun əvəzindən qayıdanda heyvanat məhsulları, toxuculuq məmulatı, burada az tapılan mallar gətirilirdi. Deməli, Naxçıvan duzu ən yaxşı mübadilə vasitəsi idi. Amma bu iş çox çətin sayılırdı. Xalq arasında duz yükü ən ağır iş, yük sayılırdı. Görünüşü yüngül, sonrası ağır olan işlər haqqında «Hələ duza gedir, tamaşa qayıdandadır» deyilir. Cünki duz gətirməyə və ya cıxarmağa gedən adam boş cuvalları, lazım olan əşyaları götürüb minəklə yola düşür, qayıdanda isə yorğun və minəksiz gəlir.

Xalq arasında duz yükü ən ağır yük sayılmaqla onu qız uşağının böyüdülməsi, tərbiyəsi ilə müqayisə edir və deyirlər: "Qız yükü, duz yükü". Bəlli, qız böyütmək məsuliyyəti Duzdaqdan duz gətirmək qədər çətin idi. Duz yükü xüsusi diqqət tələb edirdi. Yükün düz vurulmaması, onun aşması, yağışa, suya düşməsi qorxulu sayılırdı. Bəzən aşan yük çatıldığı heyvanın şikəstliyinə, ölümünə səbəb olurdu. Nə qədər çətin olsa da bu maddi zərər idi. Qız yükü, qız məsuliyyəti namus məsələsi, mənəvi varlıq idi. Bu yükü mənzil başına çatdırmaq, onu namusla böyüdüb ərə vermək müqəddəs vəzifə idi. Deməli, bu yükün duz yükündən maddi deyil mənəvi ağırlığı daha çətin olmuşdur.

Bərəkətinə and içilən, bir çimdiyi yerə töküləndə dava-dalaş düşəçəyinə inanılıb üzərində əsilən duz təmizlik, paklıq, halallq rəmzidir ki, qızın qorunması onunla müqayisə edilir.

Duz hər yerdə müqəddəsdir, lakin onun vətəni Naxçıvanda, anası Duzdağda daha müqəddəsdir. El arasında qədir bilməz, edilən yaxşılığı itirən adamlar haqqında: "Duzunu

yeyib duzdağı zibilləyəndir" deyilir. İnsanların tanıdıqları gündən müqəddəs hesab olunan bu dağa sayğısızlıq, onu qorumamaq böyük nankorluq sayılır. Belələri haqqında deyirlər ki, onun xeyir-bərəkəti olmaz.

Naxçıvanda etibarını itirmiş, nankor adamlar haqqında bir ifadə də işlədilməkdədir: " Onun duzuna qurd düşüb, onun duzu qoxub". Nə qədər böyük deyim, belə adamların hər cürə qoxmanın, çürümənin, qurdlamanın qarşısını alan duzuna inanmaq olmaz, ona qurd düşüb. Belələri xalqın dediyi kimi: "Çörək itirəndir". Söz çörəkdən düşmüşkən o tək anılmır. Çörək duzla birlikdə daha da müqəddəsdir - "Duz çörək, düz çörək". Hansı gücə malik deyil bu birlik. İnsan həyatının qayəsi, dərdləri sovuşduran, bəlaları aparıb insanları qovuşduran, kişilik, halallıq, düzlük rəmzi. Yəni belələrinin düzəlməsi mümkün deyildir.

"Naxçıvan: Nuh baba və Türk atadan gələn yol".
Naxçıvan, "Əcəmi", 2011, səh.73-86

C. Marro, V. Baxşəliyev, H. Hamon,
N. Alıyev, P. Dessaint, S. Sanz

NAXÇIVAN DUZDAĞININ DUZ MƏDƏNLƏRİ[1]

Qafqazda duzla bağlı araşdırmalar başlanğıc mərhələsindədir. Regionun bütün ərazisində duza rastlanması maraqlı faktlardan biridir. Naxçıvan Duzdağından başqa duz yataqları Türkiyənin Arazboyu vadisində yerləşən Tuzlucada və Şimal-Qərbi İranda Xoy yaxınlığındakı Duzdağında[2] aşkar olunmuşdur. Türkiyədə, Ərzurum bölgəsində Osmanlı imperiyası dövründə intensiv istismar olunan duz yataqları olmuşdur. Onların əksəriyyəti (Ak, Kirmizi, Kömür, Muhlis) duz təzahürləridir, lakin daş duz da qeydə alınmışdır (Sagir Kaya)[3]. Nəhayət qeyd etmək lazımdır ki, duz təzahürləri Van gölünün şərq sahillərində - Canikdə rastlanmışdır.

Duz mədənlərinin əksəriyyətindən arxeoloji materiallar aşkar olunmuşdur. Canik[4] mədənindən aşkar olunan keramika parçaları Əhəmənilər dövrünə aiddir. Urmiya gölünün şimalında 2005-ci ildə aparılan araşdırmalar zamanı Xoy Duzdağındakı duz yatağından xeyli keramika parçaları aşkar olunmuşdur. Keramika məmulatının bəziləri Eneolit dövrünə aiddir.[5] Tuzlucada mədənlərin özündən aşkar olunan

---

[1] Mətnin müəllifləri: C. Marro (CNRS, UMR 5133-Lyon), V. Baxşəliyev (AMEA, Naxçıvan), H. Hamon (CNRS, UMR 8215-Nanterre), N. Alıyev (AMEA, Naxçıvan), P. Dessaint (Service Archéologique de la Ville de Lyon) and S. Sanz (CNRS, UMR 5140-Lattes).

[2] «Duzdagı» türk dilində "duz dağı" mənasındadır. Qafqazda türklərin yaşadığı ərazidə və ondan kənarda olan duz təpələri Duzdağı, yaxud Tuzdağı adlanır.

[3] Cuinet 1892: 154.

[4] Marro и Özfirat 2005: pl. XVI.

[5] Bu tədqiqatlar 2005-ci ildə Kərim Əlizadə (ICAR, Tehran) və Catherine Marro tərəfindən Urmiya hövzəsi ətrafında aparılmış, lakin keramika məmulatının heç biri toplanmamış və nəşr edilməmişdir.

keramika məmulatı olduqca azdır. Burada açıq çuxurlar və qədim tunellər indiyədək saxlanmışdır. Bir qismi dağılmış tunelin içərisindən böyük daş alət Naxçıvan Duzdağından aşkar olunmuş daşçəkiclərlə bənzərdir[1].

Lakin zəngin tapıntılar daha çox Naxçıvan Duzdağındakı duz mədəninin yamaclarından toplanmışdır ki, bu da həmin duz mədənlərinin mühüm arxeoloji obyekt kimi müəyyən olunmasına imkan verir.

Duzdağı Naxçıvan şəhərinin 10 kilometrliyində, Təbrizi Konstantinapolla birləşdirən əvvəlki Böyük ipək yolu üzərində yerləşir. Araz vadisindən hündürdə yerləşən təpəşəkilli yataq Naxçıvanın təbii peyzajının məhşur görüntülərindəndir. Onun yerləşdiyi ərazinin Cənubi Qafqazın əsas strateji marşrutları üzərində olduğunu nəzərə alaraq demək olar ki, onun zəngin duz layları qədim dövrdən diqqəti cəlb etmişdir.

Duzdağ yatağı indi də istismar edilməkdədir: mədəndə işləyən mühəndislərin fikrinə görə duz yatağının uzunluğu 3 km², eni 2 km, qalınlığı 150 m-dir. 70-ci illərdə mədənin cənub tərəfində iş aparılarkən sovet şaxtaçıları qədim tunelə daxil olmuşlar. Burada alətləri ilə birlikdə dörd insan skeleti aşkar olunmuşdur. Bu qalıntılar daş alətlərəəsasən e.ə. III-II minilliklərə aid edilmişlər. Bu alətlər I Kültəpə[3]

---

[1] Burada İranın Şerhabab duz mədənlərində aşkar olunan mühüm tapıntılar haqqında danışmaq yerinə düşərdi. 1993 və 2007-ci illərdə altı insan mumiyası tapılmışdır. Araşdırmalara görə onların əksəriyyəti qədimdir. Bu mumiyalaraın ən qədimi C 14 analizinə görə Əhəmənilər dövrünə aiddir. (http://news.nationalgeographic.com/news/2007/07/070703-salt-man.html). Şerhabab təxminən Urmiya gölündən 200 km cənub-şərqdə Zəncan əyalətində yerləşir.

[2] Ehtimal ki, faktiki olaraq duz mədənləri daha böyük ərazini əhatə edir. Beləki, deyilənə görə, keçən əsrlərdə istifadə olunan mədənlər müasir duz mədənlərindən 6 km şimalda yerləşir.

[3] Abibullaev 1982: 111-112.

və II Kültəpənin[1] dəqiq stratiqrafik kontekstlərindən aşkar olunan daş çəkiclərlə bənzərdir.

Lakin 2007-ci ildə Fransız-Azərbaycan ekspedisiyasının qısamüddətli araşdırmaları zamanı yatağın cənub ətəklərindən Eneolit və Kür-Araz keramikasının aşkar olunması mədənin istismarının daha erkən başladığını ehtimal etməyə imkan verirdi. Daha əhatəli məlumat əldə etmək üçün 2008-ci ildə sistemli araşdırmalara başlanıldı.

Tədqiqatın məqsədi və metodları

Duzdağda aparılan araşdırmalar tarixəqədərki cəmiyyətlərin Naxçıvanın təbii sərvətlərinin istismarı, yaşayış yerlərinin tipləri və onların konkret bir ərazidə inkişaf dinamikasını müəyyən etmək üçün başlanan irihəcmli layihənin tərkib hissəsidir. Duzdağında aparılan iş Ovçulartəpəsi[2] yaşayış yerinin tədqiqi ilə sıx bağlıdır. Bu yaşayış yerində aparılan araşdırmaların əsas məqsədlərindən biri Son Eneolit və Erkən Tunc dövrü cəmiyyətlərinin iqtisadi və yaşayış strategiyasının müəyyənləşdirilməsindən ibarətdir.

Duzdağında bizim apardığımız araşdırmaların əsas məqsədlərindən biri duz mədənlərində erkən istismar izlərini aşkar etmək, tarixəqədərki dövrün son mərhələsində duzun çıxarılması üsullarını müəyyən etməkdən ibarətdir. Bu vəzifə mədənlərdə işlənmə izlərinin bərpası (chaîne opératoire), həmçinin daş alətlərdə aşınma izlərinin tədqiq edilməsi ilə mümkündür. Yatağın üzərindən toplanan keramika məmulatı *in situ* vəziyyətində aşkar olunan tapıntıların və digər arxeoloji strukturların tarixinin müəyyən edilməsi üçün xronoloji göstərici kimi istifadə ediləcəkdir.

---

[1] Алиев 1991: 154; Naxçıvan Ensiklopediyası 2002: 108.
[2] Marro, Baxshaliyev və Ashurov 2009.

Biz həmçinin müəyyən zaman ərzində duz çıxarılmasını bərpa etmək, əsas texnoloji və istehsal kəsintilərinin eyniləşdirməyinin mümkünlüyünü araşdırmışıq. Beləliklə, bizim işimizin bir hissəsi istehsal infrastrukturları üzərində cəmləşdiriləcəkdir, onların korrelyasiyası gil qab parçaları, makro və mikro daş alətlər əsasında aparılacaqdır.

Bu proqram, əlbəttə, Coğrafi İnformasiya Sisteminin və dəqiq coğrafi nişanların istifadə olunmasını tələb edir. Duzdağda bu iş ArcGis və DGPS (Differensial Qlobal Mövqe Sistemi)-nin birlikdə tətbiqi ilə idarə olunur.[1]

İrimiqyaslı topoqrafik xəritələr əldə etmək mümkün olmadığından bütün tapıntılar və arxeoloji strukturlar sputnik təsvirlərinin 5 ləkəsində yerləşdirilmişdir (xəta 2,5 m). Bu təsvir istifadəyə yararlı duz laylarının müəyyən edilməsində böyük köməklik göstərmişdir, beləki duzun içərisində saxlanan su infraqırmızı diapazonda aydın şəkildə görünür. Bu həmçinin duz laylarının az olduğu kolluvium sahələri müşahidə etməyə, hidroqrafik nümunələrin çıxışlarını müəyyənləşdirməyə kömək edir. Araşdırmalara yekun vuraraq demək olar ki, Duzdağı başlıca olaraq suyun çəkilməsi ilə formalaşmış və bir-birindən minimal məsafədə olan duz zonalarından ibarətdir.

Lakin irimiqyaslı xəritələr tərtib etmək və əsas arxeoloji xüsusiyyətləri müəyyən etmək üçün təsvirin xətası çox deyil. Beləliklə, aşağı hündürlükdən çərpələnglə çəkilmiş şəkillər (50-500 м) seçilmiş yeddi sahənin üçündə sistematik olaraq aparılmışdır (Windows 1, 2 və 4), bu sahələrdə sistematik araşdırmalar da aparılmışdır. Bu şəkillər düzəldilmiş, geoaraşdırmalarla öyrənilmiş, birləşdirilərək sputnik təsvirlərinin

[1]Bu DGPS-ibiz CNRS-in hazırladığı texnoloji platforma, ISA şəbəkəsi vasitəsi ilə əldə etmişik

üzərinə qoyulmuşdur. Geoaraşdırmalarla müəyyənləşdirilmiş şəkillərin nöqtələrinin ölçüsü DGPS ilə müəyyən edilmişdir. Belə cüt GPS-dən istifadə yerli koordinat sistemlərini 10 sm dəqiqliklə müəyyən etməyə imkan verir[1].

DGPS-dən istifadə sayəsində topoqrafik xüsusiyyətlər və arxeoloji tapıntılar böyük dəqiqliklə qeydə alınmışdır. Bu sonuncu üçün xüsusiləəhəmiyyətlidir, belə ki qeydə alınan faktlar tapıntıların yayılma arealı ilə (makro və mikro daş alətlər, gil qablar) şaxtaların infrastrukturu arasındakı əsas korrelyasiyaları müəyyən edir.

Əgər Duzdağında olan keramika məmulatını, mikro daş alətləri araşdırmalar zamanı toplamaq mümkündürsə, makro daş alətləri toplamaq mümkün deyil. Onlar çox olmaqla bərabər, həmçinin ağırdır. Araşdırmalar zamanı onları sistemli şəkildə toplamaq çətindir. Parçalar istisna olmaqla daş alətlərin ən kiçiyi bir kiloqramdır. Daş gürzlərin ağırlığı 10 kiloqrama qədərdir, lakin onların bəzisinin ağırlığı 60 kiloqrama çatır.

Bu çətinliyi aradan qaldırmaq üçün daş alətlərin tipologiyası Karolin Hamon tərəfindən yüz hissəyə bölünmüş nümunəyəəsaslanmışdır. Hər bir alətin yerindəcəşəkili çəkilmiş və sonra bu tipologiya əsasında K.Hamonun özü tərəfindən qeydə alınmışdır. Yalnız texniki və morfoloji xüsusiyyətləri ilə fərqlənən alətlər texnoloji və funksional analiz üçün mədənlərdən götürülmüşdür. Digər daş alətlər mədəndə tapıldığı yerdə saxlanırdı.

---

[1]Çəkilişlər GPS-lə təchiz olunmuş Nikon Coolpix P6000 aparatı vasitəsilə həyata keçirilir. P. Dessaint and S. Sanz DGPS və havadan çəkilən şəkillərə nəzarət etməklə bərabər GİS məlumatlarına cavabdehdirlər.

Çöl-tədqiqat işləri

2008-ci ildə Duzdağ yatağının ilk araşdırılması zamanı əsas məqsəd arxeoloji qazıntının yerini müəyyən etmək idi. Araşdırmalar göstərdi ki, arxeoloji tapıntılar, demək olar ki, Duzdağ yatağının hər yerində, gil çöküntülərinin üç başlıca səviyyəsinə uyğun olaraq yayılmışdı.[1] Ketrin Quzuçuoğlunun apardığı geomorfoloji araşdırmalar göstərmişdir ki, təpənin yalnız ağ-yaşıl rəngli gil qatları duz-mədən sənayesi üçün əlverişlidir.[2] Qırmızı zolaqlar çöküntülərin daha qaba və lilli laylarındandır. Burada yatağı formalaşdıran duz kristalları kifayət miqdarda toplanmamışdır. Onları mədən sənayesinin ənənəvi üsulları ilə istismar etmək çətindir.[3]

Arxeoloji tapıntılar Duzdağında Şimaldan Cənuba doğru 3 km-lik bir məsafədə yayıldığından[4] qazıntının yerini və həcmini müəyyən etmək olduqca əhəmiyyətli idi. Keramika parçaları və mikro daş alətlər Duzdağdan kənarda, o cümlədən Cəhri Xoru adlanan hissədən də tapılmışdır. Bu ərazi, böyük ehtimalla, şaxtaçıların içməli suya olan tələbatını ödəmək üçün müvəqqəti olaraq dayandıqları yerdir.

---

[1] 2-ci Pəncərənin şimalında 10 m qalınlığı olan beş duz layı qeydə alınmış, lakin sistematik araşdırmalarla öyrənilməmişdir. Əliyevə gəldikdə isə o, on bir duz layı olduğunu xatırlayır lakin onların yerləşdiyi mövqe haqqında heç bir məlumat vermir (Алиев 1991).

[2] Bu duz layları rəngli şəkillərdə ağ çalarda, sputnik təsvirlərində isə yaşıl çalarda görünür.

3 Lilli laylarda olan duz nəzəri olaraq, çöküntülərdəki duzu yumaqla, istifadə üçün əlverişli idi. Duz kristalları almaq üçün dəniz suyunu toplayıb qaynatmaq lazım idi (Weller 2004 : 447; Fig. 1). Bu üsul vaxt, yanacaq və enerji tələb edir və hər halda Duzdağda işləyən qədim cəmiyyətlər üçün əlyetməz olmuşdur. Bunun əksinə olaraq onlar bacarıqla dağ-mədən sənayesinin öhdəsindən gəlirdilər.

[4] Mədənin cənub hissəsində hazırda yaşayış yeri olduğundan tam şəkildə araşdırılmamışdır. Daha doğrusu cənubda qazıntıların aparılacağı hələlik məlum deyil.

Mədənlərin arxeoloji araşdırmalarla müəyyən olunmuş ölçüsünə uyğun olaraq, təpənin müxtəlif hissələrində, "pəncərə" adlandırılmış yeddi sahə intensiv tədqiqat obyektinə çevrilmişdir. Pəncərələrin yerinin müəyyən edilməsi müxtəlif kriteriyalara – arxeoloji tapıntıların toplanmasına, infrastruktur istismarının tiplərinə (tunel, karxana), duz yataqlarının yaxınlığı və müasir baxımdan onlar əldə edək imkanlarına (yolların mövcudluğu və s.) əsaslanmışdır. Pəncərələrin formasının və ölçüsünün müəyyən edilməsində mövcud dağ silsiləsi və vadilər nəzərə alınmaqla arxeoloji tapıntıların potensial trayektoriyasının izlənməsinə əsaslanmışdır. Tapıntıların bəzən sürüşüb yerini dəyişməsi də nəzərə alınmışdır. Beləliklə duz mədəninin özündə bilavasitə altı pəncərə müəyyənləşdirilmiş, yeddinci pəncərəyə isə Cəhri Xorunun ətrafındakı duz təzahürləri aid edilmişdir (Pəncərə 3).

İlk nəticələr

Aşağıda verilən ilkin nəticələr 2008 və 2011-ci illərin çöl-tədqiqat mövsümündə toplanmış materiallara əsaslanır. Toplanılan materiallar sputnik təsvirləri, yaxud havadan çəkilən rəngli fotorəsimlər üzərində işlənib hazırlanmışdır.

Seçilmiş pəncərələrdən və ərazidən asılı olaraq müəyyən fərqlər izlənir. Hər bir pəncərədən götürülmüş faktiki arxeoloji materiallar – böyük daş alətlərdən tutmuş kiçik keramika parçalarınadək (diaqnostik, yaxud qeyri-diaqnostik) bütün tapıntılar dəqiqliklə DGPS vasitəsi ilə qeydə alınmışdır. Digər tərəfdən seçilmiş sahələrdən kənarda qalanlar ilkin tədqiqata cəlb edilmişdir. Bunlara mövcud statistik material kimi yanaşılması nəzərdə tutulur. Onlar gələcəkdə yeni pəncərələrin müəyyən edilməsinə və sistematik tədqiqinə kömək edə bilər.

Duzdağında aşkar olunan arxeoloji materiallar çoxsaylı və müxtəlif formalı olması ilə fərqlənir. Onlar, Tuzlucada olduğu kimi, yalnız bütün yataq boyu izlənən infrastrukturlardan ibarət deyil, Xoy-Duzdağında olduğu kimi təpənin ətəyi boyunca yayılan arxeoloji tapıntılardan ibarətdir. Sonuncudan fərqli olaraq Naxçıvan mədənlərindən yalnız keramika parçaları deyil, həmçinin mikro və makro daş alətər aşkar olunmuşdur. Təsadüfi olaraq tapılan mis və dəmir kimi metal qalıqlarına da rastlanmışdır.

Mədən sənayesinin ən maraqlı infrastrukturları ehtimal ki, qədim tunellər olmuşdur. Onlar duz yatağının ağ-yaşıl rəngli laylarında səpələnmişdir. Havadan çəkilmiş rəsimlərdən göründüyü kimi bu tunellər duz yatağının ortasında bir-birinin yaxınlığında qazılmışdır. İndiyədək qeydə alınan tunellərin hamısı dağılmışdır, lakin onlardan biri saxlanmışdır. Onun uzunluğu 4 m, eni 1,10 m-dir. Tunelin içərisindən heç bir tapıntı əldə edilməmişdir, belə ki tunelin döşəməsi qalın çınqıl qatı ilə örtülmüşdü. Digər mühüm tapıntı tunelin girişində qayada sütunun yonulması idi (Pəncərə 4). Bu tunel də dağılaraq sütunun kapitelinədək çınqılla dolmuşdu, lakin maraqlıdır ki, o da müasir şaxtaya aparan əsas koridordan kənarda yerləşən digər sütulara bənzəyirdi. Kür-Araz dövrünə aid keramika parçalarına əsasən onları eyni dövrlə tarixləndirsək, demək olar ki, biz Son Eneolit və Erkən Tunc dövrü[1] ilə tarixlənən mədən sənayesinin şəbəkəsi ilə rastlaşmışıq.

Araşdırmalar zamanı 1-ci Pəncərədə iki yerdə açıq mədən izləri qeydə alınmışdır, onların birindən Orta əsrlərə aid keramika nümunələri aşkar olunmuşdur. 2007-ci ildə bizim apardığımız araşdırmalar zamanı öyrənilən ikinci belə karxana təpənin cənub yamacında yerləşirdi, lakin ən maraqlısı

[1] Kür-Araz mədəniyyətinin tarixləndirilməsi üçün aşağıya bax.

2010-cu ilin araşdırmaları zamanı 4-ci Pəncərədə aşkar olunan karxana idi. Aşkar olunan minlərlə Orta əsr keramikası içərisində yaşıl rəngli şirli keramika, naxışlanmış kasalar var idi. Onlar başlıca olaraq XII-XIII əsrlərlə tarixlənir.

Bu infrastrukturların istismar tarixinin müəyyənləşdirilməsi bizim Duzdağda apardığımız araşdırmaların əsas məqsədlərindən biridir. Bu, arxeoloji tapıntılar, tunellər və karxanalar arasındakı korrelyasiyanın incəliklə öyrənilməsini tələb edir.

Arxeoloji tapıntılar

Daş alətlər

Duzdağından aşkar olunmuş tapıntılar arasında geniş funksional və morfoloji diapozona malik olan makro daş alətlər xüsusilə diqqətçəkicidir. Mikro daş alətlər onlara nisbətən daha azdır. Onlar başlıca olaraq obsidianın qəlpələnməsi zamanı meydana gələn parçalardan ibarətdir. Kiçik bıçaqvari alətlər azdır. Lakin 2011-ci ilin mövsümündə 7-ci Pəncərədən daha təkmil obsidian tiyəsi tapılmış, lakin hələlik analiz olunmamışdır. Çaxmaqdaşı alətlər olduqca məhdud miqdardadır.

Duzdağı mədənlərində duzun çıxarılması və ilkin emalı üçün minlərlə makro daş alətlərdən (bundan sonra "daş alətlər"sözündən istifadə olunacaqdır) istifadə edilmişdir. Formasına, həcminə və daş cinsinə görə fərqlənən bu alətlər duz çıxarılan zonalarda toplanmış keramika ilə birlikdə rastlanmışdır. Bu alətlərin GPS-lə sistematik qeydiyyatı 2008-ci ildən başlamışdır. 2011-ci ildə duz mədəninin müxtəlif hissələrindən əldə edilən (Pəncərə 1 – 7) səkkiz yüzdən artıq alət qeydə alınaraq bilavasitə ərazidə və laboratoriyada tədqiq edilmişdir. Duzdağ mədənində duzun istismarı və ema-

lında bu alətlərin dəqiq funksiyasını müəyyən etmək üçün onlar tam texnoloji analiz edilərək alətlərdəki işlənmə izləri araşdırılmışdır.

K.Hammonun ilkin araşdırmaları göstərir ki, bu alətlərin əksəriyyəti çay daşlarından, ola bilsin ki, Duzdağın üzərində yerləşən allyuvial lisrlərin çöküntülərindən hazırlanmışdır. *Toplanan materialların 80% - i daş çəkiclərdir. Onların xammalı müxtlif mənbələrdən götürülmüşdür. Qumlu çaydaşı, qranit və bazalt, ehtimal ki, Duzdağı təpəsinin səthində saxlanan allyuvial yataqlardan, ya da Naxçıvançaydan gətirilmişdir. Lakin müəyyən tip çəkiclərin istehsalıüçün dolorit və qabbro ailəsinə məxsus daş cinsləri istifadə edilmişdir. Bu tip daş cinsləri göstərir ki, mədənçiləri xammalla təmin etmək üçün müəyyən təşkilati işlər görülmüşdür. Belə ki, bu daşların ən yaxın geoloji mənbələri Şahbuz rayonundan iyirmi kilometr şimalda yerləşir.*

Çəkiclərin tipoloji sisematikası yaradıldıqdan sonra onlar xəritə üzərində yerləşdirilmişdir. Çəkiclər çəkisinə (400 q-dan 60 kq-dək), xammalından (yumşaq və ya bərk), formasından (cferik, üçbucaq, dördbucaq) hazırlanma üsulundan asılı olaraq qruplaşdırılmışdır. Onlar təbii daşlardan, işlənmiş, qəlpələnmiş və digər üsullarla işlənmiş daşlardan ibarətdir. Onların gəzlərinin forması və yerləşmə xüsusiyyəti də bu çəkiclərin müxtəlif tiplərinin müəyyən edilməsinin əsas açarlarından biridir.

Onların müxtəlif funksional xüsusiyyəti göstərir ki, müxtəlif dövrlərdə daş duzun çıxarılmasında fərqli üsullardan istifadə edilmişdir. Bəzi çəkiclər sadə çay daşlarıdır, onlar işlənmədən birbaşa istifadə edilmişdir. Bəzilərinin hər iki üzündə sadə işlənmə izləri vardır. Lakin onların əksəriyyətinin uc, yan vəüz tərəflərində dərin batıq zolaqlardan

ibarət əyri və düz xətlərin müxtəlif konbinasiyasına rast gəlinir. Bu sadə və mürəkkəbləşdirilmiş kombinasiyalar onların insan əlinə adaptasiyası ilə bağlı olmuşdur. Bəzən onlarla kiloqram ağırlığında olan ağır daş alətlər əldə tutmaq üçün əlverişli deyil. Bu tip alətlərin baş tərəfində olan üfüqi və horizontal batıq xətlər, büyük ehtimalla, ip bağlamaq üçün nəzərdə tutulmuşdur.

Çəkiclərdən istifadə üsullarının müxtəlifliyi və onların təkrar istifadəsi də işin təşkilində müxtəlif üsullardan istifadə olunduğunu təsdiq edir. Daş çəkiclərin bəzi tipləri dolerit və qabbro ailəsindən olan bərk daş cinslərindən hazırlanmışdır. Bu daş alətlər I Kültəpə və II Kültəpə yaşayış yerlərinin Kür-Araz mədəniyyətinə aid təbəqəsindən aşkar edilmişdir. Onlar ustalıqla hazırlanaraq cilalanmış və uca doğru ensizləşdirilmişdir. Çıxarma zonaları ilə parallel yerləşən iş yerlərində qalan müxtəlif tipli alətlərin qalıqları onların uzun müddət istifadə olunduğunu və müxtəlif inkişaf mərhələlərindən keçdiyini göstərir.

Daşçəkiclərin həcminə və işlənmə üsullarına əsaslanaraq müxtəlif funksional hipotozalar irəli sürmək olar. Bəzi kiçik həcmli daş çəkiclər duz bloklarının üzə çıxarılmasında, bəziləri blokların sərhədlərinin müəyyən edilməsində, daha ağır çəkiclər isə dux blokların qırılmasında və tunellərin yaranmasında istifadə edilmişdir.

Daş alətlərin digər kateqoriyası dəstəklər, əzici alətlər daş duzun emal edilməsi üçün istifadə olunan digər alətlər dəərazidən tapılmışdır. Müxtəlif xammaldan hazırlanmış əzgi daşları, sürtkəclər və dəstəklər birbaşa iş platformalarından tapılmışdır. Əzgi daşları və sürtgəclər bazaltdandır. Bu material Qafqazın Neolit və Tunc dövrü yaşayış yerlərində əzici alətlərin hazırlanmasında istifadə edilmişdir. Ümumiyyətlə,

parçalanmış halda açkar edilın bu tip alətlər, ehtimal ki, mədənə ikinci dəfə istifadə olunmaq üçün gətirilmişdir. Ərazidən müxtəlif cinsli çay daşlarından hazırlanan konusvari və slindirik formalı dəstəklər də tapılmışdır. İşlənmə izlərinin ilk analitik araşdırmalarının nəticələri göstərir ki, onlar qida hazırlamaq üçün deyil, yumşaq faydalı qazıntıların emalı üçün işlənmişdir. Bu onu göstərir ki, duzun ilkin emalı bilavasitə karxanaların yaxınlığında yerləşən ərazilərdə - iş yerlərində olmuşdur.

Silisified cincli daşdan (çaxmaqdaşı, kvarsit, qumdaşı) hazırlanan xeyli sferik formalı daş çəkic aralıq mərhələdə işlədilən alətlərlə birlikdə tapılmışdır. Onlar iş yerlərində başlıca olaraq hazır və qırılmış daş çəkiclərlə birlikdə tapılmışdır. Ehtimal ki, onlar daş çəkiclərin düzəldilməsində istifadə edilmiş, zərbədən laylanmış və yastılanmışdır. Ağır daş çəkiclərin birbaşa duz karxanalarında tapılması belə ehtimal etməyə imkan verir. Bu onu göstərir ki, daşçəkiclərin bir qismi birbaşa mədəndə yenidən düzəldilərək bərpa edilmişdir.

Duzdağı mədənlərindən tapılan müxtəlif formalı daş alətlər ehtimal etməyə imkan verir ki, duzun sadə üsullarla çıxarılması ilə bərabər yüksək texniki biliy əəsaslanan daha strukturlaşdırılmış və mürəkkəb istismarı birlikdə mövcud olmuşdur. Daş alətlərin və çəkiclərin müxtəlif tiplərə bölünməsi da duz çıxarma zonaları ilə onların emalı ilə bağlı olan platformalardakı "emalatxanalar" arasında əməyin təşkilinin müəyyən formasının mövcud olduğunu göstərir.

Əldə edilmiş faktlar göstərir ki, aşkar edilmiş daş alətlərin heç də hamısı duz çıxarmaq üçün olmamışdır. Onların bəzisi həmçinin əmək alətlərinin yenidən düzəldilməsi və duzun şaxtada birbaşa emalıüçün istifadə olunmuş və daşımaq üçün

yararlı vəziyyətə salınmışdır. Əmək alətlərində saxlanmış izlər onların funksiyasını və istismar prosesini aydınlaşdırmağa imkan verəcəkdir.

Keramika məmulatı

Duzdağından həmçinin xeyli miqdarda keramika məmulatı aşkar olunmuşdur. Bu tip material mədənin cənub-qərb vəşimal-qərb yamacından 2-ci və 4-cü pəncərələrdən tapılmışdır. Qədim işlənmə ərazilərindən kiçik keramika parçaları ilə yanaşı yaxşı saxlanmış tapıntılar da əldə edilmişdir. Cənub-qərb yamacda Erkən Dəmir dövrünə aid toxunulmamış bütöv qədəh, 2-ci Pəncərədən isə Kür-Araz mədəniyyətinə aid küpənin parçaları aşkar olunmuşdur. Bütün keramika parçaları saxlanma dərəcəsindən asılı olmayaraq toplanırdı. Belə ki onların gilinin tərkibi və işlənməsi minimal dərəcədə olsa da xronologiyanı müəyyən etməyə imkan verirdi. Bəzi diaqnostik formalar, xüsusilə uzun bir zaman ərzində mövcud olan Erkən Tunc dövrünə aid eroziyaya uğramış "Naxçıvan qulpları" toplanmış ümumi materialın əksəriyyətini təşkil edirdi.

1, 2, 3 və 4-cü Pəncərələrdən aşkar olunan keramika məmulatının müqayisəli analizi müəyyən xüsusiyyətləri üzə çıxarmağa imkan verir.

Təpənin cənub-qərb yamacında yerləşən 2-ci Pəncərə saman qarışığı olan keramika Kür-Araz mədəniyyətinə aid keramika parçaları ilə xarakterizə edilir.[1] Bəzi keramika par-

[1] Duzdağından aşkar olunmuş saman üzlü keramika Ovçulartəpəsindən əldə edilmiş Son Eneolit keramikası ilə bənzərdir (Marro *et al.* 2009). Saman qatılmış keramika, bəzən daraqvarı alətlə naxışlanmışdır. Kasaların ağız kənarı istisna olunmaqla hələlik heç bir diaqnostik formaya rast gəlinməmişdir. Kür-Araz mədəniyyətinə aid keramika məmulatı da Ovçulartəpəsində aşkar olunanlarla bənzərdir. Lakin Ovçulartəpəsindən aşkar olunan keramika başlıca olaraq qara və tünd boz rəngli olduğu halda Duzdağının keramikası sarı, boz, yaxud krem rəngindədir.

çalaları Erkən Dəmir dövrünə aiddir. Lakin onlar açıq-aşkar azlıqdadır. Erkən Tunc və Dəmir dövrünün keramikası 1-ci Pəncərədə nisbətən bərabərləşmiş, lakin buradan Eneolit dövrünə aid keramika aşkar olunmamışdır. Qeyd etmək lazımdır ki, Erkən Tunc dövrünə aid keramika 1-ci pəncərədə 2-ci Pəncərəyə nisbətən azdır.

Maraqlıdır ki, Cəhri Xorundakı təzahürlərdə (3-cü Pəncərə) Son Eneolit və Erkən Tunc dövrünə aid keramika məmulatına rast gəlinməmişdir. Cəhri Xorundan aşkar olunan keramika məmulatının əksəriyyəti ya Dəmir dövrünə, ya da Orta əsrlərə aiddir. Qədim mədənçilər bu duz təzahürünə olduqca az gəlmişlər. Onlar ya bu marşrutla hərəkət etməmiş, ya da o zaman bu təzahürlər mövcud olmamışdır.

Orta Tunc dövrünə aid keramika məmulatı Pəncərələrdə, demək olar ki, rast gəlinməmişdir. Bəzi təsadüfi tapıntılar təpənin cənub yamacında aşkar olunmuşdur. Onların hamısı monoxrom boyalı olub qırmızı rəng üzərindən qara rənglə naxışlanmışdır. Məlum olduğu kimi, Van da daxil olmaqla Cənubi Qafqazda Orta Tunc dövrünə aid keramika (Naxçıvan istisna olmaqla) başlıca olaraq qəbirlərdən[1] aşkar olunmuşdur. Ehtimal ki, şaxtalarda Orta Tunc dövrü fəhlələri tərəfindən istifadə olunan keramika müəyyən funksional mahiyyət daşımışdır, lakin bu hələlik tam aydınlanmamışdır.

Son Tunc və Erkən Dəmir dövrünə aid keramika parçaları texnoloji xüsusiyyətlərinə görə az fərqlənir. Onları ayırmaq üçün başqa dəlillər olmadığından bu tip keramikanı Son Tunc və Erkən Dəmir dövründə birləşdirmək daha düzgün olardı. Lakin Son Tunc dövrünə aid naxışlanmış keramika

---

[1]Naxçıvanda Orta Tunc dövrü yaşayış yerlərindən aşkar olunan boyalı keramika məmulatı həmin dövrə aid qəbir abidələrindən aşkar olunan boyalı keramika ilə bənzərdir. Bu iki qrup gil məmulatı arasında heç bir funksional fərq yoxdur (Bakhshaliyev 1997: 107-109). Hər kəsi belə bir sual düşündürür: bu keramika Orta Tunc dövrünün mədənlərinin repertuarına daxildirmi?

parçalarına da rastlanmışdır. Onlar boz, boz-qara rəngli olub qabların çiyin hissəsini əhatə edən çərtmə və qabarıq-batıq xətlətlərdən ibarətdir. Maraqlıdır ki, Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatı başlıca olaraq 2-ci Pəncərədən aşkar olunmuşdur[1].

Orta əsr keramikasına gəldikdə, demək olar ki, onların əksəriyyəti təpənin cənub yamacında 4-cü Pəncərədən, az miqdarda isə 1-ci Pəncərədən aşkar olunmuşdur. Sonuncuda onlar Dəmir dövrü keramikası ilə birlikdə aşkar olunmuşdur. Orta əsr keramikası 4-cü Pəncərənin Şimal qurtaracağında daha çox toplanmışdır. Burada gips yataqları da aşkar olunmuşdur. Lakin hələlik karxananın nə üçün açıldığı hələlik məlum deyil. Karxanada gips, duz, yaxud onların hər ikisi çıxarıla bilərdi. Orta əsrlərə aid keramika gil məhluluna salınmış içərisində dulus çarxının izləri qalan daraqvari ornamentlə naxışlanmış sadə keramikadan ibarətdir. Bununla bərabər, göy şirli, yaşıl və qara rənglə naxışlanmış keramikaya tez-tez rastlanır. Antik və Sasani dövrünə aid keramika məmulatı indiyədək aşkar edilməmişdir.

Qeyd etmək lazımdır ki, Cəhri Xorundan aşkar olunan keramika mədənlərdə aşkar olunanlara nisbətən xeyli azdır. Burada yerin səthi dəyişikliyə məruz qalmışdır. Bu duz laylarının aşağıda olması ilə torpağın saxlanma dərəcəsi, külək və yağıntının təsiri ilə ola bilərdi. Zaman keçdikcə arxeoloji tapıntılar yağmurun təsiri ilə torpağın altında qalmış və az eroziyaya uğramışdır. Bundan başqa demək lazımdır ki, hazırda bu təzahürün ərazisində heyvan saxlanılır. Ola bilsin ki, gələcək araşdırmalar zamanı tapıntılar aşkar olunsun[2].

---

[1]Birinci addım olaraq Son Tunc və Erkən Dəmir dövrü, Orta Dəmir dövrü, Son Dəmir dövrü keramikası vahid ad altında birləşdirilmiş və "Dəmir dövrü" adlandırılmışdır. Bizim işimiz davam etdikcə bu analizlər yenidən nəzərdən keçiriləcəkdir.

[2] Ehtimal ki, bu sahədə keçmişdə də heyvanlar otarılmışdır. Belə ki, duz təzahürü otlaqlarla əhatə olunmuşdur.

Əgər daş alətləri keramikanın yayıldığı zonalar üzrə bölüşdürsək, görərik ki, daş alətlərin aşkar olunduğu zonalar başlıca olaraq Son Eneolit və Erkən Tunc dövrünə aid keramikanın konsentrasiya olunduğu ərazilər ilə uyğun gəlir. Bu faktlar daş alətləri daha çox tarixəqədərki dövrün son mərhələsində istifadə olunduğunu ehtimal etməyə imkan verir. Bu hipetoza I Kültəpə[1] və II Kültəpənin[2] stratiqrafik tapıntıları ilə təsdiq olunur. Xüsusilə Kür-Araz mədəniyyətinə aid qabbro-doleritdən hazırlanmış daşçəkiclər arasında böyük uyğunluq vardır. Lakin bu daş alətlərin müxtəlif kateqoriyalarının morfoloji analizi zamanı aydın xronoloji fərq aşkar edilməmişdir. Xronoloji cəhətdən fərqlənən keramika məmulatı ilə daş alətlərin müəyyən kateqoriyası arasında heç bir fərq izlənilməmişdir.

Bununla belə, daş alətlərin müəyyən qrupu ilə tunellər arasında müəyyən uyğunluq var. Son Eneolit və Erkən Tunc dövrünə aid keramika tunellərin çıxışında, adətən tunellərdən bir qədər aşağıda yerləşən təbii mənzillərdə aşkar edilmişdir. Bunun əksinə olaraq Orta əsr keramikası başlıca olaraq açıq karxanaların yaxınlığında aşkar olunur və olduqca nadir hallarda daş alətlər və tunellərlə bağlanır. Məsələn, 1-ci Pəncərədə Orta əsr keramikasının aşkar olunduğu zonada iki tunel çıxışı vardır, lakin 4-cü Pəncərənin şimal hissəsindəki açıq duz karxanasının ətrafında minlərlə Orta əsr keramikasının parçasına rastlanmışdır. Dəmir dövrü keramikası ilə bağlı məsələ kifayət qədər aydın deyil və gələcəkdə araşdırma aparılmasını tələb edir. Kür-Araz keramikası ilə müqayisədə Son Tunc və Erkən Dəmir dövrünə aid keramika olduqca az aşkar olunmuşdur.

Beləliklə, daş alətlərin bir qismi tunellərdən duz çıxarmaq və birbaşa tunellərin qazılmasıüçün istifadə edilmişdir.

---

[1]Abibullayev 1982: 111-112.
[2]Aliyev 1991 : 154.

İlkin nəticələr göstərir ki, bu tip istismar üsulu Son Eneolit və Erkən Tunc dövründən mövcud olmuşdur. Lakin II Kültəpədən aşkar olunan daş alətlər nəzərə alınarsa, demək olar ki, duz istehsalı Orta Tunc dövründə də davam etmişdir[1].

Nəticə

Duzdağında dörd mövsümdə aparılan sistematik araşdırmalardan sonra onun tarixəqədərki dövrün son mərhələsində mühüm əhəmiyyət kəsb etdiyi göz önünə çıxarılmışdır. Duzdağının istismarının miqyasından da göründüyü kimi duzun funksiyası "İkinci ərzaq inqilabı"[2] zamanı e. ə. V - IV minilliklərdə[3] Mesopotomiyanın böyük hissəsində və Qafqazda meydana gələn struktur dəyişiklikləri anlamaq üçün əsas açarlardan biridir. Bununla bağlı olaraq aşağıdakı əsas nəticələri çıxarmaq mümkündür:

Birincisi, 2-ci Pəncərədə mütəmadi aşkar olunan saman qarışıqlı keramikaya əsasən aydın olur ki, mədənin istismarı e. ə. V minilliyin ikinci yarısında başlamışdır. Bu onu göstərir ki, İspaniyadakı Kardona (La Müntania del Sal) ilə birlikdə Duzdağı dünyanın ən qədim mədənlərindən biridir. Kardonada duz yataqlarının ətrafında insan fəaliyyətinin ən qədim izləri e. ə. 4200 və 3600-cü illərə aid edilmişdir[4]. Erkən mədən sənayesi ilə bağlı fikirlər uzun müddət ərzində antikvarlar və yerli kənd əhalisi tərəfindən toplanan 173 bütöv və sınmış daş alətlər əsasında söylənmişdir[5]. Bu alətlər duz mədənindən aşkar olunan iki qəbirin oxşar daş alətləri ilə müqayisə əsasında tarixləndirilmişdir. Qəbirlərin özü isə aşkar olunan digər materiallar əsasında Orta Neolit dövrünə aid edilmişdir[6].

---

[1]Aliyev 1991 : 154.
[2]Sherratt 1994.
[3]Marro, in press.
[4]Weller 2002: 317.
[5]Weller and Figuls 2007: 221.
[6]Weller 2002: 318.

Belə görünür ki, Duzdağında duzun erkən çıxarılması ilə bağlı məsələlər Kardonadakı faktlardan daha tutarlıdır. Belə ki, duz mədənində müxtəlif xronoloji dövrlərə aid keramika məmulatı ilə birlikdə yüzlərlə daşəmək aləti aşkar olunmuşdur. Aydındır ki, Duzdağında aşkar olunan arxeoloji materiallar, xüsusilə xeyli informasiya verən keramika məmulatı tarixəqədərki dövrün son mərhələsindən başlayaraq müasir dövrədək duz sənayesinin inkişafının müxtəlif cəhətlkərini öyrənmək üçün unikal imkan yaradır.

İkincisi qeyd etmək lazımdır ki, Duzdağdakı erkən duz istehsalı prosesi intensivliyi ilə fərqlənir. Son Eneolit və Erkən Tunc dövrü keramikasının proporsiyası xüsusilə yüksəkdir. Naxçıvanda, həmçinin qonşu Urmiya və Van rayonunda[1] Son Eneolit və Erkən Tunc dövrünə aid qeydə alınan yaşayış yerləri ilə müqayisədə bu olduqca yüksək göstəricidir. E.ə. II minilliyin sonundan yaşayış yerlərinin artması, ehtimal ki, gələcəkdə Dəmir dövrünə və Orta əsrlərə aid keramika məmulatının artmasına səbəb olacaqdır. Hazırda duz mədənində yeddi pəncərədə aparlan sistematik araşdırmalar zamanı Kür-Araz keramikasının üstünlüyü tədqiqatların məhdudluğu ilə bağlı deyil. Müəyyən yerlərdə sayı dəyişsə də Kür-Araz keramikası Duzdağ mədəninin bütün ərazisində üstünlük təşkil edir. İndi qarşıda duran əsas sual bundan ibarətdir: Duzdağda mədənçilik işləri daha əvvəl Erkən Tunc dövründə, yoxsa Son Eneolit dövründə başlamışdır? Son illər Ovçular təpəsində aşkar olunan tapıntılar Kür-Araz tayfalarının Naxçıvanda e. ə. V minilliyin sonundan məskənləşdiyini göstərir[2]. Bu həmçi-

[1]Kroll 2005 : Fig. 1; Marro and Özfirat 2003, 2004, 2005. Qeyd etmək lazımdır ki, Naxçıvanda və İrəvan düzənliyində də Erkən Tunc dövrü abidələri qeydə alınmışdır (Kushnareva 1997 : 57-59 ; Areshian 2005 : Fig. 3).

[2] Marro *et alii* 2011.

nin İrəvan vadisində aşkar olunan Areni-I[1] yaşayış yerinin tapıntıları ilə də təsdiq olunur.

Lakin Son Eneolit və Erkən Tunc keramikasının Duzdağında hər yerdən aşkar olunması gözlənilməz olmaqla bərabər duzun yerli və regional səviyyədə mühüm rol oynadığını göstərir. Cənubi Qafqazda, xüsusilə Araz çayının orta axarlarında duzun hər yerdə aşkar olunması onun, simvolik xüsusiyyətləri və keyfiyyəti nəzərə alınmazsa, regionlararası mübadilədə əsas ticarət malı rolunda çıxış etmək imkanını azaldır[2]. Duz yataqları, istər daş duz şəklində olsun, istərsə də təzahürlər şəklində, qərbə irəlilədikcə Anadoluda, cənubda Suriya, Mesopotamiya və İranda rast gəlinir. Beləliklə ağ Qafqaz duzunun regionlararası mübadilənin mərkəzində durduğunu ehtimal etməyə heç bir səbəb yoxdur.

Son tarixə qədərki yaşayış yerlərində aparılan araşdırmalar zamanı Naxçıvan duzu ilə bağlı heç bir arxeoloji fakt aşkar olunmamışdır. Ovçular təpəsində xırdabuynuzlu heyvan sümüklərinin üstünlük təşkil etməsi göstərir ki, Son Eneolit və Erkən Tunc dövrünün iqtisadi sistemlərində köçmə maldarlıq mühüm yer tutmuşdur. Bu faktlar duzun çıxarılmasına diqqətin artmasını aydınlaşdırır. Onlar gündəlik süd məhsullarını artırmaq üçün duzdan istifadə etmişlər. Lakin bu fərziyyə də Kür-Araz dövründə duz istismarının geniş inkişafını tamamilə izah edə bilmir.

Ovçular təpəsindəki araşdırmalar qədim insanların ərzaq rasionunda balığın əsas yer tutduğunu göstərir. Ehtimal edilə bilər ki, son tarixə qədərki cəmiyyətlər balığın qurudulması

---

[1] Marro *et alii* 2011.

[2] Antik dövrə aid yunan və roma mənbələrində göstərilir ki, bu dövrdə müxtəlif mənbələrdən əldə edilən duz keyfiyyətinə görə fərqləndirilirdi. Beləliklə, Aralıq dənizi hövzəsində hər yerdə duz olmasına baxmayaraq uzaq məsafələrdən gətirilmiş duz da satılmışdır. (Carusi 2007).

üçün duzdan geniş istifadə etmişlər. Lakin qeyd etmək lazımdır ki, duzlama üsulları ilə bağlı faktlar hələlik heç bir yerdən məlum deyil.

Ümumiyyətlə, qədim cəmiyyətlərin məişətində duzdan istifadə və duzun funksiyası kifayət qədər aydınlaşdırılmamışdır. Belə ki, obsidian və misdən fərqli olaraq duzdan istifadənin izləri qalmamışdır. Burada o qədər də əhəmiyyəti olmayan qədim mənbələrdə saxlanılan məlumatlar duzun istifadəsi ilə bağlı dolayı məlumat verir. Əgər biz yazılı arxivlərə üz tutsaq onlar başlıca olaraq son dövrlərə aiddir. Anadoludan və Suriya-Mesopotamiyadan bəlli olan bu tip sənədlər siyasi və dini rituallara tez-tez müraciət edirlər[1]. Bu rituallarda isə duzdan istifadə olunur. Aydındır ki, Yaxın Şərqdə duzun simvolik funksiyası heç də onun ərzaq kimi istifadə edilməsindən və qoruyucu dəyərindən az olmamışdır. Bu üsullar isə hələlik arxeoloji faktlarla qeydə alınmamışdır.

ƏDƏBİYYAT

C. Marro, V. Bakhshaliyev, H. Hamon, N. Aliyev, P. Dessaint and S. Sanz.

Bibliography:

1. *Abibullayev O.A. 1982: Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм.*
2. *Aliyev B.Г., 1991 : Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм.*
3. *Areshian, G. E., 2005 : « Early Bronze Age settlements in the Ararat Plain and its vicinity », AMIT 37 : 71-88.*
4. *Bakhshaliyev V.B. 1997: Nahçıvan arkeolojisi /The Archaeology of Nakhichevan. Arkeoloji ve Sanat Yayınları, İstanbul.*

[1] Erkut 1990; Potts 1984, *passim*.

5. *Bakhshaliyev, V. and C. Marro, 2009 : The Archaeology of Nakhchivan : Ten Years of New Discoveries.Ege Yayinlari, Istanbul.*
6. *Carusi, C. 2007 : « Le commerce du sel dans l'Antiquité grecque (VIème siècle av. J.-C. – IIème siècle apr. J.-C.) ». In D. Monah, Gh. Dumitroana, O. Weller and J. Chapman (eds.), L'exploitation du sel à travers le temps, BMA, XVIII, Piatra-Neamt : 221-233.*
7. *Cuinet, V. 1892 : La Turquie d'Asie. Géographie administrative. Statistique descriptive et raisonnée de chaque province de l'Asie Mineure. Ernest Leroux éditeur, Paris.*
8. *Erkut, S. 1990 : « Hittitlerde tuz kullanimi», Belleten LIV, 209 : 1-7.*
9. *Kroll, S. 2005 : « Early Bronze Age settlement patterns in the Orumiye Basin», AMIT 37 : 115-121.*
10. *Kushnareva, Kh., 1997: The Southern Caucasus in Prehistory: Stages of cultural and socioeconomic devolopment from the eight to the second millennium B. C. University Museum Monograph 99, Philadelphia.*
11. *Marro, C., V. Bakhshaliyev and S. Ashurov 2009 : «Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). First Preliminary Report : the 2006-2008 seasons». In Anatolia Antiqua XVII, IFEA, Paris : 31-87.*
12. *Marro, C., V. Bakhshaliyev and S. Ashurov 2011: Excavations at Ovçular Tepesi (Nakhichevan, Azerbaijan). Second Preliminary Report: the 2009-2010 seasons. Anatolia Antiqua XIX: 53-100.*
13. *Marro, C. and Özfirat, A. 2003 : « Pre-classical Survey in Eastern Turkey. First preliminary Report : the Agrı Dag (Mount Ararat) region » in Anatolia Antiqua XI, Istanbul : 385-422.*

14. *Marro, C. and Özfirat, A. 2004: "Pre-classical Survey in Eastern Turkey. Second preliminary Report : the Ercis region", in Anatolia Antiqua XII, Istanbul: 227-265.Naxçıvan Ensiklopediyasi, 2002, AMEA, Bakı.*
15. *Marro, C. and A. Özfirat 2005 : "Pre-classical Survey in Eastern Turkey. Third preliminary Report : the Dogubeyazit region". In Anatolia Antiqua XIII, Istanbul : 319-356.*
16. *Potts, D. 1984 : « On salt and salt gathering in Ancient Mesopotamia », in JESHO, vol. XXVII, part III : 225-271.*
17. *Weller, O. 2002: « The earliest Rock Salt Exploitation in Europe : a Salt Mountain in the Spanish Neolithic ». In Antiquity, vol. 76, N°292, June : 317-318.*
18. *Weller, O. 2004 : « Produire du sel préhistorique : de la fonction des vestiges aux fonctions du produit ». In P. Bodu and C. Constantin, Approches Fonctionnelles en Préhistoire, XXVè Congrès Préhistorique de France, Nanterre 24-26 novembre 2000 : 445-453.*
19. *Weller, O. and A. Figuls 2007: « Première exploitation de sel gemme en Europe : organisation et enjeux socio-économiques au Néolithique Moyen autour de la Muntanya del Sal de Cardona (Catalogne) ». In A. Figuls and O. Weller (eds) Acts of the 1st International Archaeology meeting about Prehistoric and Protohistoric salt exploitation, Cardona, december 2003, IREC, Barcelona.*
20. *Wilkinson, K. and Gasparian, B., Pinhasi, R., Avetisyan, P., Hopsepyan, R., Zardaryan, D., Areshian, G., Bar-Oz, G. and Smith, A., 2012: "Areni -1 cave, Armenia: a Chalcolithic-Early Bronze Age settlement and ritual site in southern Caucasus". Journal of Field Archaeology, 37/1: 20-33.*

Türkiyə Elmlər Akademiyası dərgisi, TÜBA-AR, 2010, № 13, səh. 229-238

Vəli Baxşəliyev
AMEA-nın müxbir üzvü

NAXÇIVAN DUZDAĞI

Naxçıvan Muxtar Respublikası ərazisində aparılan tədqiqatlar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələrinin araşdırılması bu ərazidə insanların Daş dövründən başlayaraq məskunlaşdığını göstərir. Ərazinin əlverişli təbii-coğrafi şəraiti və təbii sərvətləri qədim mədəniyyətlərin formalaşmasında mühüm rol oynamışdır. Naxçıvanın qədim mədəniyyətləri Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. E.ə. III minilliyin sonunda iqtisadiyyatın və ticarətin inkişafı Naxçıvanda şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir (1, s. 51-53). Naxçıvan MR Ali Məclisi Sədrinin 20 aprel 2012-ci il tarixli "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında sərəncamında deyilir: "Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzinə çevrilmiş və bu ərazidə ikinci sivilizasiyanın vacib elementi olan ilkin şəhər mədəniyyəti formalaşmışdır".

Bu dövrün qədim şəhərlərindən biri də Naxçıvan şəhəri olmuşdur. Qeyd etmək lazımdır ki, qədim Naxçıvan şəhərinin yaxınlığında e.ə. II minilliyin əvvəllərində bir neçə yerdə, o cümlədən II Kültəpə, Şahtaxtı, Qızılburun və Qarabağlarda şəhər tipli yaşayış yerləri movcud olmuşdur. Naxçıvan şəhəri e.ə. III-II minilliklərdə təşəkkül tapan qədim şəhər mədəniyyətinin ən mühüm mərkəzlərindən biri olmuşdur. Şəhər tipli

yaşayış yerləri Naxçıvan ərazisində Orta Tunc dövründə formalaşmış, Son Tunc və Erkən Dəmir dövründə, Orta Dəmir dövründə və sonrakı mərhələlərdə də davam etmişdir.

İqtisadi inkişaf müxtəlif sənət sahələrinin inkişafına səbəb olmuş, mübadilənin inkişafını stimullaşdırmışdır. Araşdırmalar göstərir ki, şəhərlər başlıca olaraq sənətkarlıq və ticarət mərkəzləri kimi yaranmışdır. E.ə. VI-IV minilliklərdə sənətkarlığın mühüm sahələri – dulusçuluq, metalişləmə, daşişləmə xeyli inkişaf etmişdir. E.ə. IV-III minilliklərdə sənətkarlıq ev sənəti çərçivəsindən çıxaraq ixtisaslaşmış istehsal sahəsinə çevrilmişdir.

Duzdağ Naxçıvan şəhərindən 10 km şimal-qərbdə, Təbrizi Konstantinopol ilə birləşdirən qədim İpək yolunun yaxınlığında, Araz çayının sol sahilində yerləşir (4, s. 230). Duzdağ yatağı yuxarı miosen və dördüncü dövrün çöküntülərindən ibarətdir. Yaxın Şərqdə zəngin duz yataqları Türkiyədə Tuzluca, Şimal-Qərbi İranda Xoy yaxınlığında yerləşir. Bundan başqa Ərzurum və Van yaxınlığında duz təzahürlərinə rastlanmışdır. Xoy yaxınlığındakı duz yatağında qədim mədən izlərinə rast gəlinmişdir. Lakin onların əksəriyyəti ya Əhəmənilər, ya da Osmanlılar dövründə istismar edilmişdir. Bu yataqlar arasında Naxçıvan yaxınlığındakı Duzdağ həm duz laylarının, həm də aşkar olunan arxeoloji materialların zənginliyinə görə digərlərindən fərqlənir.

Duzdağda ilk əmək alətləri XIX əsrin 70-ci illərində aşkar olunmuşdur. Dağ-mədən mühəndisi fon Koşkul qədim duz mədənlərindən daş çəkiclər aşkar etmiş və onları Peterburq Antropoloji muzeyinə vermişdir. Həmin illərdə Beyer tərəfindən aşkar olunan əmək alətlərinin bir qismi Peterburq və Tiflis muzeylərinə, bir qismi isə Naxçıvan şəhər məktəblərindən birinə verilmişdir. Naxçıvan şəhər məktəbinin

müfəttişi K.A.Nikitin əmək alətləri ilə tanış olmuş, onlardan qədim duz mədənlərində istifadə olunduğunu qeyd etmişdir.

1897-ci ildə İ.S. Polyakov Duzdağda arxeoloji kəşfiyyat işləri apararkən şaxtaların birindən xeyli əmək aləti aşkar etmiş və onları qədim metal dövrünə aid etmişdir. Ondan sonra bir çox tədqiqatçılar Duzdağdan aşkar olunan əmək alətlərini İspaniya, Şimali Amerika, Sibir və Saxalinin eyni tipli tapıntıları ilə müqayisə edərək onların qədim dövrə aid olduğunu qeyd etmişlər.

1895-ci ildə Qafqazın arxeologiyası və etnoqrafiyası ilə məşğul olan P.N.Nadejdin tapıntılarla tanış olduqdan sonra onların duz çıxarmaq üçün istifadə olunduğunu qeyd etmişdir. Həmin daş çəkiclər M.M.Hüseynov tərəfindən nəşr edilmişdir.

Qədim duz mədənləri 1967-ci ildə uçqun nəticəsində təsadüfən aşkar olunmuşdur (2, s. 151). Dağıntı yerindən xeyli daş çəkiclər aşkar olunmuşdur. Onların biri iri həcmli olub, 30 kq ağırlığındadır. Daş çəkiclərin bir qismi Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Uçqun nəticəsində qədim mədənlərin girişi tutulmuşdur. 1976-cı ildə müasir tuneldə aparılan dağ-mədən işləri zamanı qədim mədənin yolu açılmışdır. Yol 70 m uzunluğunda tuneldən ibarət olub, eni bəzi yerlərdə 6 m, bəzi yerlərdə isə 20 m-dir. Tunelin hündürlüyü 10 m-dən artıqdır. Tunel bir-birini əvəz edən 10 zaldan ibarətdir. Onların birində duzdan yonulmuş beş sütun vardır. Mədəndə aparılan tədqiqat zamanı ocaq yerləri, divarlarda isə his izləri aşkar edilmişdir. Bəzi yerlərdə duz laylarının arasına vurulmuş ağac pazlar, döşəmədə gil qab qırıqları, maral buynuzunun qalıqları qeydə alınmışdır. Mədənin divarında bir yerdə şaquli xətlərdən ibarət işarələrə təsadüf edilmişdir. Tədqiqatçıların fikrincə, bu qədim say sistemi ilə bağlı olmuşdur. Şübhəsiz ki, həmin işarələrlə çıxarılan duzun miqdarı qeyd edilmişdir.

2006-2011-ci illərdə Duzdağda beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası araşdırmalar aparmışdır (3, s. 89). Arxeoloji tapıntılar Duzdağda Şimaldan Cənuba doğru 3 km-lik bir məsafədə yayıldığından qazıntının yerini və həcmini müəyyən etmək olduqca əhəmiyyətli idi. Keramika parçaları və mikro daş alətlər Duzdağdan kənarda, o cümlədən Cəhri Xoru adlanan hissədən də tapılmışdır. Bu ərazi, böyük ehtimalla, şaxtaçıların içməli suya olan tələbatını ödəmək üçün müvəqqəti olaraq dayandıqları yerdir.

Mədənlərin arxeoloji araşdırmalarla müəyyən olunmuş ölçüsünə uyğun olaraq, təpənin müxtəlif hissələrində, "pəncərə" adlandırılmış yeddi sahə intensiv tədqiqat obyektinə çevrilmişdir. Pəncərələrin yerinin müəyyən edilməsi müxtəlif kriteriyalara – arxeoloji tapıntıların toplanmasına, infrastruktur istismarının tiplərinə (tunel, karxana), duz yataqlarının yaxınlığı və müasir baxımdan onları əldə etmək imkanlarına (yolların mövcudluğu və s.) əsaslanmışdır. Pəncərələrin formasının və ölçüsünün müəyyən edilməsində mövcud dağ silsiləsi və vadilər nəzərə alınmaqla arxeoloji tapıntıların potensial trayektoriyasının izlənməsinə əsaslanmışdır. Tapıntıların bəzən sürüşüb yerini dəyişməsi də nəzərə alınmışdır. Beləliklə duz mədəninin özündə bilavasitə altı pəncərə müəyyənləşdirilmiş, yeddinci pəncərəyə isə Cəhri Xorunun ətrafındakı duz təzahürləri aid edilmişdir .

Araşdırmalar zamanı Eneolit və Erkən Tunc, Dəmir dövrünə və Orta əsrlərə aid keramika məmulatı, daş çəkiclər tapılmışdır. Mədənlərdən aşkar edilmiş maddi-mədəniyyət qalıqları, xüsusilə daş çəkiclər əsasında demək olar ki, bu duz yataqlarından e.ə. V-III minilliklərdə geniş istifadə edilmişdir. Duzdağ mədənləri Erkən Tunc dövründə xüsusilə geniş istismar edilmişdir. Duzdağın cənub ətəkləri boyunca, şimaldan cənuba doğru təqribən 3 km-lik məsafədə, aşkar olunan

Erkən Tunc dövrü keramikası bunu təsdiq edir. Araşdırmalar sırasında məlum olmuşdur ki, Duzdağ yuxarıdan aşağıya doğru bir-birini əvəz edən qırmızı və göy rəngli laylardan ibarət olmuşdur. Qırmızı rəngli laylarda duz kristallarna rastlanmamış, göy rəngli laylar isə duzla zəngin olmuşdur. Qədim mədən izləri məhz bu laylarda aşkar olunmuşdur. Duzdağda aparılan araşdırmalar tarixəqədərki cəmiyyətlərin Naxçıvanın təbii sərvətlərinin istismarı, yaşayış yerlərinin tipləri və onların konkret bir ərazidə inkişaf dinamikasını müəyyən etmək üçün başlanan irihəcmli layihənin tərkib hissəsidir. Duzdağında aparılan iş Ovçulartəpəsi yaşayış yerinin tədqiqi ilə sıx bağlıdır. Bu yaşayış yerində aparılan araşdırmaların əsas məqsədlərindən biri Son Eneolit və Erkən Tunc dövrü cəmiyyətlərinin iqtisadi və yaşayış strategiyasının müəyyənləşdirilməsindən ibarətdir. Duzdağında bizim apardığımız araşdırmaların əsas məqsədlərindən biri duz mədənlərində erkən istismar izlərini aşkar etmək, tarixəqədərki dövrün son mərhələsində duzun çıxarılması üsullarını müəyyən etməkdən ibarətdir. Tədqiqatda əsas məqsədlərdən biri duzun hansı üsulla çıxarılması məsələsi olmuşdur. Müəyyən edilmişdir ki, duz qədim dövrlərdən başlayaraq həm açıq üsulla, həm də tunellər qazılmaqla çıxarılmışdır. Duz çıxarıldıqdan sonra mədənlərin yaxınlığındakı "iş yerləri"ndə ilkin emal olunmuş sonra isə yaşayış yerlərinə aparılmışdır. Duz mədənlərinin yaxınlığında qədim yaşayış yeri Cəhri Xorunun yaxınlığında və Kəngərli rayonunun keçmiş Sust kəndi ərazisində rastlanmışdır. Qeyd edək ki, bu kəndin yaxınlığında olan duz yataqlarında qədim əmək alətlərinə və keramika parçalarına da rast gəlinir. Əmək alətləri tipoloji cəhətdən bir-birindən az fərqləndiyi üçün qədim mədənlərin tarixinin müəyyən edilməsində keramika məmulatı əsas rol oynamışdır.

Mədən sənayesinin ən maraqlı infrastrukturları ehtimal ki, qədim tunellər olmuşdur. Onlar duz yatağının ağ-yaşıl rəngli laylarında səpələnmişdir. Havadan çəkilmiş rəsimlərdən göründüyü kimi, bu tunellər duz yatağının ortasında bir-birinin yaxınlığında qazılmışdır. İndiyədək qeydə alınan tunellərin hamısı dağılmışdır, lakin onlardan biri saxlanmışdır. Onun uzunluğu 4 m, eni 1,10 m-dir. Tunelin içərisindən heç bir tapıntı əldə edilməmişdir, belə ki tunelin döşəməsi qalın çınqıl qatı ilə örtülmüşdü. Digər mühüm tapıntı tunelin girişində qayada sütunun yonulması idi. Bu tunel də dağılaraq sütunun kapitelinədək çınqılla dolmuşdu, lakin maraqlıdır ki, o da müasir şaxtaya aparan əsas koridordan kənarda yerləşən digər sütunlara bənzəyirdi. Kür-Araz dövrünə aid keramika parçalarına əsasən onları eyni dövrlə tarixləndirsək, demək olar ki, biz Son Eneolit və Erkən Tunc dövrü ilə tarixlənən mədən sənayesinin şəbəkəsi ilə rastlaşmışıq.

2012-ci ildə başlıca məqsəd Eneolit və Erkən Tunc dövrünə aid qalereyaların müəyyən edilməsi idi. Bu məqsədlə arxeoloji qazıntılar aparılmışdır. Qazıntılar başlıca olaraq "Pəncərə-2" adı ilə kodlanan sahədə aparılmışdır.Tədqiqat zamanı içərisi müxtəlif çöküntülər və Kür-Araz mədəniyyətinə aid keramika parçaları ilə dolmuş üç çuxur aşkar olunmuşdur. Onların dərinliyi 0,9- 1 arasında, diametri ortalama 1 m-dir. Bu çuxurların duz çıxarılması və emalı ilə bağlı olduğu müəyyən edilmişdir. Arxeoloji qazıntılar qədim dövrdə açıq üsulla da duz çıxarıldığını göstərir. Bu sahədə laylardan qoparılmış, bir-birinin üzərinə yığılmış hazır duz blokları aşkar olunmuşdur. Zaman keçdikcə yağmur suları zamanı axan torpaq onların üzərini örtmüşdür. Bu torpaq qatı 1-1,5 m-dir. İkinci qazıntı sahəsi qədim tunelin girişinin təmizlənməsi ilə açılmışdır. Bu sahədə tunelin girişi üstən bəlli idi.

Qazıntı zamanı uçmuş torpaq qalıqları təmizlənmiş tunelin girişi açılmışdır. Lakin uçqun zamanı giriş daraldığından onun içərisinə çətinliklə girilirdi. Bununla belə qalereyanın içərisinə girilmiş və araşdırma aparılmışdır. Araşdırma zamanı bu qalereyanın işlənməsində metal alətlərdən istifadə olunduğu müəyyən olunmuşdur.

Üçüncü sahədə aparılan qazıntılar zamanı təbii çökmə nəticəsində açılan qədim tunelin tavanından açılan dəlik təmizlənmiş və onun içərisində araşdırmalar aparılmışdır. Araşdırmalar duzun metal alət vasitəsi ilə çıxarıldığını göstərir. Lakin tunelin içərisindən əmək aləti və keramika aşkar edilmədiyindən onu dəqiq tarixləmək mümkün olmamışdır. Bu tunelin Son Tunc və Erkən Dəmir dövründə istismar edildiyi güman olunur. Bizim əsas məqsədimiz Son Eneolit və Erkən Tunc dövrünə aid qalereyaları araşdırmaq olduğundan araşdırmalar davam etdirilməmişdir. Gələcək illərdə qədim qalereyaların tədqiqi davam etdiriləcəkdir.

Müəyyən edilmişdir ki, Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin formalaşmasında Naxçıvanın xammal ehtiyatları, o cümlədən duz əsas yer tutmuşdur. Eneolit dövründən başlayaraq duz həmçinin mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Şərq ölkələrinə aparılmışdır. İnsanların məişətinə daxil olan duz onların ideologiyasının formalaşmasında müəyyən yer tutmuş, duzla bağlı inamlar yaranmışdır. Bu tip inamlar Azərbaycan xalqı arasında xüsusilə geniş yayılmışdır.

Duzdağda aparılan arxeoloji araşdırmalar qədim dağmədən işinin infrastrukturunu müəyyən etməyə imkan verir. Duzdağdan əldə edilən maddi-mədəniyyət nümunələri yalnız Azərbaycanda deyil, bütövlükdə Cənubi Qafqaz və Yaxın Şərq ölkələrində dağ-mədən işinin yaranmasını öy-

rənmək üçün əhəmiyyətlidir. Hazırda Duzdağ dünyanın ən qədim duz mədəni hesab edilir.

ƏDƏBİYYAT

1. *Алиев В.Г. Поселения раннегородского типа Нахичеванского края / Тезисы докл. Всесоюз. архолог. конф., Баку: Элм, 1985, с. 51-53.*
2. *Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.*
3. *Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 302 s.*
4. *Catherine Marro, Bakhshaliyev Veli, Severine Sanz, Nizami Aliyev. Archaeological Investigations At The Salt Mine Of Duzdagi (2008-2011) // TUBA-AR, 2010, №, 3, p. 229-244.*

2012

Ələvsət Quliyev
AMEA-nın müxbir üzvü

DUZDAĞ - QƏDİM SİVİLİZASİYA MƏSKƏNLƏRİNDƏN BİRİ

İlkin sivilizasiya mərkəzlərindən biri olan Naxçıvan çoxəsrlik tarixə, zəngin təbii şəraitə, əlverişli coğrafi mövqeyə malikdir. Arid iqlimə malik Naxçıvan diyarında insanların məskunlaşması çay və bulaq kənarında mümkün olmuş, qalan yerlərdə isə yalnız kəhriz sistemləri hesabına intişar tapmışdır. Naxçıvanın kəhrizləri və onların üzərində olan abidələr xalqımızın tarixi keçmişini, yaşayış tərzini, etnogenezini və etnoqrafiyasını öyrənmək üçün mühüm mənbədir. Onların tədqiqi bir çox gerçəkliyin dəqiqləşdirilməsinə, qaranlıq mətləblərin işıqlandırılmasına imkan verir.

Bu ilin iyul ayında muxtar respublikada keçirilən "Naxçıvan: ilk yaşayış vəşəhərsalma yeri kimi" mövzusunda Beynəlxalq Simpozium Duzdağ mədəniyyətinin, Duzdağ ətrafındakı ilkin yaşayış məskənlərinin və ilkin şəhərsalma mədəniyyətinin tədqiqata cəlb olunaraq öyrənilməsini elmi istiqamət kimi gündəmə çıxarmışdır. Duzdağ ətrafında aparılan son tədqiqatlar onu göstərdi ki, burada 7 min ildir, duz yataqlarından istifadə edirlər. Deməli, 7 min ildir ki, Naxçıvandan çıxarılan daş duz dünyanın bir çox ölkələrinə karvanlar vasitəsi ilə daşınmışdır. Duzun daşınması, satılması, əvəzində isə nəyinsə gətirilməsi, şübhəsiz, Naxçıvanda böyük bir şəhərsalma mədəniyyətinin inkişaf etməsində mühüm rol oynamışdır.

Duzdağ ətrafında əhalinin məskunlaşması içməli su probleminin həlli ilə mümkündür. Duzdağda kəhriz sistem-

lərinin tədqiqatı olduqca maraqlıdır. Ümumiyyətlə, bu ərazidə kəhrizin olması bu gün birmənalışəkildə qarşılanmır. Hətta bir sıra elm adamları bunun mümkün olmadığını iddia edirlər. Onlar Duzdağın duzlu laylarının yer səthinə çıxmasını və duzlu laydan keçən suyun mütləq duzlu olduğunu əsas götürərək, bu laylarda şirin suyun olmasına inanmırlar. Lakin Duzdağ ətrafında rast gəlinən kəhrizlər duzlu olmayan, elmdə IV dövr adlandırılan çöküntülərdə qazılmışdır.

Bunlar nəzərə alınaraq Duzdağətrafında bu günədək elmə məlum olmayan iki kəhriz üzərində tədqiqat aparılmışdır. Həmin kəhrizlərin quruluşu, qidalanma mənbələri, kürələrinin ölçüləri müəyyənləşdirilmişdir.

Duzdağərazisinin paleocoğrafi şəraiti və baş verən geoloji proseslərin təsiri öyrənilmiş, burada insanların məskunlaşmasında kəhriz sistemlərindən istifadəöz təsdiqini tapmışdır. Aparılan tədqiqat işində əsas məqsəd ilk dəfə olaraq Duzdağ ətrafında tapılmış qədim kəhriz sistemlərinin daş duzun çıxarılmasında iştirak edən insanların məskunlaşmasındakı rolunu müəyyən etmək, onların fəaliyyətinin dayanma səbəblərini və regionun paleocoğrafi şəraitini öyrənməkdən ibarətdir.

Duzdağ ətrafında kəhriz tədqiqatı, doğrudan da, burada vaxtilə kəhrizdən istifadə olunduğunu sübut etməkdədir. Əgər vaxtilə ərazidə kəhriz fəaliyyətdə olmuşdursa, deməli, burada qədim sivilizasiyanın mövcudluğunu təsdiq edəcək müxtəlif dəlillər də vardır. Bu halda ərazinin paleocoğrafi şəraitini və geoloji keçmişini öyrənməklə Duzdağətrafında insan məskunlaşmasının mümkünlüyü sübut oluna bilər.

Tədqiqatın əsas məqsədlərindən biri də kəhrizlərin həqiqi yaşını müəyyən etməkdir. Çünki bu məsələnin böyük elmi əhəmiyyəti vardır. Lakin kəhrizin yaşının təyin edilməsi olduqca çətindir.

Akademik Ş.A.Əzizbəyovun fikrincə, Duzdağərazisi geoloji quruluşu baxımından, əsasən, üst miosen və dördüncü dövr çöküntülərindən təşkil olunmuşdur. Burada üst miosen çöküntüləri alt, orta və üst sarmat qatlarında özlərini büruzə vermişdir. Ərazidəki alt və orta sarmat yaşlı çöküntülər qırmızı-tünd, şokoladı-tünd, qəhvəyi-boz, boz, yaşılımtıl-boz, sarımtıl-boz gillərdən, qumdaşlardan, əhəngdaşlı təbəqələrdən, mergel və alevrolitlərdən, eləcədə vulkan külündən ibarətdir.

Duzdağ duz yatağındakı duz layları on bir təbəqədən ibarət olub, qalınlığı 6,7 metrə çatır. Onların arasında gilli, qumlucalı, mergelli təbəqələrə rast gəlinir. Beləliklə, duzlu layın qalınlığı 8,2 metrə bərabərdir.

Bu məlumatları əldə etməkdə məqsəd kəhrizlərin mövcud olmasının hidrogeoloji əsaslarla izahını verməklə bərabər, yeraltı sulardan insanların necə ustalıqla istifadə etmələrinin, eləcə də kəhrizin sıradan çıxmasının səbəblərinin müəyyən olunmasıdır.

Geologiyada "fleksura" deyilən bir termin vardır. Dağ süxurlarının tektonik gərginliyə məruz qalaraq müəyyən bir yerdən qırılmasına fleksura deyilir. Tektonik gərginliyin təsiri ilə layların bir-birindən aralanması nəticəsində fleksura yaranır. Yəni dağəmələgəlmə vaxtı süxurlar qırılmağa məruz qalaraq aralanırlar. Məhz Duzdağ sinklinalının da əyilmə yerlərində tektonik gərginliyin artdığı zonada fleksura əmələ gəlmişdir. Nəticədə laylar arasında aralanma baş verdiyindən həmin yerlərdə çökmə başlamışdır. Duzdağdakı dəniz laqun mənşəli sarmat çöküntülərinin fleksura zonasında yerüstü və yeraltı suların təsiri ilə daha çox çökmələr baş verməkdədir. Burada duzlu laya müdaxilə edən sular orada rast gəldikləri duzları özündə həll edərək aşağıya aparmaqla yeraltı boşluq-

lar əmələ gətirirlər. Sonradan ağırlıq nəticəsində üst qatlar qoparaq aşağı düşməklə təknəvari çökmələrin yaranmasına səbəb olurlar. Bu proses kəhriz olan ərazilərdə daha intensiv surətdə davam edir. Çünki kəhriz öncədən yeraltı suların intişar tapdığı ərazidə qazılmışdır.

2009-cu ildə Naxçıvan-Şərur avtomobil yolundan 80-100 metr şimalda, Böyükdüz kəndindən 500 metr şərqdə üzə çıxarılmış kəhriz quyusu tərəfimizdən MUT (GPS) vasitəsilə qeydə alınmışdır. Üstü açılmış qədim kəhrizin quyusu, çalagərdanı və ərzaqsaxlama yeri görünürdü. Çalagərdanın (quyunun uçma təhlükəsi olan üst hissəsində diametri 0,6-0,8 metr, dərinliyi 2-3 metrə qədər daşla hörülmüş konusvari hörgüdür) inşasında istifadə olunan daşlar sel gətirmə vəçay yataqlarından götürülmüş daşlardan ibarətdir.

Ərzaqsaxlama yerində tez xarab olan ərzaq məhsullarının (ət, süd, qatıq, pendir və sair) saxlanılması güman edilir. Abidənin divarları olduqca səliqəli şəkildə adi daşlardan elə tikilmişdir ki, onların uçma təhlükəsi, demək olar ki, yoxdur. Bu da onu göstərir ki, kəhrizin inşasında olduqca təcrübəli kankanlar çalışmışlar.

Tədqiqat sübut edir ki, bu kəhrizin qidalanması Sust kəhrizlərini qidalandıran yeraltı axınlar hesabınadır. Bu sular aşağı ərazilərdə duzlu süxurlarla təmasa girdikdə minerallaşmaları 1,6-dan 15-19 q/l qədər artaraq şor axınlar şəklində yer səthinə çıxırlar. Kəhrizin suyu duzlu süxurlardan yuxarıda şirin olduğuna görə, güman ki, duz mədənində işləyən adamlar, yolçular və əkin-biçinlə məşğul olanlar bu sudan istifadə etmişlər.

2011-ci ildə çöl tədqiqatı zamanı Duzdağda bir-birindən 12-15 metr aralı məsafədə 4 yerdə quyulara təsadüf etdik. Bu quyulara Naxçıvan-Şərur magistral avtomobil yolundan

1100 metr şimal-şərqdə, Başbaşı-Duzdağ yolunun yaxınlığında rast gəlinmişdir. Kəhriz xətti (quyularının düzülüşünə görə) Duzdağ-Başbaşı yoluna perpendikulyar olub, yolu kəsərək şimal-şərq istiqamətində uzanır. Quyulardan birində kəhrizin kürəsi açıq-aydın görünür. Onun dərinliyi 9 metrə çatır. Bu halda kəhrizin çıxışı quyudan ən azı 800 metr aşağıda olmalıdır. Bu məsafədə bir dənə də olsun quyuya rast gəlinmir. Onda biz ya quyuların kəhrizə aid olmasını sübut etməli, yaxud da onların hansı məqsəd daşıdığını aydınlaşdırmalıydıq.

Bu məqsədlə həmin ərazidə tədqiqatın aparılmasında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin nəzdində fəaliyyət göstərən Kəhrizlər İdarəsinin xüsusi köməyini qeyd etmək istərdim. Çünki qəza vəziyyətində olan kəhrizdə iş aparmaq böyük risk tələb edirdi. Məhz idarənin köməkliyi ilə təhlükəsizlik qaydalarına riayət olunaraq kəhrizin quyusuna və kürəsinə enməklə lazım olan ölçmə və əkslərin alınması işləri yerinə yetirilmişdir.

Tədqiqatlardan məlum oldu ki, Duzdağ platosunun IV dövr çöküntülərini təşkil edən laylar tamamilə şirin suludurlar. Bu laylardan qidalanan kəhrizlər də, sözsüz ki, şirin sulu olmuşdur. Kəhrizin üzərində aparılan müşahidələr və ölçmələr onu göstərdi ki, yeni kəhriz kürəsinin eni 1-1,2 metr, hündürlüyü 1,4-1,6 metr olduğundan Naxçıvanda rast gəlinən kəhriz (mövcud kəhrizlərin eni 0,6-0,8 metr, hündürlüyü 0,8-1,2 metrdir) ölçülərindən fərqlidir.

Duzdağ platosunun IV dövr çöküntüləri böyük sutoplayıcı sahəyə malik olmaqla bərabər, yeraltı suları da şirin sulu olmuşdur. Məhz tədqiq etdiyimiz kəhriz bu sulardan qidalanmışdır. Sonradan baş verən tektonik proseslər sınma və

qırılmalarla davam etdiyindən kəhrizin qidalanma zonası da dağılaraq çökməyə məruz qalmışdır. Bunun nəticəsində əks tərəfdə Şorsu çayı çökəkliyi yaranmışdır. Qırılma xətti su keçirməyən süxurlardan ibarət olduqda yeraltı sular yer səthinədək qalxaraq şirinsulu bulaqlar, duzlu laylara keçdikdə isəşor sulu bulaqlar kimi özlərini göstərirlər. Bunu bu gün Duzdağ ətrafındakı bulaqlar da təsdiq edir.

Duzdağ ətrafı kəhrizlərin kürəsində və ondan yuxarı qatlarda, demək olar ki, heç bir alt, orta vəüst sarmat çöküntülərinə rast gəlinmir. Qalınlıq tamamilə şirin suyu olan laylardan ibarətdir. Bu da onu göstərir ki, kəhriz fəaliyyətdə olarkən onun səviyyəsi indi rast gəlinən duzlu dəniz-laqun mənşəli süxurlardan yuxarıda olmuşdur. Əks halda, kəhriz suyu tez bir zamanda minerallaşmaya məruz qalaraq şor suya çevrilərdi.

Nəticələr onu göstərir ki, istər kürəsinin ölçülərinə, istər quyuların litoloji tərkibinə görə tədqiq olunan kəhriz yaxın minilliklərdən öncəyə aid edilə bilər. Çünki burada baş vermiş geoloji proseslərin, paleocoğrafi və hidrogeoloji şəraitin dəyişməsi yaxın dövrlərə təsadüf etmədiyindən kəhrizin daha qədim sivilizasiyalar tərəfindən qazıldığı güman edilir.

«Şərq qapısı» qəzeti,
21 oktyabr 2011-ci il, № 198 (20.356)

Nizami Alıyev

ŞAH ABBASIN, YOXSA NUHUN SARAYI?

Bu ecazkar diyarın qeyri-adi təbiət mənzərələri qarşısında dəfələrlə təsirlənsəm də, bütün bunlar xoş bir an kimi yadımda qalmış və məndə heç bir qalıcı etki yaratmamışdır. Ta ki, Duzdağ"sirləri" ilə yaxından tanış olana qədər.

Naxçıvan-Sədərək avtomagistralının cəmi 7 km-də yerləşən Duzdağ ilə mənim ilk tanışlığım 2007-ci ilin sentyabr ayında oldu. Həmin il Duzdağa səfərimizin əsas məqsədi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarixi və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli sərəncamı iləəlaqədar idi. Sərəncamdan sonra AMEA Naxçıvan Bölməsində yaradılmış işçi qrupu ilə birgə 2 il ərzində ərazilərimizdə olan tarixi və mədəniyyət abidələrini qeydiyyata almaq üçün Muxtar Respublikanın bir çox yerlərində olmuş, onlarca abidələri tədqiq etmiş və hər birinə ayrı-ayrılıqda pasport yazıb qeydiyyata almışdıq.

Budəfəki səfərimiz isə Duzdağ bölgəsinə idi. Duzdağa gedəcəyimizi bilən fransız arxeoloqları da bizə qoşulmuşdular. Mədənlərə qədər uzanan 10 km-lik qısa yolda gördüyümüz füsunkar mənzərələr bizi ovsunlamışdı. Dəfələrlə avtobusdan yerə enərək fotolar çəkmiş, bu çılpaq dağlarıəhatə edən rəngarəng süxurların yaratdıqları qurşaqların seyrinə dalmışdıq.

Duzdağ mədən idarəsində gəlişimizin məqsədinin bildirib lazımi məlumatlar aldıq. Həm hal-hazırda istismar olunan, həm də Çar Rusiyası dövründə qazılmış mədənləri

gəzib tədqiq etdikdən sonra, xalq arasında "Şah Abbas sarayı" adı ilə məşhur olan şaxtanı da qeydiyyata almaq istəyirdik. Bu arzumuzu eşidən Naxçıvan Filiz İdarəsinin (indiki Naxçıvan Duz İstehsalatı MMC cəmiyyəti) baş mühəndisi Knyaz müəllim bizlərə bu "saray" haqqında məlumat verməyə başladı: 1976-cı ilin şaxtalı bir qış gecəsində dağ-mədən sexinin rəisi Nurəddin Məmmədovun gecə növbəsində, IV şaxtanın şimal dirsəyində növbəti partlayış üçün hazırlıq işləri görülürdü. Dirsəyin 20 metrliyində partlayıcı üçün oyulan yuvalardan duz əvəzinə başqa süxurların çıxması hər kəsi təəccübləndirmişdi. Növbəti partlayışdan sonra açılan boşluq hamını heyrətləndirmişdi. Mədən işçiləri qədim dövrlərə aid bir duz "sarayı" ilə rastlaşmışdılar. Ən təəccüblüsü o idi ki, bu şaxtanı işləyən qədim insanlar, yalnız daş alətlərlə, duz laylarını elə yonub götürmüşdülər ki, divarlarda bir millimetr belə iz qalmamışdı. Sanki divarları sumbata kağızı ilə sürtüb cilalamışdılar. Ümumi uzunluğu 70 metrdən çox olan tunel bir birini əvəzləyən 10 zaldan ibarət idi".

Bu xəbər tezliklə bütün respublikaya yayılmışdı. Muxtar respublikanın o vaxtkı rəhbərləri, ziyalılar, sıravi insanlar və bir sözlə "Şah Abbasın büllur sarayının" tapıldığını eşidən hər kəs oranı görmək üçün Duzdağa axın etmişdi. Bakıdan bir qrup alim Duzdağa gəlmiş, tapıntı yerində axtarışlar aparmış və buradan tapılmış maddi-mədəniyyət abidələrini və bir neçə daş alətləri tədqiq etmək üçün özləri ilə götürüb aparmışdılar.

Knyaz müəllimin bütün bu dediklərini eşitdikdən sonra "saraya" olan marağımız daha da artdı. Hamılıqla dördüncü şaxtanın girişinə doğru yollandıq. Əvvəlcədən işimizi ehtiyatlı tutmuşduq. Çantalarımızda gətirdiyimiz əl fənərlarını çıxardıb hazır vəziyyətə gətirdik. Knyaz müəllim şaxtanın qəza vəziyyətində olduğunu, bir neçə yerdən tavanının

çökdüyünü desə də, bizim israrlarımıza qarşı gələ bilmədi. Şaxtanın girəcəyində qalaqlanmış süxur qalıqlarının üzərindən keçib tunelə daxil olduq. Kəskin duz qoxusunu özü ilə gətirən soyuq hava axını insanı iliyinə qədər üşüdürdü. Təhlükənin böyüklüyünü nəzərə alıb yalnız dörd nəfər – Knyaz müəllim, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeologiya şöbəsinin müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev, Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşı Katerine Marro və mən qaranlığa doğru irəliləməyə başladıq. Digər yoldaşlarımız isə tunelin girəcəyindən bizi izləyirdilər. Yol boyu təpələnmiş süxurların üzəriləri ilə bir qədər getdikdən sonra böyük bir çöküntü ilə rastlaşdıq. Uçqunun bu günlərdə baş verdiyini deyən Knyaz müəllim əl fənəri ilə diqqətlə tunelin tavanını və divarlarını incələdikdən sonra hər an çöküntü baş verə biləcəyini deyib getməyimizə icazə vermədi. Səs salmadan ehtiyatla geri qayıtmağımızı xahiş etdi. Ən çoxu da, yanımızdakı qonağın həyatını riskə atmaq istəmədik. Fənərlərlə tunelin dərinliklərinə işıq salsaq da, "Büllur sarayı" görmədən geri dönmək məcburiyyətində qaldıq.

Qismət 2011-ci ilin avqust ayının 22-sinə imiş. O, hadisədən 4 il keçməsinə baxmayaraq hələ də "Şah Abbasın büllur sarayını" görmək mənə nəsib olmamışdı. Hər dəfə cəhd etsəm də, Knyaz müəllimin qəti etirazı ilə qarşılaşırdım.

8 iyul 2011-ci il axşam saat 5-də AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Hacı Fəxrəddin Səfərli mənə telefon açıb çoxdandır gedə bilmədiyimiz Duzdağ səfəri üçün hazır olmamı və bir azdan çıxacağımızı söylədi. Bir neçə dəqiqədən sonra AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Fəxrəddin müəllim və mən Akademiyanın əsas binasının qarşı-

sından "NİVA" markalı maşına minib Universitetə doğru yönəldik. Oradan Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli ilə bərabər Duzdağa getdik.

Gedişimizin əsas məqsədi AMEA Naxçıvan Bölməsi ilə Fransa Milli Araşdırmalar Mərkəzinin 2006-2011-ci illərdə Duzdağ bölgəsində birgə apardıqları elmi araşdırmalar zamanı tapdıqları qədim yaşayış yerləri, içməli su mənbələri, istehsalat platformaları, duz qalereyaları, daş alətlər, keramika qalıqları və s. maddi mədəniyyət abidələri olan ərazilərlə yerində tanış olmaq idi.

İlk səfərimiz Duzdağın şərqinə – indiki duz mədənlərindən cəmi 2-3 km aralıda olan, Duzdağ platosundakı qədim yaşayış yerinə oldu. Bu yaşayış yeri platonu ikiyə bölən çaylağın sağ və sol yamaclarında yerləşir. 5 hektardan çox olan ərazi üç yerləşim yeri və bir sızma bulaqdan ibarətdir. Bərk quraqlıq olan illərdə bəzən bulağın suyu quruyur. Ekspedisiya üzvləri ilə birgə yaşayış yerlərindən çoxlu sayda obsidian, çaxmaqdaşı, keramika və s. maddi-mədəniyyət qalıqları aşkar edib, DGPS (Differential Global Positioning System), yəni qoşa GPS (MUT- Mövqenin Uzaqdan Təyini) vasitəsi ilə qeydiyyata alıb xəritələrini hazırlanmış və sonra onları tədqiq etmək üçün toplamışdıq.

Əraziyə çatıb "NİVA"-dan düşdük. Buranı ilk dəfə görən hörmətli alimlərimiz heyrət içərisində qaldılar. Heyranlıqla ətrafı gəzməyə başladılar. Yaşayış yerlərini gəzə-gəzə suallar verir, tapdığımız maddi-mədəniyyət abidələri ilə maraqlanırdılar. Onların mühüm bildikləri yerlərin fotolarını çəkdikdən sonra, çaylağın ortasındakı bulağa tərəf yollandıq. Qış fəslində burada qoyun saxlayan çobanlar bulağın qarşısını kəsib süni göl yaratmışdılar. Çox da böyük olmayan bu göl ərazidə yeganə şirin su mənbəyi olduğu üçün, ətrafda yaşayan vəhşi

heyvanlar da buraya su içmək üçün gəlirlər. Bulağa tez-tez gəldiyimə görə, suyun başını kəsib öz qurbanlarını gözləyən gürzələrdən də xəbərim var idi. Ona görə də hörmətli alimlərimizdən ehtiyatlı olmağı xahiş etdim. Bizi görən gürzələr qamışlığa doğru sürünüb, yulğun kollarının içərisində gözdən itdilər. Ehtiyatla bulağı incələdikdən sonra, bir neçə foto çəkib Duzdağ mədənlərinə tərəf yollandıq.

Duzdağ Fizioterapiya Mərkəzinin qarşısına çatıb avtomobildən düşdük. Qızmar isti bizi əldən salmışdı. Bərk susamışdıq. Çay və ya su içmək üçün mərkəzin yeraltı çayxanasına girdik. Kəskin temperatur dəyişikliyi həmən hiss olundu. Birdən-birə 40 dərəcə istidən 18 dərəcəyə qədər enən sərinliyə düşmüşdük. Bir az istirahət etdikdən sonra yolumuza davam etdik. İş gününün sonunda gəldiyimizə görə, duz mədənlərində mühafizəçilərdən başqa heç kimi görə bilmədik. Yenə də, "Şah Abbas sarayı"nın olduğu şaxtanın girəcəyindən içəri boylanıb geri qayıtdıq.

Sonra Duzdağın cənub-qərbindəki qədim qalereyalara və platformalara tərəf getdik. Hörmətli alimlərimizi buradan tapdığımız daş baltalar, gürzlər və s. maddi-mədəniyyət abidələri ilə tanış etdikdən sonra, əks istiqamətində yerləşən möcüzəli duz çayları və duz şəlalələrini görmək istəsək də, havanın qaralması buna imkan vermədi.

Akademik İsa Həbibbəylinin Duzdağda aparılan elmi-tədqiqat işlərinə verdiyi yüksək qiymət, buralara olan heyranlığı, "Şah Abbas sarayı"nı görmək istəyi və ""Duz muzey" haqqındakı fikirləri mənim də, ürəyimdə bir ümid işığı yandırdı.

Nəhayət, həmin gün gəlib çatdı. Əvvəlcədən danışdığımız kimi 22 avqust 2011-ci il saat 11-də akademik İsa Həbibbəyli və akademik İsmayıl Hacıyev "Şah Abbasın büllur sarayını" tədqiq etmək üçün Duzdağa gəldilər. Onları orada

Naxçıvan Duz İstehsalatı MMC cəmiyyətinin sədri Anar Əsədullayev, dağ sexinin rəisi Nurəddin Məmmədov və mən qarşıladıq. Öncədən hazırlıq gördüyümüzə görə vaxt itirmədən IV şaxtaya tərəf yollandıq. Təhlükəsizlik kaskalarını başımıza geyib, əl fənərləri ilə bələdçimiz Nurəddin Məmmədovun arxasınca tunelə daxil olduq. İsa müəllimin qətiyyətli və iradəli addımları ilə "ölüm yolçuluğuna" başladıq. Divarları və tavanı çökmüş tunellə irəliləmək nə qədər çətin olsa da, İsa müəllim vəİsmayıl müəllimin cəsarətləri bizi heyran qoydu. Onlar yol boyu qarşımıza çıxan maneələrin və təhlükələrin heç birinə məhəl qoymadan irəliləyir, zarafatlaşaraq bizləri də ruhlandırırdılar. Nəhayət, dar tuneldən çıxıb geniş bir boşluğa daxil olduq. Qəddimizi düzəldib ətrafı seyr etməyə başladıq. Nurəddin müəllim sol tərəfə ayrılan yolu göstərib sarayın orada olduğunu bildirdi. Bu IV şaxtanın birinci dirsəyi idi. Dəmir məhəccərlərlə girişi bağlanmış tunelin qapısını açıb içəri daxil olduq. Buradakı boşluğun uzunluğu 20-25, eni 10-12, hündürlüyü isə 8-10 m arasında dəyişirdi. Nə vaxtsa dirsəyin girəcəyində aparılan bərkitmə işləri insanı narahat edir, beton və dəmir konstruksiyalar buranın təbiiliyini pozurdu. Bir neçə metrdən sonra "saraya" çatdıq. Sevincimin həddi hüdudu yox idi, nəhayət ki, "büllur sarayda" idik.

"Saray", müasir tunellərin səviyyəsindən bir metr yüksəklikdə, təqribən diametri 10 m olan boşluqda yerləşir. "Saraya" açılan tunelin tavanı bəzi yerlərdə çatma tağ formasında duz laylarının özündən yonularaq saxlanılmışdı. "Sarayın" tavanı isə, mədən işçilərinin dili ilə desək padoşa – yəni torpaq təbəqəsinə kimi götürülmüşdü. Divarları yonub təmizləmiş, sanki cilalamışdılar. Hər yer büllur kimi par-par parıldayırdı. Bəzi yerlərdə eni yarım metrə qədər olan sütunlar saxlanılmışdı. Divarlara bitişik olan bu sütunlar üç-

künc formada idilər. Əlimizdəki fənərlərlə ətrafa işıq salır, diqqətimizi cəlb edən maraqlı şeyləri bir-birimizə göstərir və fotolarınıçəkirdik. Hörmətli alimlərimiz "sarayı" diqqətlə incələyir, hər detalın və bölmənin ayrı-ayrılıqda fotolarını çəkir, yerində müzakirələr və dəyərləndirmələr aparırdılar.

Biz saraya daxil olarkən ilk diqqətimi cəlb edən detal, tunelin şimali-qərb istiqamətindən qazılması oldu. Bu isə o demək idi ki, buranın Şah Abbas ilə heç bir əlaqəsi yoxdur. Çünki çöl tərəfdən "saraya" doğru qazılan tunelin qapanmış qədim girəcəyinin önündəki platformada axtarışlar aparmış və arxeoloji materialları yığmışdıq. Onların içərisində bir dənə də olsun orta əsrlərə aid materiala rast gəlməmişdik. 2007-ci ildən – 2011-ci ilə kimi bu ərazidə dəfələrlə apardığımız elmi araşdırmalar zamanı buradan çoxlu sayda obsidian, çaxmaq daşı parçaları, daş çapacaqlar, baltalar, gürzlər, sürtgəclər, dən daşları, Kür-Araz, Tunc və Antik dövrlərə aid keramika parçaları, kömür qalıqları və s. maddi-mədəniyyət qalıqları aşkarlayıb götürmüşdük.

Bütün bu tapılan maddi-mədəniyyət nümunələri onu sübut edir ki, hamımızın "Şah Abbasın büllur sarayı" adlandırdığımız bu şaxtalar e. ə. V-I minilliklərdə açılmışdır. Tapılan arxeoloji materiallar daha çox Nuh peyğəmbər dövrünə aid olduğuna görə buraya "Nuhun büllur sarayı" adı vermək daha düzgün olardı. Bizə qədər gəlib çatmış rəvayətlərdən də bildiyimizə görə, Nuh peyğəmbər Naxçıvanda məskunlaşdıqdan sonra duz dağlarını aşkar etmiş və buradan ilk duzu da, məhz o çıxartmışdır. Kim bilir, bəlkə də aşkar olunan bu "saraylar", həmin rəvayətin bir maddi sübutudur?

Biz "sarayı" və onun ətrafını incələdikdən sonra, geri dönüb şaxtadan çıxdıq. Artıq təhlükə sovuşmuşdu.

Sonra hörmətli qonaqlarla birinci şaxtadan keçib, Car Rusiyası dövründə qazılmış şaxtalara daxil olduq. Bu şax-

talardan duzu, diametri üç metr olan konus formasında sütunlar saxlamaqla çıxarırmışlar. İlk baxışda bu sütunlar tavandan sallanan nəhəng mağara stalaktitlərini xatırladır. Nurəddin müəllim bu şaxtalar haqqında məlumat verdikdən sonra, bizi yeraltı tövləni görməyə apardı. Hələ keçən əsrin ortalarına qədər duzu mədənlərdən, atlara qoşulmuş arabalar vasitəsi ilə çıxarırmışlar. Tövlə sütunların arası duz blokları ilə hörülərək düzəldilmişdi. Burada at arabasının çarxı, boyunduruq, axurlar və yerə tökülmüş saman qalıqları hələ də qalmaqdadır. Buraları da incələdikdən sonra oranı tərk etdik.

Hörmətli alimlərimizi yola saldıqdan sonra fransız tədqiqatçılardan Karolina Hammon, Kathieen Dupinay, Philipe Dessaint və mən bir daha IV şaxtanın quzey yamaclarında axtarışlar aparıb, qədim tunelin qapanmış girəcəyinin yerini dəqiqləşdirdik. Tədqiqat zamanı məlum oldu ki, burda daha bir neçə tunelin qapanmış girişi vardır.

Ümumiyyətlə 5 il ərzində Duzdağərazisində apardığımız elmi araşdırmalar zamanı, qədim dövrlərə aid, çoxlu sayda müxtəlif lağım və qalereyalar aşkarlasaq da, ilk dəfə idi ki, həmin dövrlərə aid tunel qazmaq üsulu ilə duz çıxarılan şaxtaya rast gəlirdik.

Bütün bu əldə olunan faktlar onu sübut edir ki, Naxçıvanda hələ e. ə. V-IV minilliklərdə duz istehsalı iləəlaqədar olaraq dağ-mədən işçiliyi tədricən inkişaf etmiş və sənaye səviyyəsinə qədər yüksəlmişdir. Sənayenin yüksəlişi isəöz növbəsində iqtisadiyyatın, ticarətin, sənətkarlığın, mədəniyyətin və başqa sahələrin inkişafına böyük təkan vermişdir. Bu inkişaf ilkin şəhərsalmanın vəşəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

"Nuh yurdu" qəzeti,
11 iyun 2012-ci il, № 22 (455)

Yaşar Rəhimov
Tarix üzrə fəlsəfə doktoru

XIX ƏSRDƏ NAXÇIVAN DUZ SƏNAYESİ *(RUS MƏNBƏLƏRİ ƏSASINDA)*

Azərbaycan tarixşünaslığında yeni istiqamət alan Naxçıvan tarixinin öyrənilməsi tarix elmi qarşısında duran mühüm problemlərdəndir. Xalqımızın tarixində özünəməxsus mövqeyi olan bu diyarın tarixi haqqında rus mənbələrində geniş məlumat vardır. Hələ XIX əsrin əvvəllərində Naxçıvanda olmuş rus tədqiqatçıları, səyyahları və sənayeçiləri diyarın təbii sərvətləti ilə də maraqlanmış, Naxçıvan daş duz yataqları onların diqqətini daha çox cəlb etmişdir. XIX əsr Naxçıvan tarixinə aid olan bir neçə mənbəsində bu dövrdə diyarımızda hasil edilən duzun keyfiyyəti, ixracı, qiyməti, miqdarı və s. məsələlər haqqında maraqlı məlumatlar əldə etmək mümkündür.

Qeyd edək ki, diyarımızdakı daş duz yataqları XIX əsr rus mənbələrində "Naxçıvan duz sənayesi" də adlandırılır. Naxçıvan şəhər məktəbinin inspektoru olmuş K.A.Nikitinin 1882-ci ildə dərc olunan "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsinin (Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi) 137-142-ci səhifələri diyarımızda duz yataqlarının yerləşdiyi ərazi, onun çıxarılma texnologiyası, miqdarı, qiyməti və satışı məsələlərinə həsr edilmişdir. Müəllif duz yataqlarının yerləşdiyi ərazini belə təsvir edir: "İrəvandan Naxçıvana gedən yolda təpələr, yüksəkliklər və bitki örtüyündən məhrum olmuş ərazi ilə qarşılaşırıq. İnsan yaşamayan və susuz olan bu ərazi çox kədərli və acı təəs-

sürat yaradır. Naxçıvana 12-15 verst qalmış yolun sol tərəfində Naxçıvan duz sənayesi adlandırılan daş duz yataqları vardır. Su olmadığına görə bu ətrafda heç bir sakin və kənd yoxdur…" (2, s.137-138).

Fikrimizcə, Naxçıvanda duz çıxarılması çox qədim dövrdən-hələ daş dövründən mövcud olmuşdur. Bunu 1870-ci ildə Naxçıvan duz mədənlərindən tapılmış tarixi çox qədimlərə gedib çıxan daş balta və külünglər də təsdiq edir. Buradakı duz mədəninin nəzarətçisi olan Beyer həmin baltalardan 2 ədədini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Petrburq və Tiflis muzeylərinə göndərmişdir. Bu baltalardan duz çıxarılmasında istifadə olunmuşdur (2, s.115).

Rus mənbələrinin təhlilindən aydın olur ki, burada çalışan məmurlar, fəhlələr və duzqıranlar torpaq qazmalarda yerləşirmişlər, suyu isə Naxçıvandan 12 verst kənar olan bir ərazidən gətirirmişlər. Rus müəllifi duz hissələrinin və parçalarının ən çox gilli dağların tərkibində olduğunu və duz qatlarının qalınlığı və kipliyinin heç də hər yerdə eyni olmadığını qeyd edir. O yazır ki, duz mədənində çalışan hər bir işçi gün ərzində 40 pud duz çıxarır. Çıxarılan duz kütləsinin miqdarına və qiymətinə gəlincə, burada müəyyən fərqlər olduğu nəzərəçarpır. Araşdırmalar göstərir ki, XIX əsrdə Naxçıvan duz mədənlərindən çıxarılan duz həm iri həcmli (sal duz-Y.R.) daş duz hissələrindən, həm də üyüdülmüş narın duzdan ibarət idi. Çıxarılmış daş duzun hər pudu üçün 1,5 qəpik, narın duzun hər pudu üçün 0,5 qəpik ödənilirdi (2, s.138). Başqa sözlə, daş duzun çıxarılmasına ödənilən məbləğ narın duza nisbətən 1 qəpik artıq idi. Bu da daş duzun heyvandarlıqda geniş istifadəsi ilə bağlıdır. Etnoqrafik materiallarda heyvanlara duz verilməsi haqda geniş məlumatlar vardır. Bu məqsədlə sal və narın duzdan istifadə edilir. Yaylaqların əksəriyyətində xüsusi

duz daşları olmuşdur. Duz həmin daşların üstünə tökülürdü ki, heyvanlar yalasınlar.

Məlumatdan aydın olur ki, Naxçıvanda hər il 200.000 pud (120.000 pud daş duz, 80.000 pud narın duz) duz çıxarılırmış. Duzun çıxarıldığı yerdəki satış qiyməti ilə onun Naxçıvandan kənardakı ərazilərdə satış qiymətində müəyyən fəqrlər olduğunu müşahidə edirik. Çıxarıldığı yerdə bir pud duz 10 qəpiyə satılırdısa, Naxçıvandan kənarda 18-25 qəpik, Şuşada isə 60-75 qəpik idi (2, s.139). Bundan başqa çıxarılmış duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, Ordubada, Yenibəyazitə, Şuşaya, İrana və b. yerlərə göndərilirdi.

K.A.Nikitin duz çıxarılan ərazidəki 2 mağaranın daha çox diqqəti cəlb etdiyini göstərir: "Yolun lap kənarında yerləşən birinci mağaranın yarısı dağıldığı üçün o yararsızdır. Dağların mərkəzində yerləşən və indi duz şıxarılan ikinci mağara isə çox dərində olduğu üçün orada işıqsız işləmək mümkün deyil. Heç bir işçidən duzun müəyyən edilmiş həcmdə və miqdarda çıxarılması tələb edilmir..." (2, s.138).

Maraq doğuran məsələlərdən biri dəçıxarılan duzun hansı üsul və vasitələrlə daşınmsı məsələsidir. Naxçıvan duzunun müxtəlf ərazilərə daşınmasında qoşqu vasitəsi kimi uzunqulaq və qatırlardan istifadə edirdilər. Naxçıvandan Azərbaycanın və Zaqafqaziyanın əksər zonalarına qatırla duz daşınması barədə istənilən qədər dəlil-sübut göstərmək olar. Belə ki, rus müəllifi V.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" kitabında XIX əsrin I yarısında Naxçıvandan Azərbaycanın bir sıra yerlərinə qatırla yük aparıldığı barədə məlumat verilir (1, s.93).

Naxçıvan mahalında Duzdağ yaxınlığında da duz hissələri çıxarılırdı (3, s.329). Tarixi mənbələrdə Naxçıvanda-Sust və Cəhri kəndləri ərazisində yerləşən duz mədənləri haqqında mə-

lumat vardır. İstehsal edilən duzu Şərura, Yelizavetpola, Naxçıvan dairəsinin bütün kəndlərinə, o cümlədən Qarabağa ixrac edirdilər. Ordubad sakinləri duzu Arazın o tayından yaxın olan Herherdən alırdılıar ki, bura da onlara Naxçıvan duz mədənlərindən daha yaxın idi (1, s.115).

Müəyyən vaxtlarda İrandan gətirilən duzun qiyməti artırıldı. Bu zaman ordubadlılar Naxçıvan duzunu almağa daha çox üstünlük verirdilər. Əgər İrandan gətirilən duzun xərci artırılsa, o zaman bütün Ordubad əhalisi Naxçıvan duzuna müraciət edir (1, s.115). Bu isə duz mədənlərinin sayının çoxalmasına və Naxçıvan mədənlərindən çıxarılan duzun alıcılıq qabiliyyətinin yüksəlməsinə şərait yaradırdı.

Yuxarıda göstərilən məsələlərə Naxçıvan diyarının tarixi üçün ilk mənbə xarakteri daşıyan 1833-cü ildə V.Qriqoryev tərəfindən tərtib edilmiş "Naxçıvan əyalətinin statistik təsviri" kitabında da rast gəlirik. Naxçıvan duzunun özünəməxsus tamını və şöhrətini göstərən müəllif yazır: "Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetpol dairəsindən, Şərurdan və Naxçıvanın bütün kəndlərindən bura karvanlar gəlir. Aprel ayından oktyabr ayınadək duz istehsalının əhatə dairəsi daha da genişlənir" (1, s.17).

Məlum olduğu kimi yay ayları Qarabağın elat əhalisi Naxçıvanın dağlıq zonasındakı yay otlaqlarına gəlirdilər. Bu vaxt duz almaq üçün gələn karvanların sayı daha da artırdı. Yay ayları duz yataqlarında çalışan işçilərin sayı 10-20 nəfər olurdusa, payız mövsümündə (oktyabr-noyabr ayları) bu rəqəmlər azalaraq 4-8 nəfərə çatırdı (1, s.18). Fikrimizcə, bu azalmanın əsas səbəbi fəsil dəyişməsi və havaların soyuması ilə əlaqədar idi. Tarixi mənbələr də duz istehsalının azalmasında əsas amil kimi onun mövsümi xarakter daşıdığını təsdiqləyirlər.

Bəhs edilən dövrdə Naxçıvan sənayesinin, o cümlədən duz sənayesinin əhatə dairəsi o qədər də geniş olmamışdır. İbtidai üsulla işləyən duz mədənlərində daha çox primitiv texnikadan - dəmir lomdan, külüngdən, barıtdan və s. istifadə edirdilər. Duz həm yanlarda, həm də tavanda hələ çoxdur; əks tərəfdə yuxarıda dar bir deşik var ki, bu da mağaranı işıqlandırmaq üçündür (1, s.17). Buna görə də hər bir işçidən yüksək ustalıq tələb edilirdi. K.A.Nikitindən fərqli olaraq "Statistik təsvir"in müəllifi gün ərzində duz yataqlarından 5400 xalvar və ya 100.000 putdan çox duz hasil edilyini bildirir. Duz qırılması barıtın vasitəsilə tez və asan olur; dəmir lom ilə deşik açır və oraya barıt qoyub partladırlar (1, s.17). Vasili Qriqoryev bir batman duzun qiymətinin bir Naxçıvan abbasısına və ya səkkiz gümüş qəpiyə satıldığını qeyd edir.

Məlumata görə, duz mədəni satış yolu ilə xərcini ödəyəndən sonra ildə 1000 tümən, gümüş pulla 4000 manat gəlir gətirirdi. Buna əsasən satıcı duzun hər batmanından 8 qəpik alırdı, bundan əlavə bir o qədər də onu ixrac edərkən hər yükdən alırdı (1, s.114). Duzun satışı və ixracından götürülən mənfəətin müəyyən hissəsi mədəndə çalışan işçilərə ödənilirdi. Bu barədə rus mənbəsində belə yazılıb: "Sahibkar gəlirin 4-cü hissəsini duz çıxaran işçilərə ödəməli idi; bu ödəmə pul əvəzinə müəyyən edilmiş qiymətə duzla da ödənilirdi" (1, s.114).

Fikrimizcə, V.Qriqoryev hələ qədim zamanlardan duz çıxarılan Duzdağ mədənindən bəhs edir. Çünki, bu kitab nəşr edilən vaxt - 1833-cü ildə ikinci mədəndə hələ duz istehsalına başlanmamışdı. Sust kəndi yaxınlığında yerləşən (onun şimal-qərbindən 3-4 kilometrlik məsafədə) duz yatağında istehsal 1837-ci ildə başlanmışdı.

Məlum olduğu kimi, XIX əsrin 70-ci illərində duz sənayesinin inkişafına mane olan aksiz vergisi tətbiq olunmuşdu. Kulpin duz yataqları ilə birlikdə icarəyə götürülən Naxçıvan

duz mədənləri XIX əsrin sonlarına qədər ayrı-ayrı şəxslərə verilmişdir. Mənbələrdə XIX əsrin sonlarında azərbaycanlı sahibkarların duz hasilatındakı mövqelərinin xeyli azaldığı haqqında məlumatlar vardır. Bu dövrdə rusların köməyilə Naxçıvan duz mədənləri Azərbaycan sahibkarlarının əlindən alınaraq erməni, yəhudi və b. əcnəbi sahibkarlara verilirdi.

Yekunda demək olar ki, qədim zamanlardan başlayaraq bölgənin həyatında ciddi rol oynayan Naxçıvan duzuna XIX əsrdə də böyük tələbat olmuşdur. Lakin regiondakı sosial-siyasi və hərbi vəziyyət onun hasilatına mənfi təsir göstərmişdir. XIX əsrin əvvəllərində Rusiya ilə İran arasında aparılan dağıdıcı müharibələr Naxçıvan sənayesinə, o cümlədən duz sənayesinə ağır zərbə vurmuşdur. Bu məsələdə texniki təhcizat və nəqliyyat məsələsi də xüsusi rol oynamışdır. Göstərilən çətinliklərə baxmayaraq XIX əsrin sonlarına doğru sənaye sahəsində, məişətdə və təsərrüfatdakı böyük tələbata görə duz istehsalı xeyli artırılmışdı. Bəhs edilən dövrdə Naxçıvan duzu Cənubi Qafqazın bütün regionlarına aparılırdı. Sonda qeyd edək ki, diyarımızdakı daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzolunmaz xammal idi.

ƏDƏBİYYAT

1. *Григорев В.Г. Статистическое описание Нахичеванской провинции. СПб, 1833, 263 с.*

2. *Никитин К.А. Город Нахичевань и Нахичеванской уезд // Сборник материалов для местностей и племен Кавказа. Тифлис, 1882, вып.2, с.109-142.*

3. *Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть IV, СПб, 1836, 339 с.*

Rafiq Babayev
Filologiya üzrə fəlsəfə doktoru

FOLKLORDA "DUZ YÜKÜ" MƏSƏLƏSİ
(NAXÇIVAN MATERİALLARI ƏSASINDA)

Hələ ilkin başlanğıcdan - mədəni qəhrəmanları "gözü tutar-tutmaz" mif dünyasında duzu da bədii predmetə çevirməklə poetik sözün, yəqin ki, öz umacaqları olub; umacaqların hədsiz-hüdudsuzluğu bu predmetin bədii yükünü artırıb, ifadə üsullarını çoxaldıb.

"Duzu bu dünyada yerə töhsən, o dünyada kirpihlərinlə yığarsan" (1, s.59) inamına gəlib çıxmaqdan ötrü məğzində-mayasında müdriklik, iman, doğruluq-düzgünlük çağlayan etnik düşüncə tarixin hansı uzaqlıqlarından keçməli idi; seçilən bir bədii predmet kimi öz təxti-tacını mənəvi yaddaşın ən "seysmik nöqtəsində" qurmalı idi?

Əzizinəm nə çarə?
Biçarəyə nə çarə?
Ət qoxudu duz gətir,
Duz qoxudu nə çarə? (2, s.15).

O "seysmik zolaqdakı" vahimə, qorxu, nigarançılıq bədii boyalarla obrazlaşdırılmışdır. Ab-havası bu bayatıda yaşayan dünyanın nəyi varsa onu tarazlaşdıran duzdur, əgər duz da qoxuyursa, onda zəlzələ qopar, dünya alt-üst olar. Bu dünyada hər şeyin çarəsi olan duzun (ona inamın, etiqadın) qoxuması ilə dərmanı tapılmayan bir dərd-çarəsizlik başlar. "Nə çarə" ifadəsinin təkrarlanması da, elə bil, təkrar-təkrar bunu yada salır.

Orası da vardır ki, "adi mətbəx duzunu Şumerlər canlı varlıq kimi canlandırırdılar. Onlar göz dəymə, cadu-piti, til-

simdən adamları xilas etmək üçün duzu canlı bir insan kimi, dost kimi köməyə çağırırdılar:

Bəd ovsunlarla mən bağlanmışam:
Bəd fitnə-fəsadlara mən düçar olmuşam!
Duz, qurtar məni bu vəsvətədən,
Aç mənim ovsunlarımı!
Qır, dağıt bu cadu-pitini!

Məlum olduğu kimi hazırda Azərbaycanda gözdəymədən, cadu-pitidən qurtarmaq üçün üzərliklə bərabər duzdan da istifadə edilir və təxminən eyni məzmunda dualar oxunur" (3, s. 58-59).

Bədii mətnlərdə (inanclar, sınamalar, ovsunlar, bayatılar, nağıllar) duza dürlü-dürlü umacaqlarla yanaşmaq "duz-çörək – düz çörək" hesabına bir müqəddəslik gətirdiyi kimi həm də predmetlə günahlar aşkarlanıb ("duzu yeyib duzlağı zibilləmə"), andlar içilib, ("duz haqqı"), canlı bilinib ("Duzun üzünə gülməsən dava- dalaş düşər"), etiqada çevrilib ("ehsan veriləndə duza dua oxunar"), ovsun olub, (yağışı kəsməhdən ötəri duz-çörəyi daşın üstünə qoyub deyirdi:

Mən anamın ilkiyəm, ağzı qara tülkiyəm" (4, s.167).

Hərdən də dəlilli-sübutlu informasiya poetik ovqat qazanıb: "Axırda gördü yuxusu gəlir, xəncərini çıxarıb barmağının başını yardı, yerinə duz tökdü. Gecə ta səhərə kimi barmağının ağrısından yata bilmədi" (5, s. 300).

Naxçıvan folklor mühitində bir bədii predmet kimi duzun "külli-ixtiyarlığı", ona münasibətin özünəməxsusluğu, bəlkə bu diyarın təbiətindəndir? Bu təbiət də bədii mətnlərdəki təbiəti proqnozlaşdırır?

"Mənbələrdə Naxçıvan duz mədənlərinin hələ Nuh peyğəmbər zamanında, yaxud, daş dövründən fəaliyyətə başladığı qeyd olunur" (6, s. 39).

Bu tarixi yaddaşı öz yaddaşında qeydə alan folklor ifadələrə bədiiyyatın qüdrətli qələmi ilə saysız-hesabsız, sirli-sehirli don biçmişdir.

Söz-söhbəti də duzu qədər dadlı-tamlı, dərdlərə dərman olan naxçıvanlılar məğzində-mayasında məzəmmət, kədər də gizlənən bir deyimə gülə-gülə üz tuturlar: "Dəvəyə deyirlər, səni qonaq çağırırlar. O da deyir:

- Opməli dodağım yox, qucmalı belim yox. Ya Naxçıvana duza göndərəcəklər, ya Bərgüşada düyüyə". İnanıblar ki, çörəklə duz insanı da, təbiəti də təhlükədən qurtarandı.

"İlan hansı həyətdən əl çəkməzsə, qabağına duz-çörək qoyarlar, deyərlər ki, sən bu duz-çörək, bizdən əl çək" (2, s. 33).

"Hansı həyətdə bayquş olarsa ev yiyəsi qorxar. Tez duz-çörək gətirib quşun qabağına qoyar və deyər: Səni and verirəm bu duz-çörəyə, çıx burdan get, bizdən uzaq ol" (4, s. 141).

Duz canlıdır.

İlaxırda qazana əvvəl-əvvəl duz töküb ona öz dilәklərini çatdırardılar.

Duz şəfa verəndi, açılmayan qapıları açan, sağalmayan dərdlərə dərman olandır.

"Uşağı şeşə vuranda barmağı duza batırıb uşağın damağına surtəllər" (4, s. 171).

"Uşaq ağlağan olsa, heş zadın üstündə ağlasa, dədəsinin, anasının başını yeyər. Gərək onun ağzına duz töküb başmax tayıynan vırasan" (4, s.172).

İnanıblar ki, duz gözdəymənin, nəzərin, cadu-pitinin, tilsimin qənimidir. Şər qarışandan sonra üzərrik yandırmazlar, ocağa duz atarlar ki, xata-bala sovuşsun.

Evin bərəkətinin duzla gəlib, duzla getməyinə də inanıblar.

Şər qarışandan sonra qohum-qonşuya duz verməzlər. Gecələr duz ortada qalsa, şeytan evin urzasın oğurlar.

Duzla yuyulan palaz şəffaf olar – deyəndə duzun təbii gücü, qüdrəti göz qabağına gəlib.

O elə müqəddəsdir ki, bir zərrəsi də ayaq altına düşməməlidir.

"Analar deyər, duz töküləndə sağ çiynızdan atın, evdə dava-dalaş olmasın" (7, s. 81).

"Duz yerə töküləndə davı olar, gərəh duzun üstünə qənd qoyasan"(1, s. 62).

Hərdən duzun "eşq-məhəbbətlə də işi olur" – məhəbbətin qədərini bildirir.

Qız-gəlinin xörəyin duzunu artıq eləməsi nişanlısını, ərini çox sevməsinə işarədir.

Bəd ayaqda, acılı dəmlərdə də duz köməyə gəlir. Ürəyindəki ağrını unutmaq istəyirsənsə, barmağını çərt, yerinə duz bas. Belədə ürəyinin ağrısı barmağının ağrısı ilə əvəz olunar.

Mətnlərdəki əhval müxtəlifliyi, mövzu genişliyi, öz təbii sərvətini qəribə müdrikliklə, ustalıqla bədii sərvətə çevirən bu qədim diyarın ruhundan, daxilindən qaynayıb gəlib, tarixi yaddaşın mənəvi yaddaşa çevrilmə prosesində regional atributlar əhəmiyyətli rol oynayıb.

ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, Bakı: Sabah, 1994

2. Yol gələr Orbubada. Naxçıvan: Əcəmi, 2005

3. Nağıyev C. Qədim Şərq ədəbiyyatı tarixi. Bakı: Asya, 2004

4. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1998

5. Azərbaycan nağılları (5 cilddə). Bakı: Çıraq, 2005

6. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997

7. Xalq yaddaşının izləri. Bakı: Elm, 2005

Məhsəti İsmayıl
Filologiya üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN FOLKLORUNDA DUZA VƏ DUZDAĞINA BAXIŞ

Həyatımızda bir neçə önəmli nemətlər vardır ki, bunlarsız yaşaya bilmərik. Misal üçün; hava-su. Bu siyahıya bir çoxunu əlavə etmək olar. Amma fiziki həyatımıza aktiv girən bir nemət də vardır ki, o mənəvi dünyamıza, düşüncəmizə, inamlar, ovsunlar, deyimlər, alqışlar şəklində daxil olmuşdur. Bu ağız dadı olaraq bildiyimiz duzdur. Duz insanların təbiətdən hazır şəkildə aldığı məhsuldur. Onun az və ya çox istifadəsi belə zərərlidir. Söz şəklində ifadəsinə gəlincə isə xalqımızın zəngin yaradıcılığı ilə qarşı-qarşıyayıq. Folklor toplamaları zamanı rast gəldiyimiz yaşlı qadınlar nəzərdən qorunmaq üçün üzərliklə bağlı inamlara bəzi əlavələr edir. Bunların mütləq icra olunması gərəkdiyinə bizi inandırmağa çalışırdılar. "İnama görə gözdən qorunmaq üçün üzərlik salarlar. Amma gecə üzərlik salmaq olmaz çünki, "mələikələrin" acığı gələr. Gecə ocağa duz atmaq lazımdır. Ovcunuza aldığınız duzu başınıza üç dəfə fırladıb odun üzərinə atın. Əgər ocağa duz atanda yüksək səslə çırtıldayırsa demək sənin nəzərin götürülür". (Burada icra olunan ritual şamanizmlə bağlıdır. Həmçinin ovsun xarakteri də daşımaqdadır. Gecəşər qüvvələrdən qorunmaq üçün bu ritual icra olunur. Onu da qeyd edək ki, duz insandakı mənfi enerjini alır. (Bu texniki elmlər sahəsində təsdiq edilmişdir).

Duzla bağlı digər inamda isə deyilir; Ölü öləndə arxasınca halva çalınır. Bu mərhumun ruhunun rahatlığa qovuşması kimi də dəyərləndirilir. Hətta "yazıqdı möhtac adama verin

avsanata düşsün" deyilir. Çox vaxtı ölü sahibi və ya qohumu mərhumu yuxuda gördüklərini ölənin "nə yaxşı ehsanımı filankəsə verdiniz" şəklindəçox razılıq ifadə etdiyini iddia edirlər. Bütün bunlar insanların digər dünya ilə bağlantı şəklini görüntü olaraq sərgiləməsidir. Maraqlı cəhət isə odur ki, ehsan hazırlığı sırasında da İslami etiqadı olan xalqımız İslamla heç bir əlaqəsi olmayan əski inanclara dayalı "ovsun rituali" icra etməkdədir. Ehsan üçün ayrılan duza dua oxunur. "Qurani Kərim"dən "İxlas" surəsi yeddi dəfə pıçıltılı səslə oxunur. Bu arada duz davamlı olaraq iki barmaqla götürülüb ovulur. "Dua oxunmuş duz" və ya əsl adı ilə desək "ovsunlanmış duz"a mərhumun adı çəkilir, "filankəsin ehsanı"dı deyərək hazırlanacaq yeməklərə və ya havlaya tökülür. Bəzən ev sahibi duzu böyük qabda təqdim edir ki, dua oxunmuş duzun qalmışını uzun müddət istifadə etsin. Hələ də öz orijinallığını qoruyub saxlayan Naxçıvandakı yas mərasimlərində əski inamların ritual ayini sıx şəkildə görülməkdədir. Qadınlar məclisində mərhum üçün yerdən süfrə açılır. (Bu insanların Tanrı yaratdığı və bəxş etdiyi nemətlərə əyilməsi minnətdarlıq əlaməti kimi dəyərləndirilməkdədir). Yeməklərin bitdiyi və süfrənin yığışdırılması zamanı süfrədə bir parça çörək və duz saxlanılır. Yenə müqəddəs kitabdan surələr oxunub mərhumun ruhuna bağışlanır. Süfrədəki dualı çörək və duz xəstələrə, uşaqlara verilir. Bəlkə də çoxları bunun fərqində deyil, amma icra olunan bu inam keçmiş inancların İslami etiqadla təqdimidir. Əcdadlarımız duzun qoruyucu və dad keyfiyyətlərini, çox yaxşı bildikləri üçün onu bütün ərzaqlarda istifadə etmiş yaddaşında canlandırdığı bu xüsusiyyəti ilə də ovsuna köçürmüşlər. Ovsunlar ilkin yaddaş məhsulu, yarım dini anlayışdı. Burada şamanizm ya tək Tanrıçılıq axtarmağa lüzum yoxdur. Hətta intuisyası

güclü olan prototürklər ovsunları qoruyuculuq, artım, bolluq, məhsul verimində istifadə etmişlər. Məlum olduğu kimi Gəmiqayadakı qayaüstü təsvirlərin bir qismində sırf ovsunlarla bağlı rəsmlər vardır. İlan ovsunu təsvir olunan rəsm və digər ilan təsvirlərindən aydın olur ki, ilan əski zamanlarda mifoloji varlıq sayılmış, həm gerçək heyvan obrazında həm də mifik güc qismi ilə qayaüstü təsvirlərə həkk olunmuşdur.

İcra olunan ilan inamlarından və ovsunlarından biri də evinə girmiş ilanın qarşısına duz qoyaraq öldürməməkdir. Ev ilanlarının ev iyəsi, qoruyucu güc olduğuna inam hissi ilə mənəvi bağ əlaqəsi "duz" görülür. İyələr gizli, sahiblik qüvvəsi olan, qoruyandı. Duzun da qoruyuculuq xüsusiyyətini nəzərə alsaq demək tam ovsun şəklini saxlamamış inamın qoruyuculuq məqsədi daşıdığı aydınlanır. Qoruyucu ev iyəsi (fərqli dünya sahibi və gücü olan) ilə ev sahibi –insan (gizli gücü olmayan, zəif) arasında əlaqə formalaşır. Ahıl insanlarımızın dilindən deyilir ki, Naxçıvanda ta qədimlərdən belə bir deyim də var. "Naxçıvanın qızı, duzu, qarpızı". Bu deyim bizə maraqlı gəlmişdi. "Hər yerdə ola bilər" demişdik. Cavab maraqlı idi. "Naxçıvanın sərt havası var. İnsanı da yetişdirir, məhsulu da. Burda kallıq olmaz". Duz dağı da dünya durduqca var.

Bir çox hallarda inamlar ovsun ritual ayini ilə qarşımıza çıxır. Xalq arasında çox ağlayan uşaq "baş yeyən" adlanır. Yəni evdən birinin ölümünü istəyir. İnama görə belə uşaq cəzalandırılmalıdı. "Cəza" üsulu və yerinə yetirilən ritual inam şəkli ilə bilinməkdədir. Ağlayan uşaq evin qapısı istiqamətində tutulur. Ağzına duz doldurub ayaqqabının tərsi ilə vurulur. Bununla da ailəni gözləyən fəlakətin qarşısı alınmış sayılır. Bilindiyi kimi ayaqqabını tərs çevirmək, qapı istiqamətində atmaq kimi xeyirə yozulan inamlar var-

dır. Duz isə burada qalmağa işarədir. Yəni evdən heç kəsin getməsinə gərək yoxdu. Keçmiş ənənəçiliyin bir neçə forma və quruluşda yaşaması kiçik epizodik olmasına rəğmən inam, tapınma, mifoloji şüur, dini anlayış, dünyagörüşdəki ifadə sərbəstliyi hətta bədii söz obrazlılığına aydınlıq gətirmiş olur. Məlum olduğu kimi Naxçıvanda duzun dağı var. Yəni daş duz mədənləri. Bu qiymətli nemət insanların gözündə saflıq və böyüklük simvoludur. Dağ hər zaman qədim türk düşüncəsində böyük və ulu olmuşdur. "Ömrün duz dağına dönsün", "Ömrün duz dağı kimi uzun olsun" alqışı da bir uzunömürlülüyə işarədirsə, ikinci də böyüklük duasıdır. Bu yerin bir neçə ifadə şəkli vardır. "Duzdaq", "Duzdağ", "Duzlaq". Nəzərə alsaq ki, Azərbaycan dilinin qrammatikasında məkani isimlər düzəldən -laq şəkilçisi vardır. Misal üçün; qışlaq, çaylaq və s. demək, duzdaq və ya duzdax sözün fonetik dəyişməsidir. Amma türk dillərindəki l-d səs keçidləri də vardır. Həmçinin digər türk dillərində bu şəkilçi elə -daq olaraq işlənir. Sözün duzdaq variantını əski sayarsaq demək xalq arasındakı ifadə şəkilləri daha məqbul sayılmalıdır. Çünki "Duzdaq" və ya "Duz dağ" adı ilə bilinən bu yerdə elə də böyük, nəhəng dağ dayanmır. Yerin dərinliyinə işləyən duz mədəni yerin səthi hissəsində kiçik təpə və təpəciklər şəklindədir. Duzdaq duzlu yerdi. Duz dağ isə duzun dağ qədər böyüklüyüdür. Onu da xatırlatmaq yerinə düşərdi ki, dağların yerin dərinliyinə işləyən köklərinin olması yerin dayağı olması kimi fikirlər əski türk düşüncəsinə xasdır. Mahmud Kaşğarlı əski türkcədə "Tenğri tağ birle yerig basurdı"- "Tanrı, dağlarla yeri basdırdı daha sağlam yaptı" kimi ifadələr işlənmişdir.

Nuhun oğlu

Nuh bırda 220 il yaşıyıp. Türkün 4 oğlu olupdu. Oğlannarının birisinin adı Tutukdu, biri Xəzərdi, birisinin adı Əlinjədi. Əlincə qala onun adıynandı. Əlinjə uzun müddət bırda yaşıyıp.

Türkün özü də uzun müddət bırda yaşıyıp. Oğlanlarının birisi Tutuk ava gedipmiş. Tutuk avdan gələndə Duzdağ təpələrinin üsdündə adamlarıynan kabab eliyiplər. Bir yaxşı tikəsi əlinnən yerə düşüp. Yerə düşənnən sora o baxıp ki, yaxşı ətdi götürüp, yeyip. Görüp daha da daddanıbdı. Deməhnən orda duzdanıp.

Beləliklə, duz mədəni tapılıp.

(Söyləyənu: Lətif Hüseynzadə, Naxçıvan şəhəri)

2001-ci il

Elmar Hüseynov

DUZ BAĞLAMIŞ ÇAYLAR – DÜNYANIN HƏLƏ SİRRİ AÇILMAMIŞ MÖCÜZƏLƏRİNDƏN BİRİ

Əvvəl bilgi...

Naxçıvanın simvollarından biri də təbii ehtiyatları 90 milyon ton təşkil edən "Duzdağ"dır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzuna görə deyil, həm də şəfaverici xüsusiyyətinə görə tanınıb. Deyilənə görə, hələ 6 min il əvvəl – Nuh-Nəbi dövründən buradan duz çıxarılıb. Şöhrəti dünyaya səs salan "İpək yolu"ndan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə "Duz yolu" uzanıb. Həmin ölkələrə buradan duz daşınıb. Qədim Naxçıvanın ən möcüzəli yerlərindən bir olan Duzdağın hər bir qarışında, dağında, daşında sirli-sehirli tarixin izləri gizlənib. Bu yer haqqında xeyli elmi və publisistik məqalələr yazılsa da hələlik bu yerin sirri tamamilə açılmayıb. Buna görə biz də Duzdağın əfsunlu möcüzəsini öz gözlərimizlə görmək istədik.

"Naxçıvanı qarış-qarış" silsiləsindən növbəti yazını Naxçıvan şəhərindən 12 km şimalda yerləşən və Duzdağ adlanan bu möcüzəli yerə həsr edirik.

Mifoloji və etnoqrafik məlumatlar...

Yazacağım məqaləyə "duz qatmaq" üçün əvvəlcə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda AMEA-nın müxbir üzvü, etnoqraf Hacı Qədir Qədirzadə ilə söhbətləşdim. Hacı etnoqrafik məlumatlara əsaslanaraq bildirir ki, Duzdağdan açıq üsulla duz çıxarılması XX əsrin ortalarına qədər mövcud olub. Yaşlı-

ların söylədiyinə görə, ətraf kəndlərin əhalisi kənardan açıq şəkildə görünən duz laylarını qırıb götürmüş, bəzən çox da dərin olmayan oyuqlar, lağımlar qazmışlar. El arasında hər kəsin açdığı lağım bəlli olmuşdu, yəni heç kəs başqasının açdığı lağıma girməzdi. Xalq arasında Duzdağla bağlı xeyli rəvayətlər də mövcuddur. Naxçıvan folkloruna aid bayatılardan birində belə deyilir:

Naxçıvanın duz dağı,
Duz təpəsi, Duz dağı.
Çəkdi yar sinəm üstə,
Dağüstündən duz dağı.

Bu rəvayətlərdən bəzilərində Duzdağdan Qaraquca (Qaravuşa) qədər yeraltı yol olduğu da söylənir. Düzdür, bu fikirlər rəvayət olsa da, unutmaq olmaz ki, onlar xalq arasında söylənilən müəyyən məlumatlara söykənir. Ərazidəki daş alətlər, keramika və obsidian qırıqları buranın qədim tarixə malik bir yer olduğunu təsdiq edir.

Duzdağ fizioterapiya mərkəzi haqqında...

Hacıdan ayrıldıqdan sonra, Naxçıvan MR Mərkəzi Xəstəxanasına baş çəkib, Duzdağ sanatoriyasına yollanan xəstələr haqqında məlumat topladım. Qeyd edim ki, Duzdağ sanatoriyasında müalicə almaq üçün dünyanın bir çox ölkələrindən müraciət olunur. Burada bronxial-astma xəstəliyi olanlar müalicə alırlar. Duzdağ Fizioterapiya Xəstəxanasına gedənlər üçün axşamçağı saat 5-dən sonra Mərkəzi Xəstəxanadan avtobus çıxır. Saat 6-da xəstələr yeraltı sanatoriyadakı otaqlara daxil olurlarlar. Gecəni divarları duzdan olan büllur otaqlarda keçirirlər. Səhər isə yenidən başqa bir əhval-ruhiyyə ilə buranı tərk edirlər. Qeyd etmək yerinə düşər ki, ildən-ilə bu sanatoriyaya müraciət edənlərin sayı artır.

Yol qeydləri...

Bu yerdən ətraflı məlumat toplamaq və min illər boyu öz sehrini səbrlə sinəsində saxlayan bu tərəflərin "duzlu daş yaddaşı"ndan təzə nəsə öyrənmək üçün Duzdağı ovcunun içi kimi tanıyan Nizami Alıyev, mən və adının çəkilməsini istəməyən yaxın dostumuz onun "Niva" markalı avtomobili ilə yola çıxırıq.

Naxçıvan-Sədərək yolu ilə irəlilədikcə yol kənarındakı yeni-yeni mənzərələr bir-birini qovur. Duzdağa burulan yolun kənarında bu il əkilmiş ağaclar sanki təbiətin yaşıl gözləri, sağlam ağ ciyərləridir. Qısa müddətdə yol kənarlarında ardıcıllıqla və eyni məsafədə əkilmiş 10 minlərlə ağac hesabına burada böyük meşə zolağı yaranıb. Qeyd edək ki, hər gün bu ərazilərə yeni ağaclar əkilir, onlara xüsusi qulluq göstərilir. Bütün bunlar Duzdağ ərazisinin gələcək turizm zonası kimi parlaq konturlarını müəyyənləşdirir.

Duzdağ oteli...

İlk olaraq Duzdağ oteli ilə qarşılaşırıq. Dağların qoynunda salınmış 5 ulduzlu otel müasirliyi ilə seçilir. Qeyd edək ki, bu il ölkə prezidenti İlham Əliyev tərəfindən açılışı olan oteldə xəstələrlə yanaşı turistlər də qalırlar. Zirzəmi qatı ilə 6 mərtəbədən ibarət oteldə qonaqların istirahəti üçün hər cür şərait yaradılıb.

Yeraltı Duzdağ Fizioterapiya Mərkəzi...

Dağların qoynu ilə təxminən iki-üç kilometr qət etdikdən sonra havadakı duz qoxusunu hiss etdik. Burada qızğın iş getdiyinin şahidi olduq. Bizə bu da məlum idi ki, yeraltı Duzdağ Fizioterapiya Mərkəzi 1979-ci ildən 50 çarpayılıq xəstəxana kimi fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların

sayı 100-ə çatdırılıb. Yer altındakı müalicə mərkəzi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə yerləşir. Xəstəxanənın yeraltı sahəsində işıqlandırılma sistemi yüksək səviyyədə qurulub. Burada iki qadın, iki kişi, bir uşaq palatası və iki istirahət foyesi fəaliyyət göstərir. Yer altındakı duz dağının qalınlığı isə 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Dəniz səviyyəsindən 1173 metr hündürlükdə yerləşən yeraltı Duzdağ Fizioterapiya Mərkəzində duz layları arasında oksigen havanın düz 20 faizini təşkil edir ki, bu da ağ ciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Qeyd edək ki, burada istənilən adam müalicə ala bilər. Yalnız müalicə kursları fərqlidir. Belə ki, uşaqlar 12-15, böyüklər isə 14-18 gün yer altında yaşamaqla müalicə almış olurlar. Burada ilin istənilən fəslində müalicə almaq olar.

Məsləhət...

Duzdağa getmək istəyən şəxs mütləq özü ilə ən azı 1 litr su götürməlidir. İlin hansı fəsli olmasından asılı olmayaraq, buraya qədəm qoyan şəxsin susuzluqdan boğazı quruyur. Sanki duz adamın içini yandırır...

Duzdağ mədənləri...

Duzdağ Fizioterapiya Mərkəzindən ayrılıb duz mədənlərinə yollanırıq. Burada görüşdüyümüz Naxçıvan MR Filiz İdarəsinin direktoru Zakir Məmmədov Naxçıvan duzunun

dəniz duzundan fərqləndiyini qeyd edir. O, bildirir ki, ekoloji cəhətdən təmiz, tərkibində ağır minerallar olmayan xalis Naxçıvan duzu həm də bir çox xəstəliklərin dərmanıdır. Laboratoriya müdiri Fəxrəddin Orucov isə bildirir ki, Naxçıvan duzunun tərkibindəki maqnezium ürək-damar xəstəlikləri olanların da bu duzdan rahat istifadə edə bilmələrinə şərait yaradır. Söhbət zamanı o da məlum olur ki, Duzdağ yatağının istismarına eramızdan əvvəl 3-cü minillikdən başlanılıb. Duzu əllə çıxarılıb atla daşınan qədim dövrdən qalma şaxtalar indi də qorunub saxlanılır. Şah oğlu Şah Abbasın şaxtası bunlardan seçilir. Bu şaxta silindirik sütunlara dayaq vurularaq işlənib.

Sənaye üsulu ilə Duzdağdan 1927-ci ildə duz çıxarılıb. Ərazidə hal-hazırda 90 milyon tona qədər duz ehtiyatı var ki, burada illik duz istehsalı 6-8 min tondur.

Duzun çıxarılması...

Mədənlərdən duz maili qazma üsulu ilə çıxarılır. Əvvəl dağda yeraltı tunel qazılır, sonra isə dinamitlə partladılır. Partlayış üsulu ilə kütlələrə ayrılmış duz parçaları kiçik vaqonlara yüklənərək açıq sahəyə çıxarılır. Burada isə çeşidlərə ayrılaraq emal edilir. Qeyd edək ki, haliyədə işlənən tunelin uzunluğu 1500 metrdir. İstehsal olunmuş duz kristal və üyüdülmüş formada satılır. Sexlərdə üyüdülmüş duzun bir tonuna 66 qram yod vurulur. Bu da zob və bu kimi xəstəliklərin qarşısının alınmasından ötrüdür.

Duzdağın görünməyən tərəfləri...

Səfərimizin əsas nəticəsi isə gördüklərimiz qarşısında heyrətimizi gizlədə bilməməyimizdir. Duzdağın yamacı ilə piyada irəlilədikcə dağların əsrarəngiz, təbii gözəlliyi

bizi valeh edir. Dərəli-təpəli yolları getdikcə düşünürəm ki, görəsən bizi daha nələr gözləyir? Torpağın min bir rəngə-çalması, günəş şüaları altında parıltısı göz qamaşdıran duz dənəcikləri həyəcanımızı bir az da artırır. Rəngdən rəngə düşən torpağın yer üzərində naxışlar salmasıöz cəzbedici görünüşü ilə xalını xatırladır. Boz, qəhvəyi, qırmızı, qum-lu, gilli donu ilə bu torpaqlar bətnində min bir sirri, xəzinə-ni saxlayır sanki. Yeridikcə ayaqlarımız altında xışıldayan qumlu, duzlu çatdaq-çatdaq olmuş torpaq mənə qış günü qar üstündə yeridiyim günləri xatırladır. Min illərlə tarixi qoy-nunda yaşadan piramidaya, kurqana bənzər bu dağ, deyəsən görmədiyimiz, eşitmədiyimiz bir çox möcüzəyə öz parıltısı ilə işıq salacaq. Bizim də "xörəyimizə" - yazımıza duz qata-caq. Qarşımıza çıxan onlarca daş alət parçaları bu dağın həm də qədim mədəniyyət abidəsi olmasından xəbər verir.

Və dünyanın qəribə möcüzəsi haqqında...

"Budur, bu da dünyanın qəribə möcüzəsi". Nizami müəllimin sözlərini eşidib, düşüncədən ayrılıram və qarşı-da gördüklərimdən heyrətə gəlirəm. Sərt, şaxtalı qış günləri çayların buz bağladığını çox görmüşəm. Lakin duz bağlamış çayların olması haqqında heç eşitməmişdim də. Bunu siz-lərin də nə vaxtsa eşitdiyinizi güman etmirəm. Naxçıvana gəlin, Duzdağdakı duz bağlamış çayları öz gözlərinizlə gö-rün. Mən gördüm, duz bağlamış çaylara və şəlalələrə heyran oldum. Hətta bu buza oxşar duz parçalarından birinin dadına da baxdım. Və heç kəsin eşitmədiyi, duymadığı bu möcüzə haqqında sizlərə məlumat vermək üçün ayrıla bilmədiyim bu əsrarəngiz gözəllikdən ayrıldım.

Qeyd edim ki, ərazidə 10-dək duz bağlamış çay var. Ha-mısı da öz mənbəyini Duzdağdan götürür.

Səfərin sonunda...

Duzdağdan ayrılırıq və Nizami müəllim təklif edir ki, başqa yolla geri qayıdaq. Yolumuzu Duzdağın Şimal-şərqində yerləşən Cəhri kəndi tərəfdən salırıq. Məqsədimizsə Duzdağ və Cəhri arasındakı Xor adlı geniş bir ərazini görməkdir. Qeyd edək ki, burada təbiətin min bir rəngi insanı valeh edir. Ərazinin florası çox zəngindir. Xor adlı bu yerin saf, təmiz havası, yabanı otlardan, yulğun ağacları və dərman otlarından ibarət təbiəti insana yeni ruh bəxş edir. Əvvəllər yaşayış yeri olan Xor indi otlaq sahədir. Buranı tanımayan adam maşınla gəlsə belə yolu səhv salıb, hər an aza bilər.

Və son söz...

Duzdağ haqqındakı təəssüratlarımı sizinlə bölüşmək nə qədər xoşdursa, söhbətimizə duz qata bilmək mənim üçün daha xoşdur. Ömrünüz duz dağına dönsün, çörəyinizin, süfrənizin, sözünüzün, söhbətinizin də həmişə duzlu olması, diləyi ilə!

Naxçıvan, 2010

Məzlum Atık, Qvami Məhəbbətoğlu

DUZDAĞ – DUZDAN QURULMUŞ BÜLLUR SARAY

(Duzdağ Fizioterapiya Mərkəzi haqqında)

Duzdağ Naxçıvanın simvollarından biridir desək, yanılmarıq. Bu dağ ölkəmizdə təkjə təmiz duzuna görə deyil, həm də şəfaveriji xüsusiyyətinə görə tanınır. Tarixi faktlara əsasən, Duzdağ mədənlərindən hələ e.ə. 3-2-ci minilliklərdə geniş istifadə olunub. Çıxarılan duz həmçinin Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılıb. 1979-ju ildə Duzdağın qədim duz mədənlərinin bazası əsasında fizioterapiya xəstəxanası təşkil olunub.

Uzun tədqiqatlardan sonra dünya təbibləri belə qənaətə gəliblər ki, duz mədənlərində natrium və xlor ionları üstünlük təşkil etdiyindən o spleoterapiyaya – ağjiyər bronx xəstəliklərinin müalijəsinə olduqja müsbət təsir göstərir. («Spleoterapiya» yunanca «Spelaion» mağara, kaha və «terapiya» müalijə deməkdir). Az sonra duz şaxtası şəraitində aparılan müalicə İtaliya, Macarıstan, Polşa, Almaniya, Ukrayna, Rumıniya və s. kimi ölkələrdə geniş yayılıb. Ölkəmizdə isə belə müalicəvi mərkəz 1979-cu ildən başlayıb.

...Maşınımız Duzdağa tərəf burulanda bu yol boyunca salınmış meşə zolağı diqqətimizi cəlb etdi. Qəzetimizin Naxçıvan üzrə bölgə müxbiri Mazlum Atık bir neçə il öncə həmin ağacların iməciliklər yolu ilə əkildiyini bildirdi. Onun sözlərinə görə, bəzi mütəxəssislər burada ağac yetişdirmənin qeyri-mümkünlüyünü söyləyirmişlər. Lakin Naxçıvanın hər bucağını yaşıllığa qərq etməyi qarşısına məqsəd qoymuş Naxçıvan Muxtar Respublikası rəhbərliyinin qətiyyəti bu

yolu da yaşıllıqlara qərq edib. Bu ərazilərdə mütəmadi yeni ağaclar əkilir, onlara xüsusi qulluq göstərilir. Bütün bunlar Duzdağ ərazisinin gələcək turizm zonası kimi parlaq konturlarını müəyyənləşdirir.

Uzaqdan bir bina diqqətimizi cəlb edir. Bu dəfə də sükutu Mazlum bəy pozur: «Bu, dağların qoynunda salınmış 5 ulduzlu «Duzdağ» otelidir. Bura müalicəyə gəlmiş xəstələrlə yanaşı, turistlər də üz tuturlar. 5 mərtəbədən ibarət oteldə istirahət üçün hər cür şərait var. Onu da deyim ki, bu otelin açılışında ölkə Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyub Ərdoğan da iştirak ediblər».

...Maşınımız irəlilədikcə duz qoxusu artır...

Sirli məkan

«Duzdağ» Fizioterapiya Mərkəzi, həqiqətən də, sirli bir məkandır. Elə içəri girər-girməz bunu hiss etməmək mümkün deyil. Dağın içərisində tuneldə irəlilədikcə «Duzdağ» Fizioterapiya Mərkəzinin baş həkimi Ruslan Süleymanov bu məkan barədə ətraflı məlumat verir. Deyir ki, yeraltı şöbə düz mədənlərində II əsas dağ sexində, girişdən 350 metr məsafədə, 110 metr dərinlikdə 9 işlənmiş ştrixdə yerləşir. Onun sözlərinə görə, bu müalicə ocağına dünyanın bir çox ölkələrində bronxial astma və astmatik komponentli digər xəstələr gəlirlər. Müalicə kursları qəbul edib, xəstəlikdən qurtarırlar: «Yeraltı hissədə – duz mədənləri şaxtasında gecə və gündüz havanın temperaturu 18-20 dərəcəyə yaxın olur. Elə xəstələrə şəfa verən əsas amil də bu mikroiqlimdir. Yəni havanın tərkibində olan yüksək dispersli natrium-xlor ionlarının olmasıdır. Bronxial astmalı xəstələrdə terapevtik effekt şaxtanın xüsusi mikroklimatı, allergenlərin olmaması (allergen-allergik reaksiyaları törədən bir faktordur), havada aerozol Na^+ və Cl^+

ionlarının olması nəticəsində yaranır. Daimi barometrik təzyiqin nəticəsində allergik intibaha reflektorik təsir göstərir. Allergik reaksiyaların zənciri qırılır və nəticədə kliniki, biokimyəvi evvektlər yaranır». Daha sonra o bildirir ki, müalicə kursu böyüklər üçün 16-20, uşaqlar üçün 10-15 seansdır. Xəstələr axşam saat 6-dan səhər 8-dək şaxtada olurlar. O bunun sirrini isə belə açıqlayır: «Bu məsələdə orqanizmdə bütün tutmaların (qan təzyiqinin artması, mədə-bağırsaq sancıları və sairə)» gecə saat 1-4 radələrində baş verməsi nəzərə alınıb. Burada ilin hər bir fəslində şəfa tapmaq mümkündür. Müalicə başa çatdıqdan sonra böyüklərdə 85-90%, uşaqlarda isə 95% yaxşılaşma qeyd olunur». Onun sözlərinə görə, xəstələr şaxtaya getməklə bərabər, lazım gələrsə bəzi dərman preparatları, fizioproseduralar və s. alırlar. Mümkün qədər dərman preparatları az təyin edilir. Spleoterapiya xəstədə boğulma tutmaları olmayan dövrdə və ya remissiya dövründə aparılır. Yaxşılaşma uşaqlarda 4-5 gündən sonra müşahidə olunur. Böyüklərdə isə bir qədər fərqlidir. Belə ki, xəstəliyin gedişindən asılı olaraq bir qrupunda yaxşılaşma iki həftədən, bəzilərində isə yaşayış yerinə gedəndən 15-30 gündən sonra qeyd edilir.

Məlumat üçün bildirək ki, bu cür səhiyyə ocaqları Almaniya, Avstriya, Macarıstan, Rumıniya və Ukraynada da fəaliyyət göstərir, amma Naxçıvandakı müalicəxana onlardan fərqli olaraq, bir çox üstünlüklərə malikdir. Buranın digər duz şaxtalarından üstünlüyü ondadır ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə adaptasiya olaraq girirlər. Xəstəxanada yeraltı şöbənin işlənmiş şahmatvari ştrixlərində ventilyasiya təbiidir, yəni havanın axın sürəti 0-0,1m/saniyəyə yaxındır. Şaxtada təbii yüksək disperli $Na^{+}Cl^{+}$ ionları sabitdir. Xəstəxananın yerləşdiyi sahə ekoloji cəhətdən

yüksək təmizliyə malikdir. Buna görə şaxtada zəhərli qazlar (metan qazı), ümumiyyətlə, yoxdur. Regionda iqlimin quru və kontinental, günəşli günlərin sayının çox olması da müalicənin effektli aparılmasına təsirini göstərir. Buradakı şaxtaları allergiyasız mühit adlandıranlar yanılmırlar.

...Yeraltı şöbə 9 şaxtadan ibarətdir. Onlardan ikisində qadın, ikisində kişi, birində uşaq palataları, ikisində istirahət foyeləri və s. fəaliyyət göstərir. Mərkəzdə 48 nəfər çalışır ki, onlardan 5-i həkim, 25-i tibb bacısıdır.

...Duzdağ mədənindəki şaxtalar bir növ mözüzəli sarayları xatırladır. Şaxtalarda duz təbəqəsinin ümumi qalınlığı 8,2 metrdir. Divarlardakı duz daşları elektrik işığının ziyasından güc alaraq hər tərəfə işıq saçır. Fizioterapiya Mərkəzinin yeraltı şöbəsi də həmin şaxtalarda, daha doğrusu, divarları duzdan ibarət olan bu billur otaqlarda yerləşir. Bu mənada, bu səhiyyə ocağını ölkəmizin, eləcə də dünyanın nadir müalicəxanası hesab etmək olar.

...Bəli, burada müalicə üsulu çox sadədir. Yeraltı şaxtalardakı köhnə duz mədənlərində qoyulmuş çarpayılarda gecələyən xəstələr burada şəfa tapırlar.

Müalicə olunanlar gecəni divarları duzdan olan büllur otaqlarda keçirirlər. Səhərlər isə yenidən başqa bir əhvali-ruhiyyə ilə buranı tərk edirlər. Qeyd etmək yerinə düşər ki, ildən-ilə bura müraciət edənlərin sayı artır. Belə ki, il ərzində 1500-2000 nəfər bu məkana üz tutur. Burada müalicə olunan Türkiyə və İran vətəndaşları ilə şöhbətdən aydın oldu ki, «Duzdağ» onların hər birinin yaddaşında xəstəlikdən qurtulduqları məkan kimi qalacaq.

Xəstələrlə həmsöhbət olarkən onlar məhz buraya üz tutduqdan sonra yaşadıqları problemlərdən azad olduqlarını dilə gətirirlər.

Ağarza Rəhimov: Əslən Hacıqabulun Rəncbər kəndindənəm. Moskvada yaşayıram. Orada vəkil kimi fəaliyyət göstərirəm. 5 il idi ki, bronxlarımdan əziyyət çəkirdim. 5 gündür buradayam. Buradakı müalicə effektini artıq hiss etməkdəyəm. Cələn il də bura gəlmək fikrim var. Doğma diyarımda belə bir müalicə ocağının olmasından gec xəbər tutmağımı isə heç cür özümə bağışlaya bilmirəm.

Ədalət Məmmədova: Gəncə sakiniyəm. 4-cü ildir «Duzdağ»a gəlirəm. Bura üz tutandan əzablı günlərim artıq arxada qalıb. Daha dərman qəbul etmirəm.

Elnur Rüstəmov: Bakıda yaşayıram. Bura 6 yaşlı oğlumla birgə gəlmişəm. Hər ikimiz də müalicə qəbul edirik.

Nəriman Mikayılov: Polis işçisiyəm. Norilsk şəhərindən gəlmişəm. Onu da deyim ki, Duzdağa vaxtilə buraya oğlunu müalicəyə gətirmiş Vladimir vilayətinin Daxili İşlər Nazirliyinin baş həkiminin məsləhəti ilə gəlmişəm. Onun məsləhəti olmasaydı, yəqin ki, buradan xəbər tutmayacaqdım. Onu da deyim ki, burada həm müalicə, həm də istirahət üçün normal şərait var.

Natəvan Tahirova: «Azərbaycan ordusu» qəzetinin əməkdaşıyam. Bura gələnə qədər müxtəlif tibb ocaqlarına müraciət etmişdim. Amma heç bir nəticə hasil olmurdu. Duzdağda olduğum bir neçə gündə isə artıq özümdə sanballı dəyişikliklər hiss edirəm.

«Naxçıvan» jurnalı, dekabr 2011, səh. 10-12

Fəaliyyətə başladığı dövrdən indiyədək 35 000-ə yaxın xəstəni sağlamlığına qovuşduran «Duz mədəni bazası», sizin də sağlamlıq mənbəyiniz ola bilər. «Duz mədəni bazası»nın göstərdiyi **xidmətlər**:

Göstərişlər:

1) Predastma
2) Bronxial astma I mərhələ, infeksion-allergik və atopik formalı yüngül, orta-ağır dərəcəli
3) Bronxial astma I mərhələ, tənəffüs çatışmazlığı I-II mərhələ, ürək çatışmazlığı I mərhələ
4) Bronxial astma I mərhələ, yanaşı xroniki qeyri-obstruktiv bronxit və xroniki pnevmoniya I-II mərhələ (remissiya fazası)
5) Xroniki bronxit astmatik komponentlə remissiya fazası
6) Allergik rinosinusopatiyalar
7) Pollinozlar

Mütləq əks göstərişlər:

1) Bronxial astma II mərhələ
2) Bronxial astma I mərhələ ağır gedişli, diffuz pnevmoskleroz, tənəffüz çatışmağlığı III mərhələ, ürək çatışmazlığı III mərhələ
3) Bronxoektaziya xəstəliyi
4) Ağ ciyərlərin absesi və qanqrenası
5) Ağ ciyərlərin vərəmi (bütün forma və mərhələlərdə)
6) Qan dövranının çatışmazlığı III mərhələ
7) Ürək qüsurları subkompensasiya və dekompensasiya fazası
8) Hipertoniya xəstəliyi III mərhələ
9) Mədə və 12 barmaq bağırsağın yara xəstəlikləri

10) Tireotoksikoz
11) Böyrək daşı xəstəliyi
12) Anemiyalar
13) Şəkər xəstəliyi II-III mərhələ (insulindən asılı olan

Nisbi əks göstərişlər isə bunlardır:

1) Yuxarı və aşağı ətrafların olmaması
2) Enurez
3) Xroniki poliartritlər
4) Burun boşluğunun anatomik dəyişiklikləri (polip, adenoidlər)
5) Xroniki hepatoxolesistitlər

«Naxçıvan» jurnalı, dekabr 2011, səh. 16

Kərəm Həsənov

NAXÇIVAN DUZUNUN İSTEHSALI ARTIR, İXRAC POTENSİALI GENİŞLƏNİR

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı yeni keyfiyyət mərhələsinə daxil olmuşdur. Yeni mərhələnin əsas hədəfi iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə nail olmaqla muxtar respublikanın dinamik sosial-iqtisadi inkişafının davamlılığını uzunmüddətli perspektiv üçün təmin etməkdən ibarətdir. Bu hədəfin reallaşması üçün icrası vacib vəzifələr müəyyənləşdirilmişdir. Artıq regionda hədəflənən məqsədlərə nail olunmuşdur. Son illər muxtar respublikamızda irimiqyaslı layihələr reallaşdırılır, yerli xammaldan səmərəli istifadə etməklə daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəlif təyinatlı yeni istehsal müəssisələri yaradılır. Həmçinin fəaliyyəti dayanmış müəssisələrin işi bərpa edilir, mütərəqqi texnologiyalar tətbiq olunur.

Daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri də "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Naxçıvanın təbii resurslarından biri – Duzdağ yataqları Naxçıvan şəhərindən 12 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Məlumat üçün qeyd edək ki, Duzdağdan aşkar olunmuş maddi-mədəniyyət nümunələri, xüsusilə daş çəkiclər qədim Duzdağ mədənlərindən hələ eramızdan əvvəl III-II minilliklərdə geniş istifadə edildiyini göstərir. Primitiv üsulla çıxarılan duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır. Duzdağ yatağından 1927-ci ildə ilk dəfə olaraq sənaye üsulu ilə duz çıxarılmasına başlanılmış, sovetlər dönəmində bu sənaye müəssisəsində

istehsal edilən daş duz ittifaq respublikalarına göndərilmişdir. 1988-1993-cü illərdəölkəmizdə baş alıb gedən anarxiya, xaos, özbaşınalıq iqtisadiyyatın bütün sahələrinin dağılmasına səbəb olmuşdu. O zaman bu sənaye müəssisəsinin də fəaliyyəti tamamilə dayanmış, burada çalışan mütəxəssislər işsiz qalmışdılar.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından səmərəli istifadə olunmasına əlverişli şərait yaratmışdır. Duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılmış, 1991-ci ildən istismarı dayanmış, uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı müəssisəsi yenidən qurulmuş, müasir texnoloji avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı müəssisəsi tikilərək istehsala başlanmışdır. Burada bütün istehsal prosesləri avtomatlaşdırılmış, konveyer xətti, Almaniya, İtaliya vəİranın birgə istehsalı olan paketləyici avadanlıq quraşdırılmışdır. Eyni zamanda 2 ədəd polietilen və 1 ədəd karton tarada duzu paketləyən avadanlıq alınaraq kollektivin istifadəsinə verilmişdir.

Ötən il də bu istiqamətdə işlər davam etdirilmiş, müəssisədə cari təmir işləri aparılaraq rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duz paketləyən avadanlıqlar alınıb quraşdırılmışdır. Əl əməyi yüngülləşdirilmiş, yüksək keyfiyyətli məhsul istehsalı ilə yanaşı, istehsal edilən məhsulun vaxtında sifarişçilərin ünvanlarına çatdırılmasına da əlverişli şərait yaradılmışdır.

İstifadəyə verilən yeni duz emalı sexləri Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan birinci müasir müəs-

sisələrdir. Burada əvvəllər duz istehsalı köhnə, primitiv üsulla həyata keçirilirdi. Duz yataqlarından, əsasən, xammal bazası kimi istifadə olunurdu. Çox az miqdarda duz paketlənir, qalan məhsul isə keçmiş Sovetlər Birliyinin müxtəlif şəhərlərində üyüdülüb satışa çıxarılırdı. Amma müstəqillik illərində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, fəaliyyətə başlayan yeni duz emalı müəssisələrində xammalın çıxarılmasından son məhsuladək istehsalına nail olunmuşdur. Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı müəssisəsi fəaliyyət göstərir.

"Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Anar Əsədullayevin verdiyi məlumata görə, gün ərzində 35-40 ton daş duz, 20-25 ton üyüdülmüş duz istehsal edilir. Hazırda müəssisədə 12 çeşiddə duz istehsal olunur və bu məhsullar məişətdə, heyvandarlıqda, kimya sənayesində istifadə edilir. Məişətdə istifadə edilən yodlaşdırılmış duz nəfis tərtibatla bəzədilmiş 0,5 kiloqramlıq karton və plastik, 0,2, 0,25, 0,5 kiloqramlıq polietilen taralarda və 25 kiloqramlıq kisələrdə "Duzdağ" əmtəə nişanı ilə satışa çıxarılır. Eyni zamanda müəssisədə istehsal olunan texniki narın və doğranmış duz kimya sənayesində, daş duz heyvandarlıq sahəsində, narın duz isə pendir istehsalında geniş istifadə olunur.

Müəssisənin fəaliyyətinin genişləndirilməsi, istehsalın həcminin artırılması yeni iş yerlərinin açılmasına şərait yaratmışdır. Hazırda müəssisədə 86 nəfər çalışır.

"Müasir texnoloji avadanlıqlar yüksək keyfiyyətli məhsul istehsalında mühüm amildir" deyən müsahibim onu da əlavə etdi ki, qarşımızda duran başlıca vəzifə keyfiyyətli iş görməkdən, müəssisənin ixrac potensialını genişləndirməkdən ibarətdir. Elə bu səbəbdəndir ki, xammalın çıxarılmasından tutmuş satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal olunan duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara cid-

di əməl olunur. Müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən duzun keyfiyyətinə tam nəzarət etməyə imkan verir. İstehsal prosesinin konveyer üsulu ilə təşkil edildiyi müəssisədə duz yeraltı partlayış üsulu ilə əsas kütlədən ayrılıb kiçik vaqonlara yüklənərək açıq yerüstü sahəyə daşınır. Daşduz yerüstü sahədə çeşidləndikdən sonra emal müəssisələrinə gətirilir. Hər birində 2 istehsal sexinin fəaliyyət göstərdiyi müəssisələrdə daş duz birinci sexdə 2 mərhələdə müxtəlif avadanlıqlarda əzilərək üyüdülür. Hər ton duzun tərkibinə 80 qram yod əlavə edilir və elevatorla ikinci sexə ötürülür. Burada isə ələkdən keçirildikdən sonra yodlaşdırılıb paketlənir. İstehsal olunan məhsulun üzərində yod çatışmazlığının fəsadları ilə əlaqədar məlumat, duzun tərkibi, istehsal tarixi və yararlılıq müddəti göstərilir. Məlumat üçün qeyd edək ki, yod çatışmazlığı uşaq və yeniyetmələrdə əqli zəiflik, fiziki inkişafdan geri qalma, kretinizm (cırtdanboyluluq), hamilə qadınlarda ölü, lal, kar və kor uşaqların doğulması, hər yaşda qalxanvari vəzin böyüməsi və yoluxucu xəstəliklərə tez-tez yoluxma hallarına səbəb olur.

Ötən il 6658,1 ton daş duz və 3653,43 ton üyüdülmüş duz istehsal edilmiş, 1693,7 ton daş duz və 3694,3 ton üyüdülmüş duz satılmışdır. İstehsal olunan duzun ölkəmizin digər regionlarında da satışını təmin etmək məqsədilə Bərdə və Quba şəhərlərində bazalar yaradılmışdır. Müəssisənin balansındakı yük maşınları ilə duz bazalara daşınır, oradan da sifarişə uyğun olaraq ətraf rayonlarda fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların qonşu dövlətlərə də ixrac olunması planlaşdırılır.

«Şərq qapısı» qəzeti,
1fevral 2012-ci il, № 20(20.42)

Əli Rza Xələfli

TÜKƏNMƏZLİK

Azərbaycan mifologiyasında, nağıllarda duz qoruyucu, keşikçi gücündədir. Duzun yandırıcılıq mahiyyəti ayıqlıq, səfərbərlik, özünüqoruma instinkti tələqin edir. Təsadüfi deyil ki, Məlikməmməd barmağını kəsib duz basır.

... Milyon ildən bəri Naxçıvanın Duz dağları əriməyib...

Duz müqəddəsliyi... İnsanın həm maddi, həm də mənəvi tapınacağıdır. Duzsuzluq - insanın faciəsidir.

"Kredo" qəzeti, 10 mart 2012, №10(675)

DÜNYANIN DUZDAĞI

Katrin Marro
Fransa Milli Elmi Araşdırmalar Mərkəzinin
əməkdaşı, dosent-doktor

NAXÇIVANDA DUZ MƏDƏNÇİLİYİNİN BAŞLANĞICI HAQQINDA

Naxçıvan Duzdagında duz mədənçiliyinin tarixi e.ə. 5-ci minilliyin ikinci yarısına söykənir: Duzdağ dünyanın indiyə qədər məlum olan ən qədim duz mədəni hesab olunur.

Duzdağla yanaşı Urmiya hövzəsinda olan Xoy Duzdağı mədəninin də eyni tarixə aid olduğu aşkar edilib; 2005-ci ildə birlikdə çalışdığım iranlı həmkarlarımla Xoy Duzdağında çox sayda Kalkolitik və Kür-Araz mədəniyyətinə aid saxsı parçalarına rast gəldik.

Amma Xoy duz mədəni Naxçıvandakı Duzdağından olduqca fərqli xüsusiyyətlərə malikdir: Naxçıvandakı Duzdağının hər tərəfində daş alətlər və tunellər var, Xoy duz mədənində isə yalnız saxsı parçaları və alçaq çuxurlar tapdıq. Həmin çuxurların izinə düşərək oranın nekropol olaraq istifadə edildiyini düsünürük.

Yəni Xoy duz mədəni, az bir miqyasda duz mədəni kimi istifadə edilmiş ola bilər, amma əsas funksiyası məzarlıq olmusdur. Nəticədə Xoy duz mədənində duzçıxarma istehsalına dair izlər müəyyən edilməmisdir.

Buna bənzər bir vəziyyətə İspaniyadakı "la Muntanya del Sal" deyilən mövqedə də rast gəlinmişdir. Bu mövqedəki duz yataqları yaxınlığında Orta neolit dövrünə aid nekropol aşkar edilib, lakin orada duz çıxarılmasına dair izlər olduqca azdır. Onu deyə bilərik ki, bu nekropolun bir çox məzar yerində duz mədənində istifadə olunmuş bir sıra daş alətlər

tapılmışdır ki, bu da "la Muntanya del Sal" mədəninin də e.ə. 5-ci minillikdə istifadə edilmiş ola biləcəyi ehtimal edilir (Weller and Figuls 2007).

Avropadakı Orta neolit dövrü tarix olaraq Qafqazın Keç Kalkolitik dövrünə təsadüf edir, yəni o da e.ə. 4500-3500-cü illərə təsadüf edir.

Nəticədə, qeyd etdiyim nümunələrdən də aydın olduğu kimi, duz təkcə qida və ya heyvan yemi kimi istidafə edilməmiş, həmçinin duzun mənəvi dəyəri də olmuşdur.

Maraqlı olan digər bir hal da odur ki, yuxarıda haqqında bəhs etdiyim bütün bu mədənlərin duzu, demək olar ki, eyni dövrdə emal olunmağa başlamışdır. Yəni qaya (dağ) duzu, istər Avropada, istərsə də Qafqazda olsun, demək olar ki, ardıcıl olaraq hələ eramızdan əvvəl insanların diqqətini çəkməyə baslamışdır.

Bunlarla yanaşı apardığımız araşdırmalardan aydın olduğuna görə Naxçıvandakı Duzdağın duzunun daha çox xüsusi əhəmiyyətə malik olduğunu deyə bilərik, belə ki:

Duzdagın duzu e.ə. 4-cü minillikdə belə əhatəli şəkildə istehsal olunmuşdur. İndiyə qədər Duzdağın ətəklərində araşdırma apardığımız altı rayonun hamısında da eramızdan əvvələ aid izlər tapdıq və xüsusən 2-cu Bölgədə xeyli sayda həm saxsı parçaları, həm də daş alətlərə rast gəldik (Marro, Baxşəliyev və Sanz, 2010).

Keçən il açdığımız bir qazmada da bir ocaq ətrafında Kür-Araz mədəniyyətinə aid saxsı parçaları tapdıq. Maraqlı budur ki, həmin tapıntıların arasında olan bir səhəng üzərində bitum izləri mövcud idi. Ayrıca o bölgə sirf Kalkolitik və Kür-Araz mədəniyyətində istifadə olunduğu, yəni açdığımız qazmada sirf bu dövrlərə aid saxsı parçalarının olduğu müəyyən edildi.

Kür-Araz mədəniyyətinə aid qalıqlar isə demək olar ki, duz mədəninin hər tərəfində mövcuddur.

Bütün bunlardan aydın olur ki, Kür-Araz mədəniyyəti dövründə Duzdağda çox böyük miqdarda duz istehsal olunmuşdur.

C. Hamonun qeyd etdiyinə görə, eramızdan əvvələ aid olan, tuneldən duz çıxarma əməliyyatlarından duzun üyüdülməsinə qədər duz istehsalına dair bütün izlər Naxçıvan Duzdagında müəyyən edilmişdir (Hamon).

Bütün bu dəqiqləşdirmələrdən sonra özümüzə belə bir sual verdik: Səbəb nədir ki, e.ə. V minillikdə mədənə qarsı birdən-birə çox böyük bir bağlantı başlayıb?

Metalişləmə sənətinin baslangıcının səbəbləri hələ də araşdırılmaqDadır, lakin yuxarıda izah etdiklərimiz və gördüyümüz işlərdən sonra bir sıra versiya bildirmək mümkündür: Genis bir perspektivdən baxanda duz mədəninin mis metal sənəti eyni zamanda başlamış oldugu anlamına gəlinir. Bundan başqa, Gürcüstandakı Sakdrissi qızıl yatağı üzərində aparılan arasdırmalar qızıl metal sənətinin də o zamanlarda başlamış olduğunu düşünməyə əsas verir.

Bütün bunlara görə, e.ə. 5-ci və 4-ci minilliklərdə mədən və torpaq içindəki maddələrə qarşı müdhiş bir bağlantı olduğunu bilirik.

Duz istehsalı məsələsinə yenidən qayıdaraq, duz istehsalı işlərinə hayvandarlığın genişlənməsi və burada yayılması ilə bərabər başlanılmışdır. Yəni, burada Sherrattın "secondary products revolution"unun elementi olmusdur (Sherratt, 1981).

İstər duz mədəni olsun, istərsə də mis və ya qızıl metal sənəti olsun, bütün bu mədənlərin inkişafı eramızdan əvvəlki cəmiyyətlərdə çox sayda əsaslı dəyişikliklərin meydana gəldiyi bir dövrdə olmusdur, belə ki, sənətkarlıq genişlənir,

ayrı-ayrı ərazilər arasında gediş-gəliş və əlaqələr artır, 4-cü minilliyin sonlarında Şimali Mesopotamiyada ilk şəhərlər meydana gəlirdi. Bu və buna bənzər hallarda Qafqaz və Doğu Anadolu bölgəsində əsaslı dəyişikliklər müşahidə edilir. Bu köklü dəyişiklikləri daha yaxşı dərk etmək üçün Naxçıvan Duzdagında apardığımız tədqiqatlar böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. *Marro C., V. Bakhshaliyev and S. Sanz, 2010: "Archaeological investigations on the salt mine of Duzdagi (Nakhchivan, Azerbaïdjan)", TUBA-AR, 13 (Journal of the Turkish Academy of Science): 230-244.*
2. *Sherratt A. 1981: "Plough and pastoralism: aspects of the secondary products revolution, in Pattern of the Past". In I. Hodder, G. Isaac and N. Hammond (eds.) Studies in honour of David Clarke, Cambridge University Press: Cambridge: 261–305.*
3. *Weller O. and A. Figuls 2007: « Première exploitation de sel gemme en Europe: organisation et enjeux socio-économiques au Néolithique Moyen autour de la Muntanya del Sal de Cardona (Catalogne) ». In A. Figuls and O. Weller (eds) Acts of the 1st International Archaeology meeting about Prehistoric and Protohistoric salt exploitation, Cardona, december 2003, IREC, Barcelona.*

2012

Karolin Hamon
tarix üzrə fəlsəfə doktoru,
ABŞ

DUZDAĞDA DUZ HASİLATI VƏ DAŞINMASI DAŞ ALƏTLƏRİN DƏLİLLƏRİ

Hələ Neolit dövründən bəri duz həm insani qida, həm də mal-qaranın yemlənməsi üçün strateji bir vasitə olmuşdur. İstismar üçün birbaşa sübutların olmaması səbəbindən duzun arxeologiyası onun daşınması ilə bağlı olaraq müxtəlif abidələrin tədqiqi ilə bağlıdır. Qafqazda duz hasilatı və daşınması texnologiyası üzrə tədqiqatlarımız 2008-2012-ci illərdə Naxçıvanda (Azərbaycan) duz mədənlərində həyata keçirilmişdir.

Düzdağın duz mədəni

Duzdağın duz mədəni Naxçıvandan 7 km şimalda Araz sahilində yerləşir. Tərkibi 98% təmiz NaCl-dan ibarət və hal-hazırda istismar olunan duz yüksək keyfiyyətə malikdir. Duz yataqları 3 km uzunluğu və 2 km eni olan bir ərazini əhatə edir. Bu ərazidə komandamız tərəfindən aparılan müşahidələr bir sıra arxeoloji tapıntıların, o cümlədən əşyaların, alətlərin və qaya abidələrinin üzə çıxarılmasına səbəb olmuşdur. Dulusçuluq üzrə ilkin nəticələr bu qalıqların əksəriyyətinin Son Eneolit və Erkən Bürünc dövrünə aid olduğunu göstərir (e.ə. V-IV minilliklər). Tapılan bəzi dəmir dövrü və orta əsr dulusçuluq məmulatları da mədənin daha əvvəllərə təsadüf etdiyini göstərir. Son Eneolit və Erkən Tunc dövründə Araz çayı vadisi Transqafqaz, Anadolu və Şimali Mesopotomiyada insanlar, məhsul və

ideyaların dövriyyəsinin əsas yolunu təşkil edir. Bu coğrafi şərait Duzdağ duz mədəninin bütün Qafqazda şəbəkə mübadiləsində strateji əhəmiyyətini anlamaq üçün əsasdır.

Tədqiqatın məqsədi və iş sahəsi

Bu layihə çərçivəsində S.Sanz və N.Əliyev birlikdə duz yamaclarında sistemli bir araşdırma aparılmışdır. Bütün arxeoloji qalıqlar sistemli olaraq DGYS(Differensial Global Yerləşdirmə Sistemi) ilə qeydiyyatdan keçirilmiş və bütün abidələrin (qalereyalar,qayalar, ocaqlar, su və s.) dəqiq xəritələnməsini yaratmaq üçün Spot 5 (2.5 m görüntü) peyk şəkillərində yerləşdirilmiş və abidələr tapılmışdır.

Daş alətlərin tədqiqatı 2 mərhələdə həyata keçirilmişdir. İlk olaraq, 800-ə yaxın daş alətin sistemli qeydiyyatı aparılmış, laboratoriyada 200 daş alət nümunələrinin daha dəqiq texnoloji və istifadə təhlili edilmişdir. Alətlər 3 kateqoriyada müəyyən olunmuşdur: çəkiç, daş çəkic, itiləyici alətlər (əl dəyirmanı, həvəng).

Çəkiclərin növləri və funksional təhlili

Toplananların 80%-ni çəkiclər təşkil edir. Onların xam materialları müxtəlif mənbələrdən gəlir. Qum daşları, qənbər, qranitlər və qara mərmərlər mümkün ki, hələ də Duzdağın yüksəkliyində görünən yataq axınlarından və ya Naxçıvan çayından gəlmişdir. Amma böyük dolerit və qabbro ailəsindən olan bəzi vulkanik qayalar xüsusi çəkic növünün istehsalı üçün istifadə olunmuşdur. Bu qayaların ən yaxın geoloji mənbələrinin mədəndən 20 km məsafədə yerləşdiyi üçün onların istifadəsi xüsusi satınalma strategiyası tələb edir.

Çəkiclərin növləri sistemləşdirilmiş və xəritələnmişdir. Ölçülərinə (400 qr-dan 60 kq-a qədər), onların xam materialına (yumşaq və ya bərk), formasına (kürəşəkilli, üçbucaq, dördbucaq) və formalaşma üsullarına (təbii qabıqlar, şişkinlik, deşmə) görə müxtəlif növ çəkiclər müəyyən edilmişdir. Onların yerləşməsi və çuxur formaları da əsas elementlərdən biridir. Təcrübə ilə müxtəlif növ çəkic və çuxur növləri yoxlanılmışdır.

Altı əsas çəkic növü müəyyən edilmişdir. Xüsusiyyətlərinin müxtəlifliyi ərazidə müxtəlif hasilat üsulları tətbiq edildiyini göstərir. Onlar müxtəlif formalaşma metodlarına, istifadə müddəti və funksiyalarına malikdirlər. Çəkiclərin bəziləri formaya salınmamış sadə qənbərlərdir. Digərləri hər iki tərəfdən itilənib. Amma onlardan əksəriyyətinin üz tərəfində, yan tərəflərdə və uclarında müxtəlif düz və əyrixətli geniş çuxurlar var. Çuxurların bu sadə və mürəkkəb assosiasiyası tutacaq sisteminin bir hissəsidir. Bəzən onlarla kiloqram çəkisi olan ən ağır çəkiclər bir sapa yerləşdirilə bilməz. Dairəvi və alətin ən sonunda yerləşən bir yiv ipli sistemdən xəbər verir. Digər xüsusi bir çəkic növü dolerit və gabro ailəsinə məxsus çox bərk yaşıl qayada düzəldilmişdir. Dar bir nöqtə yaratmaq məqsədilə onlar çox ehtiyatla deşilərək formaya salınmışdır. Bu çəkiclər uzun müddət istifadə olunmuşdur. Bu alətlər həmçinin Kültəpə I və II-də (Əbibullayev 1982, Əliyev 1991) tapılmış və görünüşü ilə Kür-Araz kontekstləri ilə əlaqələndirilir.

Digər daş alətlər

Ərazidə həmçinin digər kateqoriyalara aid alətlər – itiləyici alətlər və daş çəkiclər də tapılmışdır.

Müxtəlif xammaldan olan həvənglərlə birgə əldəyirmanı və bülövlər də müəyyən edilmişdir. Əldəyirmanı və bülövlər qara mərmərdəndir. Bu xammal Qafqazda Neolit və Bürünc Dövr məskənlərinin itiləyici alətlərində istifadə edilmişdir. Sındıqda onlar yenidən istifadə üçün mədənə gətirilə bilər. Həmin ərazidən müxtəlif xam materialdan düzəldilmiş konusvari və silindrik həvənglər də tapılmışdır. İlk istifadə təhlili nəticələrinə görə onlar qida hazırlığından çox yumşaq mineral maddələrin dəyişdirilməsi üçün istifadə olunub. Bu, duzun dəyişdirilməsinin bir neçə mərhələsinin birbaşa hasilat sahələrinə yaxın olan mədən sahələrində həyata keçirildiyini göstərir. Orta əsr alətləri ilə birgə silikatlaşdırılmış qayalar (çınqıl, kvarsit, qum daşları) üzərində hazırlanmış bir çox sferik daş çəkiclər tapılmışdır. Onlar əsasən çəkiç lopaları və qırıq çəkiçlərlə birlikdə tapılıb. Güman olunur ki, onlar əsasən çəkiclərin deşilərək formaya salınması üçün istifadə olunmuşdur. Bu mədən ərazisində tapılmış daş çəkiclərdən ən nahamarı hesab olunur. Bu da onu göstərir ki, bəzi çəkiclər birbaşa mədəndə düzəldilmiş və formaya salınmışdır.

Nəticə

Duzdağda müxtəlif növ daş alətlərin xəritələnməsi onu göstərir ki, duz qayalarının hasilatı və duzun toz halına çevrilməsi birbaşa ərazidə edilmişdir. Duzdağın duz mədənində tapılmış daş alətlərin müxtəlifliyi göstərir ki, duzun oportunist istismarının epizodları daha yüksək səviyyəli texniki bacarıqlara əsaslanan daha strukturlaşdırılmış və kompleks istismarla birlikdə mövcud ola bilər. Çəkiclərin və daş alətlərinin müxtəlif növlərinin paylanması da hasilat zonaları ilə emalatxanalar arasında müəyyən bir iş

təşkilinin mövcud olduğunu göstərir. Gələcək tədqiqatlar bu alətlərin Qafqaz və ətraf rayonlarda duzun istismarının, transformasiyasının və dövriyyəsinin kompleks təşkilinə necə inteqrasiya ediləcəyini göstərəcəkdir.

ƏDƏBİYYAT

1. *Абибуллаев О. 1982. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм.*
2. *Алиев В. 1991. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм.*
3. *Marro C., Bakhshaliyev V. and Sanz S. 2010. Archaeological investigations on the salt mine of Duzdagi (Nakhchivan, Azerbaïdjan). TÜBA-AR. Vol 13.*

NAXÇIVANDAKI DUZDAĞ - DÜNYADA BƏNZƏRİ OLMAYAN AZƏRBAYCAN MÖCÜZƏSİ

Bu gün sizə qədim və tarixi bir diyarda – Azərbaycanın Naxçıvan Muxtar Respublikasında yerləşən müalicə və turizm mərkəzi Duzdağ haqqında bəzi məlumatları təqdim edirik. Burada tənəffüs yolları xəstə olan insanlar uğurla müalicə olunurlar.

Dünyada allergiya xəstəliklərinin sayının artması XX əsrin ortalarından həkimləri ciddi narahat etməyə başlayır. Uzun axtarışlardan sonra aşkar edilir ki, belə xəstəliklər duz şaxtalarında müalicə oluna bilir. 1871-ci ildə İtaliyanın Florensiya şəhəri yaxınlığındakı Toskaniya əyalətinin Monsammam yaşayış məskənində şaxta şəraitində - stalaktitli və stalaqmitli şaxtalarda revmatik poliartrit xəstələrinin müalicəsi aparılırdı. Bu qəbildən olan şaxtalar Almaniya, Macarıstan, Belarus və Ukrayna kimi ölkələrdə fəaliyyət göstərir. Belə şaxtalar karst mağaralarına çevrilir, onların mikromühiti isə kalsium ionları ilə zəngin olur.

Elə şaxtalar da vardır ki, orada natrium və xlorun ionları olan mikromühit üstünlük təşkil edir. Belə şaxtalar 1968-ci ildən Polşanın Krakov şəhərində Ukraynanın Ujqorod şəhərinin Solotvino qəsəbəsində, 1979-cu ildən isə Azərbaycana məxsus Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri yaxınlığındadır.

Fizioterapiya Mərkəzi Naxçıvanın "Duzdağ" mehmanxanasının 2 kilometrliyində yerləşir. Müalicəxananın özü yerüstü və yeraltı hissələrdən ibarətdir. Birinci hissə Duzdağda və "Duzdağ" otelində, ikinci hissə isə dağın altında yerləşir. Bu, duz mədənlərinin 2-ci əsas dağ sexinə girişdən 300 metrlik məsafədə yerləşən müalicəxana 5 qalere-

ya-lağımdan ibarətdir. Burada 128 çarpayısı olan 47 palata, kafeləri, televiziya salonu, kitabxana vardır.

"Duzdağ" otelinin müalicə mərkəzində həkimlər sizin daima xidmətinizdədir, gecə-gündüz mühafizəsi və qaldığınız nömrənin səliqə-sahmanda saxlanılması təmin edilir. Xəstələrin müalicəsi tibbi heyətin nəzarəti altında həyata keçirilir. Gündüz vaxtlarında komfortlu nömrələrdə istirahət edə bilərsiniz. Akvapark, açıq və örtülü hovuzlar, basketbol, futbol meydançaları, tennis kortları və idman-sağlamlıq mərkəzlərində stress və yorğunluqdan yaxa qurtara bilərsiniz.

Sağlamlıq ocağının bölmələri dəniz səviyyəsindən 1173 metr yüksəklikdə, Naxçıvan şəhərindən 12,2 km məsafədə yerləşən şaxtalarda, duz mədənlərinin ikinci əsas dağ sexində, girişdən 300 metrlik məsafədə, 110 metr dərinlikdə, 9 işlənilmiş əsas qatlarda fəaliyyət göstərir. Naxçıvan şəhərindən Fizioterapiya Mərkəzinə qədər məsafə 9,8 km, mərkəzdən şaxtaya isə 2,4 kilometrdir. Şaxtaların yeraltı şöbələrinin mikromühiti aşağıdakı kimidir:

1.Dəniz səviyyəsindən hündürlük – 1173 m

2.Temperatur – 18 dərəcə

3.Atmosfer təzyiqi – 740 mm c.s.

4.Nisbi rütubət – 24-50%

5.Hava hərəkətinin sürəti – 0,1m/s

6.Yüksək dispersiyalı ionlar Na-, Cl-

-xəstələr olmadıqda – 17,5 mq/m³

-xəstələr olduqda-12,5 mq/m³

7.Oksigen – 20%

8.Səs-küyün səviyyəsi-15-20 Db

9.Dəm, metan, azot qazlarının səviyyəsi – mövcud deyil

10.Gemolitik növlü mikrokoklar, kif göbələkləri yoxdur

11.Bakteriyaların miqdarı-650-850 m³ (Yerüstü səthin havasında mikrobların miqdarı 8-10 dəfə azdır).

Duzla örtülü çaylar dünyanın sirri açılmamış möcüzələrindəndir

Azərbaycanın gözəl tarixi diyarı olan Naxçıvanın rəmzlərindən biri də 90 milyon ton təbii ehtiyata malik Duzdağdır.

Azərbaycanın bu dağı təkcə şəffaf və təmiz duzu ilə deyil, həm də müalicəvi xüsusiyyəti ilə məşhurdur. Məlumatlara görə, hələ 6 min il bundan əvvəl – Nuh-Nəbi əyyamından da burada duz çıxarırmışlar. Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə uzanıb gedən "Duz yolu" dünyada məşhur "İpək Yolu"na qovuşurdı. Həmin ölkələrə duz buradan daşınırdı.

Qədim Naxçıvan diyarının ən möcüzəli yeri olan Duzdağın hər qayası, hər daşı, hər qarışında sirli və ecazkar tarixin izləri gizlənmişdir. Bu barədə çoxlu elmi və publisistik əsərlər yazılıb, lakin bu yerin sirri hələ tam açılmayıbdır. Buna görə də biz istərdik ki, füsunkar Duzdağ möcüzəsini öz gözlərimizlə görək.

Duzdağ Fizioterapiya Mərkəzi haqqında

Dünyanın bir çox ölkələri müalicə üçün "Duzdağ" sanatoriyasına müraciət edirlər. Burada bronxial-astmadan müalicə olunurlar. Bu diaqnozlu xəstələr üçün saat 17^{00}-dən sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasından Duzdağ Fizioterapiya Mərkəzinə avtobus yola düşür. Saat 18^{00}-də xəstələr yeraltı sanatoriyanın otaqlarına daxil olurlar. Onlar gecəni divarları şəffaf duzla örtülü otaqlarda keçirirlər. Səhər bu yerləri yaxşı əhvalla da tərk edirlər. Qeyd etmək lazımdır ki, bu sanatoriyaya müraciət edən xəstələrin sayı ilbəil artır.

"Duzdağ" oteli

Gözə ilk dəyən "Duzdağ" oteli olur. Dağlar qoynunda tikilmiş beşulduzlu bu otel müasirliyi ilə seçilir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən açılmış bu oteldə həm xəstələr qalır, həm də turistlər istirahət edirlər.

Otel zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir və o, qonaqların istirahəti üçün hər cür şəraitə malikdir.

Yeraltı Duzdağ FizioterapiyaMərkəzi

Bu dağlıqda, təqribən, 2-3 kilometrlik məsafəni qət edən adam duzun iyini hiss edir.

50 çarpayısı olan Duzdağ Fizioterapiya Mərkəzi 1979-cu ildən xəstəxana kimi fəaliyyətə başlayıb. 1980-ci ildə çarpayıların sayı 100-dək artırılıb.

Yeraltı müalicə mərkəzi girişdən 300 metrlik məsafədə 110 metr dərinlikdə yerləşir.

Burada qadın və kişi palataları, bir uşaq otağı və bir istirahət foyesi fəaliyyət göstərir.

Yeraltı duz layının qalınlığı 8,2 metrdir, havanın temperaturu 18-20 dərəcədir, havanın rütubəti isə 24-50 faiz arasında dəyişir.

Dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşən Duzdağ Fizioterapiya Mərkəzində duz təbəqələri arasındakı havadakı oksigen 20 faiz təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkən insanlar üçün təbiətin bəxş etdiyi ən yaxşı məlhəmdir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin minerallar ağciyərləri müalicə edən hava yaradır, o da bronxial-astma və xroniki xəstəliklərin müalicəsində mühüm rol oynayır.

Qeyd edək ki, burada hər arzu edən xəstə müalicə ala bilər. Amma müalicə kursları müxtəlifdir. Belə ki, uşaqlar 12-15, yaşlılar 14-18 gün yerin altında qalıb müalicə olunurlar. Burada ilin bütün fəsillərində müalicə qəbul etmək olar.

Duz mədənləri

Naxçıvan duzu dəniz duzundan fərqlənir. Əsl Naxçıvan duzu ekoloji cəhətdən təmizlənir, tərkibində ağır minerallar

yoxdur və bir çox xəstəliklərin dərmanıdır. Naxçıvan duzunun tərkibindəki maqnezium ürək-damar xəstəlikləri olan insanların ondan istifadə etməsinə imkan verir.

Duzdağ yatağını istismar etməyə insanlar hələ eradan əvvəl üçüncü minilliyə qədər başlamışdılar. Bu diyarda indiyə kimi qədim dövr şaxtaları qalmaqdadır. Orada duzu əllə çıxarır və atlarla daşıyırdılar.

Duzdağda duzun sənaye üsulu ilə əldə edilməsinə 1927-ci ildən başlanılmışdır. 90 milyon ton təşkil edir. Burada illik istehsal 6-8 min tondur.

Duzun çıxarılması

Yataqlardan duz qazma üsulu ilə çıxarılır. Əvvəlcə yeraltı tunel qazılır, sonra dinamitlə partladılır. Partlayışdan əmələ gələn duz parçaları kiçik vaqonlara yığılaraq yer səthinə çıxarılır. Burada o, növlərə ayrılır və işlənilir.

Qeyd edək ki, istifadə olunan tunelin uzunluğu 1500 metrdir. İşlənilmiş duz kristal və üyüdülmüş formada satılır. Sexlərdə üyüdülmüş bir ton duza 66 qram yod əlavə edilir. Bu, qalxanabənzər vəzin xəstələnməsinin qarşısını almaq üçün edilir.

Duzdağın görünməyən tərəfləri

Duzdağın yamacları ilə dolaşarkən dağın füsunkar təbii gözəlliyi insanı valeh edir. Enişli-yoxuşlu yolarla aşağı düşərkən fikirləşirsən ki, görəsən, bizi daha nələr gözləyir?

Günəş şüaları altında torpağın, duz kristallarının rənglərinin sayrışması gözlərimizi qamaşdırır və bizi daha da həyəcanlandırır. Günəş şüaları altında rənglərin dəyişməsindən əmələ gələn naxışlar öz cəlbediciliyi ilə böyük bir xalını xatırladır. Boz, qəhvəyi, qırmızı, qumlu və gilli libası ilə yer öz bətnində minlərlə sirlər və xəzinələr gizlətməkdədir. Addımladıqca ayaq altında xırçıldayan qum, duzdam çatla-

mış yer mənə qış günlərini, ayaq altda qalmış qarı xatırladır. Piramidaya və kurqana bənzəyən bu minillik tarixə malik dağ öz şöləsi ilə neçə-neçə görünməmiş, haqqında eşidilməmiş sirləri işıqlandıracaqdır. Bizim də "yeməyimizə duz səpəcək" – yazılı səhifələrimizə çevriləcəkdir. Rastlaşdığımız onlarla daş bizə bu dağın qədim mədəni abidələrindən xəbərlər verəcəkdir.

Dünyanın qəribə möcüzələri haqqında

"Bunun özü də dünyanın qəribə möcüzəsidir". Soyuq qış günlərində biz buz bağlamış çoxlu çaylar gprmüşük. Lakin heç zaman "duz bağlamış", yəni duzla örtülmüş çaylar barəsində eşitməmişik. Belə fikirdəyik ki, heç siz də bu barədə bir şey eşitməmisiniz. Elə isə Naxçıvana gəlin və onları öz gözlərinizlə görün. Görün ki, duzla örtülmüş, duza bülənmiş bu çaylar və şəlalələr qarşısında insanı necə heyrət bürüyür. İnsan bu yerlərin əsrarəngiz gözəlliklərindən, bu vaxtacan görmədiyi və haqqında eşitmədiyi möcüzələrindən ayrılmaq istəmir.

Qeyd edək ki, bu ərazidə duzla örtülü 10-a qədər çay vardır. Onların hamısı öz başlanğıcını Duzdağdan götürür.

Azərbaycan sivilizasiyasının tarixi diyarı və beşiyi olan Naxçıvan "Badamlı", "Sirab", "Vayxır" kimi müalicəvi suları ilə də tanınır. Növbəti məqalədə bu mövzunu işıqlandıracaq və sizə ətraflı məlumat verəcəyik.

Özbəkistanın "Podrobno.uz" informasiya portalı
21 aprel 2015-ci il
"Şərq qapısı" qəzeti, 29 aprel 2015-ci il

DUZDAĞ ODASI

Qabil
Xalq şairi

DUZ

Duz!
Hər yerdə dolu,
Hər şeydən ucuz.
Ucuzdur iynədən-sancaqdan,
Düymədən, daraqdan,
Acı siqaretdən,
Şit qaletdən.
Duz!
Qışda-qarda
Duzdan baha olur.
Bir parça
Buz...
Qonşudan duz istəyəndə
Adam utanmır heç,
Rişxənd ediləcəyinə
İnanmır heç.
Duz üstündə heç kimin
Tamahı sürüşməyib.
Duz üstündə bir kişi
Bərkə-boşa düşməyib.
Duz,
Duz,
Duz!
Hər yerdə dolu,
Hər şeydən ucuz...
***
Naxçıvanda bir gün

Guya vaxtı öldürmək üçün
Məni duz mədəninə apardılar.
Elə bil qar yağmışdı
Narın qar...
Duz
Tapdalanır,
Xırçıldayırdı
Ucuz-ucuz...
Torpağın böyük neməti,
Həyatın əbədi ehtiyacı
Zərurəti-
Çörəyin duzu,
Sözün duzu
Bu – məcazi mənasıdır hələ
Duzun-
Hər şeydən ucuzun.
Brilyanta bərabər
Kristal, ağ danələr!..
Duz-
Başa gəlmirdi rahət,
Asudə, ucuz!..
İnsanlar tər tökürdü, tər.
Nərəçəkirdi maşınlar – nəhənglər.
Ciyərlərə toz yatırdı.
Ciyər,
Nəfəs,
Ömür-insan baha...
Duz-ucuz!
Uzanırdı uzaqlara
Kanatlar.
Vaqonetkalar axırdı

Qatar-qatar,
Toqquşurdu bəzən.
Qəfil göy gurultusundan
Diksinən kimi olurdum mən.
Nəçətin iş, nə ağır zəhmət!
Nə böyük sərvət.
Duz!
Bir stəkan qazlı sudan
Ucuz!..
Yerin altına endik,
Ora döndük, bura döndük.
Şaxtalar şaxələndi,
Başımızda duz ələndi.
Ətraf ləl-cəvahirdi,
Daş-qaşdı.
Dörd dövrəmiz işıq saçan
Sehrli daşdı.
Duz,
Duz,
Duz,
Dərinlərə getdi yolumuz,
İnsanlar layları yarırdı,
Külçələr qoparırdı.
Üst qatlar
Onların çiynində tutmuşdu qərar.
Parıltıdan göz qamaşırdı.
Təzyiqdən
Nəfəs daralır,
Hava sıxlaşırdı.
Kompressorlar axın verirdi
Hər an.

Durulur, coşurdu qan.
İnsanlar mərd, yorulmaz, qoçaq,
Yerin üstü də ağ,
Yerin altı da ağ.
Duz,
Duz,
Duz,
Bahadır, qiymətlidir
İnsanın zəhməti kimi.
Boldur-
Geniş ürəklərin
Səxavəti kimi.
Hər yerdə dolu,
Hər şeydən baha,
Hər şeydən
Ucuz!
Duz!

Seçilmiş əsərləri. Bakı, 1966

Fikrət Qoca
Xalq şairi

DUZDAĞ HAQQINDA
(Zarafatla)

Mən dünyanın
dörd qitəsini dolanmışam –
Soyuğuna donmuşam,
İstisinə yanmışam.
Dağlar görmüşəm
Qucağında göl,
Başında qar,
Ətəyində gül.
Dağlar görmüşəm
Əyri, köndələn, düz dağ.
Amma burda – Naxçıvanda
Duz dağ görmüşəm – Duzdağ.
Əlini at,
Bir ovuc götür dağdan
Qazana at,
Dad verəcək, dad
bozbaşına.
Bəli, bir nəhəng dağ
Dönüb duz olub
Özüözbaşına.
Mənim də ağlıma
Qəribə fikir gəlir...
Şəhərdə o qədər
duzsuz adam var,
Şit-şit danışır, gülür.
Bəlkə bunları

Duzdağda duza qoyaq?!
Yox əşi, dağ yazıqdı,
Bu cür duzlu dağa necə qıyaq?!
Ağır dərddi, duzsuz bəşər –
Duzdağ özü dəşitləşər.

DUZDAG HAQQINDA

(Ciddi)

Nəfəsi çatmayanlar –
Nəfəs ala bilmədiyinə
boğulub yatmayanlar;
Bu dağın içində
mışıl-mışıl
Yatır, dincəlir.
Hər yandan insanlar
Duzdağa nicata gəlir.
Duzdağın məlhəm havası
Çəkir insanı qoynuna,
Hopur adamın dodağına,
nəfəsinə, qanına –
Arxayınlıq verir adamın canına.
Amma bilmirəm əlac eylərmi
vicdansızların vicdanına?!

DUZDAĞ HAQQINDA

(Zarafatla)

Duzdağ
Həm də daz dağdı.
Duz üstə ot bitməz –
Bu danılmazdı, -
Duzdağ ona görə dazdı.
Bir fikir gəlib ağlıma
Deməsəm ölərəm,
Desəm anam ağlar qalar.
Duz deyil, niyə dazdı
Naxçıvanda o biri dağlar?
Bəlkə qızıldı?
Qızıl üstündə də ot bitmir.
Qızıldırsa qoy dursun,
İtmir, batmır.
Bizim Çingiz Abdullayev də dazdı,
Amma Duzdağ deyil.
Dilimi bir söz dalayır.
Nə zamandıÇingiz qələmiylə
Qızıl xırdalayır,
Xırd eləyir.

"Ədəbiyyat qəzeti"
7/VIII-2009, № 30(3677)

İslam Səfərli

NAXÇIVANIN DUZU, QIZI, QARPIZI...

Haça dağdan günəş qalxır, baxıram,
Yaylaqların sinəsinə qalxıram.
Tunc zirvələr sıx dumana bürünür,
Boz sürülər yamaclarda sürünür.
Gəlin gəzək, bu da yaxşı güzərdir,
Mələşsə də kərə qoyun, ağ quzu,
Məncə bundan daha xoşdur, gözəldir,
Naxçıvanın duzu, qızı, qarpızı.

Bura mənim öz yurdumdur, elimdir,
İlk baharın məxmər teli telimdir.
Xəzinədir qara torpaq sinəm tək,
Qaranquşlar nəğmə deyir gülərək,
Dad versə də arx üstündə arabir –
Pendir-çörək, yanında da qarpızı;
Ancaq bundan düzü min qat gözəldir
Naxçıvanın duzu, qızı, qarpızı.

Yayı burda olmusanmı, desənə -
Gün qalxanda günortanın yerinə?
Boz düzlərdə ilqım ləpə vuranda,
Xan çinarın kölgəsində bu anda
Bəd olmayır, əşi, aləm düzəldir –
Ağ ayrana sən qatanda sal buzu,
Bəs atalar necə deyib? – Gözəldir
Naxçıvanın duzu, qızı, qarpızı.

Qaş qaralıb hamı kəndə döndümü,
Üfüqdəki son şəfəqlər söndümü–
Yanmır zəif işartılı lampalar,
İndi burda min kəhkəşan nuru var,
Əməlimiz min qığılcım közərdir,
Eşqimizlə yanır yerin ulduzu.
Ancaq bundan sanmayaq az gözəldir,
Naxçıvanın duzu, qızı, qarpızı!..

Seçilmiş əsərləri. "Lider nəşriyyat", Bakı, 2005

Hüseyn Razi

DUZ DAĞI

Qranit divarlar zərif, cilvəli,
Lağımlar get-gedə düşür dərinə.
Qayalar söykənib Antey cüssəli
Fərhad oğulların çiyinlərinə.

Qüvvətli partlayış... qopur zəlzələ,
Sədəf suxurlardan gümüş sel gəlir.
Gərilmiş qollarla, əzələlərlə
Dəfinə gizlədən dağ xəlbirlənir.

Yaqut sütunlardan sal qıra-qıra
Silir qazmaçılar duzlu tərini.
Onlar şair kimi duzlu daşlara
Yazır duz şəfəqli əsərlərini.

Polad dəbilqələr yanır işıqda,
Dağın laylarını baltalar yarır.
Onlar bu görkəmdə, bu yaraşıqda
Ən gözəl sənətin qanadlarıdır.

Bürünüb gur saçlar gümüşdən tülə,
Biləklər, çöhrələr şoran bağlamış.
Heyif ki, onları qələmim hələ
Duzlu misralara sığışdırmamış.

Qəndillər göz qırpır, tunellər uzun,
Sanki cığırlardan axır nur seli.

Dağın özülündən çağlayan duzun
Görünmür dəniztək sonu, sahili.

Yarış bayrağı var girəcəyində
Maşınlar hay çəkib haray qoparır.
Zəhmət qaynadıqca coşur dərində,
Qatarlar dağlardan sərvət aparır.

Oğullar andıqca dağın varını
Mirvari naxışlı bir çələng kimi,
Tükənməz cəvahir yataqlarını
Düzür süfrələrə duz-çörək kimi.

Dönsün duz dağına ömür dağınız,
Duz kimi parlatsın şöhrətinizi.
Sizin yer altında ucalmağınız
Uca zirvələrə qaldırır bizi.

1977

"Ayrılmaram", "Yazıçı", Bakı, 1981

İsa Həbibbəyli

DUZDAĞ ODASI

Duzdağ –
Silsilə təpələrin dibinə
Nuh peyğəmbərin çəkdiyi arx.
Daş baltalar –
Daş çapacaq.
Oyacaq, qazacaq,
Baş tapacaq.
Duz dağının divarları –
Gümüş rəngli bıçax.
Duzdağ mağaraları –
Daş dövründə
İlk oturacax.
Duzdağ –
Yerin təkində həyat,
Davam edən çarx.
Duz çaylar –
Duzdax Atanın
Alın təridi.
Duzdax Ananın
Ağarmış hörükləridi.
Yer üzündə bu ilkdi,
Kəmikdən axan ilikdi.
Coğrafiyanın nadir hadisəsidi,
Qeyri-adi bilikdi.
Duzdağ –
At belində yəhərdi,
Qədim ilkin şəhərdi.

Duzdağ –
Qonur rəngləri
Közərən ocax.
Sərvəti qucax-qucax.
Duzdağ –
İçi dümağ,
Duz dağ.
Sərin, buz dağ.
Çölü yüz dağ,
Təpə dağ,
Duz dağ.
Duz –
Mağaraların damında
Sayrışan ulduz.
Qar qız,
Tumturş yarpız.
Ha saxla
Solmaz.
Su kimi çalxala,
Min dəfə yoxla,
Onsuz heç nə
Qalmaz,
Olmaz ki, olmaz!
Həyatın dəyişməz dadı.
Duzdur adı,
Düzdür adı.
Təpələr –
Torpağa batmış dəvələrin
Hürküclərіdi.
Üstündəki teleqüllə –
Gəmiqaya rəsmlərindən qopmuş

Qədim insanlardan biridi.
Danışır, – diridi!
Babalardan sabaha
Bəşəriyyətin
Xitabət yeridi.
Duzdağ –
Bir də bax:
Hər an,
Ulu torpağa ərməğan!
Duzdağ –
Boylan, qalx:
Naxçıvanın yaxasında
Kilimə oxşayan
Gəbədi.
Duzdağ –
Kanat yollarla
Nuh peyğəmbərin
Tükənməz duz səbəti.
Duzdağ –
Əbədiyyət söhbəti!

Astana – Bakı
29-30 iyun 2015-ci il

Əliyar Yusifli

BU DAĞLARIN FƏRHADISAN, SEVİNDİK!

Adlı-sanlı qazmaçı Sevindik Novruzova

Duz dağları dayanıbdır yan-yana,
Sal qayalar kəhrəbadır boynuna.
Hər külünglə yol açılmaz qoynuna,
Bu dağların Fərhadısan, Sevindik!
Bu çağların Fərhadısan, Sevindik!

Ürəyində məhəbbətin odu var,
İgidlikdir səndən elə yadigar.
Əllərinlə parçalanır qayalar,
Bu dağların Fərhadısan, Sevindik!
Bu çağların Fərhadısan, Sevindik!

Süfrələrin bəzəyidir zəhmətin,
Çörək kimi müqəddəsdir nemətin.
Eldən-elə qanadlanır şöhrətin,
Bu dağların Fərhadısan, Sevindik!
Bu çağların Fərhadısan, Sevindik!

Elman Həbib

DUZLU UŞAQLAR

(Poema)

1

Bu yol gedir düz dağa,
Boz zirvəsi biz dağa.
Bu yol adi yol deyil,
Bu yol gedir Duzdağa.

Duzdağın duzu daşdır,
Maşınlar doldu, daşdı.
Dağlar ilə oğullar,
Elə bil ki, qardaşdı.

İldırım çaxdı, nədir?
Bu uçan dağdı, nədi?
Köpükləndi dağçayı,
Duz çayı axdı, nədi?

2

Yer altında dəmiryol,
Dəmiryolda vaqonlar.
Səhərdən axşamadək
Duz daşıyırlar onlar.

Yol gedirik, yolumuz,
İşıqlıdır çöl kimi
Hər yanımız parlayır,
Gözəl, büllur göl kimi.
Başımız üstündə duz,
Bərq vurur ulduz kimi

Ayağımız altda duz
Xışıldayır buz kimi.

Yer altında dəmiryol,
Yer altında qoşa yol.
Biri dolu, biri boş,
Biri yığıb aparır,
Biri töküb qaytarır.
Şaxtaçıəməyini
Elə, obaya yayır.

Dağ içində yoxuş var,
Dağ içində eniş var.
Bizi dağın təkinə
Çəkib aparır onlar.

3

Baxırıq hər tərəfə,
Əfsanədi, nağıldı.
Qəfil partlayış oldu,
Xəyalımız dağıldı.
Məlikməmməd qopardı,
Deyən divin başını.
Div qayalar qurtardı
Onunla savaşını.

Durduq keçid yolunda;
İki şaxta birləşir.
Vüqar deyir ki, burda
Mənim əmim dağ deşir.
Bir quş uçdu şaxtada,
Lap üzümü yaladı.

Yoxsa Simurq quşudu
Quyruğu da aladı?
Ay mənim Simurq quşum,
Əl-ayağı duz quşum.
Apar məni dərinə
Fəhlələrə qoşulum.

Mindik qanadlarına,
Çox idik, otuz idik.
Elə bil ki, belində
Bircə ovuc duz idik.
Endirdi yerə bizi,
Düz dibindəşaxtanın.
Bir kişi oturmuşdu
Üstündə duz taxtının.

Saqqalı duz kimi ağ,
Kirpikləri ağappaq.
Görcək ayağa durdu
Sanki bizik uca dağ.

Dedi xoş gəlmisiniz.
Bu yerin altına siz.
Deyin, darıxmırsınız,
Havasız və günəşsiz?

Günəş yadıma düşdü,
Boylandım göyə sarı.
Xoş gəlmisən söylədi,
Yenə də duz sallardı.

Bura necə sərindi,
Şaxta yaman dərindi.
Yer altında işləyir
İgid oğullar indi.
Günəş adı gələndə,
Günəş yadıma düşdü.
Kimsə bir sal duz atdı
Gəlib yanıma düşdü.
Təzə yağmış qar kimi,
Göz vururdu o mənə.
Deyirdi günəş kimi
Su kimi, hava kimi.
Mən də lazımam sənə.

Ucuzsa da qiymətim,
Ağızların tamıyam.
Su kimi, hava kimi,
Lazımam mən hamıya.

Susdum önündə onun,
Qurudu dodaqlarım.
Hiss etdim ki, az qala
Alışır yanaqlarım.

Yaladım dodağımı,
Duzlanmışdı o ki var.
Kimsə kənardan bizə
Dedi: duzlu uşaqlar.

Duz dağında doğulub
Duzlu bala olmuşam,

Barmağımı yaladım,
Lap duzdan yoğrulmuşam.

Şaxtaçıəmilərin,
Qonağıyıq bu gün biz.
Deşici Əhməd əmi,
Kompressorçu Əziz.
Qazmaçı Dağbəyi də,
Vüqar ilə danışır.
Deyir ki, düz beş ildir
Həsən ilə yarışır.

Yarış qabaqcılıdır,
Vüqarın atası da.
Neçə ildir işləyir,
Həsənin şaxtasında.
Nahar fasiləsini,
Biz bir yerdə keçirdik.
Pomidor dişdəminə,
Tez-tez də duz səpirdik.

Yaxşı ki biz duz dağa,
Səfər etmişdik bu gün.
Yoxsa duzsuz qalardıq,
Unutmuşduq biz bütün.

Otuz uşaqdan biri,
Düşünməyib bu haqda.
Axı nə düşünəcək
Duz nəçoxdur, Duzdağda!

Məlikməmməd oğullar,
Dağın bağrını dəlir.
Vaqonlar dolub gedir,
Maşın boşalıb gəlir.
Sona çatır iş günü,
Axıb gedir duz seli.
Naxçıvanın daş duzu,
Gəzir obanı, eli.
Vaqon boşaldı getdi,
Maşınlar doldu getdi.
Növbədən çıxan fəhlə,
Dağı soyundu getdi.

"Duzlu uşaqlar", Bakı, "Gənclik", 1983

Asim Yadigar

NUHUN YADİGARIDIR NAXÇIVANIN DUZDAĞI

Hər daşıəfsanədi,
Bir sehirli nağıldı.
Bu yerin xoş sədası
Hər bir yerə yayıldı.
Yaxın, uzaq ellərdən
Gəlir səsi-sorağı,
Nuhun yadigarıdır
Naxçıvanın Duzdağı.

Görəni ovsunlayır
Ağ, büllur "otaqları".
Çiynində saxlar ərlər
Anteytək bu dağları.
Sönməyib beş min ildir
Haqdan yanan çırağı,
Nuhun yadigarıdır
Naxçıvanın Duzdağı.

Dağlar müdrik qocadır –
Alnı qırış, qırışdır.
Sənə min sirr söyləyər
Yaxın gəl, bir danışdır.
Heyran qoyub həmişə
Bura gələn qonağı,
Nuhun yadigarıdır
Naxçıvanın Duzdağı.

Bu sehirli dağların
Sirri var, yaddaşı var
Onun beş mindən artıq
Tarixi var, yaşı var.
Boylanır Duzdağına
O yandan Ağrı dağı,
Nuhun yadigarıdır
Naxçıvanın Duzdağı.

Naxçıvan, 2012

Vaqif Məmmədov

«DUZDAĞ ŞEİRLƏRİ» SİLSİLƏSİ
DUZDAĞ MAĞARASINDA

Bu nə sirli aləm,
bu nə möcüzə?
Yuxudan hər tərəf
erkən oyanıb.
Duz yağıb elə bil
yollara-izə,
Divar da, tavan da
duza boyanıb....

Sanki, sal duzların
yeddi rəngi var.
Duzdan eşidirsən
yeddi not səsi...
Elə bil divarlar
duz salxımıdır,
Göylərdən sallanan-
duz şəlaləsi....

Nuhun yaşındadır,
müqəddəs, ulu...
Tarix öz yaşını
itirmir, atmır.
Yeraltı dünyadır,
möcüzə dolu,
Təkcə qara qoçla,

ağ qoçu çatmır...
Nəfəsi təngiyən,
səbri tükənən
Həyata bağlanar,
dinər burada.
Yaşamaq eşqiylə
bura gələnin
Ömrü düz dağına
dönər burada...

«DUZDAĞ» OTELİ

Yollar da büründü çiçəyə, gülə,
Çəkildi qaranlıq, hər yer dan oldu.
İnsan zəkasının qüdrəti ilə
Yovşan bitən yerlər gülüstan oldu...

Karvanlar gedərdi dəstəbədəstə,
Yolların yadında bu, belə qalıb.
Təklikdən darıxan Duzdağın üstdə
İndi Beşulduzlu otel ucalıb...

Günəşə boylanan bu ehtişamın
Uca zirvəsindən yer az görünür.
Günçıxan səmtində ulu Hacadağ
Bir də ətəyində Araz görünür.

Gündüzü günəşli, axşamı mehli,
Gecəsi apaydın, ulduzlu məkan.
Sal daşı qürurlu, çiçəyi şehli,
Həm sözlü, tarixli, həm duzlu məkan...

Sərin meh qapını döyər bu yerdə,
Dərəsi, təpəsi, düzü müqəddəs.
Çörək kəsməyinə dəyər bu yerdə,
Çörəyi müqəddəs, duzu müqəddəs...

DUZDAĞ ETÜDLƏRİ

Bu mağara nənələrin təndiri,
Boz təpələr elə bil ki, kündədir.
Sıra dağlar karvan kimi düzülüb,
Hacadağ da sarvan kimi öndədir...

***

Nehrəm ən qeyrətli, ən mətin diyar-
Həmişə qürurlu, gözü tox olub.
Nehrəmin çox duzlu lətifəsi var,
Bəlkə də yaxındı, duzu çox olub?...

***

Müqəddəs Duzdağın, ulu Duzdağın
Adını adlardan seçirik indi.
Bir vaxt qəflə-qatır yolu Duzdağın,
Üstündən «Boinq»lə keçirik indi...

DUZDAĞ BAYATILARI

Müqəddəs, ulu Duzdağ,
Keçmişin yolu Duzdağ.
Min illəri yaşadır,
Tarixlə dolu Duzdağ.

O zirvənin qaşıdır,
Yağışlar göz yaşıdır.
Sıra dağlar bir üzük,
Duzdağ onun qaşıdır.

Salların kəmi qaya,
Saxlamaz nəmi qaya.
Bir tərəf Ağrıdağdı,
Bir yan da Gəmiqaya.

Söyləyin, yenə gəlsin,
Dumana, çənə gəlsin.
Duzsuzlar gəlsin bura,
İmana, dinə gəlsin...

Nəğmə burda, söz burda,
Ocaq burda, köz burda.
Bu məkana tay hanı?-
Çörək burda, duz burda...

DUZDAĞIN DEDİKLƏRİ

Qərinələr yol eyləyib
Bu torpağım, daşım üstdən.
Çox tufanlar, çox küləklər
Əsib keçib başım üstdən.
Neçə-neçə minillərin
Ocağımda közü qalıb.
Daş dövrünün, tunc dövrünün
Sinəm üstə izi qalıb.

Əsrləri yora-yora,
Varlığımı qorudum mən.
Yovşan kimi saçlarımı
Küləklərlə daradım mən.
Milyon illər yaşanıbdır
Yetişincə mənə qədər.
Sal duzlarım daşınıbdır
Hindistana, Çinə qədər.
Zaman-zaman öz varımı
Gələcəyə daşıdım mən.
Haçadağla, Əlincəylə,
Araz ilə yaşıdam mən...

Naxçıvan, 2012

Muxtar Qasımzadə

DUZDAĞIN FƏRHADLARI

(poema)

Ovuşdura-ovuşdura
Günəş qızıl kirpiyini
Qondu bomboz bir zirvəyə.
Boz dərələr ətəyini
açdı göyə.
Boz zirvələr birdən-birə
buza döndü nəzərimdə
donub qaldım öz yerimdə.
Buz salları
başım üstdən sallanırdı.
Bu buzların üzərində
al günəşin odlu-odlu
barmaqları dolanırdı.

ÇAĞIRIŞ

Yer altında bir dünyavar
səsləyirəm, çağırıram
gəlin ora.
Nə dünyadır
görün ora, bilin ora.
O elə bir dünyadır ki,
orda əmək ulduz olub
şan-şöhrəttək
adamların döşündədir.

Orda günəş, orda həyat
insanların işindədir.
O, elə bir dünyadır ki,
havası duz, səması duz,
hər yanı duz.
Sərvəti də elə duzdur,
şöhrəti də elə duzdur.
Əsrlərdən qalıb Duzdağ
Daş kahalar deyir bunu.
Uçqunlardan beli sınan
duz zağalar deyir bunu.
Çox qədimdən bu torpağa
şöhrət verən
bol sərvətlər deyir bunu.
Kişilərin
axırıncı zərbəsindən
yerə girən
daş alətlər deyir bunu.

TUNELLƏR-OĞULLAR

Qayğı dolu sədaların
beşiyidir ürək burda.
Nə gücü var qayaların,
poladdandır bilək burda.
Matorların səsinə bax,
-0-
Min səs udur, səs əridir.
Duz daşları qalaq-qalaq
elektrik şəridində

axıb gedir.
Yer altından yer üstünə
Qaya-qaya duz tökülür.
Fəhlələrin üzü gülür.

-0-

Lampaların gur işığı,
ziynətlidir yer altında,
Günəş qədər qiymətlidir
yer altında.
Neçə növbə yola salıb,
Gecə-gündüz
Bu lampalar alovlanır,
hər fəhlənin başı üstdə
Bir ulduzdur, sanki yanır.

SEVİNDİK

Başındakı dəmir papaq
sal duzlara bir qalxandır.
Zəhmətiylə şöhrətlənən
mərd insandır.
Duruşuyla Koroğluya,
Külüngüylə nə Fərhada
oxşarı var.
Onun da öz vüqarı var.
Bir igiddir,
Qayaların arasında
qayaların biləyini
bükə bilir.
Yer altının

sərvət dolu ətəyini
sökə bilir, tökə bilir.
Dağlar uçub tökülürdü
zərbəsindən.
Duz qarışıq tər axırdı
çöhrəsindən.
O sarışın gur saçları
Qarışmışdı bir-birinə
mükafatı misra-misra
yazılmışdı əllərinə.
Şaxta –sanki
duz yüküylə dolu gəmi,
sükançısı o, özüdür.
Aydın, şəffaf tunellərin
bələdçisi , özülüdür.

PARTLAYIŞ

Sıldırımdan bir səs düşdü
başım üstə
ehey-ehey!..
Ay Sevindik!..
Zirəng, çevik bir qazmaçı
Səs dalınca
qaça-qaça
gəlib çıxdı yanımıza.
Yaxasının qatlarında
duz tozları ağarırdı.
O, gəlmişdi Sevindiyi
yeni süxur partladılan
ön sahəyə çağırırdı...

Yer altının qəhrəmanı
yerə qoyub duzqıranı
gəlib çıxdı ön sahəyə.
Şaxtaçılar Sevindiyin
tez başına yığışdılar.
Düşündülər, danışdılar
Sorğu-sual oldu yenə,
diqqət ilə o, yoxladı
hər tərəfi dönə-dönə.
Məsləhətlər verdi bir az
Dedi:-dostlar, belə olmaz
doqquzuncu şnur gərək
iki qarış artırıla...
Duz qatının son damarı
tez qırıla.

-0-

Dik atıldı dağlar birdən,
İnsan coşdu bu hünərdən.
Yer altında şimşək çaxdı
Duz gürşada dönüb axdı.
...Şoran tutmuş əlcək ilə
Alnındakı duzlu təri
silə-silə,
Gözü gülür Sevindiyin.
Naxçıvanın büllur duzu
Töhfə olub eldən-elə,
Neçə alim, neçə fəhlə,
neçə şair süfrəsində
Duz-çörəyə çevriləcək.
Xoş diləyə çevriləcək...

-0-

Səhraya qalanan duz dağına bax,
Duzlu dərələrdə dayanmışam mən.
Dağları əynimə geymişdim bayaq,
Dağları əynimdən soyunmuşam mən.

-0-

Cığırlar enirlər geniş düzlərə,
Cığırlar gətirib ötürür məni.
Cığırlar qayıdır geniş düzlərdən,
Haylı-küylü yola gətirir məni.

-0-

Baxıram uzaqda bozaran dağa,
Adicə qayalar, adicə daşlar.
Tutar məhəbbətə, mehribanlığa
Qoynuna girəni duzla qarşılar.

-0-

Tunc kimi zirehli görkəmi ilə
Fəhlələr orada bir dağ görünür.
Əmək yarışından, iş yarışından
Ürəklər sevinir, qəlblər öyünür.

-0-

İnadla dağların qoynuna girib
Şaxtadan-şaxtaya yol salır onlar
Yerin qatlarında hünər göstərib,
Zirvədən-zirvəyə ucalır onlar.

«Şərq qapısı» qəzeti,
28 iyun 1974-cü il

DUZ SARAY

Qədim bir şaxtada gördüklərim

O möcüzə təbiətin deyil, yox
O, insanın əllərilə yonulmuş.
Divarı duz, tavanı duz, yeri duz,
Dörd bir yanı pilə-pilə yonulmuş.
Fəvvarədir büllur, bəyaz sütunlar
Hörüklənib qatar-qatar elə bil.
Qübbəsindən nur tökülür o ki, var,
Salxımları çil-çıraqdı, duz deyil!
Yüz illərdi, min illərdi eləcə
Duz-qurumlar pərdələyib qapını.
Himə bənddir, nəfəsinə səs dəyə
Tökə bilər salxımını, camını...
Daş aləti, duz aləti yerində
Şaxtalarda əmanətdir Duz saray.
Dünənimdən bu günümə xatirə,
Otaq-otaq həqiqətdir Duz saray.
Yer altında ilmələnib, tellənib
Babaların əməlləri, izləri.
Oyma-oyma, burum-burum güllənib
«Divanları», «kürsüləri», «mizləri».
Qoy hər yanda eşitsinlər adını
Günbatanda, gündoğanda desinlər.
Sarayların ən gözəli, xatını
Naxçıvanda –Duz dağında desinlər.

«Yaddaş çırağı» kitabı, Naxçıvan, «Əcəmi», 2000

İlyas Fərəməzoğlu

NAXÇIVANIN DUZDAĞI

Naxçıvandan aşağı,
İpək yolunun üstə.
Vardır şəfa ocağı,
Orda nə qədər xəstə.
Xəstələr bu məkana,
Gəlirlər dəstə-dəstə.
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.

Bu dağların qoynunda,
Neçə cavan ər yatır.
Sabaha ümid verən,
İşıqlı səhər yatır.
Şəfalı dağlar altda,
Sehirli şəhər yatır.
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.

Göz oxşayır bu məkan,
Tərifi çatıb göyə.
Loğmanlığı yayılıb,
Kəndə, şəhərə, köyə.

Gəlir bura xəstələr,
Dizinə döyə-döyə
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.
Yurdumun kitabəsi,
Yazılıbdı daşlara.
Nəqqaşların əlilə,
Qazılıbdı daşlara.
Sağalmayan dərdlərə,
Burda tapılıb çarə.
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.

Önümdə kağız-qələm,
Xəyallara dalmışam.
Gücümü, qüdrətimi,
Tarixlərdən almışam.
Mehri-məhəbbətimi,
Vətənimə salmışam.
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.

Məna dolu məkanın,
Havası, suyu baldır.
Məkanını sevməyən,

Demək ağıldan kaldır.
Şair qardaş yubanma,
Sən də səsini qaldır.
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.

Dan sökülür uzaqda,
Yanır göylərin şamı.
Sübhün sabah toranı,
Yola salır axşamı.
Günəş çıxır taxtına,
Sevinir buna hamı.
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.

Sanki gözüm önündən,
Keçir dəvə karvanı.
İnsanların səs-küyü,
Götürübdü hər yanı.
Bir kimsə poza bilməz,
Tanrı verən fərmanı.
Hər kəs ziyarət edir,
Bu şəfalı ocağı.
Bu yerin tək adı var,
Naxçıvanın Duzdağı.

12.03.2012

Zaur Vedili

HƏR DAŞINDA ƏSRLƏRİN İZİ VAR

Hər daşında əsrlərin izi var,
Möcüzələr adasıdır Duz dağı.
Xəstə canı gümrah edir həmişə,
Min bir dərdin davasıdır Duz dağı.
Ağ kəmərdi Naxçıvanın belinə,
Adı düşüb bütün elin dilinə,
Bənzəri var ağ örpəkli gəlinə,
Gözəlliyin aynasıdır Duz dağı.
«Ömrün dönsün Duz dağına» kəlamı,
Nurlu yola yolçu edir adamı.
Duzsuz olmaz süfrələrin heç tamı,
Ataların duasıdır Duz dağı.
Nuh yurdudur, dünya qədər var yaşı,
Xəzinədir qoynunun hər qarışı,
Həm loğmandır, həm dərmandır hər daşı,
Xəstə qəlbin şəfasıdır Duz dağı.
Zaur, bizə o, Tanrıdan paydır, pay,
Hansı dağı tutmaq olar ona tay?
Bəlkə ondan öz nurunu alıb Ay?
Yerin-göyün ziyasıdır Duz dağı.

Abbasqulu Mirzəyev

ŞAXTAÇILAR

İşıqlı şaxtalarda kükrəyən həvəs ilə,
Hünərlə keçirirsiz ömrün bahar çağını.
Adınız fərhad kimi düşdükcə dildən-dilə,
Ruhlanıb unudursuz canınızda ağrını...

Sevdiyiniz bu işi gözləriniz alıbdı.
Qulağınız alışıb dinamitin səsinə.
Sizinlə ilk görüşüm qəlbimdə iz salıbdı,
Düşmüsünüz hamınız ucalmaq həvəsinə.

Şəninizə nə qədər söz söyləyəcək azdır, az,
Sizdə var Fərhad əzmi, Məlikməmməd cürəti
Naxçıvan Duzdağından şirin bir nemət olmaz,
Sal duz çörəyimizin, sözümüzün qüvvəti.

«Yollardayam» kitabı, Naxçıvan,
«Əcəmi», 2000

DUZDAĞ

Duruşun vüqarlı, üzün ağdı, ağ,
Hüsnünü ulduzlar, al günəş süzür.
Gör neçə şöhrətin vardır, a Duzdağ,
Duzunu insanlar süfrəyə düzür.
Dözmüsən dumana, dözmüsən çənə,
Qürurun qoymayıb hay eyləyəsən.
Elə bil gecələr ay baxır sənə,
Duzundan ona da pay eyləyəsən.
Müdrik görünürsən, müdrik gözə də,
Gör necə ilahi sirr vardır səndə.
Yaxşı insana da, yaxşı sözə də,
Duzludur deyirlər xoşa gələndə.
Sadiq dost olmusan hər an insana,
Bu dostluq ömrünü uzun eyləyir.
Bəlkə ona görə mərd, mərd insana,
«Ömrün duz dağına dönsün»- söyləyir.
Başına dolanır sanki məleykə,
Üstündən ayrılmır Tanrının gözü.
Dadın hopduğundan deyirəm bəlkə,
Qəlblərə tez yatır Naxçıvan sözü.

28.03.2012

Süsən Kərimli

SİRLİ MÖCÜZƏ

Sirli möcüzədi qədim Duzdağım,
İlk qədəm qoyanda bir xof yaranır.
Baxışlar ümidsiz, baxışlar dalğın,
Ürəkdə bir ümid çırağı yanır.

Yer altı, duz qala, qaranlıq dünya,
Duz-nemət, duz sərvət, ehtiyacımız.
Şəfa diləyərək üz tutduq bura,
Duz- and yerimizdi, duz –ocağımız.

Tarixin şahidi Nəqşi-Cahanda,
Qüdrətdən yaranmış qala Duzdağım!
Bu gün də şöhrəti gəzir hər yanda
Şəfa bəxş eyləyir, şəfa qaynağım.

Xəstələr üz tutur bu qədim yurda,
Kimi balasını götürüb gəlir.
Düşünür əlacım burdadır, burda
Dərdi-bəlasını götürüb gəlir.

Ay Allah şəfanı əsirgəmə sən,
Sənə imdad deyib əl uzadana.
Duzdağım şəfanı əsirgəmə sən,
Biz də şükr eləyək bir yaradana!

Rahilə Dövran

NUH ÇIXAN DİYARIN MƏĞRUR DUZ DAĞI

Yayılıb şöhrəti bütün dünyaya,
Zirvəsi əl edir ulduza, aya,
Tükənməz sərvətdir duzdan hər qaya,
Yurdumun ruzisi, bərəkət dağı,
Nuh çıxan diyarın məğrur Duzdağı.
Günəşdən alıbdır odlu nəfəsin,
Büllurtək parlayır dadlı töhfəsi,
Bağrında şimşəkdir oğuz, hun səsi,
Dədə Haçadağın arxa, dayağı,
Nuh çıxan diyarın məğrur Duzdağı.
Sığmaz əzəməti sözə, dastana,
Duruşu bənzəyir şirə, aslana.
Cəsarət simvolu Azərbaycana,
İstiqlal odunun sönməz ocağı,
Nuh çıxan diyarın məğrur Duzdağı.
Qoynundan keçibdir ilk ipək yolu,
Karvanlar daşıyıb əsrlər boyu,
Tarixi əsatir, əfsanə dolu,
Qazanın, Beyrəyin şanlı oylağı,
Nuh çıxan diyarın məğrur Duzdağı.
Yolları hamardır, yolları dümdüz,
Burda gecələr də olubdur gündüz,
Parlaq zirvəsində yanar beş ulduz,
Dünya rəhbərləri olur qonağı,
Nuh çıxan diyarın məğrur Duzdağı.

NAXÇIVANIN DUZ DAĞI

Ay elimin sevinci,
Naxçıvanın duz dağı.
İlahidən dürr-inci,
Naxçıvanın duz dağı.
Saf, ağduzutəzə-tər,
Yer altında qızıl, zər.
Hər qayası şah əsər,
Naxçıvanın duz dağı.
Bir varsan ki, tükənməz,
Düşmənlərin çəkənməz.
Sənə eşqim heç sönməz,
Naxçıvanın duz dağı.
Ləçəyisən gülümün,
Sərvətisən elimin.
Ləzzətisən dilimin,
Naxçıvanın duz dağı.
Qayaların şir, aslan,
Baxışından qorxarsan.
Ay Nuh eli, Nuh çıxan
Naxçıvanın duz dağı.

Məftunə Hüseynbəyli

ŞƏFA DAĞI

Tükənməz bu yurdun sərvəti, düzü,
Aləmdə məşhurdur onun Duzdağı.
Tanınır hər yerdə Naxçıvan duzu,
Dünyaya yayılıb səsi-sorağı.

Möcüzəvi saray, bu varlı mədən,
Öz duz şaxtasıyla şöhrət olubdur.
Bu büllur mədəndən güc alıb bədən,
Bura şəfa saçan qüdrət olubdur.

DUZDAĞ MOZAİKASI – DANIŞAN ŞƏKİLLƏR



Sivilizasiyanın beşiyi Naxçıvan

Əməkdar rəssam Ülviyyə Həmzəyeva



Duzdağ möcüzəsi


Əməkdar rəssam Ülviyyə Həmzəyeva



Duzdag epopeyası




Duzdağın hörükləri




Duzdağ mozaikası





Duzdağ karvanı



Qədim duz mədəni



Duzdağda dəmir əşyalar (XIX əsr)














Duzdağda daş alətlər




Duzdağda beynəlxalq ekspedisiya. 2011




Duz sütun






Duzdağa elmi maraq
Soldan: Hacı Fəxrəddin Səfərli, İsmayıl Hacıyev və
İsa Həbibbəyli. 2012




Duzdağ mağarasında
Soldan: Nizami Alıyev, İsa Həbibbəyli və İsmayıl Hacıyev. 2011




Nuh peyğəmbərin yadigarı - qədim duz mağarası







Duzdağın cığırları ilə



Danışan Duzdağ



Duz mədənində



Duzdağın dolayları





Duzdağ ətrafında



Duzdağda çay



Duzdağ bulağı



Duzdağ şəlaləsi

DUZDAĞ MOZAİKASI
BƏLƏDÇİ

DÖVLƏTÇİLİK İŞIĞINDA

Azərbaycan Respublikasının dövlət rəhbərləri
Duzdağ haqqında 4-5
Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin
«Naxçıvan: ilkin şəhər və Duzdağ» mövzusunda
beynəlxalq simpoziumunun keçirilməsi haqqında"
Sərəncamı.....6
Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin
Naxçıvan Duz Muzeyinin yaradılması haqqında
Sərəncamı.....8

BİR YÜNGÜLVARI MÜQƏDDİMƏ

İsa Həbibbəyli. Dizdağ: Nuhdabandan Naxçıvana.....10

TARİXİ MƏNBƏLƏRDƏ DUZDAĞ

1. **Vosboynikov.** Naxçıvan daş duz yatağı
haqqında məlumat.....42
2.Daş baltalar. General-mayor Skalonun
Qafqazın Baş komandanı, general Qolovinə 29 iyun
1842-ci il tarixli raportundan 51
3.**A.U.** Naxçıvan Duz mədənləri.....52
4.Birinci Kalbalı xanın Şıxmahmud əhalisini
Duzdağdan istifadə etməkdə istisna
hüquqlarla təmin etməsi haqqında 56
5.**Pavel Şeremetyevski.** Naxçıvanın duz yataqları 57
6.**İ.Lena.** Naxçıvan duz karxanası.....77
7.**Konstantin Nikitin.** Naxçıvan Duz mədənləri 85
8.**A.M.Marqolus.** Naxçıvan-Sust daş duz yataqları.....87

Nəşriyyatın direktoru:
professor Nadir Məmmədli

Dizayn: Zahid Məmmədov
Tərtibatçı dizayn: Tünzalə Tağıyeva

Çapa imzalanmış 09.11.2017.
Şərti çap vərəqi 19.25. Sifariş № 571.
Kağız formatı 60x84 1/16. Tiraj 500.

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.